**Qüdrət İsmayılzadə**

# Arxeoloqun çöl gündəliyindən

**Bakı – 2009**

**(o)**
**ISBN**

Redaktoru: ***Nigar İsmayılzadə***

Korrektor: ***Anar Ağazadə***

***Üz qabığında – Çinarlar. Fizuli bölgəsi, Qaraxanbəyli kəndi***



**Qüdrət İsmayılzadə**

# *Arxeoloqun çöl gündəliyindən*

***Bakı - 2009***

***Bu yazı yarıda qaldı.***
***Yağış yağdı, sətirləri sel aldı.***
***Halbuki mən nələr yazacaqdım, nələr!***

***Nazim Hikmət***


Ağ gųyərзinlərə dųnь b
gųylərə tələsmiş Samirə,
Tural və Lalənin unudulmaz
xatirələrinə ithaf edirəm

# NAĞILLAR ALƏMİNƏ GEDƏN YOL



## NAĞILLAR ALƏMİNDƏ

O yay mənim üçün əbədi oldu. İlk dəfə idi ki, şəhərin səsli-küylü gur həyatından ayrılıb elimin, obamın seyrinə çıxmışdım. Belə bir imkanı mənə uşaqlıqdan arzuladığım, qəlbimdə yaşatdığım peşə vermişdi. Təzə başlayan arxeoloq kimi indi mən yurdumun torpağını qarış-qarış, oymaq-oymaq gəzməli, əcdadlarımın ayaq izlərini, yadigarlarını axtarmalı idim, xalqımın qədim maddi mədəniyyət tarixini, çox zəngin irsini öyrənməli idim.

O yay minbir bulaqdan, minbir çeşmədən su içdim. Ata-baba yurdumda minbir rəng, minbir möcüzə, minbir gözəllik gördüm. Doğma torpağımın belə gözəl mənzərələrini, möcüzələrini gördükcə heyrətlənir, qəribə hisslərlə yaşayırdım. Bəzən mənə elə gəlirdi ki, əsrarəngiz rənglər dənizində üzürəm. Qollarımı geniş açıb bu dənizə baş vurmaq istəyirdim. Fikirləşirdim, mənim doğma yurdum, ana torpağım nə qədər gözəl, cazibədar və füsünkardır...

Məncə, doğma yurd, ana torpaq sözlərinin əsl mənasını ilk dəfə həyatımın o yayında başa düşdüm...

*İyin-avqust 1959-cu il*



# OVÇU DƏRƏSİ

İyun ayının ortaları idi. May yağıntılı keçdiyindən təbiət öz güllü-çiçəkli donunu dəyişməmişdi. Dərələrdə, düzlərdə çiçəklər hələ solmamış, xoş rayihəsini itirməmişdi.



İki dəstədə respublikamızın qərb bölgələrindən birində axtarışlar aparırdıq. Uzaq daş dövrü sığınacaqlarının, tunc dövrü məskənlərinin sorağına çıxmışdıq. İki gün idi ki, Gülül dağındakı Gum-gum kahasında qazıntıya başlamışdıq. Al-qırmızı qayalıqda yerləşən kaha dağın sinəsində açılmış kiçik bir ovuqdan ibarət idi. Bununla belə kahanın içərisində istənilən vaxt on-on beş adam sığınacaq tapa bilərdi. Günəşin qızılı şüaları həmişə kahaya axdığından içərisi quru və isti idi. Kahadan aşağıda kölgəli, geniş dərə uzanırdı. Onun yamyaşıl sinəsində zəncirotu, çobanyastığı çiçəkləri səpələnib boy atmışdı. Elə bil ürkəkbaxışlı, zərif barmaqlı xalçaçı qız toxuduğu xalılarını dağın döşünə sərmişdi. Bu xalılar üzərində ağ, sarı, bənbvşəyi rənglər – çiçəklər bir-birilə bəhsə girirmiş kimi xəfif mehdən titrəşir, nazlanırdılar. Yamaclardakı kollar arasından qızılı yalçın qayalar boylanırdı. Onların çatlarında gizlənmiş kəklikotunun ətri hər yanı bürümüşdü. Kənd haradasa uzaqda, dağın arxasında idi. Şikar üçün, qədim ovçuluq üçün bundan sakit, əlverişli yer ola bilməzdi.

İki günlük qazıntıdan sonra mağaradan tapdığımız yeganə qədim əşya da gümanımızı doğrutdu. Bu, möhkəm çaxmaq daşından yonulmuş yarpaqşəkilli kiçik bir ox ucluğu idi. Vaxtilə Gum-gum kahasında pusquda durmuş qədim ovçu ehtiyatsızlıqdanmı, nədənmi bu iti daş ucluğu əlindən salmış və itirmişdi? Bəlkə də əksinə, o, bunu kahada gizlənmək istəyən heyvana atmışdı? Kim bilir? Lakin bizə aydın idi ki, qədim dövrlərdə bu geniş dərə ovçular diyarı olmuşdu. Bir də o bəlli idi ki, belə ox ucluqlarını ulu babalarımız çox-çox qədimlərdə – altı, beş min il bundan əvvəl işlətmişdilər. Onları möhkəm çubuqlara bərkitmiş, kamana qoyub istədikləri vəhşi heyvanları və quşları ovlaya bilmişdilər.



Dar cığırla aşağı enirdik. Tapıntını ovcumda bərk-bərk tutmuşdum. Dərədən çıxanda mənə elə gəldi ki, qədim ovçunun kamanından çıxmış bu ox həmişə göydə olmuş, minilliklərin üstündən keçərək yalnız bu gün yerə düşmüşdü. İrəli yeridikcə tez-tez geriyə – dərəyə tərəf baxırdım, sanki, uzaq

minilliklərin arxasında qalmış qədim ovçunun özünü görəcəkdim. Lakin dərə əvvəlki kimi sakit və kimsəsiz idi. Orda-burda arıq, sümükləri çıxmış kolxoz inəkləri gövşəyirdi.

Deyilənlərə görə 30 – 35 il əvvəl bu yerlərdə istədiyin vəhşi heyvana, quşa rast gəlmək olurmuş. İndi isə onlardan əsər-əlamət də qalmamışdı. İnsafsız çağdaşlarımız onların kökünü həmişəlik bu güllü-çiçəkli yerlərdən kəsmiş, ibtidai ovçunun etmədiyi işi görmüşdülər.

*İyun, 1959-cu il.*



# DAĞLAR MÖCÜZƏSİ

Yay öz karvanını aparmaqdaydı. Son axtarışlarımızı Xaçbulaq yaylağında davam etdirirdik. Maşınımız çınqıllı, daşlı-kəsəkli ensiz dağ yolu ilə yavaş-yavaş yuxarı qalxırdı. Bir saat əvvəl qəflətən başlamış yağış qəflətən də kəsmişdi. Dağ günəşi öz isti nəfəsilə yolu artıq qurutmuşdu. Lakin otlar, çiçəklər üzərində büllur zərrəciklər hələ də parlayırdı. Hər tərəf özünün ən gözəl libasında idi. Bənövşəyi qayalar göydən asılı qalmışdı. Aşağıda dalğa-dalğa yaşıl yamaclar uzanırdı. Bu yamaclara topa-topa qoyun sürüləri səpələnmişdi. Yaxınlıqdakı çəmənlikdə isə gül-çiçəkdən seçilməyən bir dəstə qız-gəlin yan-yana düzülərək ot çalırdı, sanki rəqs edirdi.

Ətrafda diqqəti cəlb edən tarixi abidələr də az deyildi. Uzun əsrlər, minilliklər onları itirməmiş, gözdən uzaqlaşdıra bilməmişdi. Hər addımda uzaq keçmişin bir yadigarıyla qarşılaşırdıq. Dağların zirvəsində qədim qalaların möhtəşəm divarları ağarırdı. Aşağıdan baxanda onlar qartal yuvalarını xatırladırdılar. Bunların ən azı 3 min yaşı vardı. Nəhəng daşların buludlarla baş-başa verən hündür dağ zirvələrinə necə qaldırıldığı heyrət doğururdu. Elə buna görə də yerli əhali onların insan əliylə tikildiyinə inanmaq istəmirdi, nağıllar aləmindən bizə bəlli olan nəhəng gövdəli taygözlər, divlər tərəfindən ucaldıldığını iddia edirdi. Lakin biz bilirdik ki, icma qayda-qanunlarının hökm sürdüyü dövrdə belə uca, möhtəşəm qalaların tikintisi mümkün idi. Bizə artıq o da bəlli idi ki, Xaçbulağın sərin yaylaqları, geniş və bol otaqları hələ çox-çox qədim zamanlardan ulularımızın məskəni olmuşdu. Bu yerlərin igidləri əsrlər boyu burada kaman çəkib ox atmış, qılınc oynatmışdı. Saysız-hesabsız mal-qara sürüləri otarmışdı. İndi isə onların hamısı zümrüd təpələrin altında əbədi yuxuya dalmışdı...

Günortaya yaxın gözlənilmədən geniş bir düzə çıxdıq. Elə bu vaxt maşınımızın qabağında bir atlı göründü. Uzun yallı boz atın belində cavan bir qız oturmuşdu. Bir əlində yüyəni, o biri əlində isə bir dəstə dağ çiçəyi tutmuşdu. Bizi görən kimi qamçı çəkdi. Sanki şimşək çaxdı. At yerindən götürüldü. İndi boz at quş kimi uçurdu. Qız bütün bədənilə qabağa əyilərək atı dördnala çapırdı. Başındakı qırmızı güllü ləçəyi sürüşüb boynuna düşmüşdü. Bəzən o, yəhərin üstündə dikəlir, bizə tərəf baxıb gülümsəyirdi. Sanki bizə:-görək, bu çarxlı alaçığınızla məni ötə biləcəksinizmi,- deyirdi.

Beləcə bir müddət çapdıq. Yolun bir yerində qız cilovu birdən-birə çəkərək atın başını yan tərəfdəki çiçəkliyə doğru çevirdi. Bir an onların hər ikisi adama boy verən

çiçəklər, otlar arasında görünməz oldu. Maşın irəli keçdi. Mən əlimdəki fotoaparatı yuxarı qaldırdım və maşının üstündən çiçəkliyə doğru boylandım. Qız atı saxlayıb səmimi, mehriban və məsum baxışları ilə bizi yola salırdı. Onun uzunsov qəşəng siması hamar daranmış qara saçları ilə haşiyələnmişdi. Bu dağlar qızının nüfuzedici iri qara gözlərindən sanki bütün təbiətin, bütün kainatın sevinci süzülürdü.

Mən təbiətin bu lövhəsini tutub saxlamaq, əbədiləşdirmək istədim...

Sonralar uzun səfərlərdə, yollarda və axtarışlarda çox oldum. O yerlərə isə bir daha yolum düşmədi. Həftələr ötdü, aylar, illər keçdi. Lakin o yay gördüklərimi yaddan çıxara bilmədim, xoş bir nağıl kimi qəlbimdə yaşatdım.

*Avqust 1959-cu il*
*Xaçbulaq yaylağı*



# ƏSRLƏR ARXASINDA

Bir neçə əsr Azərbaycanın iqtisadi-siyasi və mədəni mərkəzlərindən biri kimi şöhrət tapmış qədim Qəbələ şəhərinin yeganə yerstü nişanəsi bu möhtəşəm divarlardır. Onlar sanki hər şeyi dağıtmaq, məhv etmək və yaddaşlardan silmək iqtidarında olan amansız əsrlərin, qərinələrin üstündən vüqarla adlayaraq dövrümüzə gəlib çatmışdır. Qədim şəhərin özü – onun küçələri, məbəd və sarayları illər, əsrlər keçdikcə qalın torpaq qatı ilə örtülsə də bu divarlar açıqlıqda qalmış, ölən şəhərin fəxri keşikçilərinə çevrilmişdir. İndi bu zəhmli divarların hər daşında - insan əməyi böyükdür, qüdrətli və əbədidir, - sözləri oxunur.

Xarabalıqları eyni adlı bölgə ərazisində yerləşən qədim Qəbələ şəhəri çox böyük və maraqlı tarixi yol keçmişdir. Eramızın I əsrində yaşamış tanınmış Roma tarixçisi Böyük Plini bəlkə də elə buna görə Qəbələnin hələ o dövrdə Azərbaycanın baş şəhəri olduğunu qeyd etmişdi.

Qəbələ şəhəri əsrlər boyu yurdumuzu şimaldan gələn istilaçılardan qorumuşdu. Tədqiqatçıların fikrincə bu şəhərdə arasıkəsilmədən 2 min ilə yaxın həyat davam etmişdi. Belə uzun müddətdə Qəbələ xalqımızın, ulu babalarımızın qəhrəmanlıq tarixi ilə bağlı bir sıra hadisələrin şahidi olmuşdu. Onun divarları önündə igidlərimiz dəfələrlə öz qılınclarını, güc və şücaətlərini sınamışdılar. Bu divarlarda dəfələrlə Roma dəbilqələ-



rinin, sasani, ərəb qılınclarının parıltısı əks olunmuşdu. Bu divarlar monqol atlılarının ürpədici nərəsini, oxlarının ölüm gətirən dəhşətli vıyıltısını eşitmişdi. Lakin bütün bunlar şəhəri öldürə bilməmişdi.

Qəbələ şəhərinə ölümcül yaranı Teymurləng vurmuşdu. Topal sərkərdənin amansız döyüşçüləri tərəfindən tutulan şəhər talan olunmuş və yandırılmışdı. Lakin bu ağır yaradan da Qəbələ ölməmişdi. Onun qan sızan yaralı qəlbi uzun müddət döyünməkdə davam etmişdi.

Hər bir şəhər yalnız insanlar tərəfindən tərk olunduqda ölür. Belə ağır faciə, qəza qocalmış, gücdən düşmüş Qəbələnin də başına gəlmişdi. Teymurləngin talanından sonra bir daha dirçələ bilməyən bu şəhər XIX əsrin ortalarında həmişəlik tərk olunmuş və tarixi səhnədən çıxmışdı.

Indi arxeoloqlar bu qədim şəhərin ərazisində müntəzəm qazıntı işləri apararaq, onun hər bir daşında, hər qarış torpağında keçmişin izlərini axtarırlar.

*İyul 1960-cı il.*
*Üçtəpə - Qəbələ*

# BABA - DƏRVİŞİN HEKAYƏTİ

Bu hekayətdəki hadisələr beş min il əvvəl cərəyan etdiyindən onların çoxu saysız-hesabsız əsrlərin arxasında görünməz olmuş, öz səsini itirmişdi. Lakin həmin hadisələrin yeganə şahidi olan Baba-Dərviş abidəsi qalmışdı.

Abidənin hər bir daşında əbədi uyuyan sirli-soraqlı hekayətləri canlandırmağa mən beş ildən artıq bir vaxt sərf etmişəm.

Baba-Dərviş abidəsilə ilk tanışlığım 1959-cu ildə olmuşdu və mən beş il bu abidənin qazıntılarında iştirak etmişdim. Qazıntılar gah yaz-yay aylarında, gah da payızda olmuşdu. Dəfələrlə yağışa, leysana düşmüşdüm, dəfələrlə qurşağadək soyuq suya düşüb Ağstafaçayı keçmiş, onun hündür sol sahilində ucalan Baba-Dərvişə, Baba-Dərviş təpələrinə qalxmışdım. Bu işin yalnız bir tərəfi olmuşdu. Tapıntılar üzərində tədqiqat araşdırmaları, elmi ədəbiyyatla iş heç də asan olmamış, məni min bir əzab və əziyyətə düçar etmişdi. Lakin əzablı, əziyyətli anlar sonralar mənə nə qədər böyük fərəh, sevinc gətirmiş, varlığımı qürur hissilə doldurmuşdu. Baba-Dərvişin daşlarında yatan hekayəti ilk oxuyan mən olmuşdum. Baba-Dərvişlə bağlı axtarıb tapdıqlarımı ağ vərəqlərə köçürüb elm aləminə rəsmi şəkildə bəyan edəndə də bu hiss məni tərk etməmişdi.



Nəhayət bu hekayətimi mən 1964-cü ilin fevral ayında namizədlik dissertasiyası şəklində Tiflis Dövlət Universitetinin Elmi Şurasında şərh etmişdim...

Eramızdan əvvəl IV-III minilliklərdə Cənubi Qafqazda, o cümlədən Azərbaycan ərazisində oturaq əkinçi-maldar tayfalara məxsus yüksək bir mədəniyyət təşəkkül tapmış və inkişaf etmişdi. İqtisa-



di-ictimai həyatda böyük irəliləyişlərlə, maddi mədəniyyət sahəsində isə özünəməxsus məziyyətlərlə səciyyələnən bu mədəniyyət Şimali Qafqazdan başlamış Suriya və Fələstinədək geniş bir ərazini əhatə edərək Qafqazın qədim maddi mədəniyyət tarixinə parlaq bir iz salmışdı. Məhz bu dövrdə Qafqazda, o cömlədən Azərbaycanda ilk dəfə tunc istehsalı başlanmışdı. Tuncun kəşfi özlüyündə bəşər tarixində əldə edilən ən böyük nailiyyətlərdən biri olmuşdu. Tunc və tunc alətlərin istehsalı ilə mövcud cəmiyyətlər iqtisadi-ictimai və mədəni inkişafın daha yüksək mərhələsinə – tunc dövrünə qədəm qoymuşdular.

Diqqətəlayiq haldır ki, bir çox cəhətdən Cənubi Qafqaz üçün yeknəsək xüsusiyyətlərə malik olan bu dövrün ilk tapıntıları hələ XIX əsrdə bilavasitə Azərbaycan ərazisində aşkara çıxarılmışdı. Bununla belə ilk tunc dövrü mədəniyyəti uzun müddət Azərbaycan arxeologiyasının ən zəif öyrənilmiş sahələrindən biri olmuşdu. Belə vəziyyət hər şeydən əvvəl Azərbaycan ərazisində tunc dövrünün başlanğıc mərhələsinə aid abidələrin, xüsusən qədim yaşayış məskənlərinin zəif tədqiqindən irəli gəlmişdi. Yalnız II Cahan müharibəsindən sonrakı illərdə istər Guney, istərsə də Quzey Azərbaycanda başlanan geniş arxeoloji tədqiqatlarla qeyd etdiyimiz dövrə aid bir sıra qiymətli abidələr açılmış və bu ulu torpağın tunc dövrü mədəniyyətinin mühüm ocaqlarından biri olması müəyyənləşdirilmişdi.



Belə mühüm abidələrdən biri Qazax şəhərindən azacıq aralıda, Ağstafaçayın sol sahilində yerləşən Baba-Dərviş abidəsi olmuşdu. Geniş qazıntılarla burada tunc dövrünün başlanğıc mərhələsinə aid böyük yaşayış yerinin qalıqları üzə çıxarılmış və küllü miqdarda maddi mədəniyyət nümunələri əldə edilmişdi. Maraqlıdır ki, bu abidənin alt qatlarında daha qədim dövrlərə – eramızdan əvvəl VI-IV minilliklərə aid yaşayış yerinin də izlərinə təsadüf edilmişdi. Bu xüsusiyyətlərinə görə Baba-Dərviş Naxçıvandakı Kültəpə abidəsindən sonra bütün Qafqazda ikinci çoxtəbəqəli abidə olmuşdu. Axtarışlar zamanı məlum olmuşdu ki, Baba-Dərvişin özündə ilk dəfə yaşayış hələ mis dövründə başlanmışdı. Bu dövrdə mis istehsalı sirlərinin açılması, misdən daş alətlərə nisbətən daha möhkəm əmək alətlərinin hazırlanması yerli oturaq əkinçi-maldar tayfaların həyatında



tərəqqi olmuş, mövcud dövrün iqtisadi və ictimai inkişafına böyük təsir göstərmişdi. Məhz bu dövrdə Azərbaycan ərazisində ilk əkinçilik mədəniyyəti təşəkkül tapmışdı.

Eramızdan əvvəl IV minilliyin II yarısında tuncun ilk istehsalı dövründə yerli əhalinin təsərrüfat həyatında əkinçiliyin genişlənməsi, maldarlığın yüksəlişi və ümumiyyətlə iqtisadi şəraitin yaxşılaşması əhalinin artmasına səbəb olmuş, yeni əkin sahələrinin mənimsənilməsi zərurətini doğurmuşdu. Elə buna görə də Baba-Dərvişdən əldə edilən əmək alətlərinin əsas hissəsi qədim əkinçilik təsərrüfatı ilə bağlıdır. Bunların içərisində şum, biçin, taxıldöymə alətləri vardır. Müəyyən edilmişdir ki, Azərbaycanda qoşqu qüvvəsinə əsaslanan xış əkinçiliyi bilavasitə tunc dövrünün başlanğıcında meydana çıxmışdı. Azərbaycan ərazisində hələ eramızdan əvvəl III minillikdə daha yüksək əkinçilik mədəniyyətinin mövcud olduğunu Baba-Dərvişdən tapılan taxıl qalıqları da əyani şəkildə sübut etmişdir. Akademik İmam Mustafayevin təyin etdiyinə görə Azərbaycanın qədim sakinlərinə bir çox mədəni arpa və buğda növləri məlum olmuşdu.

Baba-Dərviş yaşayış yerində maldarlıq təsərrüfatı da əhəmiyyətli yer tutmuşdu. Maldarlığın sonrakı inkişafı süd məhsulları istehsalının genişlənməsinə zəmin yaratmışdı. Təsadüfi deyil ki, Azərbaycanda ən qədim nehrələr məhz bu dövrdə meydana çıxmışdı. Onu da qeyd edək ki, iri buynuzlu mal-qaradan ilk dəfə qoşqu qüvvəsi kimi istifadə olunması və ev heyvanlarına sitayiş də tunc dövrünün başlanğıc mərhələsilə bağlıdır. Maraqlıdır ki, Baba-Dərvişin özündən gildən düzəldilmiş və vaxtilə dini əhəmiyyət kəsb etmiş öküz və başqa ev heyvanlarının kiçik heykəlləri də tapılmışdır. Belə heykəllər vaxtilə Qədim Şərq ölkələrində də geniş şəkildə mövcud olmuşdu.



Baba-Dərvişdən tapılan maddi mədəniyyət nümunələrinin böyük qismini qədim dulus məmulatı təşkil edir. Müxtəlif ölçülü, biçimli və naxışlı gil qablar istehsalı ilk tunc dövründə yüksək inkişaf mərhələsinə çatmışdı. Bu qablar əldə hazırlanmış olsalar da, düzgün və nəfis forma-



lara malikdirlər və indiyədək öz keyfiyyətlərini itirməmişlər. Qeyd etdiyimiz dövrün ən böyük mədəni nailiyyətlərindən birini təbiətdə təsadüf olunmayan metalın - tuncun istehsalı təşkil etmişdi. Tuncun istehsalı ilə Azərbaycanın qədim sakinləri tərəfindən hələ eramızdan əvvəl III minillikdə ilk metallurgiyanın əsası qoyulmuşdu. Tuncdan alət, silah və bəzək nümunələrinin hazırlanma üsulları genişlənmiş, daha da təkmilləşmişdi. Baba-Dərviş abidəsindən bir sıra belə qiymətli tapıntılar əldə edilmişdi.



Baba-Dərviş qazıntıları ilə müəyyən edilmişdir ki, eramızdan əvvəl IV-III minilliklərdə Azərbaycanda ictimai münasibətlərdə də böyük inkişaf olmuş və əsaslı dəyişikliklər baş vermişdir. Ana nəsildən ata nəslinə keçid bu dövrdə başa çatmışdı.

İndi Baba-Dərviş abidəsindən əsər-əlamət belə qalmamışdır. Deyilənlərə görə bizim axtarışlardan az sonra Ağstafaçayın sol sahili boyunca gedən dəmir yolunun çəkilişi ilə oradakı təpələrin hamısı dağıdılmış, yerlə-yeksan edilmişdir. Nə yaxşı ki, vaxtilə biz baba-Dərvişin müəyyən sirlərini aça bilmişik, onun hekayətini yazmışıq.

*Oktyabr- noyabr, 1968-cü il.*



*Bala, gəldin, niyə belə gec gəldin?*
*(Şəhriyar)*

## KİÇİK VADİNİN ŞƏFƏQLİ YOLU

Bu çaylar Nil çayı qədər böyük, Dəclə və Fərat qədər geniş, müqəddəs Qanq qədər sulu deyillər. Xəritələrin çoxunda onların adı yazılmır. Qarabağ silsiləsinin cənub-şərq ətəklərindən – ulu Kirsdən başlanan bu çayların yaratdığı vadinin uzunluğu vur-tut 75-80 km, ən enli yeri isə 6-7 km-dir. Bununla belə, bu kiçik vadinin tarixi ulu vadilərin tarixindən xeyli qədimdir. İnsan tarixinin ilk səhifəsi bu kiçik vadidə milyon yarım il bundan əvvəl – Azıx mağarasında yazılmışdır. Minilliklər keçdikcə bu tarixi kitabın səhifələri də artmış, uzaq əski daş dövründən tutmuş son orta əsrlərə qədərki hadisələri özündə cəmləşdirmişdir.

Söhbət, Azərbaycanın iki əkiz çayı, adları bəlkə də çoxlarına məlum olmayan Quruçay və Köndələnçaydan gedir. Zəngin tarixi keçmişə malik bu çaylar öz başlanğıcında Yuxarı Qarabağın güllü-çiçəkli yamacları və sıx ormanları ilə əhatə olunmuş dərin dərələrlə axırlar. Yalnız Aşağı Qarabağda geniş yatağa çıxır və Araza tərəf üz tutaraq onunla qovuşmağa tələsirlər.

Quruçay və Köndələnçayın vadisində ilk arxeoloji axtarışlara 60-cı illərdə başlamışam və keçən müddətdə burada ulu babalarımın onlarca qədim məskənlərini, əbədi uyuduqları yerləri aşkar etmişəm, yüzlərcə qiymətli yadigarlarını tapmışam. Mən bu kiçik vadidə hələ də sirlərlə dolu olan Qaraköpəktəpənin min bir sirrini öyrənmişəm. Günəştəpə, Zərgərtəpə, Yedditəpə, Şomulutəpə, Kültəpə, Xantəpə, Meynətəpə, Qarabulaq, Yedditəpə kimi misilsiz abidələrin tarixi salnamələrini oxumuşam. Mən bu vadiyə aydın bir səhərdə yol almışam. Bu yolun başlanğıcında ana xeyir-duasını eşitmişəm, doğan günəşin şəfəqlərini görmüşəm. Bəlkə də elə buna görə o vaxtdan bu yoldakı bütün addımlarım uğurlu olmuşdur...

1964-cü ildə ildə Tiflis Dövlət Universitetində namizədlik dissertasiyamın müdafiəsindən sonra əvvəllər qazıntı apardığım Qazax bölgəsindəki Baba-Dərviş abidəsinə daha qayıda bilmədim. Mənim üçün doğmalaşan Tiflisdən də, əziz müəllimlərimdən və çox qayğıkeş dost-tanışlarımdan da aralı düşdüm. Bir müddət boş qaldım, lakin bu boşluğun özü də ağır bir yükə çevrilərək çiyinlərimi əzdi, ürəyimi sıxdı. Tezliklə hiss etdim ki,

qəlbimə gizli, qüssəli bir intizar hakim olubdur və bu intizar hər şeydən əvvəl hikmətli, sözlü-söhbətli Baba-Dərviş üçündür. Hiss etdm ki, bir daha Baba-Dərvişdən Göyəzəni seyr edə bilməyəcəyəm. Didvan qalasını görməyəcəm, Damcılının həzin zümzüməsini eşitməyəcəyəm.

İndi məni yeni axtarış yolları, yeni cığırlar gözləyirdi. Lakin bu yollar, bu cığırlar məni haraya aparıb çıxaracaq, mənə nə verəcəkdi? Qayğı, nigarançılıq və ağır düşüncələrlə dolu yeni günlərim başlanırdı. Əslində indi mən iki yol ayrıcında qalmışdım, buna görə də tərəddüd edirdim. Azıx mağarasında müvəffəqiyyətli axtarışlar aparan həmkar dostum məni yanına dəvət edirdi və gələcəkdə bu qiymətli abidədə tədqiqatları birgə davam etdirməyimizi istəyirdi. Arzulayırdı ki, mən də uzaq daş dövrünün abidələri ilə məşğul olam. Təəssüf ki, tarixin sübh çağı olan bu dövr məni o qədər də özünə cəlb etmirdi. Azıx mağarasındakı qazıntıların uğurlu gələcəyinə, bundan sonra daha qiymətli tapıntılar verə biləcəyinə əmin olsam da, əvvəlcədən seçdiyim yolu dəyişmək istəmirdim.

Arxeologiya aləminə qədəm qoyduğum vaxtdan mən tunc dövrü üzrə ixtisaslaşmışdım və azdan-çoxdan bu dövrün müəyyən sirrlərinə bələd olmuşdum. Mədəni, iqtisadi və ictimai həyatda böyük dəyişiklərlə səciyyələnən bu dövr əslində bəşər tarixinin doğan günəşin al şəfəqlərilə nurlanmış səhəri olmuşdu. Ecazkar sirlərlə dolu bu səhərdən isə mən ayrılmaq istəmirdim. Hey götür-qoy edirdim. Günlər isə ötürdü. Həmkar yoldaşlarım çoxdandı ki, yeni axtarışlara başlamışdılar. Qobustanda, Xaçbulaq yaylağında, Mil-Qarabağ düzündə, Muğan və Şirvanda axtarışlar aparırdılar. Mən isə hələ də Bakıda idim və arxeoloji tədqiqatlar üçün ən münasib vaxt olan yay günlərini sanki mənasız yola salırdım. Xəzərin quzey sahilindəki qumlu təpələrdən ibarət bağımıza köçsək də orada da özümə yer tapa bilmirdim. Bunu isə yəqin ki, hamıdan əvvəl xəstə anam hiss etmişdi. Bəlkə də elə buna görə o, mənim işdən qalmamağımı təkid edirdi. Yeni səfərlərə çıxmağımı istəyirdi. Bəlkə də bilirdi ki, onun xəstəliyi də ağır bir daşa çevrilərək ürəyimdən asılıb qalmış, son zamanlardakı bütün sıxıntılarım içərisində mənə ən böyük dərd olmuşdur.

Üç il idi ki, anam yatağa düşmüşdü. Həmişə həyat rəmzi olan bu əziz, isti və mehriban nəfəsli insan üç il idi ki, şəfa tapa bilmirdi və günbəgün bu işıqlı, nurlu dünyadan uzaqlaşırdı. Həkimlərin dediyinə görə, bəlkə də bu yay anamın axırıncı yayı ola bilərdi. Lakin, mən buna heç cür inanmaq istəmirdim. Bununla belə, bu fikirdən sarsılırdım,

acizləşirdim. Mənə həyat vermiş anama indi şəfa verməyə qadir olmadığımdan sarsılırdım, ümidsizliyə, acı hisslərə qapanırdım. Anam isə həyatın bu dəyişməz qanunu və hökmü qarşısında böyük iradə sahibi kimi - həmişəki kimi son odunu, son qığılcımını da bizə verməyə çalışaraq sakitlik və təmkinliyilə günlərini yaşayırdı. Sevindirici hal idi ki, bağa köçəndən sonra onun halı xeyli yaxşılaşmışdı, hətta gülür və danışırdı. Elə bil öz əvvəlki xoşbəxt günlərini yenidən yaşayırdı.

Doğrudan da, bir vaxt onun çox xoşbəxt günləri olmuşdu. Yadımdadır, o vaxtlar onun zil qara uzun hörükləri, işıq və sevinc saçan gözləri vardı. O vaxtlar onun lap nağıllarda olduğu kimi boylu-buxunlu yeddi oğlu, bahar çiçəyi qədər xoş və ətirli bir qızı, pəhlivan cüssəli ömür yoldaşı vardı. Bacım evimizin sonbeşiyi idi və cahan savaşının başlanmasından bir neçə ay əvvəl, gözəl bir bahar çağında dünyaya göz açmışdı. Buna görə yeddi qardaşın yeddisi də bir səslə onun adını Bahar qoymuşdular. Baharın gəlişindən sonra evimizə sanki nur ələnmişdi: buruq ustası olan atam səhərdən axşama kimi çətin, lakin xoş bir zəhmətə qatlaşaraq buruq qazırdı, nefti çıxarırdı. Qardaşlarım dərsə, işə gedir-gəlir, Bahar sakit-sakit beşikdə yatır, anam isə mahnı oxuya-oxuya bişirir, düşürürdü, evi yır-yığış edir, yorulmaq bilmirdi. Anam bir-birindən xoş, biri-birindən gözəl mahnılar oxuyurdu və bu mahnılar bitmək bilmirdi. Bu mahnılar sanki anamı qanadlandırır, mavi göylərə uçururdu. Mən bu mahnıların mənasını bilməsəm də, onlardan doymurdum, bütün günümü bu mahnıların xoş sədası altında keçirirdim. Anam bir-birindən gözəl mahnılar oxuyurdu. Bahar isə rahat-rahat beşiyində yatırdı...

Çox sonralar bildim ki, onda anam xoşbəxt həyatının son aylarını yaşayırdı.

Onda mən çox uşaqdım və uzaqdan gələn qorxunc qara buludları hələ görmürdüm. Bilmirdim ki, tezliklə böyük savaş başlayacaq və bu savaş bütün dünyanı bürüyəcək, öz odlu-alovlu, dəhşətli və amansız əlilə bizim qapımızı da döyəcək. Mən bilmirdim ki, bu savaş milyonlarla analara gətirdiyi ağır müsibəti anama da gətirəcək, onun başına kül tökəcəkdir. Bilmirdim ki, bu savaş onun ilkini əlindək alacaq, digər oğlunu isə zəlil edəcəkdir. Mən bilmirdim ki, bu müharibənin qara tufanı bir an içərisində Bahar çiçəyimizi vaxtsız solduracaq, onu ulu babalarımın əbədi məkanına aparacaqdır. Bilmirdim ki, qırx yaşını təzəcə addamış anamın zil-qara saçları tezliklə qar kimi düm ağ olacaq, işıqlı gözləri dayanmaq bilməyən göz yaşlarından sönərək öz nurunu itirəcəkdir.

Mən tarixçiyəm və dünyada nə qədər dəhşətli savaşlar, müharibələr olduğunu yaxşı bilirəm. Lakin, anamın səadətini əlindən alan savaş mənim üçün ən dəhşətli savaşdır.

Mən arxeoloqam və doğma diyarımın o qədər də böyük olmayan ərazisində müharibələr tufanından dağılmış onlarca qədim şəhər xarabalıqlarını görmüşəm. Bir vaxt qoça Şərqin ən gözəl şəhərləri kimi şöhrət tapmış, uzaq ölkələrin tarixçiləri və səyyahları tərəfindən böyük heyranlıqla qələmə alınmış qədim Bərdə, Gəncə, Qəbələ, Beyləqan, Şabran, Şamaxı və onlarca digər şəhərlərin xarabalıqlarını böyük iztirabla, ürək ağrısı ilə gəzmişəm. Onların hamısını amansız müharibələr viran qoymuşdur. Lakin, anamın ilkini öldürən, öz dəhşətli caynağı ilə onun sonbeşiyini də aparan savaş mənim üçün ən amansız savaşdır. Bəlkə də elə bu savaşın vurduğu ağır yaradan anam indi sağalmaz xəstəliyə düçar olmuş, yatağa düşmüşdü...

Son günlərdə anamın vəziyyəti birdən-birə yaxşılaşmışdı. Onun üzü məsum və qəribə ifadəli bir görkəm almışdı. İndi daha qətiyyətlə təkid edirdi ki, evdə qalmayam, səfərə çıxam.

Nəhayət, anamın təkidindən və özüm də çox götür-qoy edəndən sonra, iyulun sonlarında Azıx tədqiqatlarına getməyi qərara aldım. Ancaq əvvəlki fikrimdən dönməmişdim və bu yeni səfərimdən məqsəd mağaranın yerləşdiyi vadidə bilavasitə tunc dövrünün abidələrini axtarmaq idi. Şübhəm yox idi ki, daş dövründə ibtidai insanların məskən yeri olmuş vadidə tarixi inkişafın sonrakı mərhələlərində də yaşayış davam etmişdi. Belə təqdirdə isə orada hökmən həmin dövrlərin qədim yadigarları qalmalı idi.

Yola düşən günü lap tezdən oyanmışdım. Sübh çağı idi və günəş hələ doğmamışdı. Hər yan - yer də, göy də, dəniz də ağ dumana bürünüb yoxa çıxmışdı. On addımlığı görmək olmurdu. Hər yan səssiz-səmirsiz, sanki hərəkətsiz idi. Lakin, ilk baxışda belə görünürdü. Dəqiqələr ötdükcə ağ duman yavaş-yavaş əriyib yoxa çıxırdı. Bütün gecəni şehdə yuyunmuş üzüm yarpaqlarından göz yaşı kimi dum-duru damcılar süzülürdü. Qayaları oxşayan ləpələrin səsi yeni sabaha həzin bir mahnı oxuyurdu. Yavaş-yavaş dənizin üzü açılırdı. Şərq tərəfdə onun üstü parıltı alırdı. Getdikcə bu parıltı artırdı. Dənizin ənginliklərindən günəş doğurdu. Onun alışıb yanan və təzəcə döyülmüş mis məcməini xatırladan nəhəng kürəsi yavaş-yavaş, titrəyə-titrəyə yuxarı qalxırdı. Elə bil kim isə bu al-qırmızı odlu kürəni möhkəm əllərilə dənizin dibindən ehtiyatla yuxarı qaldırırdı. Kainat sirli və sehrli anlar keçirirdi.

Qeyri-ixtiyari olaraq içəri girdim, anamı görmək istədim. Hələ yuxuda olan anamın üzündən nur yağırdı. Doğan günəşin al-qırmızı şəfəqləri altında anam müqəddəs bütə dönmüşdü. Ürəyim sinəmə sığmırdı. Mən anamın ayaqlarını qucaqlamaq, əllərini öp-

mək, ağ saçlarını oxşamaq istəyirdim. Lakin bilirdim ki, bunu etsəm iradəmi itirəcəyəm, uşaq kimi hönkür-hönkür ağlayıb anamın dərdli ürəyinə yeni dağ vuraçağam. Sakitcə dəhlizə çıxdım. Günəşin odlu kürəsi indi dənizin səthindən ayrılmış, onun üzərini qızıl zərrəciklərlə cilvələndirmişdi.

Yatanları oyatmayım deyə mən səs salmadan quyudan su çəkib samovarı doldurdum və ona od saldım. Elə bu vaxt anamın səsini eşitdim. Anam məni çağırırdı. Tələsik içəri keçdim.

- Sabahın xeyir, ana!

- Sabahın xeyir, bala! Nə yaxşı ki, özün oyanmısan. Mən başı batmış bütün gecəni yatmamışam ki, səhər tezdən səni oyadam, yola gecikməyəsən. Görünür ki, səhərə yaxın yuxu məni aparıb.

Mən bir söz demədən anamı ehtiyatla qaldırıb çarpayının üstündə oturtdum. Anam quş kimi yüngül idi... Məhrəbanı sərin suda isladıb anamın üzünü və yaralı quş pəncələri kimi qıcılmış, bükülmüş əllərini sildim. Sonra iki stəkan çay süzüb onun qarşısındakı kətilin üstünə qoydum və yanındaca əyləşdim. Mən danışmaqdan çəkinərək sakit-sakit çay içirdim. Sükutu anamın özü pozdu:

- Sən məndən nigaran qalma. Özündən muğayat ol. Nə ağıllı iş gördün ki, sən bu bağı götürdün. Buraya köçəndən xeyli xeyli yaxşılaşmışam. Ömrün uzun olsun. Mən göz-qulaqda olacağam ki, uşaqlar əkdiyin ağaclara, güllərə vaxtlı-vaxtında su versinlər.

- Sən də mənə görə narahat olma. Deyilənə görə oralar çox gözəl və səfalı yerlərdir. Mən hər on gündən bir gələcəyəm. Cəmi altı-yeddi saatlıq yoldur. Elə bu gün, bu günəş hələ batmamış mən oraya çatacağam.

Biz sakitcə çayımızı içib qurtardıq. Birdən anamın səsi titrədi:

- Oğlum, mənə su gətir.

Mən anamın qədim mis parçını götürüb bayıra çıxdım. Quyudan yenə su çəkib anam üçün çox əziz olan bu nəfis naxışlı qabı buz kimi soyuq su ilə daşıtdırdım və anama gətirdim. Anam hələ gücünü tam itirməmiş sol əlini uzadıb qabı məndən aldı və kətilin üstünə qoydu.

- Yolun uğurlu olsun, bala.

Mən indi başa düşdüm ki, anam həmişəki kimi yeni yolumun aydın, yeni səfərimin uğurlu olması üçün el adətilə dalımca su atmaq istəyir. Sakitcə ona yaxınlaşdım və boynunu qucaqladım. Anam əlini başımda gəzdirdi və alnımdan öpdü. Bir anlığa çox-

çox uzaqlarda qalmış uşaqlıq aləmimə uçdum. Başımı anamın dizləri arasııda gizlətmək istədim. Lakin özümü ələ aldım. Anamdan ayrılıb çantamı götürdüm. Anamın üzünə baxmaqdan qorxaraq-Salamat qal, ana! - deyib evdən çıxdım.

Anamdan başqa hamı hələ də yuxuda idi. Mən arxaya baxmadan şehli qumun üstü ilə darvazaya tərəf addımladım. Lakin darvazadan çıxanda dizlərim büküldü, gözlərim qaraldı. Daş hasarın yanında yerə oturdum və xeyli hönkür-hönkür ağladım. Evə səs getməsin deyə mən iki əlimlə üzümü tutub ağlayırdım...

Uzaqdan ilk elektrik qatarının səsi gəlirdi. Günəş yuxarı qalxmış və al-qırmızı donunu dəyişmişdi. Səma açıq və aydın idi. Maviləşmiş dənizdən meh əsirdi. Yolum anamın xeyir-duası, doğan günəşin qızıl tellərilə nurlanmışdı. Çantamı yerdən götürüb iti addımlarla bu nurlu yola çıxdım.

*İyul, 1964-cü il.*

***İndi riyakar yağı əlindədir ulularımın məkan yeri***
***Uzaq düşüb bizdən Azıxım Tağlarım,***
***yüzlərcə misilsiz tarixi abidələrim.***



*Qəbiləmiz burda qurub ocağı,*
*İndi olmuş qurd-quşların yatağı...*
*(Şəhriyar)*

## BİR TƏPƏNİN MİNBİR SİRRİ

Axtarış yollarında arxeoloq yüzlərcə abidə ilə rastlaşır. Bunların hamısını o, fərq qoymadan dəqiq şəkildə qeydə alır, tədqiq edir və öyrənir. Lakin bu abidələrdən yalnız biri ona ən yaxın sirdaş ola bilir, məhəbbətini qazanır və nəhayət, bütün varlığı ilə onun həyatına daxil olur. Əslində arxeoloqun özü könüllü şəkildə həyatını bu abidəyə həsr edir, onunla qaynayıb-qarışır. Elə buna görə də arxeoloqun adı sonralar bu abidə ilə qoşa çəkilir.

Mənimsə həyatıma silinməz iz salan belə bir abidə Füzuli bölgəsindəki Qaraköpəktəpədir. On beş ilə yaxındır ki, mən bu abidənin toz-torpağını udur, ağrı-acısını yaşayıram. Hər dəfə mən Qaraköpəktəpənin yanına yeni hiss və duyğularla, xoş arzularla gəlirəm. Bilirəm ki, o bu dəfə də mənə əcdadlarımın, ulu babalarımın həyatından təzə söhbətlər açacaqdır. Bu söhbətlərdə mən xəyalən minilliklərin üstündən addayıb, daş toxalarla yer şumlayacağam, torpağa dən səpəcəyəm, kürələrə od vurub saxsı bişirəcəyəm, mis və tunc əridəcəyəm. Gözlərim önündə əsrlər, minilliklər bir-birini əvəz edəcək, babalarım isə at belində qılınc oynadacaq, düşmən üstünə od yağdıracaqdır. Qürub edən günəşin al-qırmızı şəfəqləri altında yallı gedən igidləri, durna qatarı kimi süzən qız-gəlinləri görəcəyəm.



Qaraköpəktəpə böyükdür, möhtəşəmdir, müdrikdir. Düzü, bu abidənin tədqiqində nə qədər çətinliklər çəksəm də yenə də özümü onun qarşısında borclu bilirəm. Haqqında yazdıqlarımı cızma-qara sanıram. Lakin onu da qeyd etmək istəyirəm ki, gələcəkdə ulu babalarımın qədim yurdu haqqında ayrıca kitab yazmağı nəzərdə tutmuşam. Həmin kitabda Qaraköpəktəpənin açılmış sirlərini fəsil-fəsil şərh edəcəyəm.

Qaraköpəktəpə Füzuli şəhərinin girəcəyində – Köndələnçayın hündür sağ sahilində yerləşir. Uzaqdan o, torpaqdan

ucaldılmış nəhəng ehramı xatırladır.

Köndələnçayın geniş vadisində təpələr çoxdur. Bunların əksəriyyəti vaxtı ilə ulu babalarımızın məskən saldıqları yerlərdir. Lakin bu təpələrin heç biri Qaraköpəktəpə qədər möhtəşəm və sirli deyildir. Bəlkə də elə buna görədir ki, xalq arasında bu abidə haqqında əsrlərdən-əsrlərə gedən rəvayətlər, əfsanələr deyilmiş və yayılmışdır. İnsanlar onun hər bir daşının, hər qarış torpağının sirrinə, ecazına inanmışdılar. Bəlkə də elə buna görə, hələ XIX əsrin sonlarında Şuşa şəhər məktəbində alman dilindən dərs deyən həvəsksr arxeoloq Emil Resler onun soraği ilə buraya gəlmiş, onun sirlərini öyrənməyə cəhd göstərmişdi. Az sonra bu yerlərdə olmuş Moskva Arxeoloji Cəmiyyətinin tanınmış üzvü A.A.İvanovski ilk növbədə sirlərlə dolu Qaraköpəktəpə ilə maraqlanmış, onun sirlərini açmağa səy göstərmişdi. Lakin Qaraköpəktəpənin qalın torpaq qatları öz sirlərini möhkəm saxlamış, bu görkəmli alimi hətta dolaşığa salmışdı. A.A.İvanovski E.Resler kimi səhv olaraq Qaraköpəktəpəni qəbir abidəsi – kurqan bilmişdi. O vaxtdan uzun müddət elmi ədəbiyyatda abidə haqqında yanlış fikir hökm surmuş və o, kurqan hesab olunmuşdu. Yalnız 1964-cü ildən Azərbaycan SSR Elmlər Akademiyası, sonralar isə



Bakı Dövlət Universiteti tərəfindən aparılan geniş arxeoloji tədqiqatlarla Qaraköpəktəpənin sirləri açılmağa başlanmışdır.

İlk axtarışlarla müəyyən edilmişdi ki, təpə qəbir abidəsi yox, on minillik uzun bir dövrü əhatə edən qədim yaşayış yerinin qalığıdır. O, həm də öz mədəni təbəqələrinin qalınlığına görə dünyanın ən nadir maddi mədəniyyət abidələrindən biridir. Qazıntıların ilk mərhələsində təpədə torpaq qatlarının altında ayrı-ayrı dövrlərin tikinti qalıqları üzə çıxarılmış, əcdadlarımızın məişət, təsərrüfat, mədəniyyət və incəsənətinə aid 6 minə yaxın maraqlı tapıntılar əldə edilmişdi. Məlum olmuşdu ki, Qaraköpəktəpə Şərq və Qərb ölkələrinə gedən yol ayrıcında yerləşməklə minilliklər boyu böyük dəyişikliklərin, mühüm ictimai-siyasi hadisələrin şahidi olmuşdur.

Uzun illərin arxeoloji tədqiqatları ilə Qaraköpək-

təpədən əldə edilən tapıntıların ən qədim nümunələri eramızdan əvvəl XI-VIII minilliklərə aiddir. Bunlar çaxmaq və dəvəgözü daşından düzəldilmiş kiçik ölçülü iti alətlərdən ibarətdir. Qeyd edilən minilliklərdə ulu babalarımız bunların bir qismindən kəsici alət, digər qismindən isə ox ucluğu kimi istifadə etmiş, onların köməkliyi ilə vəhşi heyvanları ovlaya bilmişdilər. Göstərdiyimiz dövr bəşər tarixində mezolit-orta daş döbvrü adlanır ki, bu dövr də hər şeydən əvvəl ox və kamanın ixtirası ilə səciyyələnmişdi. Çox güman ki, pusqu üçün əlverişli yer olan Qaraköpəktəpə ilk dəfə məhz bu dövrdə ovçu babalarımızın diqqətini özünə cəlb etmiş, vaxtaşırı onların sığınacaq yeri olmuşdu. Bununla belə təpədə daimi oturaq həyat çox sonralar - eramızdan əvvəl VI-V minilliklərdə başlanmışdı. O vaxtdan Qaraköpəktəpə oturaq həyat tərzinə keçmiş əcdadlarımızın əbədi məskəni olmuşdu. Təpədə böyük bir qəbilə icmasına məxsus yaşayış yeri yaranmış və burada ibtidai əkinçi-maldar istehsal təsərrüfatının əsası qoyulmuşdu. Bu dövrdə təpədə məskən salmış qədim babalarımız ilk dəfə olaraq misi kəşf etmiş, mis külçəsini döymək və əritmək yolu ilə ondan ilk metal alətlər, silah nümunələri və bəzək şeyləri düzəltməyi öyrənmişdilər.

Quruçay – Köndələnçay vadisinin əlverişli torpaq və iqlim şəraiti mis dövründən sonra Qaraköpəktəpənin gur yaşayış yerinə çevrilməsinə səbəb olmuşdu. Eramızdan əvvəl IV-III minilliklərdə təpənin üstündə və ətəklərində daş və çiy kərpiclərdən sıx şəkildə yaşayış binaları tikilmiş, ətraf torpaq sahələri bütünlüklə əkinçilik üçün mənimsənilmişdi. Bu dövrdə təpənin qədim sakinləri ilk dəfə olaraq tunc istehsalının sirrini açmış və bununla tarixi inkişafın daha yüksək – tunc dövrü mərhələsinə qədəm qoymuşdular.



Əkinçilik və maldarlıq təsərrüfatının yüksəlişi, metalişləmə, dulusçuluq və başqa sənət sahələrinin geniş inkişafı, Şərq ölkələri ilə artan iqtisadi-mədəni əlaqələr çox keçmədən burada yeni ictimai münasibətlərin təşəkkülünə zəmin yaratmış, Qaraköpəktəpənin böyük bir tayfaya məxsus yaşayış yerinə çevril-

məsinə gətirib çıxartmışdı. Bütün bu məsələlər bilavasitə qazıntılar zamanı aşkar edilən əşyavi dəlillərlə məlum olmuşdur. Əhəmiyyətlidir ki, Qaraköpəktədən tapılan maddi mədəniyyət nümunələrinin böyük hissəsi məhz eramızdan əvvəlki III minilliyə aiddir. Bunlar qədim əkinçilik və maldarlıq təsərrüfatına aid müxtəlif əmək alətlərindən, gildən düzəldilmiş saysız-hesabsız nəfis qablardan, kiçik ölçülü qəribə heykəllərdən, ocaq qurğularından, tunc əşyalardan və sairədən ibarətdir. Qazıntılar zamanı Qaraköpəktəpənin qalın torpaq qatları altından bilavasitə tuncun istehsalı üçün lazım olan kürə qalığı və çoxlu əmək alətləri, əridilmiş tunc külçələri də tapılmışdır. Bütün bunlar Qaraköpəktəpədə hələ tunc dövrünün başlanğıcında müstəqil inkişaf etmiş və yerli xammala əsaslanmış qədim metallurgiya ocağının olduğunu sübut etmişdir.

Qaraköpəktəpə abidəsində tunc dövrünün başlanğıc mərhələsinə aid yaşayış binalarının aşkar edilməsi də böyük elmi əhəmiyyət kəsb etmişdir. Qaya parçalarından, çay daşları və çiy kərpiclərdən tikilmiş bu binalar dairəvi və dördkünc formada olmuşdu. Onların divar və döşəmələri sarı gillə suvanmış, müəyyən hallarda isə qırmızı boya ilə rənglənmişdi. Maraqlıdır ki, belə binaların birində ev heyvanlarına sitayişlə əlaqədar keçirilmiş qədim mərasimin izləri də qalmışdı. Buradan gildən düzəldilmiş kiçik ölçülü öküz heykəlləri, «müqəddəs» ocaqda yandırılmış öküz buynuzları və s. tapılmışdır.

Tunc dövrü uzun çəkmiş və yalnız eramızdan əvvəl II minilliyin sonlarında başa çatmışdı. Diqqətəlayiqdir ki, Qaraköpəktəpə abidəsində qədim metal dövrünün sonrakı inkişaf mərhələləri də dəqiq izlənilmişdir.



Hələ eramızdan əvvəl III minilliyin sonlarında Qaraköpəktəpə möhkəm daş divarlarla əhatə olunmuş yaşayış yerinə çevrilmişdi. II minilliyin əvvəllərində isə bu yaşayış yerinin ətrafına iri qaya parçalarından və çay daşlarından eni 3m olan möhtəşəm divarlar çəkilmişdi. Axtarışlar zamanı bu divarların böyük hissəsi üzə çıxmışdır. Eramızdan əvvəl II minillikdə Qaraköpəktəpədə inşa edilən yaşayış



binaları da möhtəşəm divarlı olmuşdu. Burada açılan belə binaların daş divarlarının qalınlığı 2 m-ə çatır. Belə vəziyyət hər şeydən əvvəl həmin dövrdə tayfalararası qanlı toqquşmalardan, eləcə də ayrı-ayrı quldar Şərq dövlətlərinin Azərbaycan ərazisinə olan qarətçi yürüşlərindən irəli gəlmişdi. Belə şəraitdə Qaraköpəktəpənin üstündəki yaşayış yeri alınmaz bir qalaya çevrilmiş və dəfələrlə düşmən hücumlarına sinə gərmişdi.

Aparılan tədqiqatlarla öyrənilmişdir ki, yaşayış yerində həyat uzun müddət davam etmişdi. Onun başı üstündən aylar, illər ötmüş, durna qatarları kimi saysız-hesabsız qərinələr keçmişdir. Nəsillər isə bir-birini əvəz edərək vaxtilə ulu babalarımız tərəfindən Qaraköpəktəpənin zirvəsində yandırılan məşəli sönməyə qoymamışdılar. Lakin bu məşəlin işığı yadelli işğalçıların da nəzərindən yayınmamışdı. Qaraköpəktəpə sonrakı dövrlərdə tez-tez qanlı hadisələrin, yanğın və talanların şahidi olmuşdu.

Eramızdan əvvəl VII əsrdə Qara dəniz çöllərindən Şərq ölkələri üzərinə qara yel kimi axan saysız-hesabsız köçəri skif orduları buradan keçərkən təpənin sakinlərini oxa tutmuş, onun ətrafında tonqallar yandıraraq, gödək ayaqlı atlarına dinclik vermişdilər. O vaxtdan çoxlu əsrlər keçmişdir. Lakin indi də Qaraköpəktəpənin ətrafını, üstünü gəzərkən skiflərə məxsus cəng atmış üç qanadlı tunc ox ucluqlarına təsadüf etmək olur.

Bir sıra qüdrətli Şərq dövlətlərinin yoxa çıxardan skif hücumlarından sonra da Qaraköpəktəpədə həyat sönməmişdi. İllər, əsrlər keçmiş, nəsillər bir-birini əvəz etmişdi. Şəhərləri, obaları lərzəyə salan qanlı və qüdrətli Şərq dövlətlərinin çoxu tarixin geniş səhnəsini tərk etmiş, əbədi gəlməz olmuşdular. Dəhşətli sel kimi Azərbaycandan keçmiş qarətçi skif tayfalarının özləri də tarixin sellərinə qarışaraq yoxa çıxmışdılar. Qaraköpəktəpədə isə həyat yenə də davam etmişdi.

Eramızdan əvvəl V-IV əsrlərdə Qaraköpəktəpə antik dövrə məxsus böyük yaşayış yerinə çevrilmişdi. Az vaxt içərisində təpənin üstü və yamacları bütünlüklə pillə-pillə tikintilərlə örtülmüşdü. Əvvəlki dövrlərin tikintisindən fərqli olaraq bu dövrdə inşaatda daş ilə yanaşı iri ölçülü bişmiş kərpiclərdən də istifadə olunmuşdu. Qazıntılar zamanı göstərdiyimiz əsrlərə aid bir neçə bina qalığı, emalatxana, içərisində iri ölçülü küplər yerləşdirilmiş anbar və çoxlu tapıntılar üzə çıxarılmışdır. Burda sütunlu zal xarabalığı da aşkar edilmişdir. Sütun özülləri iri sal daşlardan yonulmuşdur. Tapıntılar içərisində üzəri qırmızı boya ilə naxışlanmış nəfis gil qablar da olmuşdu. Nazik divarlı olan bu qablar böyük ustalıqla hazırlanmış və gözəl naxışlarla bəzədilmişdir. Qazıntılar zamanı məlum olmuşdu ki, təpədəki antik dövrə aid yaşayış yerində eramızdan əvvəl IV əsrin

ortalarınadək əminamanlıq hökm sürmüşdü. Lakin bu əminamanlıq eramızdan əvvəl IV əsrin II yarısında gözlənilmədən pozulmuş, yaşayış yeri dəhşətli yanğından dağılmış və xarabalığa çevrilmişdi. Yanğın o qədər güclü olmuşdu ki, hətta ayrı-ayrı binaların daş divarları belə ovulub tökülmüş, yaşayış yeri bütünlüklə qalın kül və kömür qatının altında qalmışdı. İlk qazıntılar zamanı bu yanğının səbəblərini müəyyən etmək mümkün olmamışdı. Lakin yeni tədqiqatlardan aydın olmuşdur ki, Qaraköpəktəpəyə böyük fəlakət gətirən bu yanğın yadelli işğalçıların hücumu zamanı baş vermişdi. Bəs, bu yadellilər kimlər olmuşdu?

Tarixi mənbələrdən məlumdur ki, eramızdan əvvəl IV əsrin ikinci yarısında uzaq Yunanıstanın gənc hökmdarı İsgəndər özünün məşhur Şərq yürüşünə başlamış və az vaxt içərisində böyük əraziləri fəth etmişdi. Lakin İsgəndərin bu yürüş zamanı Cənubi Qafqaz, o cümlədən Azərbaycan ərazisindən keçib-keçməməsi məsələsi indiyədək qaranlıq və mübahisəli olaraq qalmaqdadır. Bununla belə bəllidir ki, İsgəndər eramızdan əvvəl 331-ci ilin oktyabrın 1-də İran hökmdarı III Daranın qoşunlarına Qavqamel yaxın-



lığında sarsıdıcı zərbə vurduqdan sonra İran dövlətindən asılı olan əyalətlərin fəthinə başlamışdı. Belə əyalətlər içərisində o zaman Albaniya adlanan Azərbaycan da olmuşdu. Antik tarixçilərin qeydinə görə Qavqamel döyüşünün özündə İsgəndərə qarşı hətta, albanlardan ibarət qoşun hissələri də vuruşmuşdu. Belə təqdirdə İsgəndər hökmən onlardan qisas almalı idi. Əvvəlki yürüşlərdən fərqli olaraq bu dəfə yunan-makedon orduları qarşılarına çıxan bütün şəhər və obaları talan edərək yandırmışdılar. Müqavimət göstərənlərə isə daha amansız divan tutulmuşdu. Göstərdiyimiz məlumatlarla əlaqədar güman etmək olar ki, İsgəndər ordularının müəyyən hissəsi Azərbaycanın cənub əyalətlərinə — Araz vadisinə qədər uzanan yerdərə gəlib çıxa bilmişdilər. Belə təqdirdə isə əsrlər boyu Araz vadisində mühüm mövqe tutmuş Qaraköpəktəpədəki qala yadelli talançıların diqqətindən kənar qalmamışdı. Ola bilsin ki, Qaraköpəktəpənin üstündəki yaşayış yeri də o vaxt yunan-makedon əsgərləri tərəfindən tutulmuş və yandırılmışdı. Lakin arxeoloji tədqiqatlardan daha dəqiq məlum olmuşdur ki, çox keçmədən bu yaşayış yerinin xarabalıqları üzərində yeni binalar tikilmiş, təzə həyat başlanmışdı. İlk orta əsrlərdə Qaraköpəktəpə yenidən böyük yaşayış yeri kimi tanınmışdı. Bəlkə də elə buna görə az vaxtdan sonra o, Azərbaycanı işğal etmiş olan sasanilər tərəfindən mühüm strateji məntəqəyə çevrilmişdi. Müəyyənləşdirilmişdir ki, Qaraköpəktəpədəki yaşayış yerinin sonrakı iqtisadi və mədəni yüksəlişi, çiçəklənmə dövrü Eldənizlərlə bağlı olmuşdu. Qazıntılar zamanı Qaraköpəktəpədə bu dövrə aid 3 m-dən artıq qalınlıqda mədəni təbəqə və olduqca rəngarəng və nadir tapıntılar aşkara çıxarılmışdır. Şüşədən hazırlanmış incə bilərziklər, müxtəlif rəng və naxışlarla bəzədilmiş gil qablar, sümükdən yonulmuş bərbəzəkli düymələr, məişət və təsərrüfata aid avadanlıq və sairə - bu tapıntıların yalnız kiçik bir hissəsidir. Yerli sənətkarlar tərəfindən hazırlanmış bu əşyaların hər biri nadir və nəfis incəsənət nümunəsidir. Mümkündür ki, Qaraköpəktəpə bu dövrdə sıx əhalisi olan böyük bir feodal qəsrinə çevrilmiş, Azərbaycanın və Yaxın Şərqin bir çox sənətkarlıq, ticarət və mədəni mərkəzlərilə əlaqə saxlamışdı. Onun yaxınlığındakı Beyləqan və Bərdə şəhərlərilə əlaqələri daha sıx olmuşdu. Qeyd etdiyimiz dövrdə bu qəsrin ətrfına hündür qala divarları çəkilmiş, içərisinə gil borular vasitəsilə uzaq bulaqlardan içməli su gətirilmişdi. Maraqlıdır ki, arxeoloji axtarışlar zamanı bu divarların, eləcə də su kəmərinin bir hissəsi üzə çıxarılmışdır. Burada çoxlu yaşayış binaları, onların ətrafında isə iyirmidən artıq təndir yeri də aşkar edilmişdir.

Qaraköpəktəpənin bu dəfəki əmin-amanlığı, yeni çiçəklənmə dövrü də uzun çəkmə-

mişdi. 1221-ci ildə Beyləqan şəhəri monqollar tərəfindən amansızcasına viran edildikdən sonra onun ətrafındakı yaşayış yerləri, o cümlədən Qaraköpəktəpədəki yaşayış yeri də dağıdılmışdı. Bundan sonra bu yaşayış yeri müəyyən müddət tənəzzül dövrü keçirmiş və yalnız hülakülər dövründə yenidən dirçələ bilmişdi. Şərq tarixçisi Rəşidəddinin məlumatına görə bu dövrdə hülaki süvari qoşunları əksər hallarda qışı Araz ətrafı düzlərdə keçirir, yayda isə Aladağ və Qaradağın otlaqlarına qalxırdılar. Görünür ki, yol ayrıcında olan Qaraköpəktəpə belə bir şəraitdə hülakü əyanlarının iqamətgahına çevrilmişdi. Bu məsələdə diqqəti cəlb edən cəhətlərdən biri də ondan ibarətdir ki, Qaraköpək adının özü hal-hazırda belə yerli xalq arasında hülakü əyanlarından olmuş Qaraguh bəyin adı ilə əlaqələndirilir. Doğrusu, bunun nə qədər həqiqətə yaxın olub-olmamasını söyləmək üçün əlimizdə əsaslı bir dəlil yoxdur. Lakin məlumdur ki, məşhur «Gülüstani-İrəm» əsərinin müəllifi, görkəmli ədib və tarixçi Abasqulu Ağa Bakıxanov Qaraköpəktəpəni eyni zamanda Təxti-Tavus adı ilə də tanımışdı. Belə adları isə orta əsrlərdə yalnız böyük şöhrətli iqamətkahlar, mühüm mərkəzlər daşımışdı.



Qaraköpəktəpənin hülakülərdən sonrakı tarixi də çox maraqlı olmuşdu. Ölkələri fəth edən Teymurləng də, Qaraqoyunlu, Ağqoyunlu hökmdarları da bu yerə biganə qalmamışdılar. Dəfələrlə onlar Qaraköpəktəpənin zirvəsindən öz hökmlərini aləmə car etmişdilər. Bunlarla da Qaraköpəyin tarixi qurtarmamışdı. Qərinələr, əsrlər yola saldıqca o, daha təkəbbürlü hökmdarlar görmüş, yeni-yeni tarixi hadisələrin şahidi olmuşdu. XIX yüzilliyin əvvəllərində, Rusiya ilə İran arasında Azərbaycan torpaqları üstündə qanlı savaş gedərkən Qaraköpəktəpə qəsbkar rus ordusunun baş iqamətgahı olmuş, qarətçi və

oğru general N.F.Paskeviçin çadırı onun üstündə qurulmuşdu. Tezliklə Ərdəbili və Urmiyanı işğal edən general Şeyx Səfinin zəngin kitabxanasını və nadir çinxanasını talan edərək yüzlərcə misilsiz Şərq əlyazmalarını və nəfis çini qabları imperiyanın paytaxtı Sankt-Peterburqa aparmışdı.

Qaraköpəktəpənin başı üstündən qərinələr, minilliklər keçmişdir. Uzun əsrlərin qasırğa və tufanları yadellilərin tonqal və ocaqlarının külünü çoxdan köyə sovurmuşdur. Lakin əsrlər ulu babalarımızın müqəddəs izlərini itirməmiş, əksinə, onları qiymətli yadigarlara, tarixi mənbələrə çevirərək Qaraköpəktəpəyə tapşırmışdır. Bir neçə min il bundan əvvəl babalarımızın kobud daşlardan çapdıqları şum, biçin alətləri, ibtidai kürələrdə əridib hazırladıqları ilk mis və tunc əşyalar, adi gildən düzəltdikləri qabları böyük bir kitabın pozulmaz sətirlərinə çevrilmişdir.

Qaraköpəktəpənin tarixi ənginliklərinə ilk səyahətimiz on beş il çəkmişdir. Lakin bu on beş ildə on min illik möcüzəli bir yol keçilmişdir.

Bu tarixi yol müqəddəs və sonsuzdur. Bu yolu qorumaq borcumuzdur.

*Oktyabr, 1979*
*Fizuli - Bakı*

***Yenə tapdaq altındadır mənim dağ vüqarlı ulu təpəm,***
***hələ də xilaskar oğullarını gözləyir.***

*Keçənlərin yeri burda görünür.*
*(Şəhriyar)*

## SİRLİ TƏPƏLƏR

Quruçay və Köndələnçay vadisinin qədim abidələri içərisində Qarabulaq çölündəki təpələr də böyük tarixi əhəmiyyətə malikdir. Elmi ədəbiyyatda belə təpələr kurqanlar adlanır. Tədqiqatçıların fikrincə kurqan sözü türk dilli xalqlara mənsub olub qədim qəbirlər üzərində qurulan tikinti, daha dəqiq desək, ucaldılan təpə deməkdir.

Belə süni və sirli təpələri Azərbaycanın hər yerində görmək olar. Lakin onlar Mil, Qarabağ, Muğan düzlərində, Gəncəçay, Tərtərçay, Xocalıçay və digər çay hövzələrində, yüksək Xaçbulaq yaylağında, eləcə də Quruçay və Köndələnçay vadisində daha çoxdur. Mil-Qarabağ düzlərinə yolu düşənlər yəqin ki, orada on-on beş mərtəbəli ev hündürlüyündə olan möhtəşəm təpələri də görüblər. Bunlar da kurqanlardır — ulu babalarımızın əbədi yuxuya daldığı yerlərdir. Bunların hamısının altında döyüş meydanında həlak olmuş və ya öz əcəli ilə ölmüş tayfa başçılarının, ağsaqqallarının və əyanlarının qəbirləri vardır. Böyük bir təpənin ucaldılmasına bəzən bir neçə nəslin həyatı sərf olunmuşdur. Nəsillər bir-birini əvəz etsə də, onlar ölən adlı-sanlı tayfa adamını unutmamış, onun xatirəsinə böyük hörmət və ehtiram bəsləyərək qəbri üstünə torpaq tökməkdə davam etmişdi. Ölən adam tayfanın adi üzvü olduqda isə onun dəfn mərasimi nisbətən az dəbd-



əbəli keçirilmiş, qəbri üstündə ucaldılan təpə də alçaq olmuşdu. Buna görə də kurqanların bəzisi həddindən artıq hündür və möhtəşəm, bəziləri isə əksinə, kiçik və yastıdır.

Əsrlər boyu kədərli sükut içərisində mürgüləyən bu təpələr böyüklüyündən və ya kiçikliyindən asılı olmayaraq qədim hadisələrdən çox maraqlı şeylər danışa bilərlər. Onlar dünyagörmüş müdrik ozanlar kimi ulu babalarımızın adət və ənənələrindən, heyrət doğuran dəfn mərasimlərindən, dini təsəvvürlərindən, ümumi yaşayış tərzindən, igidliklərindən gözəl dastanlar söyləməyə qadirdirlər. Bu cəhətdən Qarabulaq kurqanları xüsusilə diqqətəlayiqdir.

Bu kurqanlar Qaraköpəktəpədən azca şərqdə Köndələnçayın hündür sağ sahilində Qarabulaq adlı düzən yerdədir. Son vaxtlara kimi burada 20-yə qədər kurqan qalmışdı.

Məlumdur ki, XIX əsrin sonlarında Moskva Arxeoloji Cəmiyyətinin üzvü A.A.İvanovski burada tədqiqat apararkən onlardan beşini qazmış və bu qazıntı ilə maraqlı maddi mədəniyyət nümunələri əldə etmişdi. Onlardan ikisinin altında ölüyandırma mərasiminin izlərinə təsadüf etmişdi. A.A.İvanovski buradan tunc dövrünün sonu, dəmir dövrünün əvvəllərinə aid çoxlu gil qablar, bəzək və silah nümunələri əldə etmişdi. Tədqiqatçı digər iki kurqanın altında daş qutu qəbirlərə və onların içərisinə qoyulmuş çoxlu əmək alətlərinə, tuncdan hazırlanmış silah nümunələrinə və bəzək şeylərinə rast gəlmişdi. Dövr etibarilə bu kurqanlar da yuxarıdakılarla eyni olmuşdu. Lakin ən maraqlı qəbir beşinci kurqanın altında açılmışdı. Tayfa ağsaqqalına aid bu qəbirin uzunluğu 10 m, eni və dərinliyi isə 2 m olmuşdu. Maraqlıdır ki, həmin qəbirdə tayfa başçısının skeletilə yanaşı, dəfn mərasimi zamanı öldürülmüş iki yaxın adamının sümükləri də aşkara çıxarılmışdı. Bunlardan əlavə burada üzərində nəfis tunc bəzəklər qalmış dəvə skeletlərinə də təsadüf olunmuşdur. Belə bəzək şeyləri, silah nümunələri, əmək alətləri, eləcə də müxtəlif gil qablar qəbirdən və əsas skeletin ətrafından da tapılmışdır. Ümumiyyətlə bu qəbirdə saysız-hesabsız avadanlığa təsadüf edilmişdir. Məlum olmuşdur ki, bütün bunlar dəfn mərasimi zamanı meyidin yanına qoyulmuşdur. Bu avadanlıq içərisində tuncdan, sümük və qızıldan düzəldilmiş bəzək şeyləri xüsusilə diqqəti cəlb etmişdir. Onların hamısı böyük ustalıqla düzəldilmişdir. Sümükdən yonulmuş bəzək şeylərinin çoxu üçbucaq şəkilli kiçik qızıl lövhələrlə örtülmüşdü.

Təəssüf ki, uzaq keçmişimizdən miras qalan bu nəfis maddi mədəniyyət nümunələrinin heç biri Azərbaycanda qalmamışdır. Onların çoxu hələ o vaxt xaricə aparılmış, cüzi bir hissəsi isə Moskvadakı Tarix Muzeyinin arxeoloji fonduna düşmüşdür. Bununla

belə əhəmiyyətli cəhət ondan ibarətdir ki, Qarabulaq kurqanlarının tədqiqi və onlardan birinin altında zəngin qəbrin açılışı ilə Cənubi Qafqazda ilk dəfə olaraq əmlak bərabərsizliyinin meydana çıxmasını və icma quruluşunun artıq dağılmasını əyani şəkildə əks etdirən qiymətli dəlillər əldə edilmişdir. Bütün bu göstərdiklərimizə əsasən Qarabulaq kurqanları elmi ədəbiyyata eramızdan əvvəl I minilliyin əvvəllərini əhatə edən son tunc, ilk dəmir dövrü abidələri kimi daxil olmuşdur. Lakin Qarabulaqda aparılan yeni axtarışlarla bu tarixi abidənin bir sıra yeni sirləri açılmışdır. Hər şeydən əvvəl öyrənilmişdir ki, Qarabulaq əsrlər boyu yaxınlıqdakı Qaraköpəktəpə sakinlərinin qəbiristanlığı olmuşdur. Digər tərəfdən müəyyənləşdirilmişdir ki, burada dəfn mərasimlərinin keçirilməsinə ilk dəfə eramızdan əvvəl I minillikdə yox, daha qədim dövrlərdə, eramızdan əvvəl II minillikdə – orta tunc dövründə başlanmışdır. Bunu burada yeni aşkar edilmiş orta tunc dövrünə aid qəbir sübut etmişdir. Bu qəbirdən orta tunc dövrünə məxsus bir neçə qara rəngli gil qab tapılmışdır. Onların hamısı böyük səylə düzəldilmiş və cilalanmışdır. Bundan əlavə onların üzərinə kəsmə üsulu ilə gözəl naxışlar da vurulmuşdur. Məlumdur ki, orta tunc dövründə Qaraköpəktəpənin özündə möhtəşəm divarlı böyük qala olmuşdur. Bu qalanın 3 m enində alınmaz divarları bütünlüklə iri çay daşlarından və qaya parçalarından hörülmüşdü.

Bütün bunlarla yanaşı Qarabulağın açılmamış sirləri hələ də vardır. Sözsüz, gələcək arxeoloci tədqiqatlarla bu abidənin uzaq keçmişinə aid daha tutarlı və samballı dəlillər əldə ediləcəkdir.

*İyul, 1966-cı il.*

***Bil! Düşmən tapdağı altındadır.***
***Ulularımızın əbədi uyduqları müqəddəs torpaq.***

## DAŞ TOXALAR VƏ "İŞPİYON" ƏHVALATI

O yay tədqiqatlara gec başladığımdan yayın ortasına, dəhşətli istilərə düşmüşdüm. Günəş bütün günü yerə od yağdıraraq nəfəsimi kəsir, beynimi kütləşdirir, axtarışlarıma maneçilik törədirdi. Belə bir vaxtda vadidə hər gün 15-20 kilometrlik yolu qət edərək axtarışlar aparırdım. Əksər hallarda çılpaq çöllərdə kölgələnmək üçün kiçik bir yer də tapa bilmirdim. İki-üç gün ərzində sifətim qaralmış, cadar-cadar olmuşdu.

Qazıntıya başladığım Qaraköpəktəpədə də durmaq mümkün deyildi. Gün bir dəqiqə belə onun üstündən əskik olmurdu. Buna görə də qazıntıya sübh tezdən başlayırdıq. Gün günorta yerinə qalxıb ətrafı yandıranda işi qurtarırdıq. Günün ikinci yarısında isə bir qayda olaraq kəşfiyyat axtarışlarına çıxırdıq. Düzü, axtarışlara ən çox tək çıxmağı xoşlayırdım. Belə hallarda özümü daha asudə hiss edirdim. Gözlərim daha iti olurdu, ayaqlarım yorulmaq bilmirdi. Həm də belə vaxtlarda mən öz hiss və duyğularım, nigaran və narahat düşüncələrimlə tək qalırdım.

Növbəti səfərlərimdən birində Füzuli şəhərindən şimal-qərbdə Köndələnçayın sahili boyunca uzanan çöllərə tərəf üz tutdum. Kölgə kimi görünən boz, yastı təpələr xeyli vaxt idi ki, diqqətimi cəlb etmişdi. Güman edirdim ki, həmin təpələr qədim oturaq əkinçi icmalara məxsus yaşayış yerlərinin qalıqlarıdır. Belə yerlərdən isə mis və tunc dövrlərinə aid maraqlı maddi mədəniyyət nümunələri tapmaq mümkün idi.

Yolu qısaltmaq məqsədilə Quruçayın daşlı yatağını keçib yerli təyyarə meydanından xeyli aralıda bir düzənliyə çıxdım. Günəş artıq qərbə tərəf əyilsə də, isti hələ də çəkilməmişdi. Ağır çəkmələrdə çat-çat olmuş torpağın üstü ilə addımlayaraq gözümə dəyən hər daş parçasına, saxsı qırığına diqqət yetirirdim.

Beləcə xeyli yol getmişdim. Lakin elmi əhəmiyyət kəsb edən müəyyən bir tapıntıya hələ rast gəlməmişdim. Kürəklərimin arasından süzülən tər köynəyimi bədənimə yapışdırmışdı. Alnımdan da tər su kimi axır, gözlərimi dolduraraq qeyri-ixtiyari məni ağladırdı. Lap əldən düşmüşdüm. Bununla belə ayaqlarım addımlamaqda davam edirdi. İndi mən onların varlığını hiss etmədən addımlayır və təpələrin də sanki mənə tərəf gəldiyini görürdüm.

Qarşımdakı üstündə tənha qaraağac bitən təpəyə yaxınlaşanda yarıya qədər torpaqda olan uzunsov daş birdən-birə diqqətimi cəlb etdi. Onun bir tərəfi elə bil ki, yonulmuşdu. Yerə oturub, çöl çantamdan cib bıçağını çıxartdım və daşın yanlarını təmizləmə-

yə başladım. İki dəqiqə keçməmiş daş artıq əlimdə idi. Bu, çay daşından hazırlanmış qədim toxa idi. Onun aşağı hissəsi qəlpələr qopardılmaqla nazikləşdirilmişdi. Yanlarında isə sap bağlamaq üçün ovuqlar açılmışdı. Sevincimin hüdudu yox idi. Çünki belə ibtidai şum alətləri Azərbaycanda üç min əvvəl - tunc dövründə mövcud olmuşdu.

Çöl gündəliyimi çıxardıb oraya tapıntı haqqında qısa qeydimi yazdım. İndi hər şeyi unutmuşdum. Bütün düşünçələrim bu qiymətli tapıntıda cəmlənmişdi. Elə bu zaman kobud, hökmlü bir səs məni diksindirdi:

- Ayağa qalx, qəməni də yerə at. Tərpənsən, dədəmin goru haqqı atacağam.

Qarşımda ortaboylu, qırmızısifət, arıq bir adam durmuşdu. Əlindəki tüfəngi mənə tərəf tuşlamışdı. Xırda gözlərində sevinc və qorxu qarışıq bir ifadə vardı. Zəhmli baxışından hiss etdim ki, belə kobud, quru müraciət zarafat deyildir. Ətraf sakit, səssiz-səmirsiz və kimsəsiz idi. Yalnız çox-çox uzaqlarda, dağlara gedən yolda arabir maşın görünürdü.

Doğrusu, nitqim qurumuşdu. Ayağa qalxdıqda özüm bilmədən, onun qəmə adlandırdığı bıçağı əlimdən saldım. Elə həmin dəqiqə o, bıçağı qapdı və yenə tüfəngi mənə tərəf çevirdi. Bu qəfil və anlamadığım əmrin səbəbini soruşmaq istəyirdim ki, o, yenə məni qabaqladı:

- Kimsən? Sənədlərin hanı? Neçə yoldaşsınız?

Mən, yalnız, — geoloqam,- (adətən geoloqu arxeoloqdan daha yaxşı tanıyırlar) - deyə cavab verə bildim və sənədlərimi ona uzatdım.

O, bir addım geri çəkilərək, sənədlərimi o yan-bu yana çevirdi və cibinə qoydu.

- Əllərini yuxarı qaldır, düş qabağıma. Mən səni milis idarəsinə aparacağam. İki saatdır ki, səni güdürəm. Ayradromu atıb sənin dalınca düşmüşəm.

- Heç başa düşə bilmirəm, sizə nə lazımdır?

- Bura sərhəd rayonudur, sən isə şübhəli adamsan. Mən səni milisə verməliyəm. Düş qabağıma.

- Siz nə danışırsı-



nız? İki həftədir ki, mən Füzulidə axtarışlar aparıram. Bakıdan, Akademiyadan gəlmişəm. Qədim abidələri axtarıram, Zərgərdən Bala Bəhmənliyə kimi hər yeri ələk-vələk eləmişəm, heç kim də məni saxlamayıb. Heç bilirsinizmi, tapdığım daş nədir, onun qiyməti nə qədər böyükdür, - deyə mən geniş izahat verməyi lazım bildim. Onun gözləri qıyıldı, dodaqları əsdi. Istehza ilə güldü: - Mənim başımı tovlama. Quruçayın yatağı belə daşla doludur. Yarımca saata mən beş samosvalı belə daşla dolduraram. Az danış, düş qabağıma.

Mən daha söz tapa bilmədim. Lakin, qəlbimdə doğan təəssüf hissi səbrimi tükəndirirdi. Axı qabaqda hələ bir neçə təpə var idi. Onları yoxlamamış geri qayıtmaq istəmirdim. O, isə tüfəngini mənə tuşlayıb tərpənməyimi gözləyirdi. Mənimsə tərpənməyə taqətim qalmamışdı. Vəziyyətimi yüngülləşdirmək məqsədilə Füzulidən olan bütün dost-tanışlarımın adlarını bir-bir ona sadaladım. Nəsə ağlına batdı və o, çöl çantamı açaraq onun içindəkiləri yerə tökdü. Elə həmin andaca elə bil onu ilan çaldı. Sifəti əvvəlcə qızardı, bozardı, sonra isə ağardı. Çantamdan kompas, fotoaparat, rəngli karandaşlarla birlikdə ingilis dilində olan «Moskva yenilikləri» qəzetinin köhnə bir nömrəsi və ingilis-rus lüğəti (hələ aspiranturada öyrəndiyim ingilis dili yaddan çıxmasın deyə mən daima özümlə bu dildə olan qəzet və ya kitab götürür, boş vaxtlarımda mütaliə edirdim) də yerə düşmüşdü. İndi o, gözlərini bərəldib onlara baxırdı. Sanki tilsimlənmişdi, tir-tir əsirdi. Lakin birdən geri çəkilərək tüfəngini yuxarı qaldırdı və göyə güllə atdı. Sonra ətrafa boylana-boylana baxaraq xırıltılı bir səslə qışqırmağa başladı:

- Bu dəqiqə düş qabağıma. Mənə Dəmirxan deyərlər. Bütün Qarabağ əhli məni tanıyır. Aerodrom kimi mühüm bir yeri mənə tapşırıblar. Səni görən kimi bildim ki, şübhəli adamsan, işpiyonsan. Bu xarici kitab və qəzetlər də dediklərimə sübutdur. Vallah, bir addım kənara çəkilsən səni vuracağam, — deyib tüfənginin çaxmağını çəkdi.

- Lənət sənə kor şeytan, min lənət,- deyərək mən şəhərə üz tutdum.

Günəş artıq qürub edirdi. Kirsin zirvəsi al şəfəqlərə bürünmüşdü. Qabaqdakı dağlar isə bənövşəyi rəng alaraq kölgələnir, tutqunlaşırdı. Buludların arasından qızıl şüalar süzülür, Köndələnin sularında əks olunurdu. Lakin mən təbiətin bu füsunkar, möcüzəli dəqiqələrinə biganə qalmışdım. Hər yanda böyük bir boşluq, hər şeydə mənasızlıq görürdüm. İndi mənim üçün yerin və göyün rəngləri yeknəsəq idi, başdan-başa tutqun və boz idi. Heçnə hiss etmirdim. Bircə onu bilirdim ki, özünü Dəmirxan adlandıran adam tüfəngini qabağa uzadıb tövşüyə-tövşüyə dalımca gəlir, geri qalmamağa çalışır.

Şəhərə yaxınlaşdıqca məni təşviş, narahatçılıq bürüyürdü. O an böyük bir həyəcanla arzulayırdım ki, məni belə gülünc vəziyyətdə görən olmasın.

Beləcə Quruçayın yatağını da keçdik və yuxarı qalxan torpaq yolla şəhərə daxil olduq. Xoşbəxtlikdən istədiyim kimi oldu. Yaşıl bağların arası ilə gedərkən qarşımıza kimsə çıxmadı. Artıq hava qaralmışdı. Lakin su idarəsinə tərəf döndükdə işıqlı küçədə qəflətən tanış milis kapitanı ilə toqquşduq. Məni soyuq tər basdı, salamlaşmağı belə unudub onun yanından ötməyə tələsdim. O da bu vəziyyətdən elə bil özünü büsbütün unutmuşdu. Lakin baxışlarında və sifətində təəccüb, şaşqınlıq yaranmışdı. Elə həmin dəqiqə Dəmirxanın raportunu eşitdim:

- Yoldaş kapitan, bu işpiyonu Köndələndə tutmuşam. Şəkil çəkirdi, həm də yerə nə isə basdırırdı. Çantasında xarici yazılar və şəkil çəkəni də vardır. Mənə soyuq silahla müqavimət göstərmək istəyirdi.

Dəmirxanın raportu qurtarar-qurtarmaz kapitanın qəhqəhəsi küçəni başına götürdü...

Bu yerdən necə götürüldüyümü, qaldığım evə necə çatacağımı indi də bilmirəm.

Axşam sənədlərimi, çöl çantamı və onun içindəkilərin hamısını evə gətirdilər. Ev sahibi əhvalatdan xəbərdar olduqda aerodromda gözətçilik edən Dəmirxana zəng vurub onu o ki var danladı. Dəmirxan isə özünü sındırmadı:

- Sən də, sənin qonağın da mənə hələ təşəkkür etməlisiniz ki, sayıq adamam.

Bir neçə gündən sonra Dəmirxanı kəhər atın belində Qaraköpəktəpənin üstündə gördüm. Təkəbbürlü bir baxışla mənə baxdı, sonra isə qazıntı sahəsində sakitcə işləyən sarıbəniz oğlanın üstünə cumub əlindəki qamçı ilə onu şapalaqladı və çox pis söydü. Mən özümə gəlincə uşağı qabağına salıb aşağı qovdu.

Mən yalnız bu sözləri eşitdim: - Dəmirxan ölmüşdür ki, onun oğlu torpaq qaza!

Uşaq o gündən qazıntıya gəlmədi. Dəmirxanın özünü də daha görmədim. Lakin bundan sonra Füzulidə haraya gedirdimsə, ardımca pıçıltı ilə deyirdilər:

- Dəmirxanın tutduğu şpion budur.

Dəmirxan özünü və məni o yay belə məşhurlaşdırdı...

Bəs, daş toxa? Ertəsi gün mən o yerə səfərimi təkrar etdim və üstəlik əllidən artıq belə qədim alət tapdım. Bir il sonra isə bu qədim şum alətləri haqqında elmi ictimaiyyətin böyük marağına səbəb olan məqalə də yazdım.

*Füzuli bölgəsi, avqust, 1966-ci il.*

*Zaman keçir, üfüqlərdə iz qalır,*
*Bu karvandan uzaqda bir toz qalır.*
***(Şəhriyar)***

## MÜQƏDDƏS ZİYARƏTGAHIN QONAQLARI

Təpədən xeyli aralı maşından düşdüm. Kənarda yol da vardı. Bu torpaq yol idi və Milə tərəf gedirdi. Qabaqda bir kənd də var idi. Yol kəndin ortasından keçərək ucsuz-bucaqsız düzə üz tutur və onun ənginliklərində itib-batırdı. Yol ilə təpə arasında geniş bir dərə uzanırdı. Təpəyə qalxmaq üçün bu dərəni keçmək lazım idi. Arxa tərəfdən də təpəyə çıxmaq olardı, lakin bunun üçün ilanla dolu olan sıx qanqallıqdan keçməli idim. İlanlar bir yana qalsın, adama boy verən iri şaxəli qanqal kollarının özləri istidən quru-yub bərkimiş, sanki yeddibaşlı əcdahalara dönmüşdülər. Bir addım atmağa belə imkan vermirdilər.

Elə buna görə də dərəyə tərəf üz tutdum. Dərənin yuxarı yamacları boz rəngdə idi. Otlar, çiçəklər çoxdan qurumuş, solmuş, torpaq daşa dönmüşdü. Otsuz yerlərdə torpağın üstü çat-çat olmuşdu.

Dərənin dibi həm rütubətli, həm də sərin idi. Mən burada bir qədər nəfəsimi dərən-dən sonra sürətlə yuxarıya - təpəyə qalxmağa başladım. Gün təzəcə başlasa da, qabaqda iş çox idi.

Təpənin üstü geniş və düz sahədən ibarətdi. Onun üstü bütünlüklə qəbir daşları ilə örtülmüşdü. Daşların çoxu böyük ustalıqla oyma naxışlarla bəzədilmişdi. Bunların hər biri gözəl bir sənət əsəri idi. Bununla belə təpənin ən böyük yaraşığı türbə idi. Öz iti



gümbəzi ilə sanki göyü dələn nəhəng və eyni zamanda olduqca yüngül görünən bu türbə elə bil yerə sancılmış nazik bir qələm idi. O, bütünlüklə ağ daşdan tikilmişdi. Kimə məxsus olması və hansı memar tərəfindən ucaldılması hələ də qəti müəyyənləşdirilməyən bu türbə orta əsr memarlığının gözəl və təkrarolunmaz bir nümunəsi idi. Azərbaycanın quzey torpaqlarında ikinci belə bir memarlıq abidəsinə təsadüf olunmamışdı. Bəlkə də özünün məhz gözəl görkəminə görə bu türbə əski dövrlərdən müqəddəsləşdirilmiş, ziyarətgaha çevrilmişdi. Yerli əhali arasında və elmi ədəbiyyatda Mirəli türbəsi adı ilə məşhur olan və XİV əsrə aid edilən bu abidənin yaşayış yerindən uzaqda, cansıxıcı bir yerdə tikilməsi ilk baxışda təəccüb doğura bilərdi. Lakin ətrafa diqqətlə baxdıqda özgə bir gözəlliklə qarşılaşırdın. Çox uzaqda olan və mavi duman içərisində üzən dağlar sanki bu nadir sənət əsərini tamamlayır, onunla qırılmaz bir vəhdət yaradırdılar.

Uzaq tunc dövrü abidələrilə məşğul olsam da orta əsrlərin gözəl yadigarı olan bu türbənin yanına mən dəfələrlə gəlmişdim və elə tədqiqat mövsümü olmamışdı ki, mən onunla görüşəsi olmayım. Onu seyr etməyi, yanında dayanıb düşüncəli dağlara baxmağı çox xoşlayırdım.

Lakin bu dəfəki gəlişim türbənin çöl divarlarına çızılmış qədim işarələr və rəsmlərlə bağlı idi. Son vaxtlarda bu rəsmlər məni çox maraqlandırmışdı. İndi isə mən dəqiq şəkildə onların surətini kağızlara köçürtməli idim. Elə bu məqsədlə də özümlə çoxlu kömür və iri kağız vərəqələri götürmüşdüm. İş o qədər də çətin deyildi. Kağızı rəsmin üzərinə qoymalı və onun üstünü kömürlə qaralamalı idim. Belə elədikdə rəsm və ya işarənin yeri kağızın üzərində ağ qalırdı və aydın bilinirdi.



Günəş yavaş-yavaş yuxarı qalxırdı. Mən artıq işə başlamışdım. Tələsmədən çalışırdım.. Əl-qolum, üst-başım ovulub-tökülən kömürdən qaralmışdı. İşarə və rəsmlər isə bitmək bilmirdi. Türbənin

divarları əl çatan yerə kimi bu cür təsvirlərlə doldurulmuşdu. Ölçücə o qədər də böyük olmayan bu təsvirlər əsasən iribuynuzlu keçi rəsmlərindən və ya həndəsi fiqurlardan ibarət idi. Lakin onlarla yanaşı üç qolu olan dairə və düzbucaq rəsmləri daha çox gözə dəyirdi. Onların bəzisinin içərisinə keçi rəsmi və ya nöqtə həkk olunmuşdu. Maraqlı idi ki, damğalar adlanan belə işarələrə Qobustanın, Şamaxı və Abşeronun orta əsr abidələri üzərində də təsadüf edilmişdi. Bu cür işarələr vaxtilə maldar tayfalara məxsus olmuş, onların məişət və təsərrüfatında xüsusi mülkiyyət nişanəsini təmsil etmişdi. Müəyyən vaxtlarda isə belə işarələrdən dini mərasimlər zamanı istifadə olunmuşdu. Müqəddəs yerləri ziyarət edəndə və ya dəfn mərasimində bilavasitə belə damğa işarələr həmin yerin divarlarına, eləcə də qəbir daşlarına çəkilmişdi.

Mirəli türbəsinin də divarları üzərində müxtəlif damğa və ya işarələrin olması tamamilə təbii və qanunauyğun bir hal idi. Belə ki, ətraf yerlərdə məskənləşmiş maldar tayfalar əsrlər boyu öz saysız-hesabsız sürülərini türbənin aşağısından keçən yol ilə gah dağlara, gah da Mil düzündəki qışlaqlara sürmüşdülər. Çox güman ki, belə vaxtlarda onlar əmin-amanlıq naminə bu türbənin divarlarına öz ulu babalarının müqəddəs nişanələrini həkk etmişdilər. Əlbəttə, bu işarələrin vəzifəsi və mahiyyəti təkcə göstərilənlərdən ibarət deyildi. Ötən əsrlər onları arxada qoymaqla yanaşı həm də sirli etmişdi. Lakin bir məsələ aydın idi ki, belə işarələrin tədqiqilə Azərbaycanın orta əsr tarixinin bir sıra iqtisadi və ictimai məsələlərinə cavab tapmaq mümkündü. Elə buna görə də bir neçə saat idi ki, mən yayın belə cırhacırında kömür tozunu uda-uda işləyirdim.

Günortaya yaxın bir qədər dincəlmək qərarına gəldim və bu məqsədlə türbənin gün tutmayan divarı yanında, kölgəli daş səki üstündə oturmaq istədim. Bu hissədə türbənin divarından bir neçə daş qopmuşdu və divarda kiçik dəlik əmələ gəlmişdi. Aydın havada bu deşikdən türbənin daş lövhələrlə hörülmüş dərin sərdabəsini görmək olurdu. Səkinin üstünə oturmazdan əvvəl, sanki, kimsə mənə,- içəriyə bax,- dedi. Aşağıya əyildim və həmin an dik atıldım. Bədənim bir anda gizildədi və məni soyuq tər basdı. Sərdabənin daş döşəməsi üzərində iki gürzə başlarını yuxarı qaldıraraq sanki mənə baxırdılar. Divardan geri çəkildim və ətrafıma boylandım. Hər tərəf kimsəsiz və çox sakit idi. Dövrəmdə yalnız dilsiz-ağızsız qəbir daşları dururdu. Maşın arxamca axşam gələcəkdi. Gün isə ancaq indi yarı olurdu. Mən canımı dişimə tutub yenidən işə girişdim. İndi hər iki-üç dəqiqədən bir divarın uçulmuş yerinə baxırdım və ilanların oradan çıxmasını gözləyirdim. Xoşbəxtlikdən bir müddətdən sonra ilanlar sərdabənin bir küncünə çəkilərək

qıvrılıb yatdılar. Görünür, onlar sərin daş döşəmə üzərində yatmağı çölün cəhənnəm istisinə çıxmaqdan üstün tutdular. Bundan sonra mən bir qədər asudə işlədim, ancaq maşının səsini eşidəndə rahat nəfəs aldım.

*Fizuli bölgəsi, avqust , 1967-cı il*

***İgidləri üçün intizardadır əsir olan uca minarəli türbəm!***

*Hanı dediyim bəy ərənlər!...*
*(Kitabi-Dədə Qordud)*

## UZAQ QƏRİNƏLƏRİN ƏKS-SƏDASI

Bəzən uzun illərin əzablı, yorucu tədqiqatları uğursuz olur, səmərəli nəticə vermir. Bəzən də adi bir təsadüf böyük kəşfə səbəb olur, minilliklərin, qərinələrin gözlənilməyən sirlərini üzə çıxarır. Belə hallarda sanki torpağın özü geniş sinəsini açaraq hər şeyi bilmək istəyən övladlarına qoynunda əbədi yuxuya dalmış ulu babalarından ürək dolusu söhbət açır...

Artıq xeyli vaxt idi ki, Quruçay – Köndələnçay vadisində axtarışlar aparırdıq. Bu keçən müddətdə burada uzaq keçmişə aid onlarca qiymətli abidələr aşkar edilmiş və öyrənilmişdi. Daş dövrünə aid Azıx və Tağlar mağara düşərgələri, mis, tunc, dəmir və antik dövrlərə məxsus Qaraköpəktəpə, Günəştəpə, Meynətəpə, Xantəpə, Zərgərtəpə, Kültəpə kimi qədim abidələrin kəşfindən sonra zənn etmək olardı ki, bu kiçik vadidə bircə qarış da yoxlanmamış torpaq qalmamışdır. Lakin, 1972-ci ilin soyuq noyabr ayında vadidə elmə məlum olmayan qədim və yüksək bir mədəniyyətin izləri üzə çıxarıldı. Füzuli şəhərindən azacıq aralı, Mirzə Camallı kəndi yaxınlığındakı Yedditəpə adlı yerdə zəngin qəbirlər açıldı. Tədqiqatların ilk günü qalın torpaq qatı altından tapılan daş sərdabə öz nəfis və qəribə avadanlığı ilə böyük təəccübə və heyrətə səbəb oldu. Divarları iri sal daşlardan hörülmüş sərdabənin sol tərəfində bükülü vəziyyətdə, üzü gün doğana tərəf çevrilmiş gənc qadın skeleti yerləşirdi. Onun dirsəkdən qatlanmış sol əli qarşısında gildən düzəldilmiş kuzə, bir ədəd gümüş cam və qaşıq qoyulmuşdu. Sol əlin barmaq sümükləri üstündə mirvaridən qaşı olan 2 ədəd bürünc üzük, gicgah sümükləri üzərində isə aypara şəkilli bir cüt sırğa var idi. Bel hissədə kəmərin gümüşdən düzəldilmiş müxtəlif təsvirli gözəl tikmələri qalmışdı. Lakin diqqəti cəlb edən şeylər tək-



cə qeyd olunanlardan ibarət deyildi. Sərdabədə kiçik ölçülü 2 dəmir xəncər və bir nizə də yerləşdirilmişdi. Vaxtilə bir igid qadının sinəsini örtmüş dəmir qalxandan indi ayrı-ayrı qırıqlar qalmışdı. Bütün bu avadanlığa nəinki Azərbaycanda, hətta bütün Qafqaz ərazisində ilk dəfə idi ki, təsadüf olunurdu. Bu cəhətdən yuxarıda adını çəkdiyimiz qaşıq xüsusilə maraqlı idi. Səfər, döyüş yolları üçün nəzərdə tutulan həmin qaşığın dəstəyi açılıb-bağlanırdı və onun üzəri incə kəsmə naxışla bəzədilmişdi.

Sonrakı günlərdə biz burada eyni qədim dəfn mərasimini göstərən 20-dən artıq başqa qəbirlər də aşkar etdik. Onların yalnız ikisi uşaq, əksəriyyəti isə kişi və qadınlara məxsus idi. Bu qəbirlər də iri sal daşlardan düzəldilmişdi, bəzisinin üzəri bir neçə ton ağırlığında olan bütöv daşla örtülmüşdü. Təəccüblü idi ki, bu sərdabələrin tapıldığı ərazidə və onların yaxınlığında daş yataqları yox idi. Görünür ki, qəbirlərin üzərini örtən bu daşlar vaxtilə on beş, iyirmi kilometr uzaqda olan qayalıqlardan buraya gətirilmişdi.

Sonradan aşkar edilən yeni qəbirlər də müxtəlif və zəngin avadanlığı ilə seçilirdi. Onların içərisində mis, gümüş, gil və şüşə qablar, saysız-hesabsız bəzək şeyləri, silah nümunələri və sairə var idi.

Gənc bir döyüşçüyə aid qəbirdən tapılan dəmir qılıncın uzunluğu bir metrdən artıq idi. Bu qılıncın üstündə ağac qının izləri qalmışdı. Bundan başqa burada bir neçə xəncər, nizə ucluqları və bir ədəd dəmir balta da var idi.

Qəbirlərin birindən tapılan kiçik ölçülü şüşə cam bir neçə əsr torpaq altında qalmasına baxmayaraq öz şəffaflığını və gözəlliyini itirməmişdi. Onun oturacağı böyük ustalıqla çiçək şəklində qabarıq naxışla bəzədilmişdi. Öz formasına görə Azərbaycanda ilk tapıntı olan bu qədim maddi mədəniyyət nümunəsi əsl sənət əsəri hesab oluna bilərdi. Qəbirlərin çoxunda təsadüf olunan yaylı döş sancaqları da öz nəfisliyi və gözəlliyi ilə seçilirdi. Mis və gümüşdən düzəldilmiş bu sancaqların ensiz səthi kəsmə üsulu ilə incə naxışlarla örtülmüşdü. Qəbirlərdə təsadüf olunan kəmərlər də belə oxşar naxışlarla bəzədilmişdi. Bu kəmərlərin toqqalarının da üzərində çox gözəl fiqurlar və rəsmlər verilmişdi. Misdən olan bir toqqanın üzəri isə kiçik ölçülü maral heykəli ilə bəzədilmişdi. Onun uzunluğu 3 sm-dən artıq deyildi. Qəbirlərdən tapılan



belə qədim incəsənət nümunələri çox idi. Onların içərisində dağ keçisi, zebu, qartal fiqurları da var idi. İki qəbirdən qədim musiqi alətlərinin tapılması da çox dəyərli oldu. Dairəvi qoşa mis sinclərdən ibarət olan bu alətlər xalqımızın qədim musiqi tarixinə dair yeni və əhəmiyyətli elmi dəlillərdir.

Qəbirlərdən tapılan bəzək şeyləri çox olmaqla yanaşı, eyni zamanda müxtəlif və rəngarəng idi. Təkcə bir qəbirdə səpələnmiş halda 10-dan artıq mis və gümüş üzüyə, bir bu qədər də sırğaya təsadüf edildi. Görünür, onların hamısı dəfn mərasimi zamanı mərhumun qohum və tanışları tərəfindən qəbrə bəxşiş kimi atılmışdı.

Bəzi qəbirlərdə metal bəzəklərlə yanaşı təbii şəvə və şüşə muncuqlara, qiymətli dağ süxurundan və hətta yaqutdan bəzək nümunələrinə də təsadüf olunurdu. Tapılan üzüklərin əksəriyyətinin qaşı müxtəlif təsvirli kiçik möhürlərdən ibarət idi. Üzüklərdən birinin şüşə qaşında ikibaşlı qartal təsviri nəqş edilmişdi. Bütünlüklə şəffaf dağ suxurundan yonulmuş başqa bir üzüyün üst hissəsində isə əllərini yuxarı qaldırmış uzun əbalı kahin təsviri verilmişdi. Qırmızı rəngli əqiq daşından kəsilmiş yarımdairəvi bir möhürün üzərində mikroskopik ölçüdə şir başı təsviri və sasani yazısı həkk olunmuşdu. Ortasında sap üçün deşiyi olan bir möhür dəfn olunanın döş sümükləri arasında yerləşirdi. Şəxsi mülkiyyətçilik hüququnu təsdiqlətmək, nişanlamaq üçün istifadə olunmuş bu möhür çox güman ki, vaxtilə varlı olmuş ölənin boynundan asılıbmış. Vəhşi heyvan təsvirləri şüşə qaşlı üzüklərdə də verilmişdi. Bunların içərisində maral təsvirləri daha çox idi.

Qazıntı zamanı silah nümunələrinə iki uşaq qəbrindən başqa demək olar ki, bütün qəbirlərdə rast gəlinirdi. Hər qəbirdə, onun kişiyə və yaxud qadına aidliyindən asılı



olmayaraq ən azı üç silah nümunəsinə təsadüf edilirdi. Bunlar, müxtəlif ölçülü dəmir bıçaq və xəncərlərdən, gödək qılınclardan, nizə və hərbi baltalardan ibarət idi. Xəncər və qılıncların bir qisminin dəstək və qınları mis və gümüş lövhəciklərlə bəzədilmişdi. Maraqlıdır ki, qadına məxsus bir qəbrə silah nümunələrilə yanaşı bilavasitə qadın məşquliyyəti üçün lazım olan sümükdən yonulmuş əyircək də qoyulmuşdu.

Yedditəpədə aşkar edilən maddi mədə-

niyyət nümunələrinin sayı 500-ə yaxındır və onların hər biri xalqımızın unudulmuş qədim sənət və mədəniyyət salnaməsini öyrənmək, bərpa etmək üçün qiymətli mənbədir.



Bu tapıntılarla uzaq əsrlərin arxasında itib-batmış qədim və olduqca rəngarəng bir mədəniyyətin nişanələri yenidən üzə çıxarılmışdı. Məhz buna görə Moskvada keçirilən Şərq ölkələri incəsənəti və arxeologiyasına həsr olunmuş elmi konfransda Yedditəpə tapıntıları haqqında oxunan məruzə böyük maraq doğurmuş və həmin tapıntılar mütəxəssislər tərəfindən yüksək qiymətləndirilmişdir. Konfrans zamanı tapıntıların bir qismi Şərq xalqlarının incəsənəti muzeyində müvəffəqiyyətlə nümayiş etdirilmişdi.

Yedditəpədən əldə edilmiş qiymətli maddi mədəniyyət nümunələri üzərində ilkin elmi-tədqiqat işləri artıq başa çatdırılmışdır. Açılmış qəbirlərin dövrü dəqiq öyrənilmiş və onların V-VI əsrlərə aid olduğu müəyyənləşdirilmişdir. Eyni zamanda bu qəbirlərin həmin dövrdə Quruçay və Köndələnçay vadisində yaşamış yerli əhaliyə məxsus olduqu da aydınlaşdırılmışdır. Maraqlıdır ki, bu yerlərin döyüşkən ruhlu, həm də yüksək mədəniyyətə malik qədim sakinləri Sasani İranı, Bizans və hətta Uzaq Roma ilə sıx iqtisadi-mədəni əlaqələrdə olmuş və dövrün mədəni nailiyyətlərindən baçarıqla istifadə etmişdilər. Yeni tapıntılar əsasında müəyyənləşdirilmişdir ki, Azərbaycanın Arazboyu yerlərinin sakinləri də dəfələrlə hunların, xəzərlərin hücumlarına məruz qalmış, lakin ağır qurbanlar bahasına onları dəf edə bilmişdilər. Qəbirlərdə əbədi uyumuş bir çox gənc döyüşçü - oğlan və qızlar güman ki, həmin qurbanlardan olmuşdu. Skeletlərin ayrı-ayrı sümükləri və bəzi kəllələr üzərində qalmış qılınc, ox və nizə çapıqları bunu əyani sübut edir.



*Fizuli bölgəsi, noyabr, 1972-ci il.*

*Ala çinar, yazıq anam, bəxti qəm*
*Bilirdimi, mən səninlə həmdəməm.*
*(Osman Sarıvəlli)*

## ÇİNARLAR

Füzulidən Beyləqana gedənlər Köndələnçayın sağ sahilində ucalan bu nəhəng çinarları yəqin ki, görüblər. Yaxın gəldikdə burada beş iri çinarın qol-qola verdiyini görürsən. Bu qollu-budaqlı çinarları mən çox sevirəm.

Hər dəfə yolum bu yerlərə düşəndə ilk növbədə onlarla görüşməyə tələsirəm. Onların həzin və kövrək mahnısını dinləməkdən usanmıram. Çinarlar... Əzəmətli, vüqarlı çinarlar. Mən bu çinarları ilin bütün fəsillərində görmüşəm. Hər dəfə də onların möhtəşəmliyinə və gözəlliyinə heyran qalmışam.

Kimin yadigarlarıdır bu çinarlar?

Qəribədir, onlardan azca aşağıda bir-birindən aralı beş təpə vardır. O yerlərin, obaların əhalisi bu təpələri Şomulu təpələr adlandırırlar. Lakin az adama bəllidir ki, həmin təpələrin altında uzaq minilliklərin məskən yerləri yatır. Onların nə az, nə çox - beş min il yaşı vardır. Vaxtilə ulularımız bu yerlərdə ocaq tüstülətmiş, ağır daş toxalarla yer şumlamış, gil qablar bişirmiş, mis döymüş, günəş və odu müqəddəs saymışdılar.

Kim bilir, bəlkə bu beş çinarın ulu babaları bütün bunların şahidi olmuşdur. Bəlkə də buna görə çinarların yarpaqlarının xışıltısında indi uzaq qərinələrin əks-sədası səslənir.

*Fizuli bölgəsi, oktyabr, 1965-üi il.*

***Yadda saxla, hələ də***
***düşmən tapdağı altındadır bu yerlər***
***Görən indi xan çinarlar dururmu?***



*Uca-uca dağlar qaldı,*
*Gülü solmuş bağlar qaldı.*
*(Tahir və Zöhrə dastanından)*

## ULU DAĞLARIN DAŞ SALNAMƏSİ

Qədim maddi mədəniyyət abidələrinin çox maraqlı və elmi əhəmiyyətli qismini qayaüstü rəsmlər, təsvirlər təşkil edir. Uzaq minilliklər arxasında yaradılmış bu təsvirlər ibtidai incəsənət nümunələri olmaqla yanaşı ulu əcdadlarımızın məişət və təsərrüfatını, mədəniyyət və dünyagörüşünü əks etdirən qiymətli tarixi mənbələrdir.

İnsan dünyaya göz açdığı gündən ətrafdakı hadisələrə maraq göstərməyə, həyatın qəribə, sonsuz sirlərini öyrənməyə cəhd göstərmişdir. Lakin o, təkcə bununla kifayətlənməmiş, görüb-eşitdiklərini, keçirdiyi hissləri, qəlbindəki duyğularını, əməllərini qaranlıq mağara divarlarında, əks etdirməyə çalışmış, ibtidai fırçalarla, daş və metal alətlərlə sərt qayalar üzərində özünün ilk salnaməsini yazmışdı. Elə buna görə də qayaüstü rəsmlərə yer kürəsinin müxtəlif yerlərində - Pamir və Tyan-Şan dağlarında, İspaniya və Skandinaviyada, Kareliya və Sibirdə, Orta Asiya və Saxara səhrasında təsadüf olunmuşdur. Cənubi Qafqaz ərazisində qədim qayaüstü rəsmlərin ilk nümunələri hələ müharibədən əvvəlki illərdə respublikamızın ərazisində – Qobustanda tapılmışdı. Müharibədən sonrakı illərdə Azərbaycanın tanınmış apxeoloqu İshaq Cəfərzadə tərəfindən Qobustanda beş mindən artıq müxtəlif təsvirlər aşkar edilmiş və öyrənilmişdi. Elə Qobustanın zəngin təsvirlərinə görə Azərbaycan bütün Qafqazda qayaüstü rəsmlərin vətəni kimi şöhrət





qazanmışdır.

Hal-hazırda Azərbaycan ərazisində qədim qayaüstü təsvirlərin coğrafi xəritəsi xeyli genişlənmişdir. Abşeron yarımadasında, Naxçıvanın yüksək dağlıq bölgəsində - Gəmi-qayada, eləcə də güllü-çiçəkli Kəlbəcər yaylaqlarında xeyli sayda yeni qayaüstü təsvir-lər aşkar edilmişdir.

Kəlbəcərin qədim qayaüstü təsvirlərinin qeydə alınması və öyrənilməsi 1968-ci ildə başlanmışdır. Sonrakı illərdə bu əlçatmaz dağlıq bölgədə küllü miqdarda qayaüstü təsvirlər üzə çıxarılmış və öyrənilmişdir.

Füsunkar Dəlidağ haqqında çoxlu şeirlər yazılmış, mahnılar bəstələnmişdir. Bu şeir və mahnılarda Dəlidağın səfalı yaylaqları, zümrüd rəngli otlaqları, isti suları, durnagözlü bulaqları və gölləri vəsf edilmişdir. Lakin az adama məlum olmuşdu ki, Dəlidağın bütün bunlardan başqa sirli bir xəzinəsi, qayalarda çapılmış böyük bir daş salnaməsi də var. Az adam bilmişdi ki, bu qiymətli salnaməni hələ bir neçə min il bundan əvvəl Dəlidağın qoynunda yurd salan ulu babalarımız yazmış və misilsiz əmanət kimi ona tapşırmışlar. Düz ilqarlı Dəlidağ isə övladlarının bu müqəddəs əmanətini öz qoynunda gizlədərək minilliklərin qasırğa və tufanlarından keçirmiş, nadir mənəvi sərvət kimi yeni nəsillərə ərmağan etmişdir.





İlk tədqiqat zamanı Dəlidağda vur-tut on gün qala bildim. Lakin bu on gündə on ildə görmədiklərimi gördüm. Sultanheydər aşırımından keçdim, Gəlin qayadı, Lülpərdə və Qəhrəmanbəytəpədə oldum. Qaragölün, Zalxagölün soyuq sularına əlimi saldım. Pəriçınqılını aşdım, Ayı çınqılında dumana, çənə düşdüm. Keçəl dağdan şəvə kimi qapqara olan dəvəgözü yığdım. Hər yerdə də ulu babalarımın nişanələrini, imzalarını gördüm. Qəribəliklərlə dolu bu on gün sanki bir anda keçdi. Amma bu bir anda elə bil beynimə min bir səhifəli salnamə həkk olundu.

Dəlidağdan qayıdanda artıq duman-çən geri çəkilmişdi. Günəş hər yeri – sıra dağları, yaşıl çəmənləri, alqırmızı qayaları işığa bürümüşdü

Mən özümlə Dəlidağın bu böyük xəzinəsinin yalnız kağızlara köçürülmüş surətlərini aparırdım. Ulu Dəlidağ müdrik, düşüncəli baxışla məni yola salırdı.

*Üzü bəri baxan dağlar*
*Mənim səndə nəyim qaldı...*

misraları ixtiyarsız təkrar-təkrar qulağımda səslənirdi.

Azərbaycanın vaxtiləgözəl guşəsi olan Kəlbəcər geoloji cəhətdən dördüncü dövrün daşlarından yaranmışdır. Milyon illər ötdükcə ayrı-ayrı yerlərdə daş örtüyü təbiət qüvvələrinə məruz qalaraq parçalanmış və geniş sahələri tutan çınqıllıqlar əmələ kətirmişdir. Maraqlıdır ki, ulu babalarımız öz rəsmlərini məhz belə çınqıllıqlardakı möhkəm bazalt daşlar üzərinə həkk etmişlər.

Yeni rəsmlərin çoxu dəniz səviyyəsində iki-üç min metrdən artıq yüksəklikdə yerləşən Zalxagölün və Qaragölün sahillərində tapılmışdır. İlk tədqiqatlarda belə rəsmlərin Ayıçınqılı, Pəriçınqılı və Taxta adlanan yerlərdə də olması aydınlaşdırılmışdır. Açıq səma altında yerləşən bu qeyri-adi şəkil qalereyalarında minlərlə qədim təsvirlər üzə çıxarılmışdır. Təkcə Qaragöl yaxındığındakı çıpqıllıqda 800-ə yaxın təsvir qeydə alınmışdır.

Kəlbəcərdə aşkar edilən qayaüstü rəsmlər hər şeydən əvvəl mövzu rəngarənkgliyi, zəngin süjetləri və böyük bədii dəyəri ilə diqqəti cəlb edirlər. Bu yerlərin qədim sakinləri ibtidai daş alətlərdən istifadə etməklə möhkəm qayalar üzərində məişət və təsərrüfat səhnələrini, müxtəlif vəhşi heyvanları təsvir edən közəl rəsmlər çəkə bilmişdilər.

Maraqlıdır ki, bu rəsmlərin müəyyən bir qismi qədim əkinçilik məşğuliyyətini əks etdirir. Ayrı-ayrı daşlar üzərində öküzlərə qoşulmuş ibtidai xışla yerin şumlanması, taxılın biçilməsi və döyülməsi kimi səhnələr, çiyiində toxa tutmuş adam təsviri və s.

verilmişdir. Ümumiyyətlə, belə maraqlı səhnələr çoxdur. Bəzi daşlar üzərində isə ən qədim nəqliyyat vasitələrini göstərən rəsmlər tapılmışdır. Bunlar ikitəkərli arabalardan ibarətdir.

Yeni tapılmış qayaüstü rəsmlər içərisində qədim ovçuluğa aid səhnələr də az deyildir. Bunların böyük bir qismində ox və kamanla dağ keçilərinin və maralların ovlanması təsvir edilmişdir. Rəsmlərin diqqəti cəlb edən başqa bir hissəsini vəhşi və yırtıcı heyvan təsvirləri təşkil edir. Bunların içərisində maral, dağ keçisi, canavar, bəbir kimi heyvanların təsvirləri daha çoxdur. Bir sıra daşlar üzərində yırtıçı heyvanlar tərəfindən dağ keçilərinin təqib olunması və ovlanması səhnələri həkk olunmuşdur. Bu çür təsvirlərdə vəhşi heyvanların bütün fərdi xüsusiyyətləri öz əksini tapa bilmişdir. Kəlbəcər ərazisində - Dəlidağda nəsli çoxdan kəsilmiş bəbir təsvirləri bu cəhətdən xüsusilə seçilirlər. Onların yığcam, lakin olduqca canlı təsviri adamı heyran edir. Aydın olur ki, bu yerlərin qədim adamları onları əhatə edən yırtıcı heyvanların bütün xüsusiyyətlərinə, vərdişlərinə çox yaxşı bələd imişlər. Şübhəsiz, bu hər şeydən əvvəl onların ovçuluq məşğuliyyətindən irəli gəlmişdi.

Yeni tapılan qayaüstü təsvirlərdə ulu babalarımızın dini təsəvvür, mərasim və etiqadlarına aid maraqlı səhnələrə də təsadüf olunmuşdur. Ayrı-ayrı daşlar üzərindəki kütləvi rəqs səhnələri, rəmzi öküz təsvirləri, mücərrəd işarələr qeyd etdiklərimizə əyani nümunələrdir.

Kəlbəcərdə tapılmış qədim qayaüstü təsvirlərin tarixi və bədii əhəmiyyəti olduqca böyükdür. Lakin bu təsvirlər təkcə tarixçilər və sənətşünaslar üçün yox başqa elm sahələrinin mütəxəssisləri- paleontoloqlar, geoloqlar, botaniklər, zooloqlar, torpaqşünalar üçün də qiymətlidir, zəngin tədqiqat mənbəyidir.

İlk tədqiqatlarla artıq bu qədim təsvirlərin dəqiq yaşı da müəyyənləşdirilmişdir. Öyrənilmişdir ki, bu təsvirlərin böyük hissəsi tunc dövrünün başlanğıcında- eramızdan əvvəl IV-III minilliklərdə çəkilmişdir. Bizim eradan əvvəl II-I minilliklərdə burada daha mürəkkəb kompozisiyalı lövhələr yaradılmışdı.

Əhəmiyyətli cəhətlərdən biri də ondan ibarətdir ki, 1976-cı ilin tədqiqatları zamanı ilk dəfə olaraq Azərbaycanın belə yüksək dağlıq zonasında eramızdan əvvəl III minilliyə aid qədim yaşayış yerinin qalıqları da aşkara çıxarılmışdır. Tərtərçayın hündür sol sahilində geniş bir sahəni tutan bu yaşayış yerində diametri 20 metrdən aqtıq olan dairəvi biçimdə möhtəşəm tikinti qalığı üzə çıxarılmışdır. İçəri hissədə mürəkkəb quruluşa

malik olan bu tikintinin divarları iri ölçülü qaya parçaları və çay daşları ilə hörülmüşdür. Onun xarici divarlarının qalınlığı 2 metrə çatır. Ətrafındakı böyük daş topalarına əsasən ehtimal etmək olar ki, bu tikintinin divarları bütünlüklə daşdan inşa edilmiş və daşlar bir-birinə gil kütləsilə bərkidilmişdir. Onun döşəməsi və divarları saman qatılmış palçıqla suvanmışdı.

Tədqiqat zamanı bu tikintinin ətrafında nisbətən kiçik ölçülü başqa tikinti qalıqlarının olması da aydınlaşdırılmışdır. Bunlar da dairəvi şəkildədir. Lakin yuxarıda təsvir etdiyimiz möhtəşəm tikintidən fərqli olaraq onların divarları yalnız bir sıra daşlardan düzülmüş, ümumi sahələri isə çox kiçikdir. Onların diametri 4 metrdən artıq deyildir. Qeyd etmək lazımdır ki, dairəvi tikintilər ilk tunc dövründə istər Cənubi Qafqaz, istərsə də qədim Şərq ölkələrində geniş yayılmış tikinti forması olmuşdu. Kiçik ölçülü belə binalardan bir qayda olaraq yaşayış üçün istifadə edilmişdir. Lakin maraqlı cəhət ondan ibarətdir ki, heç bir yerdə Kəlbəcərdə yeni aşkar edilmiş tikinti qədər möhtəşəm divarlı tikintiyə təsadüf olunmamışdır. Güman etmək mümkündür ki, bu tikinti qüdrətli bir tayfaya məxsus ictimai bina olmuşdu. Əmin-amanlıq dövründə burada tayfanın dini və ictimai mərasimləri keçirilmiş, təhlükə zamanı isə o alınmaz istehkama çevrilmişdi. Tikintinin ətrafında aparılmış kəşfiyyat qazıntısı zamanı da maraqlı elmi dəlillər əldə edilmişdir. Buradan eramızdan əvvəl III minilliyə aid gil qab parçaları və daşdan düzəldilmiş əmək alətləri, silah nümunələri tapılmışdır. Əmək alətləri əsasən dən daşları, oraq dişləri və bıçaqlarla təmsil olunmuşdur. Silah nümunələri isə kiçik ölçülü ox ucluqlarından ibarətdir. Bunlar Kəlbəcər dağlarında geniş yataqları olan dəvəgözü daşından hazırlanmışdır. Qab qırıqlarının çoxu qeyd etdiyimiz



minillikdə yerli əkinçi-maldar tayfalarının məişətində, təsərrüfatında işlədilmiş cilalı kuzələrə, camlara, xeyrələrə, sərniclərə, qazan və nehrələrə, iri ölçülü küplərə aiddir. İndiyə qədər belə qablara və yaxud onların qırıqlarına yalnız dağətəyi və düzən ərazilərdəki qədim yaşayış yerlərində təsadüf olunmuşdu.

Yüksək dağlıq zonada dulus məhsulları istehsalının genişləndirilməsi və dulusçuluğün yüksəlişi, şübhəsiz, ilk tunc dövründə əkinçilik və maldarlığın ümumi inkişafından irəli gəlmiş, bilavasitə bu mühüm təsərrüfat sahələrinin tələbatını ödəməyə yönəldilmişdi. Məhz bu dövrdə ilk dəfə olaraq südçülük təsərrüfatı ilə əlaqədar nehrələr, süzkəçlərdən ibarət xüsusi gil qablar meydana çıxmışdı.

Yeni aşkar edilən qədim yaşayış yeri və oradan tapılan maddi mədəniyyət nümunələri də qayaüstü rəsmlər kimi böyük elmn əhəmiyyət kəsb edir. Bütün bunlar ümumilikdə qədim tunc dövrünə, həmin dövrdə yaşamış əkinçi-maldar tayfaların iqtisadi və ictimai həyatına dair qiymətli tarixi mənbələrdir. Bu yeni arxeoloci dəlillər əsasında məlum olmuşdur ki, eramızdan əvvəl III minilliyin birinci yarısında – tunc dövrünün başlanğıcında Azərbayçan ərazisində məhsuldar qüvvələrin inkişafında əhəmiyyətli dəyişikliklər əmələ gəlmişdi. Məhz bu dövrdə əkinçilik və maldarlıq təsərrüfatın əsas istehsal sahələrinə çevrilmişdi. Lakin maldarlıq təsərrüfatının sürətli inkişafı istər-istəməz geniş və zəngin otlaqlara malik olan yüksək dağlıq bölgələrinin mənimsənilməsi zərurətini doğurmuş və bu yerlərdə daimi yaşayış məskənlərinin salınmasına səbəb olmuşdu. Xırda buynuzlu mal-qaraya əsaslanan maldarlıq təsərrüfatının yüksəlişi ictimai münasibətlərdə də böyük dəyişikliklər yaratmışdı. Maldarlığın inkişafı ilə izafi məhsulların miqdarı artmış, ayrı-ayrı tayfalaın, tayfa başçıları və əyanlarının əlində böyük sərvətlər cəmlənmişdi. Maddi sərvətlərin çoxalması isə öz növbəsində tayfalar arasındakı toqquşmaların artmasına səbəb olmuş, bu toqquşmalara qarətçi mahiyyət vermişdi. Belə bir şəraitdə qədim yaşayış yerlərində möhtəşəm divarlı qalaların inşa edilməsinə başlanılmışdı. Kəlbəcərdə tapılmış qədim tikinti məhz bunun əyani nümunəsidir.

Göründuyü kimi, ilk tədqiqatlarla Kəlbəcər bölgəsində xalqımızın uzaq keçmişinə aid qədim və zəngin mədəniyyət izləri aşkara çıxarılmışdır. Buna görə də Azərbayan Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya bölməsi ilə Azərbaycan Dövlət Universitetinin birgə ekspedisiyası bu ərazidə arxeoloji tədqiqatları daha da genişləndirməyi qərara almışdır. Şübhə yoxdur ki, yeni tədqiqatlar zamanı burada daha qiymətli maddi mədəniyyət abidələri aşkara çıxarılacaqdır. Lakin onu da qeyd etməliyik





ki, Kəlbəcər rayonundakı tarixi abidələrin də qayğıya ehtiyacı vardır. Tədqiqatlar zamanı biz ən ucqar yerlərdə belə bir sıra qiymətli abidələrin, qədim qayaüstü təsvirlərin üzərinin ayrı-ayrı adamlar tərəfindən cızma-qaralarla doldurulmasının şahidi olduq. Belə vəziyyətdə yerli, eləcə də yay aylarında Kəlbəcər yaylaqlarında istirahət etməyə gələn müəllimlərin və digər ziyalıların üzərinə böyük məsuliyyətli iş düşür. Onlar vaxtaşırı məktəblilər və geniş kütlə arasında ulu babalarımızdan miras qalan tarixi abidələrin bədii dəyəri və elmi əhəmiyyəti haqqında söhbətlər aparmalı, bununla da misilsiz sərvətlərin toxunulmazlığını təmin etməlidirlər.

*Avqust 1977-ci il*

***Düşmən tapdağı altındadır, mənim uca dağlarım,***
***Daş səhifəli ulu salnamələrim.***

*__Gedənim gedibdir, gələnim yoxdur.__*
*Xalq mahnısından.*

## ABŞERONUN TACI

Biz bu qədim qəbiristanlığın geniş qapısından içəri girən vaxt gün artıq yarıdan keçmişdi. Günəş qərbə əyilsə də sanki göydən asılı qalmışdı. Elə bil öz sönük şüaları ilə yeri və göyü solğun bir rəngə boyamışdı. Uzaqda, bağların arxasında görünən Xəzər də öz maviliyini itirərək qurğuşun ərintisini xatırladan cansız bir lehməyə çevrilmişdi.

Bü səfərə biz üçlükdə çıxmışdıq: Azərbaycan təbiətinin vurğunu, dünya şöhrətli, istedadlı rəssam Səttar Bəhlulzadə, ömrünü yurdumuzun tarixi yadigarlarının öyrənilməsinə həsr etmiş arxeoloq-alim Qardaşxan Aslanov və ulularının keçdiyi yolun təzə yolçusu olan - mən. Biz Xəzərin qumlu sahillərindəki qədim yurd yerlərini, evləri çoxdan uçub-dağılmış köhnə bağları gəzirdik. Tağlı və kümbəzli qədim binaları, möhtəşəm qalaları, son günlərini yaşayan yel dəyirmanlarını, beli bükülmüş qocaları xatırladan irigövdəli tut ağaclarını böyük məftunluqla seyr edirdik.



Bütün bünlar Abşeron torpağının təkrarolunmaz bir gözəlliyi idi. Son vaxtlar isə bu qeyri-adi gözəllik aləmi daha da zənginləşmişdi. Hal-hazırda yol yoldaşımız, eləcə də bələdçimiz olan təcrübəli arxeoloq bir neçə il əvvəl buradakı qızıl qumlu təpələrin altından qədim dünyanın xəzinəsini üzə çıxarmışdı. O, burada uzaq tunc dövrünün yaşayış yerlərini, zəngin qəbir abidələrini, sirli ibadətgahlarını, sal daşlara həkk olunmuş salnamələrini aşkara çıxarmış, qəribə ziynət şeyləri, gil qablar, daş və sümükdən, mis və tuncdan hazırlanmış müxtəlif əmək alətləri, silah nümunələri tapmışdı. Uzun və nazik qollarını sinəsi üstündə çarpazlaşdıran rəssam isə indi bu qədim və misilsiz yadigarlara sonsuz bir heyranlıqla baxarkən çöhrəsində qeyri-adi bir ifadə əks olunurdu. Gözlərinin dərinliyinlərindən qəribə bir işıq süzülürdü. Sanki, onun özü də keçmişin bu müqəddəs əmanətlərinə qaynayıb-qarışmaq istəyirdi...



Qəbiristanlıq, yaxınlıqdakı kəndin özü qədər qədim idi, lakin hal-hazırda da ondan istifadə olunurdu. Vaxtilə o, kəndin qərbindəki yastı, üstü sal qayalarla örtülmüş kiçik bir təpədə salınmışdı. Sonralar isə xeyli böyümüş, genişlənmiş, təpədən kənara çıxmış və kəndə yaxınlaşmışdı. Hündür daş hasarla əhatə olunmasaydı, bəlkə də çoxdan kəndlə qovuşmuşdu. Ulu kənd də, məzarlıq da mənim üçün çox əziz idi. Onların hər ikisi ikidünyalı babamın, vaxtlı-vaxtsız dünyasını dəyişən yaxınlarımın vahid məkan yeri idi.

Əski qəbiristanlığın ən hündür yerində yonulmuş ağ daşlardan tikilən, yaşı bilinməyən bir türbə ucalırdı. Onun kümbəzi bütünlüklə uçmuş, içərisinə çökmüşdü. Mən hələ lap uşaq ikən qədim türbəni bu vəziyyətdə görmüşdüm. O vaxtdan aylar, illər ötsə də türbə yenə öz əvvəlki acınacaqlı vəziyyətində qalmışdı. Lakin ilkin vaxtlardan fərqli olaraq son illərdə onun divarına mühafizə olunması haqqında xəbərdarlıq lövhəsi vurulmuşdu...

Türbənin aşağı hissəsindəki sahə başdan-başa qədim məzar daşları ilə örtülmüşdü. Onların bəzisi adi boz qaya parçalarından, bəziləri isə mahir sənətkarlar tərəfindən yonulmuş, kəsmə naxışlarla bəzədilmiş daş sənduqələrdən, hündür baş daşlarından ibarət olmaqla nağıllardakı kimi tilsimlənmiş, daşa çevrilmiş dilsiz-ağızsız, hərəkətsiz adamları xatırladırdı. Biz tələsmədən, danışmadan bu daşların arası ilə addımlayır, gözümüzə dəyən hər bir yazını oxuyurduq. Qəribə idi ki, köhnə qəbirlərdən azca aşağıda, hamar sal qayalıqda düz gündoğandan günbatana gedən qədim bir yol da uzanırdı. Bu yoldakı sal qayalar üzərində araba təkərlərinin dərin izləri qalmışdı. Yol qalmışdı, arabalar isə artıq yox idi. Düşüncələr içərisində bir anlığa mənə elə gəldi ki, gördüyümüz qədim qəbir daşlarının altında heç kəs yoxdur. Onların sakinləri bir vaxt bu daşları miras qoyaraq qoşatəkərli arabalarda qızılı günəşə doğru yüksəlmiş, göyün





ənkinliklərində ulduzlarla qaynayıb-qarışmışdılar. Bəlkə də əksinə, günəş qürub edərkən onlar öz arabalarını bu yolla sürmüş, sabah birgə qayıtmaq üçün ona qoşulmuşdular. Sanki buna görə qəbiristanlığın hündür daş divarı arxasında olan kənd də, onun ortasında ucalan möhtəşəm qala da qədim görkəmini, yerini dəyişmədən hələ də yaşayırdı, elə bil köçüb-getmiş övladlarını gözləyirdi...

Əlbəttə, onlar nə göyə qalxmış, nə də qürub edən günəşə qoşulmuşdular. Həyatın dəyişməz bir hökmü ilə nəsil-nəsil buraya köçmüş və əbədi yuxuya qərq olmuşdular. Anamı da təzəcə bu torpağa tapşırmışdıq və o, artıq ululları ilə qovuşmuşdu.

Biz qəbiristanlıqdan çıxanda günəş aşağı enmişdi, al-qırmızı donunu geyərək qüruba enirdi. Onun parlaq şüaları indi yeri də, göyü də şöləlndirmişdi. Dəniz də minbir rənglə bərq vurur, cilvələnirdi. Əsrlərin, qərinələrin yadigarı olan möhtəşəm qala batan günəşin şəfəqlərilə nura boyanaraq şölə saçırdı. Mən onu heç vaxt belə görməmişdim. İndi onun özünün divarlarından işıq süzülür, qəbir daşlarında əks olunurdu. Rəssama tərəf döndüm. O da yanından dəfələrlə keçdiyi bu sərt görkəmli, qürurlu qalanı sanki ilk dəfə idi ki, görürdü. Onun əlləri əsir, dodaqları nəsə pıçıldayırdı. Bu əbədiyyət nəğməsi, insan qüdrətinin möcüzəsi qarşısında böyük sənətkar sanki sehrlənmişdi, özgə aləmdə idi. O, yalnız günəş batandan, qala zülmətə qərq olandan sonra özünə gələ bildi. Rəssamın dodaqları titrədi:

- Gördünüzmü, o sanki misli olmayan qızıl bir tacdı, hökmən, hökmən mən bu qalanı çəkəcəyəm. Onu qürub edən günəşin şəfəqləri altında çəkəcəyəm. Bu şəkildə yalnız al-qırmızı rənglər sultanlıq edəcəkdir. Mən bu şəkli «Abşeronun tacı» adlandıracağam...

***...kül ələndi başımıza...***
*Şəhriyar.*

## KÖRPÜNÜN KƏDƏRİ

Böyük ədibimiz Məmməd Səid Ordubadinin məşhur «Qılınc və qələm» əsərini oxuyanlar yəqin ki, Xudafərin körpüsünün adına tez-tez rast gəliblər. Qumlaq kəndi yaxınlığında yerləşən Xudafərin körpüsü hal-hazırda Araz çayı üzərində bütöv qalan yeganə qədim körpüdür. Bu körpüdən azca aşağıda ikinci bir körpünün də möhtəşəm xarabalıqları durur. Lakin söhbət bilavasitə hələ də bütöv olan körpü haqqındadır.

Yazıçının ümman qədər geniş yaradıcı təxəyyülü bu körpünü bir daha əbədiləşdirmişdir. O, bu körpüdən rübai ustadı Məhsətini qürbət ellərə yola salmış, saysız-



hesabsız ordular keçirtmişdir. Lakin, bütün bunlar böyük yazıçının təkcə bədii təxəyyülündən doğan hadisələr olmamışdı. Qədim ərəb və fars əlyazmalarına dərindən bələd olan istedadlı yazıçı bu körpünun orta əsrlər tarixində nə kimi mühüm rol oynadığını yaxşı bilmişdi.

Doğrudan da bu dilsiz-ağızsız daş körpü tikildiyi vaxtdan bir sıra böyük tarixi hadisələrin şahidi olmuş, saysız-hesabsız əsrlərin aqır yükunu öz çiynində daşımışdı.

Əsrlər keçmiş, amma o, ölməmişdi, əksinə möhtəşəm, qabarıq sinəsilə minilliklərə meydan oxumuşdu. Yalnız əsrimizin əvvəllərində körpü dövrün sirli bir tilsiminə düşərək birdən-birə donmuş, hərəkətdən qalmışdı. Körpüyə gedən bütün yollar bağlanmış, onun özü insan ayaqlarıpının səsinə, karvan zınqırovlarının həzin cingiltisinə, araba təkərlərinin cırıltısına həmişəlik həsrət qalmış, Araz üzərində əbədi bir yuxuya qərq olmuşdur. Bundan sonra Xudafərin ölü bir körpünün kabusuna çevrilmişdi.

Bu qədim, tilsimli körpünü görmək mənim çoxdankı arzum idi. Arazın özünü yaxından və uzaqdan dəfələrlə görmüşdüm. Onun Govurarxla Milə gələn suyundan da



az içməmişdim. Lakin Arazın sahilinə düşmək, onun qəmli, şikayətlə dolu bayatısını eşitmək uzun müddət mənə müyəssər olmamışdı. Mən onun Xudafərin körpüsü kimi qiymətli yadigarını – daş bilərziyini də görməmişdim.

İndi isə sanki xoş bir röyada idim və hər şey mənə yuxu kimi qəribə və həyəcanlı görünürdü. Xudafərin SES-nin planlaşdırılması ilə əlaqədar payız günlərinin birində məni və bir neçə həmkarımı Arazın sahilinə - körpü olan yerə ezam etmişdilər. Yaxın illərdə bu yerdə böyük su bəndinin ucaldılması və dəryaça yaradılması planlaşdırılmış və buna müvafiq gələcəkdə su altında qalacaq abidələrin indidən öyrənilməsi məsələsi ortalığa çıxarılmışdı. Bu bəndin çəkilişi ilə Arazın hər iki sahilində min hektarlarla susuz çöllər suvarılacaq, yüzlərcə kənd və obalar işıq alacaqdı. Bununla belə artıq məlum idi ki, böyük iqtisadi-siyasi əhəmiyyətə malik olan bu bəndin çəkilişi ilə bir sıra qədim abidələrimiz istər-istəməz dağıdılacaq, sel-suyun qarşısında yox olacaqdı. Xudafərin körpüsünün özünün də başının üstünü belə bir qorxulu təhlükə almışdı. Ela buna görə də indi biz burada olan bütün abidələri qeydə almalı və onları xilas etmək üçün yollar axtarmalı idik.

Araz sahilinə səfərimiz cəmi on gün çəkdi. Elə ilk 4-5 gündə biz gələcək tikinti sahəsinə yaxın olan yerlərdə qədim və orta əsrlərə aid onlarca qiymətli abidə tapdıq, onları böyük dəqiqliklə xəritəyə saldıq. Xoşbəxtlikdən günlər xoş keçirdi. Bütün günü göyün üzü təmiz olurdu. Payız yarıdan keçsə də çöllərdən əl-ayaq kəsilməmişdi. Bəyaz tarlalar adamların səs-küyülə dolu idi. Yamaclarda isə traktorların səsi dünyanı başına götürmüşdü. Ağacların çoxu yaşıl donunu hələ dəyişməmişdi. Yalnız kövrək qovaq ağaclarının yarpaqları saralmağa, yerə tökülməyə başlamışdı. Qəribə idi ki, onların aşaqı budaqları bütünlüklə çılpaqlaşdığı, şəffaflaşdığı halda yuxarıları hələ də yarpaqlarını saxlamış və bu yarpaqlar payız günəşinin şəfəqləri altıida qızılı çalarlarla titrəşirdi. Hiss olunurdu ki, bunlar da ömrünün son günlərini, bəlkə də son dəqiqələrini yaşayırdı.

Uzaqda görünən Araz gümüş saplardan toxunmuş qurşağa oxşayırdı. O, payız günəşinin sönük şölələri altında şərqə tərəf axırdı. İlin belə gözəl çağında biz Arazın yanına qonaq gəlmişdik. Araza yaxın yerləri ələk-vələk eləsək də biz hələ onun lap sahilinə, körpünün yanına düşməmişdik. Bu yerlər sərhəd xətti olduğundan xüsusi buraxılış vərəqəsini gözləyirdik. Xüsusi buraxılış vərəqəsi isə lap son günlərdə hazır oldu.

Arazın sahilinə – körpünün yanına düşəndə günəş xeyli yuxarı qalxmışdı. Amma Arazın dərəsi hələ də kölgəli, sərin və səssiz idi. Araz özu də sakit və aramla axırdı.

Onun suyu açıq firuzəyi rəngə çalırdı. Təmiz və şəffaf idi. Orda-burda boz qayalar gözə dəyirdi. Bir yerdə isə belə qayalar kiçik adalar şəklində o taya qədər uzanırdı. Yalnız bu yerdə çayın axdığını hiss etmək olurdu. Burada onun suyu qayalara çırpılaraq köpüklənirdi.

Qədim memar körpünün bütün dayaqlarını bu qayalara bənd etmişdi. Nizami dövründən yadigar qalan, bəlkə də onun müqəddəs ayaq izlərini hələ də özündə saxlayan bu körpü göyə çalan möhkəm daşlardan, qaya parçalarından tikilmişdi. Onun gözə dəyən yerləri, aşırımları qırmızı kərpiclərlə haşiyələnmişdi. Bir-birinin ardınca düzülmüş aşırımlar yüngül və olduqca gözəl görünür, körpüyə rövnəq verirdi. Bunlar qırılmaz zəncir kimi hər iki tayı bir-birinə möhkəm bağlamışdı.;

Ulu körpü hələ də çox möhkəm və əzəmətli idi. O bundan sonra da gələn neçə əsrin yükünü daşıya bilərdi. Körpüyə baxdıqca aydın hiss olunurdu ki, ustad memar onu on il üçün yox, qırx il üçün yox, əsrlər üçün, gələcək nəsillər üçün nəzərdə tutmuşdu.

Bəs niyə indi onun hər iki tərəfinə gediş-gəlişin qabağını kəsən sədlər çəkilmişdi? Niyə əlli-altmış addımlıqda olan o tay əlçatmaz bir yerə çevrilmişdi?

O tay... Bu sözdə nə qədər böyük müsibət, qüssə və kədər vardı. O tay dərd idi, qubar idi, acı ümidsizlik idi.

Niyə o tayda çay boyunca uzanan yol körpüdən yan keçirdi, hara isə uzaqlara gedirdi. Yol yüklü atlar, ulaqlar və adamlarla dolu idi. Lakin onların heç biri bu tərəfə dönmürdü, sanki bu həsrətli körpünü görmürdü, hamı başını aşağı dikib körpüdən yan keçirdi.

Beynimə acı və ağır fikirlər hakim olmuşdu. Nəfəsim kəsilirdi. Üstəlik o tayda anamın mənə layla çaldığı doğma bir dildə yanıqlı, şikayətlə dolu mahnı oxuyurdular, ürəyimin açılan yarasına köz basırdılar:

*Dağlardan aşdım, düzə qoymadılar*
*Bəzəndim gəldim, sizə qoymadılar...*

Mahnı Arazın üstündə qanad çalırdı, dağlarda, daşlarda əks olunurdu. Qəribə idi ki, indi bu mahnının əks-sədasında sərhəd itmişdi, körpüdəki sədlər yoxa çıxmışdı. Lakin körpü də, Araz da öz düşüncələrindən ayrılmamışdılar. Mən özüm də ağır düşüncələr dəryasında qalmışdım. Bilirdim ki, saniyələr, dəqiqələr ötəcək və bu mahnı yoxa çıxacaqdı. Bundan sonra isə Arazın o tayı yenə də əlçatmaz bir yerə çevriləcəkdi...

Araz sahilinə olan səfərimdən artıq xeyli vaxt keçmişdir. Keçən müddətdə Arazın sahilindəki qovaqlar neçə dəfə öz donunu dəyişmişdir. Lakin Araz yenə həmin Arazdır. Onun üstündəki körpü də durur.

*Cəbrayıl, Zəngilan, oktyabr, 1974-cü il.*

***Ağlar qalıb körpülərim...***
***Cəbrayılım, Zəngilanım hələ də tapdaq altındadır.***
***İndi körpülərə gedən yollar hər iki tərəfdən kəsilmişdir.***

***Dur ayağa! Ya azad ol, ya tamam yan Azərbaycan (Şəhriyar).***





# TƏPƏLƏR SİRRİNİ VERMİR

## MİLƏ GEDƏN YOL

Neçə il əvvəl Mil düzünə qədəm qoyduğum ilk anlardan da mən beləcə tələsmişdim. O vaxt axtarışlara, indi də yazmağa. Hələ torpağınn qarşısında diz çökməmiş, onunla həmsöhbət olmamış, qoynunda hifz etdiklərindən xəbərsiz minbir həvəs, istəklə işə başlamışdım. Həmin anlardan duymuşdum ki, ürəyimdə nəsə narahat, nəsə sirli, anlaşılmaz hisslər qaynaşır. Bax, indi, bu sətirləri qələmə aldığım bir vaxtda bilmişəm ki, bu istəkdir, sevgidir. Bu iki gəncin, dostun bir-birinə bəslədiyi hissələrdən daha ali, ülvi və əhatəli bir sevgidir.

Yaxasına minilliklərin yadigarları sancılmış, ətirli, bərəkətli Mil düzünə aşiqəm. Ömür dastanında gözəllik, yaşadan Mil düzünə. Özü də bu istək, bu məhəbbət birdənbirə deyil, o torpağı oymaq-oymaq gəzdiyim vaxtlardan qətrə-qətrə, damla-damla ürəyimə axıb, böyüyüb, ucalıb, məni xeyirxah, nəcib işlər, axtarışlar aparmağa ruhlandırıb. O vaxt köksümdə axarını tapmayan bir bulaq kimi coşub-daşıb və nəhayət, yoluna düşüb. Əslində bu yazımın böyük bir hissəsi hələ o vaxt Mil düzünün özündə yazılmışdı. Daha dəqiq desəm, onun əsas səhifələrini çöl-tədqiqat gündəliyimdəki qeydlər təşkil edir.

Milin bütün fəsillərini yaşamışam, ilk tədqiqatlara payızda başlamışam və sanki xanım-xatın bir qızın ağ örpəyinə bürünən qış fəslində isə onu tərk etmişəm. Sonrakı tədqiqatlara təbiətin oyanan, deyib-gülən güllü-yaşıllı baharında başlayıb, qıpqırmızı günəşin ətrafı yandırıb-yaxan yay aylarının sonunda qurtarmışam. Beləliklə, hər fəslin sevincini, kədərini duymuşam, əsrarəngiz rənglərin minbir çalarını görmüşəm. Çöl gündəliyimdə mən müntəzəm qeydlər aparmışam. Lakin bu kitaba gözəl və eyni zamanda narahat hisslər, duyğularla dolu günlərimi salmışam. O günləri ki, gəncliyimin dəli-dolu, çılğın bir ehtirasla tədqiqat axtarışlarına qurşandığım təkrarolunmaz anlarım köçən durna qatarının qanadlarında uzaqlara uçub gedib, mənə xatirələrini ərməğan edib...

Mil düzü qəribə yerdir. Əgər Mildə qulağını torpağa yaxınlaşdırsan, uzaq-uzaq qərinələrin səsini – döyüş meydanında atların ayaq tappıltısını, igidlərin, ərənlərin nərəsini, Qorqud Dədəmin qopuzundan süzülən qəhrəmanlıq dastanını eşidərsən. Dan yeri söküləndə al-qırmızı üfüqlərdən boylanan günəşə baxsan, gur işıq selində quş kimi qanad açan Sevili, Milin yeni həyatını görərsən, əbədiyyət mahnısını eşidərsən.

Milin qəribə təbiəti, zəngin tarixi məni həmişə ulu babalarımın taleyini, minilliklər boyu onların ən böyük sərvəti olmuş torpağın maddi gücünü düşünməyə sövq etdirmiş-

dir. Ulu babalarımın zaman və məkan hüdudlarına sığmayan böyüklüyü, qüdrəti və gücü Milin təbiətində, uzaq keçmişində və bugünündə canlanaraq məni çox düşündürmüşdür.

Mən arxeoloqam. Mildə ulu babalarımın ayaq izini, doğma yurdumun böyük tarixinin itmiş səhifələrini çox axtarmışam. Ucsuz-bucaqsız bu düzü mən addım-addım gəzmişəm. Doğma, ana torpağımın ilk baxışda çox kiçik bir hissəsi olan Milin sinəsi özlüyündə ümman qədər gen, buludsuz səma kimi təmiz və sonsuzdur. Deyirlər, payız vaxtı uzaq ölkələrə tələsən durna qatarları Milin üstündən bir neçə günə keçirlər...

Deyirlər hər axşam, günəş öz al-qırmızı örtüyünü Milin üzərindən çəkən vaxt, Sevil Govurarx tərəf gələr, alın tərini onun suyunda yuyar, sahildə oturub xəyala dalardı. Sakit-sakit axan sular qızı oxşar, onun arzularını qanadlandırardı. Göy üzündə sayrışan saysız-hesabsız ulduzlar isə yerə enər, arxın sularında oynayar, Sevilə sirdaş olardılar. Bu vaxt Milə dərin sükut çökər, torpaq sinə dolusu nəfəs alardı. Çox keçmədən həzin bir bayatı bu sükutu pozardu:

Əzizinəm gül bağlar,
Yarım mənə gül bağlar,
Araz Milə gəlməsə,
Xəzan olar gül bağlar.

Mahnı Milə yayılar, pərvaz edib göylərə uçardı. Axşam mehi çöl otlarının, bəyaz yovşan kollarının xoş-acı ətrini ətrafa yayar, minlərcə cücüləri səsləndirərdi. Bütün təbiət təlatümə gələrdi. Qız isə köksünü ötürər, nəzərlərini görünməz uzaqlara dikərək düşünərdi. Kim bilir, bəlkə də Sevil Milin keşməkeşli keçmişini düşünərmiş...

Sakit və qərib payız axşamlarının birində Mildə dəvə karvanları görmüşəm. Onlar düzün mavi dərinliklərindən kölgə kimi ötüb-keçmiş «Karvan» simfoniyasını bu sonsuz ümmanda sirli bir ahənglə səsləndirmişdi. Dalğa-dalğa ətrafa yayılan, sanki kainatı bürüyən zınqırovların səsi məni riqqətə gətirmiş, qəlbimdə qəribə hisslər, duyğular oyatmışdı. Yalnız çox sonralar bilmişəm ki, qəlbimin bir parçası əbədi Mildə qalmışdır, Mil düzü də Xəzər qədər mənə doğma olmuşdur. Bəlkə də elə buna görə Mil dəfələrlə yuxuma coşqun dəniz kimi girmiş, məni öz bəyaz ləpələrində minilliklər arxasında qalan sirli bir aləmə aparmışdır.

Qulaq as, əziz oxucum, qədim-cavan Milin qoynunda çöl gündəliyimə əmanət verdiyim ülvi və kövrək düşüncələrimi illərin süzgəcindən keçirib səninlə bölüşürəm.

*Beylaqan, Ağcabədi,Bakı.*
*1959-2009.*

***Çöldən külək kimi, çaydan sel kimi***
***Gördüm bu gün yenə keçən ömrümü.***
***Qayıtmayan günün, gəlməmiş günün***
***Dərdilə inləməz qəlbimin simi.***
*Ömər Xəyyam.*

Sabah yenidən yola çıxıram, Mil düzünə gedən yola. Yeni tədqiqat yollarına. Necə də tez keçdi bahar, yay ayları! Axtarışlarla dolu aylar, ulu yadigarlarla təmaslı aylar! Harda qaldı kahalı qayalar, qayalı dağlar? Harda qaldı zümrüd örtüklü təpələr, sirli-sirli yazılı daşlar? İndi artıq qızılı payız çağıdır və sanki arxada qalan o mənalı, ülfətli aylar heç olmamışdır.

Sübh tezdən yeni yola çıxıram, məni görmədiyim sirli bir dünyaya aparacaq yola. Nə verəcəkdir bu yol mənə, haraya aparacaqdır o məni?

Mil haqqında, onun tarixi yadigarları haqqında nə bilirəm? Nə az, nə çox, onu bilirəm ki, Mil Azərbaycanın ən böyük düzlərindən biridir, Kür-Araz ovalığının bir hissəsidir. Qərb tərəfdən o Qarabağ silsiləsilə əhatə olunmuşdur. Şimal-qərbdə isə Qarabağ düzünə qovuşur. Bilirəm ki, bu düz onun ən yaxın sirdaşıdır. Bəlkə də elə buna görə Mil ilə Qarabağ düzünün tarixi taleyi bir-birinə çox oxşardır. O biri düzlərdən isə uzaq düşmüşdür. Dəli Kür onu Şirvan düzündən ayrı salmışdır. Coşğun Araz isə onu Muğana həsrət qoymuşdur.

Hardasa oxumuşam ki, Mil düzünün dağətəyi hissədə hündürlüyü 500 m-ə qədər, şərqdə isə hətta okean səviyyəsindən aşağıdır. Öyrənmişəm ki, bu düz antropogen çəküntülərindən əmələ gəlmişdir. Burada yarımsəhra və çöl landşaftı inkişaf etmişdir. Onun neft və müxtəlif tikinti materialları kimi faydalı ehtiyatları da vardır. Yayı quraq keçən mülayim isti yarımsəhra və quruçöl iqlimi mövcuddur. Orta temperatur yanvarda 0-3C, iyulda 25-27C-dir. Lakin bu rəqəmlərə heç inanmıram, çünki çox adamdan eşitmişəm ki, qış aylarında Mildə soyuqlar adamı kəsir, yay aylarında isə cəhənnəm istisi olur, yer-göy od tutub yanır.

Çay şəbəkəsi demək olar ki, yoxdur. Bununla belə bilirəm ki, Mil düzünün Sarısu, Ağgöl və Mehman kimi gölləri, Kür çayına yaxın olan yerlərində seyrək tuqay meşələri də vardır. Qəzetlərdən isə onu bilirəm ki, indi Mil düzündə bol pambıq, yetişdirilir və indi onun pambıq yığan qoçaq qızı, – Kətmənləri muzeylərə! – deyən Sevili də vardır.

Mildə taxıl və üzüm də yetişdirilir. Bundan əlavə onun təsərrüfat həyatında baramaçılıq və heyvandarlıq da böyük yer tutur. Düzün qış otlaqları heyvandarlığın inkişafında xüsusi əhəmiyyət kəsb edir. Mil düzünün təbii-coğrafi şəraiti haqqında ümumi təsəvvürüm belədir.

Onun tarixi-arxeoloji abidələri və onların öyrənilməsi tarixi haqqındakı məlumatlarım isə bundan da azdır. Onu bilirəm ki, Mil düzü son vaxtlara qədər Azərbaycanın arxeoloji cəhətdən ən zəif öyrənilmiş yerlərindən biri olmuşdur. Halbuki bu düzün zəngin tarixi yadigarları haqqında ilk məlumatlar hələ XIX əsrin birinci yarısında çap olunmuşdu. Belə ki, görkəmli mütəfəkkir, tarixçi və yazıçı Abbasqulu Ağa Bakıxanov hələ 1840-cı ildə yazdığı "Gülüstani-İrəm" əsərində ilk dəfə olaraq Mil düzündə olan qədim qoşa minarələr, eləcə də sirli Örənqala şəhərinin yeri haqqında maraqlı məlumatlar vermişdir.

Məlumdur ki, 1849-cu ildə Mil düzündə rus şərqşünası N.V.Xanıkov olmuşdur. Tədqiqatçı Örənqaladan bir qədər cənub-şərqdə yerləşən Peyğəmbər adlı qədim qəbristanlıqda axtarışlar aparmış və buradakı orta əsrlərə aid türbənin yazısının üzünü çıxarmışdı. "Burada ərəblərə məxsus Beyləqan şəhərinin xarabalıqları yerləşir. Yerli əhali bu yeri Mil adlandırır. O səbəbdən ki, burada – günəşin amansızcasına yandırdığı susuz düzdə yalnız tənha bir minarət qalır". Bu sözlər məşhur şərqşünas alimin qeydlərindən götürülmüşdür.

"Düzdə vaxtilə Beyləqan şəhəri olmuşdur. İndi bu şəhərdən yalnız dərin sükut içərisində göyə ucalan Mil gümbəzi adı ilə məlum olan yarımdairəvi minarət qalmışdır". Bu məlumat isə 1850-ci ildə Tiflisdə çap olunan "Кавказский календарь"dandır.

Milin qədim abidələri haqqında maraqlı və nisbətən geniş məlumatlara S.Veysenqof adlı tədqiqatçının 1884-cü ildə çap etdirdiyi əsərdə də rast gəlirik. S.Veysenqof 1880-ci ilin əvvəlində Mil düzündə axtarışlarda olmuş və bununla əlaqədar düzdə olan bir sıra abidələri nəzərdən keçirmiş , onları bu və ya digər dərəcədə təsvir etmişdi. Onun orta əsrlərə aid şəhər yeri haqqında təsviri xüsusilə əhəmiyyətlidir: "Xarabalıqlarına əsasən belə nəticəyə gəlmək olar ki, Mil düzündə ən böyük şəhər Örənqala olmuşdur. Düzün qədim arxlarından ən böyüyü olan Govurax ona tərəf yönəldilmişdir. Yerli əhali buranı Beyləqan şəhərinin xarabalıqları hesab edir, sonralar o Örənqala adını almışdır. İndiki adını isə Viranqala – dağılan qala və ya Eylanqala, yəni ölən qala adlarından götürürlər. Hal-hazırda Mildə 2 verstədək uzanan kvadrat formalı qalanın qalıqlarını, onun

içərisində yerləşən tikintiləri görmək olur. Onun ayrı-ayrı yerləri əsl kərpic karxanasını xatırladır. Hər yanda müxtəlif formalı kərpic qırıqlarına, bir çox hallarda kaşı kərpiclərə və saxsıya rast gəlmək olur. Saxsı qablar çox güman ki, o qədər də qədim deyildir, lakin hal-hazırda bu yerlərin köçəri əhalisi tərəfindən işlədilən gil qablardan xeşli yaxşıdır. Onlar daha nəfisdir, incə, zərif, bəzi hallarda basma naxışlarla bəzədilmişdir. Mən buradan iki ədə şüşə bilərzik qırığı da tapdım. Örənqaladan 3 verst şimal-qərbdə Milin xarabalıqları yerləşir. Bu hal-hazırda iki qrup kərpic qırıqları ilə təmsil olunmuşdur. Deyilənlərə görə 10 il bundan əvvəl burada kaşı kərpiclərdən mozaikası olan minarənin bünövrəsi var idi. Mil düzünün adı da bu minarədən götürülmüşdür".

Diqqəti cəlb edən cəhətlərdən biri də budur ki, S.Veysenqof Mil düzündə olarkən Üçtəpə adlı yerdə ucalan nəhəng kurqanlara da diqqət yetirmiş, onların təsvirini vermişdir.

Mil düzündəki kurqanlarla həvəskar arxeoloq – alman E.Resler də çox maraqlanmışdı. O, 1897-ci ildə Qarqarçayın sahilindəki Qalatəpədə tədqiqatlar aparmaqla yanaşı yerli kankanların köməyi ilə ondan azca cənubda yerləşən Yantəpə kurqanını da qazmağa cəhd göstərmişdi. Lakin müəyyən dəriklikdə çay daşlarına təsadüf etdiyindən qazıntıları dayandırmışdı.

Bu sahədə müsbət dəyişikliklər yalnız Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra olmuşdu. Hələ otuzuncu illərdə Milə dəfələrlə arxeoloji səfərlər təşkil edilmiş, onun arxeoloji abidələri planlı şəkildə öyrənilməyə başlanmışdı. Bu yeni tədqiqatların əsas istiqaməti orta əsrlərə aid abidələri, o cümlədən, Örənqalanın öyrənilməsinə yönəldilmişdi. Bununla belə tədqiqatlar Mil düzünün arxeoloji cəhətdən öyrənilməsində tamamilə yeni mərhələ olmuş və böyük elmi əhəmiyyət kəsb etmişdi. Cahan müharibəsinin başlanması ilə Mildəki arxeoloji tədqiqatlar müvəqqəti dayandırılmış və belə vəziyyət əllinci illərə kimi davam etmişdi.

1953-cü ildə Azərbaycan SSR Elmlər Akademiyasının təşəbbüsü ilə SSRİ Elmlər Akademiyasının Maddi-mədəniyyət tarixi institutunun Mil düzündə geniş arxeoloji tədqiqatlar aparmaq üçün birgə ekspedisiyası yaradılmışdı. Ekspedisiyanın qarşısına böyük vəzifələr qoyulmuşdu. Bu vəzifələrə müvafiq ekspedisiya Mil düzündəki Örənqala şəhər yerində, Qaratəpə adlı abidədə, Üçtəpədəki kurqanların birində geniş qazıntı işlərinə başlamışdı.

Artıq altınca ildir ki, ekspedisiya fəaliyyətədir və keçən müddətdə Mildə əsaslı

axtarışlar apara bilmiş və gözəl elmi nəticələr əldə etmişdir.

Bu il ekspedisiya özünün yeddinci tədqiqat mövsümünə başlayır və mən də ilk dəfə bu tədqiqatlarda iştirak edirəm. Bir qayda olaraq hər bir yeni ekspedisiya arxeoloq üçün onu naməlum sirli bir aləmə aparan yol deməkdir. Yeni yol isə həmişə xoş arzu və istəklər, həyəcan doğurur. Yuxu kipriklərimdən, gözlərimdən uzaq düşüb. Düşünürəm, yeni yolda addımlarım necə olacaqdır? Bu yolda hansı izləri tapacağam?

*Bakı, 26 sentyabr, 1959-cu il*

***Bütün torpaqlar, yerlər miskin və***
***acizdir sənin qarşında, ey düz...***
*Sədi*

Bu yuxudurmu? Mən Mil düzündəyəm. Yeni ekspedisiyanın tərkibində bu geniş düzdə arxeoloci tədqiqatlar aparacaq, onun tarixi yadigarları ilə təmasda olacağam. Tədqiqatların rəhbəri tanınmış arxeoloq-alim Aleksandr Aleksandroviç İyessendir. O, SSRİ Elmlər Akademiyası Arxeologiya İnstitutu Leninqrad bölməsinin şöbə müdiridir və artıq bir neçə ildir ki, Mil düzündə başlanan yeni arxeoloji tədqiqatlara rəhbərlik edir. Ekspedisiyamızın tərkibi Azərbaycan Elmlər Akademiyasının və SSRİ Elmlər Akademiyasının əməkdaşlarından ibarətdir.

Mil düzünə mən ilk dəfədir ki, gəlirəm. Buna görə də bu düz haqqında, onun ulu abidələri haqqında təsəvvürüm və bildiklərim yalnız ədəbiyyatla bağlıdır.

Bakıdan sübh çağı çıxdıq. Çadırlı iri yük maşınımız bir neçə saat tozlu yollarda silkələndikdən sonra bizi Mil düzünə, burada olan arxeoloji bazamıza çatdırdı. Sabirabad və Saatlını keçdik. Saatlıda yolüstü nahar etdik. Yeməkxananın işıqlı yan divarını üzərində iri milçək şəkli çəkilmiş və "Milçəkləri qıraq!" şüarı yazılmış iri plakat bəzəyirdi. Plakat eyni zamanda milçəklərin xatirə nişanələrilə də dolu idi. Başqa bir yazıda isə 1 stakan çayın qiymətinin 3 qəpik olması bildirilirdi. Çayın belə ucuz olması leninqradlı həmkarlarımızı çox təəccübləndirdi və onların hamısı stakanlarını qəndlə doldurub ləzzətlə şirin çay içdilər. Sözsüz, axırda haqq-hesab başqa cür oldu və ikinci dəfə onları təəccübləndirdi.

Milə çatanda gün təzəcə yarı olmuşdu. Günorta yerinə qalxmış günəş oda çevrilib ətrafı qarsırdı. Göy buludsuz, şəffaf və aydın idi. Şəffaf səma altında Mil göz işlədikcə uzaqlara uzanır, hardasa üfüqlə qovuşaraq yoxa çıxırdı. Hər yan səssiz-səmirsiz və cansız görünür, geniş düz tənhalıq dünyasını xatırladırdı. Artıq payız fəsli girsə də düzdə yalnız boz rənglər hökmranlıq edir, ürək sıxırdı.

Yaz-yay aylarını bütünlüklə axtarışlarda keçirmişdim. Göyəzənin zirvəsinə qalxmış, Didivanı görmüş, Aveydağın al-qırmızı qayalıqlarındakı sirli mağaralara girmiş, Kürün sahilindəki Qarayazı meşəsini gəzmişdim. Eynaltaxtın, Xaçbulağın rəngbərəng dağ çiçəklərindən dəstə bağlamışdım. Elə bil rənglər dənizinə düşmüşdüm. Minbir rəngli qırçın ləpələrin rəqsinə doyunca tamaşa etmiş, zümzüməsini, nəğməsini eşitmişdim.

Bu gün isə mən belə gözoxşayan gözəlliklərdən çox uzaq, lakin sinəsi sirli-sözlü Mil düzünə gəlib çıxmışdım.

Azdan-çoxdan tanış olduğum elmi ədəbiyyatdan bilirəm ki, Mildə insan həyatı çox qədim dövrlərdə başlamışdı. İbtidai icma quruluşunun mis və tunc dövrlərində burada oturaq əkinçi-maldar tayfalara məxsus yüksək mədəniyyətlər təşəkkül tapmış, tayfa əyyanları, ağsaqqalları və başçıları şərəfinə möhtəşəm qəbir təpələri ucaldılmışdı. Orta əsrlərdə Mildə daha gur həyat olmuş, böyük şəhərlər salınmış, geniş arxlar çəkilmiş, Mil başdan-başa gülüstana çevrilmişdi. Neçə-neçə ölkələrdən, uzaq şəhərlərdən Milə çoxlu sayda karvanlar gəlib-getmişdi. Milin göy qübbəsini xatırladan mavi kaşılı gümbəzləri, buludlara ucalan minarələri uzaq-uzaq ellərdən gələnləri heyran edərmiş. Lakin illər, əsrlər keçdikcə bütün bunlar zamanın amansız hökmü və dəhşətli müharibələrin qanlı əlilə əbədi yoxa çıxarılmışdı. Arxlar dağılmış, şəhərlər yerlə-yeksan olmuş, bağlar-bağçalar solmuş, xəzana dönmüşdü. İnsan hənirtisi, nəfəsi kəsilən bu yerlər illər boyu bayquşların, ilanların və vəhşi heyvanların sığınacağına çevrilmişdi. Mildə həyat ölmüş, torpağa qərq olmuşdu.

İndi biz bu düzdə keçmişin izlərini tapmalıyıq, öyrənməliyik, canlandırmalıyıq. Qarşıda gərgin axtarışlar, tədqiqatlar vardır.

Ekspedisiyamız iki dəstədə tədqiqat aparacaqdır. Bizim dəstəmiz Üçtəpə adlı yerdə, möhtəşəm kurqanların birində iki il bundan əvvəl başlanmış qazıntıları davam etdirəcəkdir. İkinci dəstə isə əfsanəvi Örənqala-Beyləqan şəhəri xarabalığında 1953-cü ildən başlanan qazıntı işlərini genişləndirəcək, onun yeni sirlərini açacaqdır.

Qədim şəhərin xarabalıqları bazamızın lap yaxınlığında yerləşir. Yüklərimizi, ekspedisiyamızın avadanlığını, ərzaq ehtiyatımızı yerbəyer edəndən və qalacağımız yeri sahmana salandan sonra mən qədim şəhərin xarabalıqlarına tələsirəm. Bazamızdan oraya torpaq yol uzanır. Bir neçə gün əvvəl yağmış yağış günəşlə ittifaqa girərək onu daşa çevirmişdir. Yol bozdur və hər iki tərəfdən gümüşü yovşan kolları ilə haşiyələnmişdir. Günəş artıq xeyli qərbə doğru əyilmiş, al-qırmızı don geyinərək öz qüdrətli şövqü ilə bayaqdan bəri ölü görünən Mili canlandırmışdır. Sərin meh qırçın yovşan kolları üzərində səssiz-səmirsiz sürünür, onların kəskin rayihəsini ətrafa yayır, düzə yeni nəfəs verirdi. Hardasa uzaqda qoyun-quzu mələşir, göyə tüstü ucalır, Milə təzəcə sağılmış süd qoxusu, təndirdən indicə çıxarılmış çörək ətri yayılırdı. Göyün üzündən karvan-karvan iri və əlvan atlaz buludlar keçir. Gözlənilmədən onların ənginliklərində iri qanadlı quş-

lar görünür. Onlar qanad çalır, süzür, yerə əcaib kölgələr salırdı.

Mən torpaq yolla sakitcə qədim şəhərə, boz təpələrə dönmüş, əbədi ölmüş sirli bir şəhərə doğru addımlayıram. Qısa görünən yol uzanır, qurtarmaq bilmir. Gözlənilmədən ayağımın altından boz rəngli balaca bir kərtənkələ qaçır. Yolun kənarında ayaqları üstə qalxıb başını mənə tərəf çevirir, bir müddət məni maraqla seyr etdikdən sonra yoxa çıxır.

Yolun sağ tərəfində kiçik bir gölməçə görürəm. Onun üstündə şəffaf qanadlı, uzun quyruqlu mizanqullar uçuşur, birdən-birə suya şığıyır və yenidən yuxarı qalxırlar. Gölməçənin ətrafı yamyaşıldır. Buraya çatanda xışıltı, sonra isə şappıltı eşitdirəm. Əl boyda yastı və boz su tısbağaları məni görən kimi itələşə-itələşə suya atılırlar. Lakin maraq hissi onlara da yad deyildir. Çox keçmədən başlarını lilli sudan çıxararaq diqqətlə məni müşahidə etməyə başlayırlar. Onların kiçik şahlığında əmin-amanlıqdır.

Yaxınlıqdakı koldan şabalıdı rəngli kiçik bir yumaq sıçrayır. Onun iri çəhrayı qulaqları, şəvə muncuğa bənzər bir cüt qara gözləri, dalınca sürünən uzun quyruğu vardır. Canlı yumaq əvvəlcə duruxur, təşvişlə yerində fırlanır. Lakin bu uzun çəkmir; gözümü qırpınca o kolun aşağısında kölgə kimi görünən ovuqda yox olur. Ovuğun qabağında təzəcə qazılmış balaca torpaq topası və alabəzək qədim saxsı qırıqları vardır. Gülümsəyirəm və fikirləşirəm ki, bu dünyada arxeoloqlar tək deyillər...

Yolumu davam etdirirəm. Gözümə hər yanda saxsı, bişmiş kərpic və daş qırıqları dəyir. Bura artıq şəhər ərazisi, onun torpaq altında qalmış divarlarıdır. Şəhərin özü Milin indiki səthindən xeyli yüksəkdə olan topa-topa təpələrdən ibarətdir. Düzbucaqlı şəkildə qırx hektara yaxın geniş bir sahəni əhatə edərək dörd tərəfdən təpələrlə dövrələnmişdir. Bunlar şəhərin möhtəşəm qala divarlarından qalan yeganə nişanələrdir. Şəhər bu divarlar arasında uyuyur. Onun küçələri, yaşayış evləri, saray və məbədləri – hamısı bu divarlar arasındadır. Bilirəm ki, onların ümumi uzunluğu 2500 m-ə yaxındır. Bu divarlar vaxtilə dərin xəndəklərlə əhatə olunmuşdu. Duyulur ki, bu qədim şəhər vaxtı ilə düşünülmüş layihə üzrə salınmışdı. Cəhətlər dəqiq nəzərə alınmış və bununla əlaqədar düzbucaqlı şəkildə olan bu şəhərin hər küncü müəyyən bir cəhətə yönəldilmişdi.

Əslində indi şəhər iki hissədən ibarətdir və hər hissə müəyyən bir dövrü əhatə edir. Şərti olaraq Böyük Şəhər və Kiçik Şəhər adlanan bu hissələrin sərhədləri aydın bilinir. Kiçik Şəhər Böyük Şəhərin şərq küncünü tutur və o da düzbucaqlı şəklindədir. Dövr etibarilə Kiçik Şəhər Böyük Şəhərdən cavandır. Mənbələrə görə Kiçik Şəhər vaxtı ilə

monqollar tərəfindən dağıdılmış Beyləqan şəhərinin sonralar Topal Teymur tərəfindən bərpa olunmuş hissəsidir.

Şəhərin cənub-qərb tərəfindən qədim Govurarx keçir. Bir zamanlar o, şəhəri su ilə təmin etmişdi. Şəhər artıq yoxdur, arx isə yenə də Arazın suyunu Milin dərinliklərinə axıdır. Bu yeni arxdır. İyirmici illərin axırlarında çəkilmişdir. Lakin bu arx bir çox yerlərdə qədim arxın məcrası ilə axdığından əhali onu yenə də Govurarx adlandırır.

Boz təpələrin üstü ilə ehtiyatla addımlayıram. İnana bilmirəm ki, bu boz təpələr altında vaxtilə böyük şöhrət tapmış qədim və əfsanəvi Beyləqan şəhərinin xarabalıqları yatır. Hər yanda qədim qab qırıqları görünür, canlı rənglərlə bərq vuran saysız-hesabsız saxsı parçaları... Sanki kim isə Milin qısa ömürlü əlvan çiçəklərini öz sehrli əlilə parlaq saxsılara çevirmiş, qədim şəhərin üzərinə səpələmişdir... İnana bilmirəm ki, bu bəzəkli saxsı parçaları keçmiş əsrlərin izidir, nişanəsidir. Ağır addımlarla, ürək ağrısı ilə qədim şəhərdən ayrılıram.

Mən qədim şəhəri tərk edərkən günəş al-qırmızı alova dönərək qürub edir, əbədi uyuyan şəhərin üzərinə matəm örtüyü salırdı. Qəlbimdə qəribə hisslər, duyğular oyanır, acı düşüncələr beynimə hakim kəsilərək varlığımı sarsıdırdı. Al-qırmızı örtük altında böyük bir şəhər uyuyurdu, səbəbi məlum olmayan qeyri-adi nigarançılıq doğururdu.

İllər, əsrlər boyu burada insanlar yaşamış, sevib-sevilmişlər. Sevinmiş və kədərlənmişlər. Ulu tanrıya dua edib, ondan nicat, mərhəmət gözləmişlər. Yaşayıb-yaratmışlar. Küçələr, məhəllələr salmış, məbədlər, saraylar ucaltmışdılar. Öz insanlıq ləyaqətlərini qoruyaraq ədalətsizliyə və zorakılığa qarşı çıxmışdılar, üsyan etmişdilər, talançı yadellilərə sinə gərmişlər, ölümə göz yummuşdular. Bəlkə də elə buna görə bir çox yadelli tarixçi və səyyahlar bu şəhərin adını hələ o vaxtlar böyük hörmət və ehtiramla çəkmişlər.

Qədim Beyləqan şəhəri... Neçə-neçə tarixi hadisələrin şahidi olmuşdur bu ulu şəhər. Sasanilərin hökmranlığını, zorakılığını görmüşdü o, əli qanlı, qılınclı ərəblərə qarşı çıxmışdı o, Babəkdən nicat gözləmişdi, böyük sərkərdənin ayaqları altına çiçəklər səpmişdi o. Bəs dənizlər arxasından dəhşətli sel kimi gələn monqollar? Onlar bu yerlərdə özlərinə əmin-amanlıq tapa bilmişdilərmi? Öz gödək ayaqlı yorğa atlarına bu yerlərdə dinclik verə bilmişdilərmi?

Məgər, bəlli deyilmi, beyləqanlılar uşaqdan böyüyə kimi necə misilsiz bir igidliklə qəsbkarlara müqavimət göstərmiş, ölümü köləlikdən üstün tutaraq, özlərini dəhşətli

işkəncə və iztiraba düçar etmişdilər. Bəlkə də, qədim tarixçi məhz Beyləqanın həmin dəhşətini gördükdə böyük hüzn və kədərlə bu sözləri yazmışdı: “Ah, kaş ki, anam məni bu dünyaya gətirməyəydi. Kaş ki, bunları görmədən ölərdim...”

Şəhərlər də insanlar kimidir. Onların da öz həyat yolu, öz taleyi, enişi-yoxuşu vardır, silinməz izləri vardır. Elə izləri ki, illər, əsrlər onları itirə bilmir. İzlər qalır, əbədi yaşayır.

*27 sentyabr, 1959-cu il*

***...Mən sadəcə səyahət etmirdim, eyni zamanda müxtəlif peşələrə yiyələnir – balıqçılığı öyrənirdim, dülgər və bir sıra başqa peşələrə sahib olurdum. Bu peşələrə yiyələndikcə bir insan kimi də artırdım və bununla mənim həyatı görmək, dərk etmək qabiliyyətim də artırdı.***

*Rokuell Kent.*

Arxeoloji bazamız Jdanovsk adlanan bölgə mərkəzindən təxminən 18 km aralıda – Kəbirli kəndi ərazisindədir. Kənd qədim Beyləqanın xarabalıqları olan Örənqalanın on addımlığında salınmışdır. İlk dəfə arxeoloji baza üçün yer seçilərkən kəndin məhz bu xüsusiyyəti əsas götürülmüşdür. Maşın olmadıqda qazıntıya piyada getmək də mümkündür.

Kənd böyükdür. Onun çoxlu evləri və təsərrüfat tikintiləri vardır. Lakin diqqəti cəlb edən cəhət ondan ibarətdir ki, kəndin təsərrüfat tikililəri, mal-qara damları Örənqaladan gətirilmiş qədim bişmiş kərpiclərdəndir. Neçə illərdir ki, kənd camaatı, eləcə də yaxın-uzaq kəndlərin əhalisi qədim şəhər yerini amansızcasına söküb-dağıdır, buradan arabalarla bişmiş kərpic aparır. Dəfələrlə xəbərdarlıq edilməsinə baxmayaraq, kəndin və bölgənin ziyalıları, rəhbər işçiləri və təşkilatları bundan yan keçirlər, sanki heç nə görmürlər, eşitmirlər. Əsrlərdən miras qalan orta əsrlərin qiymətli tarixi yadigarı olan Örənqala isə gündən-günə daha böyük dağıntıya məruz qalır, onun arxeoloji qazıntılar zamanı üzə çıxarılmış bütöv məhəllələri, yaşayaş evləri və müxtəlif tikililəri həmişəlik yoxa çıxır. Kəbirli kəndinin əhalisi üçün bu iş daha asandır. Kənddən qədim şəhər yerinə gedən qısa yolda ağır araba təkərlərinin təzə izini həmişə görmək olur. Örənqalada arxeoloji qazıntı işləri genişləndikdən sonra ora əsl mənada kərpic karxanasına çevrilmişdir. Arxeoloqların qalın torpaq qatları altında aşkar etdikləri, üzə çıxardıqları, böyük səy və diqqətlə təmizlədikləri qədim tikintilərin ömrü çox az olur. Halbuki bu qədim tikintilər səma altında açıq muzey kimi minlərlə adam üçün keşmə-keşli zəngin keçmişimizdən, qədim tariximizdən maraqlı söhbətlər aça bilərdi, onları düşüncələrə sövq etdirə bilərdi, onlarda ulu babalarımızın yadigarlarına hörmət və ehtiram hissi oyada bilərdi.

Kəbirlidə ilk arxeoloji baza 1953-cü ildə yaradılmışdı. Daimi bazanın açılması SSRİ Elmlər Akademiyası və Azərbaycan SSR Elmlər Akademiyası Rəyasət Heyətinin



Mil düzündə geniş arxeoloci axtarışlar və qazıntılar aparmaq haqqında birgə qəbul etdikləri qərarla bağlı olmuşdu. Bununla əlaqədar az vaxt içərisində baza üçün seçilən ərazidə əsaslı tikinti işləri başlanmış, ekspedisiya üzvləri, eləcə də ekspedisiya avadanlığı üçün daş binalar inşa edilmişdi. Artıq həmin il Örənqala şəhər yerində geniş qazıntı işləri başlanmışdı. Az sonra arxeoloji tədqiqatlar daha da genişləndirilmiş və hətta Mil düzünün hüdudlarından kənar yerlərə də çıxarılmışdı. Örənqala qazıntıları ilə yanaşı Ağdam yaxınlığındakı Üzərliktəpə qədim yaşayış yerində və Naxçıvan ərazisindəki çoxtəbəqəli Kültəpə abidəsində də tədqiqat işlərinə başlanılmışdır.

Bütün bu tədqiqatilar zamanı Kəbirli kəndindəki arxeoloci baza baş qərargah vəzifəsini daşımış və arxeoloji axtarışların müvəffəqiyyətlə davam etdirilməsində böyük rol oynamışdı. Təəssüf ki, 1955-ci ildə bu baza qəflətən baş verən yanğın nəticəsində bütünlüklə məhv olmuş və bununla əlaqədar arxeoloji tədqiqatlar da müvəqqəti dayandırılmışdı.

1956-cı ildə köhnə bazanın yerində iki təzə bina inşa edilmiş, ekspedisiya yenidən fəaliyyətə başlamışdı. Hal-hazırda biz həmin binalarda qalırıq. Bunlar hündür çardağlı quraşdırma taxta evlərdən ibarətdir. Əslində, onların hər biri kiçik bir ailə üçün nəzərdə tutulmuş mənzildir. Ensiz dar dəhlizdən yol mətbəxə və ümumi otağa gedir. Otaq böyükdür və o indi bizim yeməkxanamızdır. Ekspedisiyamızın iyirmiyə qədər üzvü orada nahar edir. Bu otaq eyni zamanda istirahət yerimizdir. Mətbəxdə soba yananda bu otaq da isinir və biz boş vaxtlarda oraya yığışırıq. Onun sağ divarı arxasında kiçik, lakin olduqca isti və rahat bir otaq da vardır. Bu otağın bir divarı mətbəxlə bitişikdir. Otaq ekspedisiya-sürücülərinə məxsusdur. Ekspedisiyamıza dörd maşın xidmət edir və sürücülərə ən gözəl şərait yaratmaq hər bir ekspedisiyanın ümdə vəzifələrindən biridir. Əks təqdirdə onların şıltaqlığına dözmək olmaz, ekspedisiyanın işi pozula bilər.

Dəhlizdən yuxarı pilləkan qalxır. Hündür çardaq əlavə otaq vəzifəsini daşıyır. Orada əməkdaşlarımızdan ikisi qalır.

Mənim yerim ikinci binadadır. O birinci bina ilə üzbəüzdür və hər iki binanı daşla döşənmiş ensiz yol birləşdirir. Mən bu binanın böyük otağında qalıram. Çarpayımı divar boyunca yerləşdirmişəm. Doğan günəşin ilk şüaları mənim küncümü işıqlandırır. Buradan Örənqalanı da aydın görürəm. Bəyaz aylı gecələrdə bu qədim şəhər yeri sanki işıq saçır, daha sehirli və sirli görünür.

Yan tərəfdə Leninqradlı həmkarlarımın çarpayıları qoyulmuşdur. Ortada isə kiçik

bir masa yerləşdirilmişdir. Divarın arxasındakı kiçik otaq Aleksandr Aleksandroviçindir və onun qapısı bizim otağa açılır. Lakin Aleksandr Aleksandroviç ona məxsus böyük həssaslıq və diqqətlə bizi narahat etməməyə çalışır. Gün ərzində onun qapısı çox az açılır.

Bizim binanın çardaq hissəsində qızlarımız və aşbaz qadın qalır. Hər binanın otaqlardan başqa o qədər də böyük olmayan şüşəbəndi vardır. Arxeoloji tapıntıları biz orada yuyuruq, kitaba salıb yeşiklərə yığırıq.

Həyətimiz kiçikdir və bir tərəfdən Govurarxdan aralanan kiçik qolla sərhədlənmişdir. Qalan tərəflərdən açıqdır. Həyətdə ağac yoxdur və yalnız arx tərəfdəki sahədə topa şəklində bitən qızıl sultanlı hündür və yamyaşıl qarğılar həyətə fərəhli bir görkəm verir, onu canlandırır. Gözətçimizin qurduğu uca ot tayası isə həyətimizin əsil yaraşığıdır. Biçilmiş otun xoş ətri bütün günü burnumuza dəyir. Asudə vaxlarımızda onun yanında otururuq, aylı-ulduzlu gecələrin səssiz mahnılarını dinləyirik.

Ümumilikdə bazamız yaxşı təəssürat bağışlayır. Təəssüf ki, elektrik işığı tez-tez kəsilir və bununla əlaqədar biz əksər hallarda neft lampası ilə kifayətlənməli oluruq. Otaqlarımızda soba yoxdur və ümumiyyətlə onların heç biri qızdırılmır. Mildə isə artıq payızdır və gecələr çox soyuq olur. İkiqat taxta divarlar belə soyuğun qarşısını ala bilmir. Buna görə də otaqların içərisi həmişə rütubətli və soyuq olur. Qalın sırıqlı pencəklərimiz üstümüzdən əskik olmur. Təkcə nəfəslə otaq qızdırmaq isə çox çətindir...

Yeganə sobamız mətbəxdədir. Onun istisini isə yalnız mətbəxdə növbətçi olduğumuz vaxt hiss etmək mümkün olur. Mətbəx üçün hər gün qalaq-qalaq odun yarırıq. Böyük çətinliklə əldə etdiyimiz odun ehtiyatımız isə çox məhduddur.

Məhrumiyyətlərimiz az deyildir. Lakin şikayətlənmək, narazılıq etmək heç kəsin ağlına belə gəlmir. Bu yolu özümüz seçmişik və bu yolda daha ağır əzab və əziyyətlərin olmasını da əvvəlcədən milmişik. Neçə-neçə arxeoloqun uçmuş qalın torpaq qatı altında qalıb faciəli şəkildə həlak olmasından da xəbərimiz vardır.

Arxeologiya romantika deyildir. Kim onu belə başa düşürsə, böyük səhv edir. Arxeologiya daşlı-kəsəkli, enişli-yoxuşlu, çətin keçilən yoldur. Bu yolu özümüz seçirik.

*29 sentyabr, 1959-cu il*
*Kəbirli kəndi*

*Vətən – əcdadımızın mədfənidir.*
*Vətən – övladımızın məskənidir.*
*Abbas Səhhət*

Yuxudan oyananda günəş artıq otağın yarısını işıqlandırmışdı. Divarda parlaq işıq ləkələri oynaşırdı. Otaq payız səhərinin sərin, xoş təravəti ilə dolmuşdu. Pəncərənin arxasında mavi səmali bir dünya görünürdü. Bu dünyada sakit axan arxın zümzüməsi vardı, yerdən qalxan şəffaf ağ duman vardı, zərrəciklərlə bəzənmiş yovşan kolları, nəm qara torpaq vardı. Bu dünyada Örənqala vardı, hardasa uzaqlarda çəhrayı donlu sirli təpələr vardı. Aydın xoş səhər günəş işığıla dolu xoş gün vəd edir, xoş arzular, xoş ümidlər doğururdu.

Bu gün ilk dəfə idir ki, Üçtəpəyə gedirik. Bizim dəstənin əsas tədqiqat yerinə. Milə gəlişimizdən artıq bir neçə gün keçsə də, hələ Üçtəpədə olmamışıq. Bu bir neçə gündə yalnız yaxınlıqdakı abidələrə baxmışıq və başlıca olaraq təşkilatı işlərə fikir vermişik. Tədqiqatlara başlamaq üçün isə hər şeydən əvvəl heç olmazsa iki buldozer əldə etmək lazımdır, 20-25 nəfərdən ibarət torpaq qazan işçi dəstəsi toplamaq gərəkdir. Rayonda təsərrüfat işlərinin – pambıq yığımının qızğın bir çağında bu heç də asan iş deyildir. Ekspedisiyamızın rəhbəri Aleksandr Aleksandroviç İyessenin özü neçə dəfə rayon mərkəzinə gedib qayıtmış və hər dəfə əməlli-başlı əsəbləşmişdir. Ancaq indi deyəsən işlərimizin müəyyən qədər sahmana düşəcəyi gözlənilir. Yuxarıdan yaxşı vədlər verilmişdir...

Üçtəpə düşərgəmizdən xeyli aralıdadır; qaldığımız yerdən 25 km şimal-qərbdədir. Bununla əlaqədar oraya hər gün maşınla gedib-gələcəyik. Deməli, gündə 50-60 km yol qət etməli olacayıq.

Qısa nahar və kiçik hazırlıqdan sonra yola düşürük. Govurarxın üstündəki kiçik taxta körpünü keçib, arx boyunca uzanan yola çıxırıq. Maşının üstündən Mil düzü yaxşı görünür. Səhər mehi üzümüzü oxşayır. Yol torpaq yoldur və arxın axarı istiqamətində Üçtəpəyə doğru uzanır. Əsl Mil məhz bu tərəfdə – Govurarxın sol sahilindədir. Sağ sahilində pambıq tarlaları, üzüm bağları, saysız-hesabsız kəndlər olsa da, bura əsl düzdür. Bu düz könüləyatandır, safdır, təmizdir, mavi göylüdür. Burada Mil göz işlədikcə uzaqlara uzanır, qurtarmaq bilmir.

Yol gah arxa yaxınlaşır, sanki onunla birləşmək istəyir, gah da ondan aralanır, düzünənginliklərinə doğru qaçmaq istəyir, haradansa birdən-birə çıxan yeni yollar onu kəsir,

onunla birləşir, ondan aralanır, birdən-birə yenə yoxa çıxırlar. Mildə yollar qovuşur, kəsişir, bir-birindən uzaqlaşırlar... Burada yollar bizi uzaq keçmişə, sehirli, sirli bir dünyaya aparır.

Xeyli vaxtdır ki, yoldayıq. Yol isə qurtarmaq bilmir, uzanır, gah sağa, gah da sola burulur, haçalanır, çaşğınlıq yaradır, düşündürür...

Bəlkə, bu yol sonsuzdur?

Dağdan köç gəlir, səsli-küylü, min bir rəngli köç gəlir. Sürülər düzə enir. Onların arasında yüklü, uşaqlı, gəlinli dəvələr, atlar, ulaqlar, öküzlər görünür. Mili səs-küy bürüyür. Köç gəlir, sanki dağdan rəng seli gəlir, ağ, qırmızı, yaşıl, sarı... Nə bilim hansı rənglərin seli. Bu rənglər seli bir anda məni qoynuna alır, uzaqlara çox-çox uzaqlara – uşaqlıq illərimə aparır, gözəl və hikmətli kitablarla dolu illərə...

*Arvad, kişi, oğlan, qız,*
*Gön çarıqlı başmaqlı,*
*Gedir qoruq-qaytaqsız,*
*Gəlin, qızlar yaşmaqlı.*
*Qoyun, quzu, at, eşşək,*
*Salmış çölə qalmaqal,*
*Dəvə, maya, nər köşək,*
*Lökləyirlər dalbadal.*
*Kişi əlində çomaq,*
*Sürür yüklü öküzü,*
*Dəvə üstə bir uşaq,*
*Çox oxuyur bu sözü:*
*Ağ dəvə alçaq gedər,*
*Qolunda qolçaq gedər,*
*Ağ dəvənin gözləri,*
*Yerə dəyər dizləri.*
*Endi çaya yuh-yuh,*
*Ağca maya yuh-yuh.*

İlahi, nə tez ötdü o illər! Necə də gözəl idi o ağır illər! Necə də gözəl, ümidli, arzulu idi o ağır qanadlı illər! Necə də gözəl idi o illərin mənalı dərslikləri, bizim ilk ki-

tablarımız; bu kitablarda necə də gözəl şeirlər vardı.



Qeyri-ixtiyari qəlbimdən dodaqlarıma həzin misralar süzülür:

*A quşlarım getməyin,*
*Məni qəmgin etməyin*
*Quşlar neçin gedirsiz?*

O vaxtlar od-alov dünyanı başına götürmüşdü. Hardasa uzaqlarda qanlı-bəlalı müharibə gedirdi. Qanlı əlilə qapılarımızı döyürdü, ölüm xəbəri gətrirdi. Lakin o heç cür ümidlərimizi, işıqlı arzularımızı qıra bilmirdi. Aclıqdan və soyuqdan taqətdən düşmüş halda pıçıltı ilə o kitablardan necə də gözəl sətirlər oxuyurduq.

*Könlümün sevgili məhbubu mənim*
*Vətənimdir, vətənimdir, vətənim...*

Köç gəlir, xatirələr çözələnir, cazibəli, dəyərli çağlarım yada düşür. Məni o gözəl çağlara aparan bu anları necə unudum? Köç gəlib keçir, yol qurtarmaq bilmir. Bəlkə də uzaq keçmişə, uzaq qərinə və əsrlərə gedən yollar bax beləcə uzun və sonsuz olmalıdır...

- Ulu tanrı, hifz et Milin bu yollarını. Hifz et bu yoldakı müqəddəs izləri, hifz et!

Uzaqda Milin ənginliklərində ağ duman arxasında sirli ehramları xatırladan möhtəşəm təpələr görünür. Bir, iki, üç... Bura Üçtəpə adlanan yerdir... Üç möhtəşəm təpənin ucaldığı yer.

Elmi ədəbiyyatda belə təpələr kurqanlar adlanır. Tədqiqatçıların fikrincə kurqan sözü türkdilli xalqlara mənsub olub, qədim qəbirlər üzərində qurulan tikinti, ucaldılan təpə deməkdir. Belə təpələri Azərbaycanın hər yerində görmək olar. Lakin onlar Mil, Qarabağ, Muğan düzlərində, Gəncəçay, Tərtərçay və Qarqarçay hövzələrində, Araz boyunda, yüksək Xaçbulaq yaylağında, Qobustanda, Abşeronda, Quruçay və Köndələnçay vadisində daha çoxdur.

Mil-Qarabağ düzlərinə yolu düşənlər, eləcə də Xocalıda və Üçtəpə adlanan yerdə olanlar, orada səkkiz-on mərtəbəli ev hündürlüyündə olan möhtəşəm təpələrə yəqin ki, diqqət yetiriblər. Bunlar da kurqanlardır – ulu babalarımızın əbədi yuxuya daldığı yerlər. Bunların hamısının altında döyüş meydanında həlak olmuş və ya öz əcəli ilə ölmüş tayfa ağsaqqallarının, adlı-sanlı əyanların qəbirləri vardır.

Böyük bir təpənin ucaldılmasına bəzən bir neçə nəslin həyatı sərf olunmuşdur. Nəsillər bir-birini əvəz etsə də, ölən adlı-sanlı tayfa adamı unudulmamış, onun xatirə-

sinə həmişə hörmət və ehtiram bəslənmiş, qəbri üstünə torpaq tökülməsi davam etmişdi. Ölən adam tayfanın adi üzvü olduqda isə onun dəfn mərasimi dəbdəbəli keçirilməmiş, qəbri üstündə ucaldılan təpə o qədər də uca olmamışdu. Buna görə də kurqanların bəzisi həddindən artıq hündür və möhtəşəm, bəziləri isə əksinə, kiçik və alçaqdır.

Əsrlər boyu kədərli sükut içərisində mürgüləyən bütün bu təpələr böyüklüyündən, kiçikliyindən asılı olmayaraq qədim hadisələrdən çox maraqlı şeylər danışa bilər. Onlar dünyagörmüş müdrik ozanlar kimi ulu babalarımızın heyrət doğuran igidliklərindən, çox nəcib adət və ənənələrindən, dəfn mərasimlərindən, dini təsəvvürlərindən, yaşayış tərzindən gözəl dastanlar söyləməyə qadirdirlər.

Üçtəpə adlanan yer Qarqarçayın sağ sahilindən azca cənubda yerləşən geniş bir sahədir. Bu yer Mil düzünün şimal-qərb qurtaracağını tutur. Arazdan gələn Govurarx burada öz uzun yolunu başa vurur və Qalatəpə adlı yerdə Qarqarla qovuşur. Üçtəpə yerinin adı burada olan üç möhtəşəm təpə ilə bağlıdır. Təpələr müxtəlif hündürlükdədir. Onların üçü də qədim dövrlərdə insan əlilə ucaldılmışdır. Ən böyük təpənin hündürlüyü 21 metrdir. Aydın havada bu təpəni Milin ən ucqar yerlərindən görmək olur. Ovuc içi kimi düz olan Mil düzündə 7-8 mərtəbəli ev hündürlüyündə yüksək bir təpə möcüzə kimi görünür.

İkinci təpə Milin səviyyəsindən 17 metr hündürdür. Bu birinci təpədən 500-600 metr cənubi-şərqdə yerləşir. Govurarx bunların arasından keçir. Üçüncü təpə Qarqarçaya daha yaxındır. O birinci kurqandan 1,5 kilometrə qədər şimal-qərbdədir. Qazıntı üçün məhz bu təpə seçilmişdir. Qazıntıdan əvvəl bu təpənin hündürlüyü 14 metrə, diametri isə 130 metrə yaxın olmuşdu. Təxmini hesablamalara görə onun ucaldılması üçün 35 min kubmetr torpaq və çaydaşı lazım olmuşdu. Birinci kurqana isə daha çox – 80 min kubmetr daş və torpaq işlədilmişdir.

Üçtəpədə ilk dəfə arxeoloji tədqiqatlar A.A.İyessenin təşəbbüsü ilə 1957-ci ildə başlanmışdır və qazıntı üçün nisbətən kiçik olan üçüncü təpə - üçüncü kurqan seçilmişdi. Lakin bu kurqanın qazıntısı təkcə onun kiçik ölçülü olmasından irəli gəlməmişdi. İlkin axtarışlar zamanı birinci və ikinci kurqanların ayrı-ayrı yerlərində gözə çarpan bəzi əlamətlər bunların altında ola bilən qəbirlərin hələ qədim zamanlarda dağıdılması və ya qarət olunması haqqında şübhə oyatmışdı. Qədim dövrlərdə qəbirlərin qarət olunması adi bir şey olmuşdu. Müxtəlif ehtiyatlara, tədbirlərə baxmayaraq, qarətçilər həmişə ən böyük ustalıqla gizlədilmiş qəbirlərin belə qənimi olmuşlar. Qüdrətli və zəhmli Misir

fironlarının qarət olunmuş qəbirləri haqqında məlumatlar buna sübutdur.

Qəbir qarətçiləri zaman və məkan hüdudlarından asılı olmayaraq kurqanlardan da yan keçməmişlər. Azərbaycanın özündə vaxtilə qarət olunmuş qəbirlərə, kurqanlara heç də az təsadüf edilməmişdir. Maraqlıdır ki, belə abidələrdə bir qayda olaraq qarətçilərin izləri də qala bilmişdir. Lakin Üçtəpədəki üçüncü kurqanda belə izin görünməməsi, tapılmaması görkəmli alimi məhz bu kurqanı qazmağa sövq etdirmişdir. Qarət olunmamış bütöv qəbir abidəsi özlüyündə maraqlı və zəngin tapıntılar vəd etmişdi.

1957-ci ildə böyük həvəs və ümidlərə bu təpədə arxeoloji qazıntılara başlanılmışdı. Payız fəslində başlanan ilk qazıntı zamanı təpənin 14 metrlik örtüyündən 6 metr qalınlığında torpaq layı götürülmüşdü. Bu layların üst hissəsində orta əsrlərə aid 12 qəbir aşkar edilmişdi. Lakin onların heç birində əsaslı bir tapıntıya rast gəlinməmişdi. İri ölçülü qədim kurqanların orta əsrlərdə qəbiristanlıq kimi istifadə olunması hallarına çox təsadüf edilmişdir. Bəzən onların zirvəsində hətta hündür sərdabələr də tikilmişdi. Belə bir sərdabənin qalıqları hal-hazırda birinci kurqanın zirvəsində də görünür.

Gücümüz çatsa, bu mövsümdə kurqanın qazıntısını başa çatdırmalıyıq. Azərbaycanda ilk dəfədir ki, belə möhtəşəm kurqan qazılır. Zəngin tapıntılara ümid böyükdür. Deməli, mən bu abidənin tədqiqinin ən maraqlı bir mərhələsində iştirak edirəm.

Azərbaycan ərazisində qədim kurqanlar çoxdur. Hələ keçən əsrdən aparılan tədqiqat və qazıntılardan öyrənilmişdir ki, onların əksəriyyəti tunc dövrünün müxtəlif inkişaf mərhələlərinə aiddir. Bəs, Üçtəpədəki kurqan hansı dövrə aiddir, hansı dövrdən bizə yadigar qalmışdır?

Bu kurqanın, eləcə də onun yanında olan digər kurqanların fərqləndirici xüsusiyyətləri ilk vaxtlardan A.A.İyessenin böyük marağına səbəb olmuşdu. Hər şeydən əvvəl bu kurqanlar Azərbaycanın digər yerlərindən məlum olan kurqanlardan hündür ehramı xatırladan öz formaları ilə seçilirlər. Belə ki, başqa yerlərdən məlum olan kurqanların üst örtüyü əsasən yarımkürə şəkillidir. Əvvəllərdə aparılan arxeoloji qazıntılarla öyrənilmişdir ki, onlar tunc dövrünün son mərhələsinə aiddir. Lakin Üçtəpə kurqanları öz formalarına görə bunlardan seçildiyinə görə təbiidir ki, dövr etibarilə də onlardan fərqli olmalıdırlar. Deməli, Üçtəpə kurqanları tunc dövrünün son mərhələsinə aid ola bilməzlər.

Digər maraqlı cəhət ondan ibarətdir ki, Üçtəpə kurqanlarının yaxınlığından keçən qədim Govurarx burada eramızdan əvvəlki I minilliyin son əsrlərinə aid edilən bir sıra küp qəbirlərini dağıtmışdı. Belə qəbirlərə Qarabağ düzündəki iri həcmli oxşar kurqanla-

rın yalnız örtük üstlərində rast gəlinmişdir. Aydındır ki, Üçtəpə kurqanları yaşca bu tapıntıların aid olduğu dövrdən daha qədimdir. Bütün bunlara əsasən A.A.İyessen güman edir ki, Üçtəpə kurqanları ya son tunc dövründən sonra gələn dövrə, ya da, daha qədim dövrlərə aiddir.

Mənbələrə görə tunc dövründən sonrakı əsrlərdə Azərbaycan ərazisinə şimal tərəfdən köçəri skif tayfaları daxil olmuşdular. Onlar bir müddət Azərbaycan düzlərində qaldıqdan sonra Ön Asiya ölkələrinə tərəf üz tutmuş, onların tarixi taleyində böyük rol oynamışdılar. Bu tayfalar geri döndükdə də Azərbaycan ərazisindən yan keçməmişdilər, yenə də bu yerləri özlərinə müvəqqəti məskən yeri seçmişdilər.

Azərbaycanın yumşaq təbiətli geniş düzləri, xüsusən yol ayrıcında olan Mil düzü bu köçəri tayfalar üçün, onların saysız-hesabsız ilxıları üçün əsl cənnət olmuşdu. Belə olduqda Üçtəpə kurqanları skif taüfalarına aid olmalı və onların Mil düzündə məskənləşməsi məsələsinə dair elmi dəlilləri verməlidir.

Bu kurqanlar daha qədim dövrlərə aid olduqda da böyük elmi əhəmiyyət kəsb edə bilərlər. Belə ki, Azərbaycan ərazisində indiyədək tədqiq olunan kurqanların çoxu bilavasitə tunc dövrünün son mərhələsinə aid olmuşdur. Daha qədim dövrlərə məxsus kurqanlar, xüsusən möhtəşəm görkəmli kurqanlar isə demək olar ki, ilk dəfədir ki, qazılır. Onda Üçtəpə kurqanının tədqiqi arxeologiyaya yalnız yenilik verməlidir.

*30 sentyabr, 1959-cu il*



*Qoca tarix verdi yay, verdi kaman,*
*Çəkirik yayı zaman-zaman*
*Ox ki, vuruşumuzdur, quş misalı*
*Hədəf qurtuluş misalı.*

*Nazim Hikmət*

Mən arxeoloqam və bu adı böyük qürurla daşıyıram. Mən ulu babalarımın ən uzaq keçmişini öyrənirəm, onların arzu və əməllərini, hiss və düşüncələrinin daşa, mis və tunca dönmüş yadigarlarını axtarıram.

«Yeniyetmə ikən bir dəfə axşam dərslərimi hazırlayırdım. Birdən əlim ailəmizin köhnə yadigarlarından olan qalay şamdana dəydi. Məni həyəcan bürüdü. Qələmi yerə qoydum, Gözlərimi yumub bu köhnə şamdanın şahidi olduğu keçmiş hadisələri görməyə başladım.

Necə bu şamdanla qəhqəhələrlə dolu şən ad günlərində zirzəmiyə düşərdilər və oradan şərabla dolu şüşə qablar çıxarardılar! Necə bu şamdanın titrək işığı altında dünyasını dəyişmiş əzizlərimizin tabutu yanında oturardılar!



Mənə elə gəldi ki, indi mən əsrlər boyu bu şamdanı tutmuş adamların sifətlərini görürəm, əllərinin istisini hiss edirəm. Köhnə şamdan bu dünyadan gedənləri mənim yadıma saldı, mən onları canlı gördüm və əbədi yoxluq qorxusundan həmişəlik qurtuldum. Hər bir insan yer üzərində pozulmaz izlər qoyur: fərqi yoxdur, bu pilləkanın ağac surahəsi olsun və ya onun daş pillələri. Mən çoxlu insan əlinin toxunmasından par-par parıldayan ağac surahəni, çoxlu insanın çıxıb-düşməsindən yeyilmiş, çuxura düşmüş daş pillələri sevirəm. Mən köhnə şamdanımı sevirəm. Bunlarda əbədilik vardır...». Bu sözlər məşhur fizik Frederiko Jolio Kü-

riyə məxsusdur. Mən isə bu sözləri sevirəm və bütün varlığımla onların dərin mənasını anlamağa çalışıram. Mənə elə gəlir ki, bu sözlər arxeologiya elminin yüksək amalı ilə həmahəngdir.

Nəsillərin yaddaşında və xatirində, hiss və düşüncələrində qalan hər şey – əbədidir. Əbədidir, babalarımın öz doğma torpağına, doğma elinə və obasına olan məhəbbəti, onların gözəlliyə olan məhəbbəti.

Zamanın, vaxtın varisliyini, sıx əlaqəsini hiss etmədən yaşamaq olarmı? Məncə, həyatda dönüb geriyə baxmadan yaşamaq, irəliyə getmək mümkün deyil. Məgər, insanın böyüklüyü və qüdrəti öz təzahürünü əql, zəka və istedadın yekdilliyində, zaman və məkan hüdudlarında qanad açan insan mədəniyyətinin yekdilliyində tapmamışdırmı? Məgər, əqlimizə, təxəyyülümüzə qidanı verən tarix deyilmi? Məgər çağdaş narahat dünyamızda bir çox şeyləri aydınlaşdıran, başa düşməyə kömək edən tarix deyilmi?



Tarixdə rəmzi mənada ilk arxeoloq Babil hökmdarı Nabonid hesab edilir. Nabonid 2500 il bundan əvvəl yaşamış və hökmranlıq etmişdi. Qədim salnamələrin qeydinə görə qüdrətli hökmdar ulu babalarına məxsus saray və məbədlərin xarabalıqlarında qazıntı işləri apartdırmış, öz əcdadlarının keçmişini öyrənmək istəmişdi. Onun əldə etdiyi tapıntılardan biri hal-hazırda Britaniya muzeyində saxlanılır. Bu, məbəd bünövrəsindən tapılmış yazılı daşdır. Hökmdar Nabonid keçmişlə maraqlanarkən ilk dəfə olaraq qədim əsatir və əfsanələrə yox, bilavasitə əşyavi mənbələrə – maddi mədəniyyət nümunələrinə müraciət etmişdi.

«Arxeologiya» sözünü isə ilk dəfə məşhur yunan filosofu Əflatun işlətmişdir. Bu söz iki hissədən ibarət olub: arxayos-qədim, loqos – söz deməkdir. Lakin böyük filosof özünün «Böyük Hippi» dioloqunda arxeologiya sözünü işlədərkən ona daha geniş məna vermiş, onu uzaq keçmişdə baş vermiş hadisələr haqqında hekayət kimi qəbul etmişdi. “Böyük Hippi” əsərində Sokrat sofist Hippidən soruşanda ki, lakedomoniyalılar onun hansı söhbətlərinə daha böyük həvəslə qulaq asırlar, o, cavab verir: “Qəhrəmanların və adamların əsli, nəcabəti və uzaq nəsli, bir yerdən başqa yerə köçmələri, qədim şəhərlər salmaları haqqında söhbətlərə və ümumiyyətlə arxeologiya haqqında söhbətlərə”.

Əlbəttə, nə qədim Babil hökmdarı Nabonid, nə də qədim yunan filosofu Əflatun təsəvvürlərinə belə gətirə bilməzdilər ki, yalnız əsrlər, və qərinələrdən sonra – bilavasitə XIX əsrdə arxeologiya müstəqil bir elmə, tarix elminin ən mühüm və şərəfli bir sahəsinə çevriləcək, ürəkləri, beyinləri həyəcanlandıracaqdır. Onlar təsəvvür edə bilməzdilər ki, bu elm uzaq bir diyarda – Azərbaycan adlanan kiçik, lakin olduqca zəngin tarixi keçmişə və tarixi yadigarlara malik olan günəşli bir ölkədə də təşəkkül tapacaq, bu ulu ölkənin onlarca oğlan və qızı gecəni gündüzə qataraq yer qazacaq, öz əcdadlarının izlərini axtaracaqlar.

...Bir həftəyə yaxındır ki, Mil düzündəyəm, addım-addım hər qarışını gəzirəm, hər addımda uzaq keçmişin yadigarları ilə rastlaşıram. Sanki kimsə bir ovuc ulduzu göyün ənginliklərindən Milin sinəsinə səpmişdir. Torpaqdan ucaldılan möhtəşəm təpələr – ulu babalarımın əbədi uyuyan yeri, qədim Örənqala – ulu babalarımın qəm, kədər və qüssəli məskən yeri, qədim Govurarx – ulu babalarmın qanından, göz yaşlarından yaranan böyük bir çay, Milə ad verən Mil-minarə yeri – ulu babalarmın qanadlı mahnısı – onlarca, yüzlərcə belə abidələr. Bunların hər biri qiymətli tarixi incidir.

Bu gün Mil-minarə abidəsində olduq. Güman edilir ki, Mil düzünün adı vaxtilə

burada ucalan mil minarələrdən götürülmüşdür. Bu həqiqətə yaxındır, çünki qədim tarixi mənbələr və yazılı abidələrin heç birində Mil adına rast gəlinməmişdir. Abidə Örənqalanın qərb hissəsində – qədim şəhər yerindən 2,5 km aralı məsafədə yerləşmişdir. Bu həmin abidədir ki, onun haqqında Abasqulu ağa Bakıxanov özünün məşhur "Gülüstani-İrəm" adlı əsərində belə yazmışdır: "Bunlar qədim hökmdarların qəbri üzərində ucalası iki böyük minarədən ibarətdir. Onlardan biri bütünlüklə uçmuşdur, digəri isə yarı uçmuş vəziyyətdədir. Buna görə Beyləqan şəhəri xarabalıqları yerli əhali tərəfindən Millər adlanır". Qeyd olunan yarıuçmuş minarə XIX əsrin ortalarına kimi qala bilmiş və yalnız sonra bütünlüklə dağılaraq həmişəlik yoxa çıxmışdır.

İndi biz minarələr yerində xarabalığı xatırladan bir təpəcik gördük. Onun üstü başdan-başa bişmiş kərpic qırıqları və kaşıdan olan bəzək nümunələrilə örtülmüşdü. Füruzəyi və qara rənglərdə olan kaşı qırıqları müxtəlif ornamental bəzəklərə və yazılara aid idi. Axtarış zamanı buradan xeyli tapıntı yığdıq. Abidədən cənuba Mil uzanırdı və uzaq üfüqdə ağ duman içində yoxa çıxırdı. Söhbət zamanı Aleksandr Aleksandroviç İyessendən soruşdum ki, niyə burada qazıntı işləri aparılmasın, axı onda heç olmazsa minarələrin bünövrəsini tapmaq olar və onlar bəlkə də gələcəkdə aparılacaq bərpa işlərinə böyük köməklik göstərə bilər. Təsəvvür edin ki, Mildə yenidən iki hündür minarə ucalır. Təsəvvür edin ki, bu nə gözəl bir möcüzə olardı...

Aleksandr Aleksandroviç yalnız acı bir istehza ilə gülümsündü...

*4 oktyabr, 1959-cu il*

***...Biz pəncərə qarşısında dayanmışdıq, duman şüşələrə sığınır, onların qarşısında qatılaşırdı. Mən hiss etdim ki, orada-duman arxasında mənim keçmişim – dilsiz, görünməz keçmişim gizlənmişdir.***

*Erix Mariya Remark*

Ekspedisiyamızın rəhbəri Aleksandr Aleksandroviç İyessen iki gündür ki, yataqdadır. Soyuqlamışdır. Üçtəpəyə onsuz gedirik. Srağa gün qazıntıdan qayıdanda yolun qırağındakı artezian quyusunda yuyunduq. Payız olsa da, fəvvarə kimi göyə qalxan və köpüklənə-köpüklənə yerə dağılan gur suyu gördükdə özüumüzü saxlaya bilmədik. Milin daima bizi təqib edən, maşınımızın ardınca boz bulud kimi sürünən, onun içərisinə girərək gözlərimizə, ciyərlərimizə dolan, üst-başımıza hopan narın tozdan xilas olmaq üçün bir anda hamımız suyun altına cumduq. Digər tərəfdən gün çoxdan qüruba əyilsə də, hələ öz isti nəfəsini Mildən çəkməmişdi. Hava isti və bürkülü idi. Sərinləmək üçün bundan gözəl fürsət ələ düşməzdi. Su şəffaf idi, qeyri-adi mavi rəngdə idi və yerin dərinliklərindən çıxdığı üçün sərin və xoş idi. Günəş, torpaq və suyun birgə təmasından və bizim gözəl əhvali-ruhiyyəmizdən yaranan gözlənilməz bir səadət bir anda bizi tilsimlədi, öz qoynuna aldı. Sözsüz, leninqradlı həmkarlarımızın sevinci daha böyük idi. Onlar təkrar-təkrar suyun altına girir, suyu şappıldada-şappıldada çimirdilər. Aleksandr Aleksandroviç cavanlardan heç də geri qalmırdı. Lakin axşam onun qızdırması qalxdı, özünün dediyinə görə səhərədək yata bilmədi. İndi o, yataqdadır və nəhayət Remarkı mütaliə etməyə imkan tapmışdır.



İki-üç ildir ki, bu yazıçının yaradıcılığı diqqət mərkəzindədir. Onun əsərləri əldən-ələ gəzir, maraqla, həyəcanla oxunur. Nədədir onların sirri? Onların qəhrəmanlarını – başqa bir dünyanın adamlarını bizə ürəkdən sevdirən, bağlayan hansı qüvvədir?

Alman yazıçısı Erix Mariya Remarkla mənim yaxın tanışlığım iki il bundan əvvəl, ucqar dağ bölgələrdən birində müəllimlik etdiyim vaxtdan başlanmışdır. Rayon mərkəzindəki zirzəmiyə oxşayan kitab dükanında onun çoxdan arzuladığım «Üç yoldaş» kitabını gördükdə sevincimin hüdudu olmamışdı. Neçə-neçə uzun və soyuq qış gecələrini mən şam, çıraq işığında bu kitabın qəhrəmanları ilə keçirmişdim, onlarla sevinmişdim, onlarla kədərlənmişdim, onların ümidsiz acı taleyinə ürəkdən yanmışdım. Sonralar yazıçının «Qərb cəbhəsində dəyişiklik yoxdur» və «Yaşamaq vaxtı, ölmək vaxtı» əsərlərilə də tanış olmuşdum, müharibə məfhumu altında gizlənən amansızlığın, dəhşətin nə qədər böyük bəla olduğunu bir daha hiss etmişdim, sarsılmışdım. Yer üzünün əşrəfi sayılan insanın kamillikdən hələ nə qədər uzaq olduğunu bilmişdim.

Qüdrətli yazıçı iki ümumcahan müharibəsinin şahidi olmuş, onların gətirdiyi fəlakətləri öz gözləri ilə görmüşdür. Bəlkə də elə buna görə onun müharibəyə qarşı münasibəti sərt və amansızdır.

Aleksandr Aleksandroviç İyessen yazıçının yaşıdıdır. Milyonlarla insanın – körpələrin və qocaların, əsgər paltarı geymiş kəndli və fəhlələnin, sənətkar və ziyalının həyatına bais olmuş, maddi və mənəvi sərvətlərin məhvi ilə nəticələnmiş iki dəhşətli müharibənin müsibətli yollarından o da keçmişdir. Leninqradın ağır blokadasını keçirmişdir. Minlərlə adamın məhvini görmüşdür.

Aleksandr Aleksandroviç İyessen ekspedisiyamızın rəhbəridir. SSRİ Elmlər Akademiyası Arxeologiya İnstitutu Leninqrad bölməsinin əməkdaşıdır. Qafqaz və Mərkəzi Asiya arxeologiyası şöbəsinin müdiridir. O, əsl leninqradlıdır., keçən əsrin sonlarında, əvvəllər Sankt-Peterburq adlanmış bu şəhərdə doğulmuşdur. Lakin deyilənlərə görə o, mənşə etibarilə Skandinaviya xalqlarındandır. Əcdadları hələ Böyük Pyotrun dövründə Nevanın sahilində təzə salınan bu şəhəri özləri üçün daimi məskən yeri kimi seçmişdilər. Onun atası çar Rusiyasının hərbi donanmasında qulluq etmiş, kontr-admiral rütbəsinə kimi yüksələ bilmiş, istedad və bacarığı ilə böyük nüfuz qazanmışdı. Onu da nəql edirlər ki, bir dəfə Aleksandr Aleksandroviçdən soruşduqda, - Sizin atanız hansı peşə sahibi olmuşdur? – o, özünəməxsus böyük təvazökarlıqla çox qısa cavab vermişdir: - Mənim atam donanmada xidmət etmişdir.

Aleksandr Aleksandroviç İyessen dünya miqyasında tanınmış arxeoloqlardandır. O, Qafqazın tunc dövrü tarixi üzrə ən yaxşı mütəxəssislərindən biri hesab olunur. Onun hələ 1935-ci ildə çapdan çıxan «Qafqazda ən qədim mis metallurgiyası məsələsinə dair» elmi əsəri ona böyük şöhrət qazandırmışdır. Həmin əsərdə bacarıqlı alim hələ o vaxt tutarlı elmi dəlillərlə sübuta yetirmişdi ki, Qafqaz ərazisində, o cümlədən, Azərbaycanda tunc dövrü, tunc dövrü mədəniyyəti təsadüfi bir şey olmamış, yerli tayfaların ümumi iqtisadi-ictimai və yüksək mədəni inkişafından irəli gəlmişdi. Ona qədər elmdə uzun müddət belə bir fikir hökm sürmüşdü ki, Qafqaz xalqları tunc kimi mürəkkəb bir metalın istehsal sirrini öyrənə bilməmiş və bu əraziyə tunc əşyalar – əmək alətləri, silah və bəzək nümunələri vaxtilə yalnız hazır şəkildə başqa ölkələrdən gətirilmişdi. A.A.İyessenin uzun və gərgin axtarışları belə bir fikri alt-üst etmiş və əyani şəkildə göstərmişdi ki, Qafqaz xalqları tunc istehsalı sirrinə çox qədim dövrlərdən bələd olmuş və hələ eramızdan əvvəl IV-III minilliklərdə müstəqil yerli tunc istehsalını yarada bilmişdilər. Bu işdə ərazinin zəngin yeraltı sərvətləri böyük rol oynamışdı. Maraqlıdır ki, alimin tədqiqatlarında Azərbaycan ərazisinin özü qədim tunc istehsalının mühüm mərkəzlərindən biri kimi qiymətləndirilmişdir. Bəlkə də elə buna görə istedadlı alim indi, elmi yaradıcılığının ən yetkin bir dövründə yeni axtarışlar aparmaq üçün məhz Azərbaycana, sirlərilə dolu Mil düzünə gəlmişdir.



Üçtəpədə başlanan qazıntılara o, böyük ümidlər bəsləyir, şirin arzularla yaşayır. Axşamlar isə tutqun lampa işığında Remarkı oxuyur. Erix Mariya Remarkı mən də çox sevirəm və nədənsə Aleksandr Aleksandroviçi ona oxşadıram. «Mənə elə gəldi ki, səssizcə qapı açıldı, yaşlı, yorğun bir adam içəri girdi, yavaşca masanın yanında oturdu və öz gəncliyinin mahnısını dinləməyə başladı...» Bu sətirlər dahi yazıçının «Üç yoldaş» əsərindəndir. Bəs yorğun, yaşlı adam kimdir? Bəlkə elə Aleksandr Aleksandroviçin özüdür?! Axı o, böyük yazıçının yaşıdıdır və onun kimi iki ümumcahan savaşının şahidi olmuş, hər iki savaşın gətirdiyi fəlakətləri öz gözlərilə görmüş, bu savaşların qurtarmaq bilməyən müsibətli yollarından keçmişdir.

«...Biz pəncərə qarşısında dayanmışdıq, duman şüşələrə sığınırdı, onların qarşısında qatlaşırdı. Mən hiss etdim ki, orada – duman arxasında mənim keçmişim – dilsiz, görünməz keçmişim gizlənmişdir...» Bu sətirlər isə indi mənə ucqar dağ kəndində keçirdiyim qüssəli, həm də xoş düşüncələrlə dolu ağ qanadlı günlərimi yada salır.

Azərbaycan ərazisi tunc dövrü abidələrilə zəngindir. Onun hər qarış torpağında bu dövrün qiymətli yadigarları qalmışdır. Yaz, yay aylarında axtarışlarda olduğum müddətdə Azərbaycanın ən ucqar yerlərində belə bu dövrə məxsus abidələrə rast gəlmişəm. Qədim yaşayış yerləri, qayaüstü təsvirlər, müxtəlif ölçülü kurqanlar – tunc dövrü abidələrinin yalnız cüzi bir hissəsidir. İndi axtarış apardığımız Mil düzünün özündə bu dövrə aid nə qədər maraqlı abidə vardır! Hələlik onları yalnız dəqiq şəkildə qeydə almaq, xəritəyə salmaqla kifayətlənirik. Lakin hər biri ayrı-ayrılıqda tunc dövrünün burada – ümumiyyətlə, bütün Azərbaycan ərazisində nə qədər özünəməxsus yüksək xüsusiyyətlərlə keçdiyini göstərən qiymətli tarixi mənbədir.

Turnc dövrünə, onun sirlərinə marağım çox böyükdür. Arxeologiyadakı bugünkü ilk addımlarım da minilliklər arxasında qalan bu dövrlə bağlıdır. Hələlik bunu öyrənmişəm ki, Azərbaycanda bu dövr eramızdan əvvəl IV minillikdə başlamış, təxminən II minillyin sonlarında başa çatmışdı.

Eneolit-mis dövrünü əvəz edən tunc dövrü yerli tayfaların iqtisadi və ictimai həyatında əsaslı dəyişikliklərlə səciyyələnmiş, özünün son mərhələsində nəsli quruluşun dağılması, ilk sinifli cəmiyyətlərin meydana çıxması ilə nəticələnmişdi.

Ulu babalarımız mis alətləri düzəldərkən təbiətə məxsus hazır və yekcins bir filizdən-misdən istifadə etmişdilər. Tunc istehsalını öyrənməklə isə onlar təbiətdə təsadüf olunmayan və yalnız mislə qalayın və ya mərgümüşün süni ərintisindən əmələ gələn

yüksək keyfiyyətli yeni bir metal yarada bilmiş və bununla ilk metallurgiyanın əsasını qoymuşdular. Bu işdə Azərbaycanın zəngin mis və mərgümüş yataqları həlledici rol oynamışdır.

Tuncun kəşfi və misə nisbətən daha möhkəm tunc alətlərin istehsalı tunc dövrünün ən böyük mədəni nailiyyəti olmuş, qədim Azərbaycan ərazisindəki mövcud cəmiyyətlərin yeni inkişaf mərhələsini müəyyənləşdirmişdir. Məhz tunc istehsalının sirrini öyrənməklə ulu babalarımız tarixi inkişafın daha yüksək mərhələsinə – tunc dövrünə keçə bilmişdilər.

Tunc dövründə Azərbaycan ərazisində bir sıra qədim mədəniyyətlər təşəkkül tapmış, tunc dövrünün özü üç mühüm inkişaf mərhələsindən keçmişdir: ilk, orta və son tunc dövrləri. Əlbəttə, bütün bunlar tunc dövrü haqqında ümumi anlayışdır. Bu dövrün hələ nə qədər açılmamış sirləri vardır. Bunların bir qismini açmaq bəlkə də mənim öhdəmə düşəcəkdir.

Hələlik Aleksandr Aleksandroviç İyessenlə Mil düzünü gəzirəm, yorulmaq bilməyən bu istedadlı, zəhmətkeş alimdən öyrənirəm. Mənə elə gəlir ki, onun özü də tunc dövrünün vurğunudur və bu dövr qurtarmaq bilməyən qəribə sirləri ilə onu həmişəlik əfsunlamışdır. İndi o Remarkı oxuyur, bəlkə də ötən günlərini yaşayır. Kim bilir?

*6 oktyabr, 1959—cu il*

***Qala, mən səni insanların qəlbində ucaldacağam*.**
*Antuan De Sent-Ekzüperi*

Dünyada gur işıqlı, gur həyatlı şəhərlərlə yanaşı, dərin sükuta qərq olmuş ölən şəhərlər də vardır. Yüz, iki yüz, min, bəlkə də lap çox.

Troya, Pompeya, Qerkulanum, Maçu-Pikçu, Axetaton, Karfagen, Xarabagilan, Qəbələ, Əlincə, Beyləqan, Şabran – adları məlum olan və olmayan minlərcə ölən şəhərlər... Onların bir qismi təbii fəlakətdən, bir qismi qocalıqdan, böyük bir qismi isə amansız müharibələrin vurduğu ağır xəsarətdən xarabalığa çevrilmişdir, qalın torpaq qatı ilə örtülmüşdür. Lakin əsrlər, qərinələr keçdikdən sonra bu şəhərlərə yenidən adamlar gəlmişlər, arxeoloqlar adlanan adamlar. Yaşamaq üçün yox, bu şəhərləri oyatmaq, dilləndirmək, yaşatmaq üçün. Beyləqanın xarabalıqları olan Örənqala da belə şəhərlərdəndir.

Bir neçə gündür ki,bu qədim şəhər yerində yeni qazıntı işlərinə, axtarışlara başlanılmışdır. Bu dəfə qazıntılara tarix elmləri namizədi alimlik dərəcəsini təzəcə altmış Qara Əhmədov rəhbərlik edir. Arxeologiya elmindəki ilk addımlarını o, burada başlamışdır. Örənqalanın şirsiz saxsı məmulatını tədqiqat mövzusu seçmiş və onu müvəffəqiyyətlə başa çatdırmışdır.



Qara Əhmədov Azərbaycan Dillər Universitetində mənim ilk arxeoloq müəllimim olmuşdur. Arxeologiyanın əsaslarına aid mühazirələri mən ondan eşitmişəm. O vaxtlar Qara müəllim lap gənc idi. İnsan dünyasını, onun keşməkeşli yolunu öz qüssəli qara gözlərilə böyük təəccüb və maraqla seyr edirdi. Arxada qalan beş-altı il müddətində Qara müəllim az dəyişmişdir. Lakin indi onun gözlərində çaşğınlıq, təəssüf və məyusluq

hisslərini də sezmək olur. Çətin həyat yolunun mənasınımı dərk etmişdir Qara müəllim? Bəlkə də bu onun şair təbiəti ilə bağlıdır. Axı Qara müəllim bir az da şairdir...

Örənqala sovet hakimiyyətinin ilk illərindən öyrənilən abidələrdən biridir. 1926-cı ildə bu qədim şəhər yerində Azərbaycanın istedadlı arxeoloq və etnoqrafı Ələsgər Kazım oğlu Ələkbərov olmuş və qısa müddətli arxeoloji axtarışlar zamanı Örənqalanın tarixinə aid bir sıra maraqlı və böyük elmi əhəmiyyətli məlumatlar toplaya bilmişdi.

1933-cü ildə Örənqala şəhər yerində artıq xüsusi arxeoloji ekspedisiya axtarışlarına başlamış, onun ayrı-ayrı yerlərində kəşfiyyat xüsusiyyətli qazıntılar aparmışdı. Yeni tədqiqatlara sovetlər ölkəsinin məşhur arxeoloq – tarixçilərindən olan akademik İvan İvanoviç Meşşaninov başçılıq etmişdi. Bu həmin alimdir ki, hələ o vaxtlar Azərbaycan torpağını zəngin yeraltı muzey adlandırmışdı.

Görkəmli alimin başçılıq etdiyi ekspedisiya Örənqalada cəmi 25 gün işləmişdi. Lakin görülən işlərin, axtarışların həcmi çox böyük olmuşdu. Qədim şəhərin üç yerində qazıntı sahələri açılmış və həmin sahələrdə orta əsrlərə aid maraqlı tikinti qalıqları üzə çıxarılmışdı. Kiçik şəhərin şimal-şərq divarı boyunca aparılan qazıntı işləri zamanı çiy kərpicdən hörülmüş və çöl tərəfdən üç cərgə bişmiş kərpiclə üzlənmiş möhtəşəm divar və yarımdairəvi şəkildə olan bürc qalıqlarına rast gəlinmişdi.

İkinci qazıntı sahəsi Kiçik şəhərin şimal-qərb divarının içəri tərəfində açılmışdı. Buradakı qazıntılar Azərbaycanın ilk arxeoloqlarından olan İshaq Məmməd oğlu Cəfərzadə tərəfindən aparılmışdı, o Cəfərzadə tərəfindən ki, sonralar özünün Qobustan qayaüstü təsvirlərinin tədqiqatları ilə ümumdünya şöhrəti qazana bilmişdi. Alimin 1933-cü ildə Örənqalada apardığı qazıntıları şəhər darvaza yerinin və eləcə də darvaza bürclərinin açılması ilə nəticələnmişdir. Bişmiş kərpicdən tikilmiş həmin bürclər çöl tərəfdən yarımdairəvi şəkildə olmuşdu. Qazıntı işləri zamanı hər bir darvaza bürcünün ümilikdə 16 metrə yaxın diametrdə olması da müəyyənləşdirilmişdi. Qala darvazasının eni isə 9 metr olmuşdu. Onun qarşısında kiçik meydança da aşkar edilmişdi.

Üçüncü qazıntı sahəsi Kiçik şəhərin mərkəz hissəsində açılmışdı. Ələsgər Kazım oğlu Ələkbərov tərəfindən aparılmış qazıntı işlərilə burada 0,6 və 0,9 metr dərinlikdə böyük ölçülü ictimai binanın divar qalıqları, ağzı bişmiş kərpiclə hörülmüş quyu yeri və kiçik ölçülü hovuz tapılmışdı. Bütün bu tikintilər qədim şəhərin çiçəkləndiyi bir dövrə – XII-XIII əsrlərə aid olmuşdu. Ekspedisiya bu qazıntılardan başqa şəhərin qəbiristanlığını da tapmış və burada dördkünc şəkilli kiçik bir türbənin qalıqlarını aşkara çıxarmışdı.

Həmin türbənin divarlarında ərəb əlifbası ilə icra olunmuş kaşı yazıların və bəzəklərin ayrı-ayrı hissələrinə təsadüf edilmişdir.

Akademik İ.İ.Meşşaninovun başçılığı ilə Örənqala şəhər yerində aparılan arxeoloci tədqiqatların elmi əhəmiyyəti çox böyük olmuşdu. İlk dəfə bu qədim şəhər yerinin ümumi topoplanı götürülmüş, geniş təsviri verilmiş, memarlıq-konstruktiv quruluşu aydınlaşdırılmış, arxeoloji abidə xüsusiyyətləri müəyyənləşdirilmişdi. Bütün bunlardan başqa ekspedisiya bu şəhər xarabalıqlarının bilavasitə Beyləqan şəhərinə aid olmasının düzgünlüyünü yeni tədqiqatlarla təsdiq etmişdi.

1936-cı ildə Örənqala abidəsində yeni tədqiqat işlərinə başlanılmışdı. Bu dəfə tədqiqatlara bu sahədə artıq böyük təcrübəsi olan yerli mütəxəssislərdən Ələsgər Kazım oğlu Ələkbərov başçılıq etmişdi. İstedadlı alimin səyi nəticəsində şəhər yerində yaşayış və sənətkarlıq məhəllələrinin tikintiləri açılmış, ayrı-ayrı divar qalıqları zahirə çıxarılmışdı. Bunlardan başqa şəhər yerindən azacıq aralıda olan təpələrdə də qazıntı işləri aparılmış və burada yaşayış binalarının olması və şəhərin XII-XIII əsrlərdə xeyli böyüməsi müəyyən edilmişdi.

Örənqalada müvəffəqiyyətli axtarışlar aparan Ələsgər Ələkbərov respublikamızda arxeologiya elminin təməl daşını qoyanlardan, onun ağır yükünü öz çiynində daşıyanlardan biri olmuşdu. Doğma torpağını, onun nadir tarixi yadigarlarını ürəkdən sevən alim bu xeyirxah və nəcib işdə hər cür çətinliyə sinə gərmiş və bəlkə elə buna görə də respublikada təzəcə təşəkkül tapan arxeologiyanın daşlı-kəsəkli çətin yollarında eyni inadkarlıqla addımlamış, Örənqala tədqiqatlarına böyük ümidlər bəsləmişdi.



Abidədə yeni əsaslı tədqiqatlar yalnız 1951-ci ildə başlanmışdı. Növbəti qazıntılar İshaq Məmməd oğlu Cəfərzadə tərəfindən aparılmışdı. Bu qazıntıların əsas

məqsədi Kiçik şəhərlə Böyük şəhərin bir-birinə olan münasibətini aydınlaşdırmaqdan ibarət olmuşdu. Bununla əlaqədar şəhər yerində yeni qazıntı sahələri açılmışdı. Şəhəri əhatə etmiş enli xəndək yerində aparılmış qazıntılar xüsusilə əhəmiyyətli olmuşdu. Burada müxtəlif əsrlərə aid divar və bürc qalıqları aşkar edilmişdi. Onlar mənsub olduğu dövrlərə müvafiq çiy və bişmiş kərpicdən inşa edilmiş, bu və ya digər dövrdə yeni tikintilərlə əlaqədar dağıdılmış və ya yenidən tikilmişdi. Bu qazıntılar nəticəsində məlum olmuşdu ki, ilk əvvəllər Böyük şəhərin divarları ucaldılmış, nisbətən sonrakı dövrdə Kiçik şəhər ondan içəri xəndəklə və onun istiqamətində çəkilmiş divarla ayrılmışdır. 1951-ci il tədqiqatları ilə Örənqala abidəsi haqqındakı mövcud təsəvvürlər xeyli genişləndirilmişdi. İshaq Cəfərzadə əvvəlki tədqiqatçılardan fərqli olaraq, Örənqalanı Beyləqan şəhərinin yox, ayrı-ayrı ərəb müəlliflərinin əsərlərində adı tez-tez çəkilən Yunan şəhərinin xarabalıqları olduğu fikrini irəli sürmüşdü. Lakin bu fikir sonrakı tədqiqatlar zamanı təkzib edilmişdi.



1953-cü ildə Örənqala tədqiqatları yeni mərhələyə qədəm qoymuşdu. Örənqalada, eləcə də bütün Mil düzündə geniş arxeoloji tədqiqatlar aparmaq üçün SSRİ Elmlər Akademiyası ilə Azərbaycan SSR Elmlər Akademiyasının birgə ekspedisiyası yaradılmışdı. Ekspedisiyaya rəhbərlik görkəmli arxeoloq A.A.İyessenə tapşırılmışdı. Artıq 1953-cü ildə ekspedisiya Örənqalada axtarışlara başlamış və az vaxt içərisində böyük əməli əhəmiyyət kəsb edən işlər görə bilmişdi. Şəhərin dəqiq topoplanı çıxarılmış, iki sahəsində yeni qazıntı sahələri açılmışdı. Ölən şəhər təzədən dil açmışdı. Az vaxt içərisində təkcə Kiçik şəhər ərazisində 1200 kv.m-ə qədər geniş sahə qazıntı yolu ilə öyrənilmişdi. Burada 6 metr qalınlığında mədəni təbəqənin olması müəyyən edilmişdi. Həmin mədəni təbəqənin ayrı-ayrı laylarında VII-XII əsrlərə və XIII əsrin əvvəllərinə aid tikinti qalıqları və küllü miqdarda maddi mədəniyyət nümunələri aşkara çıxarılmışdı. XI-XII əsrlərə aid mədəni təbəqədən daha maraqlı tapıntılar əldə edilmişdi. Tapıntılar içərisində zəngin gil məmulatı, mis, dəmir, şüşə və sümükdən hazırlanmış müxtəlif məişət avadanlığı, bəzək nümunələri, sikkələr və s. olmuşdu. Bütün bunlar həmin əsrlərdə, eləcə də XIII əsrin əvvəllərində orta əsr şəhər mədəniyyətinin yüksək səviyyəyə çatdığını əyani şəkildə sübuta yetirmişdi. Bu dövrdə şəhər Azərbaycanın mühüm iqtisadi və mədəni mərkəzlərindən biri kimi tanınmışdı.



Qalın torpaq qatı altında olan Böyük şəhər divarlarında aparılan tədqiqatlar da Örənqalanın tarixinə aid yeni elmi dəlillərin aşkara çıxarılması ilə nəticələnmişdi. Öyrənilmişdi ki, vaxtilə iri ölçülü çiy kərpiclərdən tikilmiş şəhər divarları burada öz ilkin şəklində qala bilmişdi. Bu divarlar XII əsrdə artıq istifadədən çıxmış və onların üzərində yaşayış binaları tikilməyə başlanmışdı. Qazıntılar zamanı buradan müxtəlif maddi mədəniyyət nümunələrilə yanaşı zəngin pul dəfinəsi də tapılmışdı. Həmin dəfinədə Eldəniz hökmdarlarına – Qızıl Arslana, Əbubəkr və Özbəyə aid 220 ədəd sikkə olmuşdu.

Yeni ekspedisiyanın Örənqalanın sənətkarlar məhəlləsində apardığı qazıntı işləri də az əhəmiyyətli olmamışdı. Gözlənildiyi kimi, burada dulus kürələri, dulusçuluq sə-

nətkarlığı ilə bağlı bir sıra əmək alətləri, çoxlu istehsalat tullantıları, eləcə də dulus məmulatı nümunələri üzə çıxarılmışdı. Bütün bunlar Örənqalada müstəqil dulusçuluq sənətinin mövcud olduğuna və yüksək inkişaf səviyyəsinə çatmasına əsaslı sübutdur.

Örənqala şəhər yerində bu vaxta qədər aparılan arxeoloji tədqiqatların əsas nəticələrinin qısa şərhi bundan ibarətdir. Şübhəsiz, yeni mövsümdə başlanan tədqiqatlar və qazıntılarla bu qədim şəhərin tarixinə aid daha zəngin və samballı tapıntılar əldə ediləcəkdir. Əlbətdə, Örənqalanın açılmamış çirləri hələ də qalacaqdır. Səssiz, səmirsiz boz təpələrə dönmüş bu qədim şəhərin xarabalıqlarında hələ neçə-neçə sirli həyat uyuyur. Şəhərin üstünü örtən qalın torpaq qatını bütünlüklə təmizləmək üçün hələ neçə nəslin gərgin işi lazım olacaqdır.

Örənqalada işləyən həmkarlarıma qibtə edirəm. Onlar hər gün səhər tezdən bu qədim şəhərə yollanır, qazıntı aparır və qaranlıq düşənədək orada qalırlar. Hər gün onun gözə görünməyən küçələrilə gəzişirlər. Hər gün onun qala divarlarına çıxırlar və oradan dərin düşüncəyə dalmış Mili seyr edirlər.

Hanı şəhərə gələn qədim yollar? Hanı şəhərdən gedən yollar?

*9 oktyabr , 1959- cu il*

***Bizlər, öləri insanlar öz əbədiliyimizə bizdən sonra qalan əşyalarda nail oluruq, o əşyalar da ki, birgə yaradırıq.***
*Albert Eynşteyn.*

Doğrusu, indi yadıma sala bilmirəm ki, böyük və qüdrətli alimin bu sözlərini gündəliyimə nə vaxt yazmışam. Hansı hiss və duyğular məni – ulu babalarımın ulu yadigarlarını təzəcə öyrənməyə başlayan gənc bir alimi bu müdrik sözlərə diqqət yetirməyə sövq etdirmişdir? Bəlkə ulu babalarımın yadigarları ilə ilk tanışlıq zamanı keçirdiyim hisslər, qəlbimdə doğan duyğular....

İlk baxışda belə görünə bilər ki, əsrimizin görkəmli fiziki, nisbilik nəzəriyyəsinin banisi Albert Eynşteyn bizi əhatə edən bütün şeyləri, əşyaları insan həyatının əbədi izi hesab etmiş, insan həyatının əbədiliyini qeyri-müəyyən vaxt ərzində qala bilən, yaşaya bilən əşyalarının nisbi ölməzliyində görmüşdür. İlk baxışda belə görünə bilər. Əslində, dərin təfəkkür sahibi olan bu böyük alimin dünyagörüşündə insan münasibətlərini əşyaların natural xassəsinə çevirmək fetişzmindən kiçik bir əlamət belə yoxdur. Onun müdrik sözlərində şeylərin- əşyaların ölməzliyi yox, bilavasitə insanın ölməzliyi, insan həyatının əbədiliyi öz təzahürünü tapmış və bu əbədilik nəsillərin, insanların yaxınlığı, onların hiss və duyğularının varisliyi ilə reallaşdırılmışdır.

Bu gün Kamıltəpədə axtarış apardıq. Kamıltəpə Mil düzünün qərbində, Govurarxdan 7 km cənub-şərqdədir. Kamıltəpə qədim yaşayış yeridir. Hündürlüyü 4 metrə yaxın olan dairəvi təpədən ibarətdir. Suyu çoxdan qurumuş qədim Şpartı çayının sol sahilində yerləşir. Təpədə ilk axtarışlar 1955-1956-ci illərdə aparılmışdır. İlk tədqiqatlar zamanı burada mis dövrünə aid gil qablar, daş alətlər və çiy kərpiclərdən tikilmiş bina qalıqları aşkar edilmişdi.



Bugünkü axtarış zamanı bir sıra maraqlı tapıntılar əldə etdik. Onlardan biri indi masamın üstündədir. Bu adi bir saxsı parçasıdır. Üzəri hamar, gözoxşayan açıq-qırmızı rəngdədir. Səthində tünd-qəhvəyi rənglə çəkilmiş naxışların izi qalmışdır. Elmi ədəbiyyatda belə gil qablar boyalı qablar adı ilə qeyd olunur. Adi saxsı parçası... Onun ən azı 7 min yaşı var. Günəşin istisini, torpağın qoxusunu, qədim dulusçunun əlinin hərarətini, barmaqlarının izini hələ də özündə saxlayan bu saxsı parçası

nələrin şahidi deyil? Dil açsa nələr danışar?

Əlimi saxsıya uzadıram, - danış, deyirəm. Həyəcanla pıçıldayıram:

- Söhbət aç mənə, qərinələrdən, əsrlərdən danış.

Sanki saxsı dilə gəlir, söhbətə başlayır. Elə bil aramızdakı minilliklər yox olur.

- Ey ulu insan! Mən də sənin kimi uluyam. Mənim mayam Şpartının yatağındakı sarı gildən, onun buz kimi soyuq suyundan, günəşin istisindən, insan ayağının gücündən, əllərinin istisindən yaranmışdır. İzləri, xatirələri yaşadıram, yaşadıram...

Sözlər əks-səda olub hər yana yayılır. Gecənin qoynunda yuxuya dalan Milin başı üstündə dolaşır, dolaşır....

Bəli, o çox uludur, qədimdir, insan zəkasının, qüdrətinin məhsuludur. Onun indi nə az, nə çox, yeddi min yaşı var. Düz yeddi min il bundan qabaq ulu babam ona həyat vermişdi. Çiynində gil gətirmiş, böyük səylə onu yoğurmuş, möhkəm olsun deyə onun tərkibinə saman tozu qatmış, kiçik bir cam düzəltmişdi. Onu odda bişirmiş, Milin çiçəklərindən aldığı boya ilə bəzəmişdi.

O vaxtlar Mil indikindən əhəmiyyətli dərəcədə fərqlənən gözəl təbii şəraitə, zəngin heyvanat və bitgi aləminə malik olmuşdu. Onun sulu çayları, münbit torpaqlı geniş vadiləri, il boyu yaşıl otlaqları, sıx meşələri və keçilməz cəngəllikləri olmuşdu. O vaxtlar Mildə nəhəng gövdəli arçan ağacları bitərmiş, onların kölgəsində marallar dincələrmiş, şirlər, pələnglər öz dəhşətli nəriltilərilə aləmə car çəkərmiş. Şpartı və Qarqar çaylarının sahillərində durnalar, qazlar, ördəklər, turac və qırqovullar qaqqıldaşarmış. Saysız-hesabsız ceyran-cüyürlər öz incə dırnaqları ilə Milin sinəsinə gözəl naxışlar vurarmış.

O vaxtlar Milin ən böyük sərvəti münbit torpaqları olmuşdu. Elə buna görə də bu torpaqlar çox qədim dövrlərdən ulu babalarımız tərəfindən mənimsənilməyə başlanmış, onların daimi məskən yerinə çevrilmişdi. Səkkiz-yeddi min il bundan əvvəl geniş düzdə oturaq əkinçi-maldar əhaliyə məxsus yüksək bir mədəniyyət yaranmış və inkişaf etmişdi. O vaxtlar ulu babalarımız misi kəşf etmiş, ondan müxtəlif alətlər istehsal etməyi öyrənməklə bəşər tarixinin mis dövrünə qədəm qoymuşdular.

Mis dövründə Milin qədim sakinlərinin yaşayış yerləri o qədər də böyük olmamışdı. Yaşayış yeri üçün bir qayda olaraq çay sahillərindəki kiçik yüksəkliklər seçilmişdi. Belə təpələr üzərində sıx şəkildə yaşayış və təsərrüfat binaları tikilmişdi. Həmin dövrdə qədim əcdadlarımız möhrə və çiy kərpiclərdən gümbəz şəkilli binalar inşa etmişdilər. Maraqlıdır ki, belə qəribə binalar o vaxtlar bütün Şərq ölkələrində də mövcud

olmuşdu. Mis dövründə Mil düzünün mədəni-tarixi inkişafı Şərq ölkələri ilə sıx əlaqədə keçmişdi.

Mis dövründə Milin qədim sakinlərinin əkin sahələri kiçik olmuşdu. Yaşayış yerlərinin ətrafında olan belə əkin sahələri sümük və yaxud daşdan düzəldilmiş ibtidai toxalarla şumlanılmışdı. İndiki kətmənlərə oxşayan bu toxaları zəhmətkeş babalarımız il boyu çiyinlərində daşımış, onlarla torpağı oxşamış, onu əkib-becərmişdilər. Onlar arpa, buğda kimi dənli bitkilər yetişdirmiş, bağçılıq və bostançılıqla məşğul olmuşdular. Tədqiqatlardan müəyyən olmuşdur ki, qədim təsərrüfat sahələrində, xüsusən, ibtidai əkinçilikdə və onun inkişafında qadınların zəhməti böyük olmuşdur. Təsadüfi deyil ki, cəmiyyət tarixinin mis dövrü mərhələsi ana nəslin hökmranlığı dövrü ilə bağlıdır.

Milin qədim əhalisi taxıl biçinində ağac və sümükdən hazırlanmış oraqlardan istifadə etmişdi. Belə oraqların dişləri çaxmaq, dəvəgözü və başqa möhkəm daşlardan düzəldilmiş iti bıçaqlardan ibarət olmuşdu. Arxeoloji axtarışlar zamanı Mil düzündən belə qədim əkin-biçin alətlərinin çoxlu nümunələri tapılmışdır.

Torpaqla sıx bağlı olan, torpağın xeyirxahlığını yaxşı bilən qədim əcdadlarımız onu müqəddəsləşdirmişdilər. Onların ilk təsəvvürlərində torpaq, ana və qadın məvhumları eyni mənada səslənmiş, məhsuldarlıq və artım rəmzi olmuşdu. Maraqlıdır ki, mis dövründə bütün Azərbaycan ərazisində, o cümlədən, Mil düzündə ölüləri bükülü vəziyyətdə dəfn etmək adəti də torpağa olan belə böyük inamdan irəli gəlmişdi. Torpağın qoynunda dizləri və qolları bükülü, başı sinəsinə doğru əyilmiş vəziyyətdə uyuyan meyid ana bətnindəki uşağın vəziyyətini xatırlatmalı, torpaqla insanın ayrılmaz olduğunu təmsil etməli idi. Torpaq və insan haqqında, onların qarşılıqlı əlaqələri haqqında düşüncələr qədim dövrlərdən babalarımızın təfəkkürünü həyəcanlandırmış, onların ilk fəlsəfi dünya görüşlərinin əsası olmuşdu.

Mildə məskunlaşmış ən qədim qəbilələrin təsərrüfat həyatında ibtidai maldarlıq da əhəmiyyətli yer tutmuşdu. O zamankı Milin il boyu yaşıl qalan zəngin otlaqları oturaq maldarlığın inkişafına böyük təsir göstərmişdi. Ət və süd məhsulları da o dövrdə qədim əhalinin əsas ərzaq mənbələrindən olmuşdu.

Səkkiz-yeddi min il bundan əvvəl bu geniş düzdə yaşamış əcdadlarımızın təsərrüfat həyatında ibtidai ev sənətkarlığının ayrı-ayrı sahələri də mühüm yer tutmuşdu. Bu dövrdə ibtidai dulusçuluq sahəsindəki müvəffəqiyyətlər daha böyük olmuşdu. Düzün qədim sakinləri gildən müxtəlif qablar düzəldə bilmiş, bir çox hallarda onların üzərini

qırmızı və qara boya ilə qəribə naxışlarla bəzəmişdilər.

O vaxtlardan çoxlu əsrlər keçmişdir. Bu müddətdə Milin çayları səmtini dəfələrlə dəyişmiş, bir çoxları suyunu əbədi qurutmuşdur. Mildə yaşamış qədim babalarımızın məskənləri də onların özü kimi ana torpağın qoynunda əbədi yuxuya dalmışdı...

Milə yolunuz düşsə, quru çay vadilərindəki təpələrə fikir verin. Bu təpələrin üstündə ot belə bitmir. Bunlar ulularımızın ən qədim yurd yerləridir. Torpaq bir ana qayğıkeşliyi ilə örtüyünü övladlarının üstünə salmış, onların yadigarlarını böyük qayğıkeşliklə qoruyub saxlamışdır.

Ətraf həmişə səssiz-səmirsiz olur. Yalnız payız fəslində doğma yerləri tərk edən durna qatarlarının ürək yandıran kədərli səsləri bir neçə gün bu sükutu pozmuş olur. Arabir isə təpələrin yanından dəvə karvanları ötür. Dəvələr gövşüyür, zınqırov səsləri ecazkar bir mahnı kimi düzə yayılır. Lakin çox keçmədən düzün sirli ənginliklərində itib-batır. Ətrafa təzədən səssizlik çökür. Qoca Mil düşünür, itib-batan yurdlarını, nəsil-nəsil gedən övladlarını yada salır.

Göydə qartallar süzür, sanki əlçatmaz yüksəklikdən minilliklərin izlərini seyr edirlər.

*10 oktyabr, 1959-cu il.*

*__Can evimə sığışmayan arzular__*
*__Bir dünyada neçə dünya arzular.__*
*Səməd Vurğun.*

İşlərimiz sahmana düşmüşdür. Havalar xoş və yağışsız keçdiyindən hər gün Üçtəpəyə gedib gəlirik, fasiləsiz işləyirik. İş saat doqquzda başlanır, beşdə qurtarır. Hər gün bizi günəş qarşılayır, günəş yola salır. Al-qırmızı, gülər üzlü günəş. Bütün günü açıq havada oluruq, onunla birlikdə Mili seyr edirik.

Mil indi çox gözəlləşmişdir. Arada yağan isti yağışlardan sonra o başdan-başa yaşıl dona bürünmüşdür, təravətlənmişdir. Qol-budaq atan yovşan kolları isə bu zümrüd donu gümüşü tikmələrlə bəzəmişdir. İndi Milin mavi üfüqlərini, bu üfüqlərin arxasından sirli-sirli boylanan bənövşəyi-boz dağları, uzaqlardan gələn Govurarxın parlaq cığırını aydın görmək olur. Hər yanda sakitlik hökm sürür. Şəffaf səma işıq saçır, göz qamaşdırır. Günlər isə yuxu kimi keçir, gah gözəl arzular doğurur, ümidlər verir, gah da gizli bir qüssə gətirir, nigarançılıq doğurur, sanki tənhalıq dünyasının qapılarını açır, həzin mahnılar oxuyur.

Mil heç vaxt belə sirli və sehrkar olmamışdır. İndiki qədər belə kiçik və eyni zamanda indiki qədər belə böyük, ucsuz-bucaqsız görünməmişdir. Kiçik Milə də, böyük Milə də eyni məhəbbətlə bağlanmışıq. Gözə görünməyən ürək tellərilə.

Bu bir neçə gün ərzində xeyli iş görmüşük. Qazıntı sahəsi iki buldozerin köməkliyi ilə az vaxt içərisində gözə çarpacaq dərəcədə dərinləşdirilmişdir. Lakin görüləsi işlər hələ də çoxdur. Qalın torpaq layları altında gizlədilmiş qədim qəbir yerini tapmaq üçün buradan təxminən 10-15 min kubmetrədək torpaq çıxarmaq lazımdır. İş bununla bitəcəkmi? Kim bilir? Hələlik isə qazılmaqda olan torpağın hər qarışını böyük səbr, inam və təmkinliklə, üstəlik ehtiyatla yoxlayırıq, qeydlər götürürük, sirlərlə dolu dərin bir ümmana baş vururuq, ümidlərlə yaşayırıq.

Bu gün təpələrin arasındakı boş sahədə də qazıntı işlərinə başladıq. Burada olan ayrı-ayrı çökək yerlər çoxdan idi ki, Aleksandr Aleksandroviçi maraqlandırırdı. Axtarış zamanı buradan qədim dövrlərə aid küllü miqdarda gil qab qırıqları və dəvəgözü qəlpələri toplamışdıq. Təbii yataqları ancaq yüksək dağlıq bölgələr olan dəvəgözü daşının Mil düzündən tapılması əlbəttə çox maraqlıdır. Yığdığımız nümunələrin əsas hissəsi qara, boz və şəffaf dəvəgözü daşından olan istehsal tullantılarıdır. Onların bəzisinin üzə-

rində əlavə iş izi də aydın bilinir. Görünür ki, təpələr arasındakı sahədə vaxtilə qədim məskən yeri olmuşdu. Topladığımız gil qab qırıqlarının əksəriyyəti tunc dövrünün son mərhələsinə aiddir. Güman etmək olar ki, buradakı qədim məskən yeri də məhz bu dövrə məxsusdur. Lakin aydındır ki, onun sakinləri dəvəgözü daşının müsbət xassələrinə yaxşı bələd olmuş və ondan özləri üçün elə buradaca müxtəlif əmək alətləri və silah nümunələri düzəltmişlər. Belə qiymətli xammalı isə onlar şübhəsiz, yay vaxtlarında mal-qaralarını sürdükləri dağlardan gətirmişlər.

Arxeoloji ədəbiyyatda uzun müddət ənənə şəklində belə bir fikir hökm sürülmüşdü ki, qədim dövrlərdə Cənubi Qafqazı və Ön Asiyanı dəvəgözü ehtiyatı ilə təmin edən indiki Ermənistan ərazisində Alagöz dağındakı yataqlar olmuşdur. Lakin son illərdə istər Ön Asiyanın, istərsə də Cənubi Azərbaycanın ayrı-ayrı yerlərindən onlarca zəngin daş yataqlarının tapılması belə bir fikrin əsassız olduğunu sübut etmişdir. Maraqlıdır ki, daş yataqlarının böyük qismi Kəlbəcər bölgəsi ərazisində, Tərtərçayın yuxarı axarlarında da aşkara çıxarılmışdır. Çox ehtimal ki, Mil düzünün qədim sakinləri də vaxtilə bilavasitə bu dağlıq bölgənin sərvətlərindən istifadə etmişdilər.

Dəvəgözü daşının müsbət xassə və keyfiyyəti hələ qədim daş dövründən insanlara bəlli olmuşdu. Parçalanan zaman iti uclu qəlpələr verən bu qiymətli daşdan ibtidai insanlar neçə-neçə əmək alətləri, neçə-neçə ox və nizə ucluqları düzəltməyi öyrənmişdilər. Əl çapacaqları, qaşov, biz və iti bıçaqlar, ox və nizə ucluqları onların məişətində, sadə, lakin olduqca çətin təsərrüfatında minilliklər boyu necə də böyük əməli əhəmiyyət daşımışdı. Belə ibtidai alət və silahlarınköməkliyilə ulu babalarımız yer qazmış, heyvan ovlamış, ət doğramış, sümük çapmış, dəri aşlamış, gön kəsmiş, sümük, ağac yonmuş və üstəlik onlarca yeni alət və silah düzəltmişdilər. Mis, tunc və dəmirdən alət və silahlar meydana çıxdıqda belə dəvəgözü daşı müxtəlif əşyaların hazırlanmasında dəyərli xammal kimi qalmaqda davam etmişdi. Bu dövrlərdə ondan əmək alətləri və silahlarla yanaşı müxtəlif bəzək nümunələri də hazırlanmışdı. Qədim Misirdə isə dəvəgözü daşından hətta bütöv heykəllər yonulmuş və başqa sənət əsərləri yaradılmışdı. Buna görə də Üçtəpədəki tunc dövrünə aid qədim məskən yerindən də dəvəgözü daşının, ondan hazırlanmış ayrı-ayrı əşyaların tapılması təəccüb doğurmur. Əsas məsələ bu qədim yaşayış yerinin xüsusiyyəti və yaxınlıqdakı kurqanlarla əlaqəsini müəyyən etməkdən ibarətdir. Sözsüz, bu gün burada başlanan yeni qazıntı işləri həmin məsələnin aydınlaşdırılmasına köməklik göstərəcəkdir. Yeni qazıntı işlərini Aleksandr Aleksandroviç leninqradlı həm-

karlarımız Yuri Moçanova və Alfred Kolkuşinə tapşırmışdır. Mən isə həmkarım İdeal Nərimanovla birlikdə əvvəlkitək yalnız kurqanın qazıntısına nəzarət edəcəyəm.

Qabaqda gərgin axtarışlarla, qanadlı duyğularla dolu günlərimiz var.

*13 oktyabr, 1959-cu il.*

***...O durmadan axar, dağ dərə bilməz,***
***Qüvvəti daima artar əksilə bilməz,***
***Üstünə od yağsa gətirməz xəbər,***
***O həyatla başlar, həyatla bitər,***
***Mənim çağlayanım axmış, axacaq,***
***Hər yerdə bir bəyaz iz buraxacaq.***

*Mikayıl Müşfiq.*

Üçtəpəyə Govurarxın sol sahili boyunca uzanan torpaq yolla gedib-gəlirik. Maşının üstündən onun Milin ənginliklərində itib-batan gümüşü zolağını aydın görmək olur. Arx Arazın suyunu sakitcə Milə doğru axıdır, ayrı-ayrı yerlərdə kiçik qollara şaxələnərək ona həyat verir. Əsrlər boyu viran qalan, susuzluqdan yanan, ilanlar mələyən Mil düzündə indi üfüqlərə qədər uzanan pambıq tarlaları, üzüm bağları, söyüd, çinar və qovaq ağaclarının yaşıl qoynunda gizlənən onlarca abad qəsəbələr, kəndlər, obalar vardır. Onların Mikoyankənd, Şaumyankənd, Voroşilovkənd, Kuybışevkənd, Kirovkənd kimi "gözəl" adları da vardır. Govurarxın rəsmi adı isə Orconikidzedir. Biz həmişə qeyri-adi beynəlmiləlçiliyimizlə seçilmişik. Rayonun adı da pis səslənmir – Jdanov!!! Bunların hamısı Şura Azərbaycanı ilə həmyaşıddırlar.

– Bala, biz Milə Arazla bir gəlmişik. Bu sözlər kənd və obaların yaşını Mildə olan yerli ağsaqqallardan soruşduqda, aldığımız yeganə cavabdır. Bəli, Milə yenidən həyat verən, onun ömrünü təzələdən Arazdır, Govurarxla gələn Araz.

Arxın Mil düzünün özü kimi çox qədim tarixi, keşməkeşli həyat yolu vardır. Tarixi məlumatlara görə onun nə az, nə çox – min beş yüz yaşı vardır. Müasir rəsmi sənədlərə görə isə onun cəmi otuz yaşı var. Belə ki, iyirminci illərin sonlarında onun susuz məcrası yenidən təmizlənmiş və arx bərpa olunmuşdu. Hazırda arx bolşevik Serqo Orconikidzenin adını daşıyır. Lakin yerli əhali onu indi də qədim adı ilə - Govurarx adı ilə tanıyır.

Mənbələrdə və elmi ədəbiyyatda qədim Govurarxın çəkilişi Sasani hökmdarı I Qubadın adı ilə bağlanılır. I Qubad V əsrin sonu VI əsrin birinci yarısında hökmranlıq etmişdir. Onun hökmranlıq etdiyi illər Ön Asiya və Cənubi Qafqazın iqtisadi, ictimai-siyasi və mədəni həyatına bir sıra yeniliklər gətirmişdi. Güman edilir ki, Sasanilər Azərbaycanda öz hökmranlıqlarını möhkəmlətmək məqsədilə az vaxt içərisində burada isteh-

kam xüsusiyyətli bir sıra şəhərlər, o cümlədən, Beyləqan şəhərini salmış və şəhəri su ilə təchiz etmək üçün Govurarxı çəkdirmişdilər. Tarixçi Mirzə Camal Cavanşir bəyin qeydlərinə görə bu arx vaxtilə Beyləqanın Qarqar çaya qədər geniş sahəsini suvarmışdı. O, yazır ki, Qubad şah bu səhrada kəndlər saldırmış, rəiyyətlərə yer və məskən vermişdi. Bu yerlər başdan-ayağa əkin və bağ idi. Həmin arxın adı qədim tarixlərdə Barlas idi, indi isə Govurarx adı ilə məşhurdur.

Hal-hazırda Govurarxın qədim adı ilə əlaqədar qəti bir söz demək çətindir. Lakin şübhə yoxdur ki, ərəblərin Azərbaycana ilk hücumundan xeyli qabaq çəkilmiş bu arx Mil düzünün iqtisadi-mədəni inkişafında, tərəqqisində böyük rol oynamışdı. Əsrlər boyu o Milin həyat çeşməsi olmuşdu. Təsadüfi deyil ki, XIII əsrdə Govurarxın monqol talançıları tərəfindən dağıdılması ilə Mildə həyat ölmüşdü. Şəhərlər, kəndlər tərk olunmuş, bağlar-bağçalar solmuş, Mil uzun müddət qəflət yuxusuna dalmışdı. Topal Teymur Beyləqanın bir hissəsini bərpa etdirsə də, onu dirçəldə bilməmişdi.

Govurarxın da qəribə taleyi, möcüzələrlə dolu tarixi vardır. Kimin ağlına gələ bilərdi ki, qərinələr, əsrlər keçəcək, yatmış Milə qırmızı bayraqlı adamlar gələcək, bel, külüng götürüb Govurarxın yatağını təmizləyəcək, daha da dərinləşdirəcəklər. Kimin ağlına gələrdi ki, qüdrətli Sasani hökmdarını adı ilə bağlı olan Govurarxa yeni dövrün adamları bolşevik Serqonun adını verəcəklər?! Bəlkə də elə buna görə o vaxtlar Mildə olmuş və gördüklərindən riqqətə gəlmiş təmizqəlbli gənc şair Müşfiq ürək çırpıntıları ilə yazmışdı:

*Deyirlər o zaman burda köylülər*
*Tutub dişlərində qalib türkülər,*
*Bir daşğın fərəhlə gəlmişlər vəcdə,*
*Araz da eyləmiş onlara səcdə*
*Arazın önünü kəsən sipərlər*
*Qalxıb yüksəklərə açınca şəhpər,*
*Gənc bir arslan kimi kükrəyən Araz*
*Vermiş ətrafına dərin bir həras,*
*Sıçramış, köpürmüş, bayılmış getmiş;*
*Mil düzünə sarı yayılmış getmiş.*

*16 oktyabr, 1959-cu il.*

***Əzizinəm gül bağlar***
***Yarım mənə gül bağlar***
***Araz Milə çatmasa***
***Xəzan olar gül bağlar***
*Qədim bayatı*

Bu gün Üçtəpəyə gedərkən hamımızı sarsıdan qəribə bir mənzərənin şahidi olduq. Govurarxın suyu al-qırmızı rəngə boyanmışdı və sanki onun çağlayan geniş sinəsindən su yox, qan axırdı, sanki minlərlə, adamın qanı böyük bir çaya dönüb köpüklənə-köpüklənə sürətlə günbatana doğru axırdı. Göyün üzünü almış qara buludlar bu müdhiş mənzərəni daha da kəskinləşdirirdi. Dünəndən bəri arx xeyli şişmişdi və indi ayrı-ayrı yerlərdə onun al-qırmızı suyu məcrasından çıxaraq sahilə yaxın sahələri də qan rənginə boyamışdı. Yol boyu qan gölməçələri əmələ gəlmişdi.

Məlum oldu ki, səhərədək yağan yağışdan sonra arxın suyu xeyli yuxarı qalxmış və yolundakı qırmızı gil yataqlarını yuyaraq öz rəngini dəyişmişdir. Lakin gördüyüm müdhiş mənzərə Mildə eşitdiyim bir əfsanəni yadıma saldı.

Çox-çox uzaq vaxtlarda Qarqarçayın sahilindəki Qalatəpədə zəhmli və qəddar bir hökmdarın möhtəşəm sarayı varmış. Saray özünün buludlara dəyən uca minarələri, göy qübbəsini xatırladan mavi gümbəzləri ilə bu yerlərdən keçənləri heyran edərmiş. Lakin hökmdarın bundan da gözəl bir bağı varmış. Sarayı əhatə edən bu bağda uzaq yerlərdən gətirilmiş ağaclar, minbir rəngli, minbir rahiyəli çiçəklər bitərmiş. Qarqardan yuxarı çıxarılan su bağa həyat verərmiş. Bər-bəzəkli quşların cəh-cəhi, mahnısı bu bağdan əskik olmazmış. Hökmdarın sevimli qızı gözəl Qutay günlərini həmişə bu bağda keçirərmiş, öz rəfiqələri, kənizələri ilə burada əylənərmiş. Lakin xoş keçən günlərin birində gözlənilmədən başlanan quraqlıq az vaxt içərisində Qarqarçayın suyunu bütünlüklə qurudur. Çayın suyu ağ buludlara çevrilərək göyün ənginliklərinə çəkilir. Günəş odlu saçaqlarını yerə töküb hər yanı yandırır, külə döndərir. Qutay xanımın bağındakı ağaclar, çiçəklər, güllər də bir neçə gün ərzində solub xəzana dönür. Qız qəm, qüssə və kədər dəryasına qərq olur, özü də sevdiyi çiçəklər kimi solmağa başlayır. Hökmdarı fikir götürür. Lakin bu uzun çəkmir. O, uzaqlarda axan bol sulu Arazı Milə gətirmək, Qarqarla qovuşdurmaq qərarına gəlir. Car çəkilir, hökmdarın əyanları kəndləri, obaları gəzərək uşaqdan

böyüyə kimi hamını bir yerə cəmləyib arx çəkməyə aparırlar. Əzablı, məşəqqətli günlər başlanır. Əqrəb, ilanlarla dolu susuz düzdə on minlərlə adam arx qazır, minbir işkəncəyə, aclığa, susuzluğa məruz qalır. Hökmdar keşikçilərinin şallağı onların başı üstündən əskik olmur. Minlərlə ölənləri elə oradaca – qazılan arxın yatağında və sahilində basdırırlar.

Həftələr, aylar örtür, Mil düzünü iki yerə bölən arx hazır olur. Arxın suyu Qarqara qovuşdurulur. Qutay xanımın bağı yenidən dirçəlir, ağaclar, çiçəklər və güllər yenidən pöhrələnir. Lakin qız bir gün sübhçağı bağa çıxdıqda çiçəklərin hamısının al-qırmızı rəngə boyandığını, onların ləçəklərindən qan süzüldüyünü görür. Qız dəhşətə gəlir, fəryad qoparır, əqlini itirir, çöllərə düşür. Deyilənlərə görə o vaxtdan illər, əsrlər keçsə də indi də zülmətli gecələrdə Qalatəpədən göyə ucalan dəhşətli fəryadın əks-sədasını eşitmək olur...

*19 oktyabr, 1959-cu il.*

*__Mənimlə tonqal yanında oturmaq üçün buraya gəl, qoy düz küləyi səni yaxşıca tutsun... Başqalaşmaq istəyirsənsə, buraya-düzə gəl__*

*Van Qoq*

Bizi hər gün Üçtəpəyə aparan maşın çadırlıdır, böyük yük maşınıdır. İyessen bir qayda olaraq sürücünün yanında oturur. Bizim yerimiz isə yuxarıdadır, maşının üstündə. Bu heç də pis deyil. Çadırın açıq gözündən Mili yaxşı görmək olur. Arx boyunca uzanan yolun sonsuzluğunu, Milin mavi üfüqlərini, onların arxasında, çox-çox uzaqlarda gündə bir don geyən dağlar silsiləsini hər gün böyük bir heyranlıqla seyr edirəm. Yovşan kollarının kəskin ətri, torpaq ətri, xəzəl ətri ilə dolu payız havası sinəmə dolduqca qəlbimdə qəribə hisslər, duyğular oyanır, gizli bir həyəcan və nigarançılıq varlığıma hakim kəsilir, özümdən asılı olmayaraq bu sonsuzluqda itib-batmaq istəyirəm, qurtarmaq bilməyən yollara qovuşmaq istəyirəm...

Son bir neçə gündə Mil birdən-birə xeyli dəyişmişdir. İlk günlərdə gördüyüm cansıxıcı, bürkülü boz düzdən indi əsər-əlamət qalmamışdır. İndi göyün üzünü tez-tez bənövşəyi qara buludlar örtür. Hardasa uzaqlarda göy guruldayır, şimşək çaxır. Son durna qatarları Mili tərk etməyə tələsirlər. Gözlənilmədən onlar sıx buludlar arasında görünür, sanki bu doğma yerləri tərk etmək istəməyərək göyün üzərində bir neçə dairə vurur, həyəcanla qaqqıldaşır, çox keçməmiş ümidsiz bir ayrılıqla göyün ənginliklərində itib-batırlar. Bir müddət Mildə onların yalnız kədərli səsi qalır, əks-sədaya çevrilərək bu geniş düzü gəzir və tezliklə yenidən göyə qalxır.

Gözəl payız Mildə bayram edir, şənlənir, qanad açıb gah yüksəklərə qalxır, gah da sevincdən məst olaraq yerə də, göyə də minbir rəng bəxş edir. Qəribədir, soyuq nəfəsli payız belə anlarda Mili yalnız ilıq rənglərlə, onların minbir çalarları ilə bəzəyir. Bənövşəyi-boz, şəffaf qızılı çalarlar göylərə hakim olur, yerə enərək onu yaşıl, qəhvəyi rənglərin qeyri-adi çalarları ilə birləşir, Govurarxın sahillərini bəzəyən odlu sarı-qırmızı rənglərlə qovuşur. Payız Milə səs verir, yeni həyat verir. Bayaqdan bəri səssiz-səmirsiz görünən düzü indi hay-küy bürümüşdür. Hər yanda qoyun-quzu mələşməsi eşidilir. Orda-burda gözə çarpan alabəzək çadırların yanında itlərin hürüşməsi aləmi başına götürür. Hardansa uzaqlardan həzin tütək səsi gəlir, kiminsə gizli nisgilini bu geniş düzə əyan edir...

Təbiətin, Milin belə bir gözəl çağında biz Üçtəpədə inadkar bir maraqla ağır, əzablı işlə məşğuluq. Buldozerlər bir neçə min il bundan əvvəl ulu babalarımızın öz tayfa ağsaqqallarının qəbri üstünə tökdüyü qalın torpaq laylarını yardıqca biz gözümüzü bıçağın altından çəkmirik. Əslində, gözləniləsi şey də yoxdur, çünki qəbrə çatmaq üçün geniş qazıntı sahəsində hələ bir neçə metr qalınlıqda torpaq qatlarını götürmək lazımdır. Min, iki min, beş min, bəlkə də daha çox kubmetr həcmdə torpaq...

Qazıntı geniş bir tikinti sahəsini xatırladır. İndi üç güclü buldozer nərildəyə-nərildəyə torpağın bağrını yarır, topa-topa torpağı kurqandan yana yayır. İşçi kimi tutduğumuz iyirmidən artıq fəhlə bel, külüng və kürəklə qazıntı sahəsindəki kəsiklərin divarlarını düzəldir. İndi qazıntı 2000 kvadratmetrdən artıq sahəni əhatə edir. Hər yanda qurtarmaq bilməyən hündür torpaq topaları gözə çarpır. Torpaq qurtarmaq bilmir. Bəzən adama elə gəlir ki, bu torpaq topalarının öhdəsindən heç vaxt gələ bilməyəcəyik, onların altında gizlənən sirləri heç vaxt aça bilməyəcəyik. Halbuki, qurtarmaq bilməyən bu torpaq laylarını minilliklər arxasında uyuyan müdrik babalarımız əllə, ovuc-ovuc tökmüşlər, mavi düzdə ehramı xatırladan yüksək təpə ucaltmışlar. Neçə-neçə nəsil öz gücünü, zəhmətini bu möhtəşəm təpəni qurmağa sərf etmişdir. Onlar heç təsəvvür də etməzmişdilər ki, minilliklər ötəndən sonra bu təpə uzaq keçmişin sirlərini öyrənmək naminə dağıdılacaq, onun torpağı düzə yayılacaqdır. Düşünürəm, bəlkə keçmişin sirləri elə keçmişin özündə qalsın!?

İş qurtarmaq bilmir. Evə hər gün alaqaranlıqda qayıdırıq. Günlər yaman gödəlmişdir...

*21 oktyabr, 1959-cu il.*
*Kəbirli kəndi*

***Ruzgar qanadlı atlılar kimi***
***keçdi həyat ....***
*Nazim Hikmət*

Mildə aydın, sakit payız səhəridir. Payız fəslinin o çağıdır ki, təbiət öz sehrkar fırçası ilə yeri də, göyü də min rəngə boyayır, öz sərin nəfəsilə qəlbləri oxşayır, ruha qida verir.

Milin gözəl çağıdır. Yer gümüşü yaşıl rəngli, xalı xonçalı, şehli və təravətlidir. Göy buludsuz, təmiz və dəniz kimi mavidir. Çox-çox uzaqlarda onun yüksək ənginliklərində Şah dağın qarlı zirvəsi dumanlanır. O ağ yelkənli nəhəng bir qayığa bənzəyir, köpüklənən dalğalar arasından gah üzə çıxır, gah da itib-batır, görünməz olur. Lap yaxından isə bənövşəyi donlu Kirs boylanır, Milə, - Sabahın xeyir!, - deyir.

Sabahın xeyir!, - pıçıldayır qədim arxın kənarındakı sərv ağaclarının titrəşən son qızılı yarpaqları.

Sabahın xeyir!, - nazla pıçıldayır şehdə yuyunan qıvrım saçlı bəyaz yovşan kolları.

Biz gedirik, - səslənir Mili tərk edən son durna qatarları. Biz gedirik. Əlvida, bizi unutma, bizi gözlə ... bizi gözlə.... gözlə....

Əlvida, bizi unutma! – pıçıldayır ötən günlərim, qüssəli, kədərli və sevincli günlərim, rüzgar qanadlı günlərim. Unutma mənim ilk izlərimi, unutma mənim gövrək çağlarımı, unutma mənim xoş qüssəmi, unutma, unutma, - pıçıldayıram mən.

Aydın və təmiz payız səhəridir. Bu gün mənim anadan olduğum gündür. Düz iyirmi beş il bundan əvvəl işıqlı, min bir rəngli, min bir səsli dünyaya göz açmışam. Bəlkə elə onda da gün belə aydın və təmiz olub. Göy buludsuz, şəffaf mavi rəngdə...

İş günüdür. Yola düşməliyik. Maşın hazırdır. Aleksandr Aleksandroviç qabaqda əyləşir. Maşına qalxırıq. Yandakı yerimi tuturam. Maşının çadırı açılmışdır. Başımızın üstündə necə də aydın mavi səma var!. Kaş Milin səması həmişə belə təmiz, aydın olsun, mavi olsun!

Dostum bu gün nədənsə qazıntıya getmək istəmir, qabağa keçir, İyessenə yavaşcadan nəsə deyir, sonra bizə əl edir: - Mən qalıram.

Maşın tərpənir. Dostum uzun müddət əl edir.

İki ildir ki, onunla axtarış yollarındayam və iki ildir ki, eyni yola bir çıxırıq, eyni yolda bir addımlayırıq. Doğma qardaş kimi bir-birimizə bağlıyıq. İki ildir ki, dost-

qardaş ülfətinin böyük mənasını ürəklərimizdə daşıyırıq. Qürurlanırıq, sevinirik, xoş ümidlərlə yaşayırıq. Bəlkə bu yoldur bizi bir-birimizə bağlayan, arzularımızı birləşdirən...

Ulu Mil, hifz et bizim bu dostluğumuzu, hifz et bizim dostluq yolumuzu. Qoy bu ülvi yolumuz uzun olsun, sonsuz olsun....

O, tarix elmləri namizədi, tunc dövrü üzrə mütəxəssisdir və bu qədim tarixi dövr üzrə ən yaxşı bilicilərdən biri hesab edilir. Azərbaycan arxeoloqlarının orta nəslinə mənsubdur. Təhsilini Leninqrad Dövlət Universitetində başa çatdırıb, aspiranturanı isə Moskva şəhərində qurtarmışdır. İstedadlı və eyni zamanda zəhmətkeş alim kimi tanınır. İlk tədqiqat əsəri Gəncəçay hövzəsinin tarixi abidələrinə həsr edilmişdir. Bu mövzuda namizədlik dissertasiyası müdafiə etmişdir. Bir neçə ildir ki, Azərbaycanın qərb bölgəsində müvəffəqiyyətli axtarışlar aparır, tunc dövrü abidələrini öyrənir. Orada o, Sarıtəpə adlı olduqca maraqlı və eyni zamanda böyük elmi əhəmiyyətli bir abidə açmışdır. Qədim yaşayış yerindən ibarət olan bu abidənin alt mədəni laylarında tunc dövrünün son mərhələsinə aid yaşayış binaları, ibadətgah və küllü miqdarda müxtəlif maddi mədəniyyət nümunələri tapılmışdır. Bununla belə diqqəti cəlb edən başqa bir cəhət ondan ibarətdir ki, bu abidənin üst qatlarında İranın Əhəmənilər sülaləsinə aid möhtəşəm saray divarları, daşdan yonulmuş iri ölçülü sütun özülləri də üzə çıxarılmışdır. Bu abidə Qafqazda əhəmənilər dövrünə aid açılan ilk abidədir.

Bu ilin yaz mövsümündə o, Sarıtəpə abidəsində yenə də tədqiqat işləri aparmış və qazıntı sahəsini xeyli genişləndirmişdir. Həmin qazıntılarda mən də iştirak etmişəm. Birgə işləmişik. Əslində Sarıtəpə abidəsi mənim üçün arxeologiya sahəsində ilk təcrübə məktəbi olmuşdur. Sarıtəpədə tədqiqatlar qurtardıqdan sonra isə onunla birlikdə Daşkəsəndə - Xaçbulaq yaylağında işləmişəm. Gözəl ab-havası olan bu yerdə tunc dövrünə aid bir neçə kurqan qazmışıq.

İndi isə Mil düzündəyik və hər ikimiz Üçtəpə qazıntılarında iştirak edirik, yenə də birlikdə ulu babalarımızın keçmişini öyrənirik.

Bu gün mənim günümdür. Mil sanki bunu bilərək bu günü rövnəqləndirmişdir, gözəlləşdirmişdir. Elə bil buna görə yollara su çiləmişdir, tozu yoxa çıxarmışdır. Bəlkə də ulu düzün mənə bəxş etdiyi ilk hədiyyəsi sirlərlə dolu bu yoldur, məni sirli dünyaya aparan yol. Bəs ehram kimi göyə yüksələn təpələr, gümüş kəmər kimi Milin belinə dolanan qədim arx? Məgər bunlar mənim deyilmi? Bəs ciyərlərimə dolan sərin, kəskin

ətirli payız nəfəsi? Bunların hamısı mənimdir. Milin bütün sirləri mənimdir!

Qazıntıda axşama kimi işləməliyik. Bu gün buldozerlər yoxdur və qazıntıda yalnız belli, külünglü fəhlələr işləyirlər. Buna görə də sakitlikdir, bütün Mildə sakitlikdir. Kaş həmişə belə ola, Mildə sakitlik hökm sürə.

İşçilər kurqan örtüyünün qazılmış sahəsində yan divarları təmizləyir, horizontları çəkirlər. Bu divarlar təmiz və hamar olmalıdır. Məhz belə təqdirdə qazdığımız bu möhtəşəm təpənin necə və neçə müddətə ucaldıldığını müəyyən etmək olar. İyessen qeydlər götürür, təbəqələri yoxlayır, torpağın hər qarışına diqqət yetirir. Böyük bir sahədə yanıq izləri bilinir. Qazılmış on metrlik torpaq qatı altında yanıq izləri... bu nə ola bilər? Sanki yerin altında böyük və dəhşətli yanğın baş vermiş, od-alov göyə ucalmaq istəmişdir. Lakin qalın torpaq onu susdurub boğmuşdur. Alov isə elə bil hayıf alaraq onu yandırıb-yaxıbdır, qan rənginə boyayıbdır. Qalın torpaq qatı altında al-qırmızı rəngli yanmış torpaq qatı...

İyessen qeydlər götürür. – Mənə elə gəlir ki, bu təpənin tapmacaları heç vaxt qurtarmayacaq, - deyir.

Günortadan sonra İyessen mənə yaxınlaşır. Yarı hökm, yarı ərk ilə deyir:

- Mənim gənc həmkarım, Mili gəzmək istəyirsinizmi? Bəlkə Qalatəpəyə gedək, o çox sirli təpədir.

- Məmuniyyətlə, Aleksandr Aleksandroviç!

- Onda yuxarı qalxın, tərpənirik.

Mən bir anda yuxarı qalxıram. Qazıntıda leninqradlı həmkarlarımız qalır. Tərpənirik. Maşın torpaq yolla Qalatəpəyə tərəf üz tutur. Sərin külək üzümü oxşayır.

Qalatəpə lap yaxınlıqdadır. Qazdığımız kurqandan uzaqbaşı 5-6 kilometr yuxarıdadır. Qarqarçayın sahilindədir. Qədim Govurarx burada öz yolunu başa vurur, Qarqarçaya tökülüb yoxa çıxır. Qalatəpə düzbucaqlı şəkildə qeyri-adi, yüksək bir təpədir. Uzaqdan alınmaz möhtəşəm bir qalanı xatırladır. Aleksandr Aleksandroviç başını içəridən çıxarır.

– Siz bilən bu təpə nə ola bilər?

- Nə deyə bilərəm, Aleksandr Aleksandroviç, bəlkə bu yarımçıq qalmış kurqandır.

- Maraqlı fikirdir. Ölməyək sağ qalaq, onun da sirrini öyrənərik. Bu gün isə mən onu sizə bağışlayıram. Görün necə də gözəldir, sirlidir! Külək onun səsini Milə yayır və mən bərkdən gülürəm.

- Aleksandr Aleksandroviç, onsuz da bu gün Mil düzündəki bütün təpələr-abidələr mənimdir, onların sirləri də mənimdir. Lakin yenə də Sizə çox minnətdaram, həm də ona görə minnətdaram ki, məni ekspedisiyanızın tərkibinə saldınız. Belə olmasaydı, Mili, onun sirlərlə dolu abidələrini görməyəcəkdim.

Maşından düşüb təpəyə qalxırıq. Təpənin o biri tərəfindən axan Qarqarçayın suyu dumdurudur. Azca aralıda isə bulanıq Govurarx keçir və səssiz-səmirsiz Qarqarla qovuşur. Sahil boyu baş-başa vermiş iri qovaq ağacları yavaşcadan söhbət edir, pıçıldaşırlar. Təpənin üstü saxsı parçaları ilə doludur. Qırmızı, sarı, yaşıl, çəhrayı, qəhvəyi, ağ, nə bilim neçə cür saxsı parçası. Hər dövrün bir yadigarı, qəmli bir bayatısı. Bəlkə bunlar Mildə eşitdiyim əfsanədəki şahzadə qız Qutayın solmuş, daşlaşmış çiçəkləridir?

Yorulmaz qocaman alimlə yan-yana addımlayıb saxsı toplayıram. Açıq-çəhrayı rəngli, nazik divarlı gil qab parçası. Üstündə tünd qırmızı rənglə çəkilmiş naxış vardır. Bu saxsı parçası eramızdan əvvəlki III-II əsrlərə – küp qəbirlər mədəniyyətinə aiddir. Bəs bu kövrək divarlı, naxışsız, boyasız gil qab parçası? Bu isə sonrakı dövrlərin – ilk orta əsrlərin yadigarıdır. Azərbaycanda dulusçuluq sənətinin müvəqqəti tənəzzülü dövrünə aiddir. Gözə ən çox dəyən şirli qab qırıqlarıdır. Şüşə kimi hamar və cingiltili, bahar çiçəkləri kimi minbir rəngli saxsı parçaları – Nizami, Məhsəti, Xaqani dövrünün qabları – nişanələri.

Vaxt necə də tez keçir. Bir saatdan artıqdır ki, Qalatəpədəyik. Lakin bu bir saat sanki olmamışdır. İndi tələsmək lazımdır. Aşağıda – Üçtəpədə yoldaşlarımız bizi gözləyirlər. Topladığımız saxsıları kağıza büküb aşağı düşürük. Maşın qazıntı sahəsinə üz tutur.

İşin qurtarmasına az qalıbdır. Mən çöl gündəliyimdə müəyyən qeydlər aparıram. Aleksandr Aleksandroviç xoş bir təbəssümlə mənə yaxınlaşır.

- Düzünü deyin, siz şeir yazırsınızmı?

- Yox, Aleksandr Aleksandroviç, yox. Mən heç vaxt şeir yazmamışam, düzünü deyim, cəmi bir dəfə, beşinci sinifdə. Lakin həmin şeir mənim yazdığım həm birinci, həm də axırıncı şeir olmuşdur. Bununla belə mən şeiri, poeziyanı çox sevirəm.

- Qəribədir, mən əmin idim ki, siz həm də şeir yazırsınız.

Yox, yox. Lakin mən poeziyanı çox sevirəm, şeir oxumağı çox xoşlayıram. Mənə elə gəlir ki, şeiri ürəkdən sevmək, onu ürəkdə yaşatmaq elə şeir yazmaq deməkdir.

Yığışmaq vaxtıdır. Hava artıq qaralmağa başlamışdır. Avadanlığı yığıb maşına

doldururuq. Şərq tərəf başdan-başa tünd-bənövşəyi rəngdədir. Əks tərəfdə isə yer də, göy də al-qırmızı rəngə boyanmışdır. İri bir portağala dönmüş günəş sürətlə aşağı düşür. O, şəffafdır, soyuqdur. Lap bu dəqiqə Milin məxmər xalısı üstünə düşəcəkdir. Yetişmiş iri bir portağal. Fikirləşirəm, - görəsən, ondan neçə uşağa pay düşər? Yüz, min, on min, milyon, bəlkə də lap çox. Özümüzə də çatar. Leninqradlılar meyvəni çox sevirlər. Bərkdən gülürəm. Maşındakılar təəccüblə mənə baxırlar.

Maşının yolu şərqə tərəfdir və çox keçmədən o sirlərlə dolu cənub gecəsinin ağuşuna düşür. Arxa tərəfdə isə üfüq hələ də qırmızı atlas donda bərq vurur.

Yolumuz çox uzundur. Lakin mən hələ bilmirəm ki, gecəmiz də bu yol qədər uzun olacaqdır. Mən hələ bilmirəm ki, qabaqda qəhqəhə, sevinc və fərəhlə dolu bir gecə vardır, mənim gecəm. Bilmirəm ki, hələ qabaqda böyük ziyafət var, Mil şərabı, gözəl sözlər, xoş arzular var, dostluq ülfəti, dostluq qayğısı var. Bilmirəm ki, bu gecədə Ömər Xəyyam və Mirzə Şəfinin, Lermontov və Müşfiqin, Takuboku və Şəhriyarın şeirləri oxunacaq, kainatın sonsuz ənginliklərində dahi Motsartın şərqnəfəsli ecazkar musiqisi səslənəcək, göyün üzünü iri-iri ulduzlar bəzəyəcək, həyətdəki hündür və isti ot tayası səhərə kimi bizə sığınacaq olacaqdır.

*24 oktyabr 1959-cu il.*
*Kəbirli kəndi.*

***Qoy göynəsin üzümüz,***
***Qoy yaşarsın gözümüz.***
***Bükülməsin dizimiz***
***Gedək üzü küləyə.***
*Əliağa Kürçaylı*

Tədqiqatlarımız uğurla davam edir. Qazıntı sahəsində kurqan örtüyü xeyli aşağı düşmüşdür. Lakin iş hələ də çoxdur. Buldozerlər bütün günü işləyir, qazılmış torpağı sahədən kənara atırlar. İndi böyük bir sahədə yanmış torpaq izləri bilinir. Bu nə ola bilər? Bunun sirrini açmaq üçün hələ nə qədər qazıntı aparmaq, torpaq götürmək lazımdır?! Səhərdən qaranlıq düşənədək işləyirik. Yaxşıdır ki, havalar quru keçir.

Təpənin yanındakı qədim yaşayış yerində aparılan qazıntılar isə artıq qurtarmaq üzrədir. İlk nəticələr çox maraqlıdır. Kiçik bir sahədə yarımqazma şəkilli doqquz bina yeri, çoxlu ocaq və təsərrüfat quyuları aşkara çıxarılmış, saysız-hesabsız qədim maddi mədəniyyət nümunələri tapılmışdır. Qara və boz rəngli, müxtəlif ölçülü və biçimli gil qablar, manqallar, daşdan ox ucluqları, oraq dişləri, bıçaq və sairə ibtidai kəsicə alətlər, iri dən daşları, əyircəklər və sümük bizlər bu qədim yaşayış yerindən üzə çıxan avadanlığın bir qismidir. Onların hər birinin öz yeri, öz dəyəri vardır. Dən daşları bir qayda olaraq ocaqların yanındadır.

Yuri və Alfredin çox diqqətli işi və səyi nəticəsində qazıntı sahəsi elə bir təsəvvür yaradır ki, sanki bu qədim yaşayış yeri öz sakinləri tərəfindən dünən tərk edilmişdir. Sanki onun ocaqları təzəcə sönmüşdür. Halbuki bu qədim yaşayış yeri əvvəlcədən güman etdiyimiz kimi uzaq tunc dövrünün son mərhələsinə, xronoloji cəhətdən isə eramızdan əvvəlki X-IX əsrlərə aiddir. Yaşayış yeri vaxtilə maldar tayfalara məxsus olmuş və vaxtaşırı istifadə edilmişdir. Payızın əvvəllərində öz saysız-hesabsız mal-qara sürülərilə dağdan düzə enən ulu babalarımız qış aylarını burada keçirmiş, iri sürülər otarmış, at çapmış, ox atmışdılar. Mil düzünün yumşaq iqlimi və geniş otlaqları onlara bu yerlərdən qışlaq kimi istifadə etməyə imkan vermişdi.

Aleksandr Aleksandroviç buradakı qazıntının ilkin nəticələrindən çox məmnundur. Dediyinə görə Azərbaycan, eləcə də bütün Cənubi Qafqazda ilk dəfədir ki, belə xüsusiyyətli qədim yaşayış yeri tədqiq olunur. Onun fikrincə, bu cür yaşayış yerlərinin tədqiqinin elmi əhəmiyyəti çox böyükdür. Belə ki, onların tədqiqi hələ də qaranlıq olan

mühüm bir məsələni - Azərbaycanda və Cənubi Qafqazın qonşu əyalətlərində, eləcə də Ön Asiyada yarım köçəri maldar təsərrüfat formasının yaranma tarixini və inkişaf xüsusiyyətlərini işıqlandırmağa əsaslı köməklik göstərə bilər.

Bu gün Mildə bərk külək əsirdi, isti külək. Toz-torpağı qaldırıb üzümüzə çırpırdı, gözlərimizi doldururdu. Yovşan kolları köpüklənən dalğaları xatırladırdı, gah şaha qalxır, gah da yerlə sürünürdü. Toz burulqanları oynayır, fırlana-fırlana bir-birini qovur, göyə qalxıb yox olurdular. Govurarxın sinəsi gümüşü pulcuqlarla örtülmüşdü. Üfüqlər isə qara don geymişdi. İlk dəfə idi ki, Mili mən belə görürdüm.

Gecədir. Bayırda hələ də külək vıyıldayır, pəncərələri döyür, içəri girmək istəyir. Göyün üzündə parlaq soyuq buludlar bir-birini qovur.

Bircə yağış yağmayaydı....

*Payızdan sonranı düşünürəm mən,*
*Qışı düşündükcə üşüyürəm mən.*

*26 oktyabr,1959-cu il.*
*Kəbirli kəndi*

*Üç əlif bir eynilə yazdım belə,*
***Üç əlif bir eynilə gəlməz dilə.***
***Üç əlif bir eynilə gəlsə belə,***
***Müstənd arif gərək anı bilə.***
*İmaməddin Nəsimi*

Istirahət günüdür. Qazıntıya getmədik. Bir qayda kimi günün birinci yarısını məişət işlərinə həsr etdik. Təmizləmə işləri apardıq. Otaqları və həyət-bacanı sahmana saldıq. Xeyli odun doğradıq ki, gələn istirahət gününə qədər bəs eləsin.

Xoşbəxtlikdən günəşli xoş hava idi. Buna görə də günortadan sonra ekspediyisya rəisi Aleksandr Aleksandroviçin təklifilə Qaratəpə abidəsinə getdik. Mil düzündəki bütün abidələrlə bizi tanış etməyi Aleksandr Aleksandroviç özünə borc bilir. Boş vaxtımız olan kimi o, bizi bu və ya digər abidəyə aparır, həmin abidə haqqında bizə ətraflı məlumat verir. Bu dəfə də belə etdi.

Qaratəpə abidəsi bazamızdan bir qədər aralıda, Örənqala qədim şəhər yerindən 4 kilometr şimal-qərbdə yerləşir. O qədər də hündür olmayan yastı təpədən ibarətdir. Ətraf düz və hamar olduğundan bu təpəni və onun üstündə qoyulan müasir topoqrafik nişanı çox uzaqdan görmək mümkündür.



Qaratəpə kurqan deyil, qədim yaşayış yerinin qalığıdır, bütünlüklə mədəni təbəqədən ibarətdir. Uzun müddət burada insan yaşamış və onun çoxəsrlik fəaliyyəti nəticəsində bu təpə yaranmışdır. Əsrlər keçdikcə köhnə tikintilər üzərində yeni tikintilər uçaldılmış, onları isə başqa tikintilər əvəz etmişdi. Nəticədə düz yerdə tikinti qalıqlarından, kül və kömür laylarından, məişət və təssərrüfat tullantılarından süni təpə əmələ gəlmişdir. İndi o, bizim üçün abidədir, uzaq keçmişdən xəbər verən tarixi salnamədir.

Qaratəpədə ilk çöl axtarışları 1954-cü ildə aparılmışdır. Bu axtarışlar nəticəsində onun üstündən eramızdan əvvəlki I minilliyə aid gil qab qırıqları yığılmışdı. Bunların böyük bir qismi həmin minilliyin VII-VI əsrlərinə məxsus qara cilalı, nazik divarlı qab qırıqlarından ibarət olmuşdu. Payız mövsümündə Aleksandr Aleksandroviç təpədə kəşfiyyat qazıntısına başlamış və bu dəfə buradan, daha dəqiq desək, onun üst mədəni təbəqəsində orta əsrlərə - X1-XIII əsrlərə aid tikinti qalıqları, təndir yeri aşkar etmiş, çoxlu gil məmulatına rast gəlmişdi. Beləliklə, ilk kəşfiyyat qazıntısı ilə müəyyən edilmişdi ki, Qaratəpədə qədim yaşayış yeri hələ eramızdan əvvəl I minilliyin birinci yarısında salınmış və bu yaşayış yerində bir ieçə əsr həyat davam etmişdi. Elə buna görə də təpədə əsas güclü mədəni təbəqə bilavasitə bu dövrə aiddir. Sonralar naməlum səbəblərdən burada həyat sönmüş, təpə uzun müddətə insanlar tərəfindən tərk olunmuşdu.



Qaratəpədə qədim yaşayış yerinin ikinci dirçəlişi yalnız eramızın XI əsrində başlamış və burada XIII əsrə kimi yenidən gur həyat olmuşdu. Ümumiyyətlə, bu dövrdə Mil çiçəklənmə dövrü keçirmiş, düzdə bir sıra yaşayış yerləri salınmış, Beyləqan çiçəklənmə dövrünü keçirmişdi. Arazdan gələn Govurarxın saysız-hesabsız qolları bunlara həyat vermiş, Mili Şərq nağıllarında təsvir edilən böyük bir laləzara çevirmişdi. Görünür ki, Qaratəpə bu dövrdə yaxınlıqdakı Beyləqan şəhəri ilə sıx bağlı olan əhəmiyyətli bir yaşayış yeri və ya yerli feodal əyanlarından birinə məxsus qəsr olmuşdu. Bəlkə də burada – Beyləqana gələn yolun üstündə uzaq ellərdən təşrif gətirən yorğun taçirlər və səyyahlar, adi yolçular üçün ilk sığınaçaq yeri-karvansara olmuşdu. Kim bilir?

Qaratəpə abidəsi bu haqda müəyyən bir məlumat verməmişdir. Birçə o məlum olmuşdu ki, təpədəki orta əsrlərə aid yaşayış yeri də Mil düzündəki yüzlərçə başqa kənd və şəhərlər kimi monqolların bu yerlərə hüçumu zamanı dağıdılmış, yerlə yeksan edilmişdi. Çox sonralar Milin maldar tayfaları vaxtaşırı bu yerdən qəbirstanlıq kimi istifadə etmiş, yol üstündə qəflətən ölən öz yaxın adamlarını bu yerdə dəfn etməyə başlamışdılar. Əlbəttə, bütün bunlar çox maraqlıdır. Lakin Qaratəpə abidəsinin elmi nöqteyi-nəzərdən maraqlı xüsusiyyəti onun daha qədim - dəmir dövrünə aid olması ilə bağlıdır. Mil düzündə indiyə qədər bu dövrə aid arxeoloci abidələrin oyrənilməməsi istər-istəməz

əsas diqqəti Qaratəpəyə yönəltmişdi. Bununla əlaqədar 1955-çi ildə təcrübəli arxeoloq Ömər Şirəli oğlu İsmizadənin rəhbərliyi altında Qaratəpədə geniş qazıntı işləri başlanmışdı. Bu qazıntı işləri maraqlı tapıntıların və elmi dəlillərin əldə edilməsilə nəticələnmişdi. Təpənin alt mədəni laylarında dəmir dövrünə aid çoxlu tikintilər aşkar edilmişdi.

İndi biz bu tikinti qalıqları ilə tanış oluruq. Son qazıntıların üstündən artıq xeyli vaxtın keçməsinə baxmayaraq hər yanda böyük səy, səbr və diqqətlə aparılmış qazıntı işlərinin izləri bilinir. Açılmış divarların hamısı çiy kərpicdəndir və torpaqdan heç seçilmir. Bu divarlar 2700-2500 il bundan əvvəl tikilmişdir və ilk baxışda bütünlüklə torpağa qarışmışdır. Ömər müəllim onları tapmaq, torpaq qatlarından təmizləmək üçün nə qədər zəhmət çəkmiş, nə qədər böyük iş görmüşdür?! Onları adi bıçaq və fırça ilə qarış-qarış təmizləmiş, üzə çıxarmışdır. Uzun-uzun divarlar, sağa-sola uzanan divarlar, evlər, həyətlər əmələ gətirən divarlar, hələ də möhkəm olan ulu divarlar, adi çiy kərpiclərdən hörülmüş divarlar...

Ömər İsmizadə arxeologiyamızın ikinci nəslinə məxsusdur. Uzun müddət hərbçi olmuşdur. Ağır təbiətli, təmkinli və ciddi adamdır, işini sevən zəhmətkeş bir alimdir. Buna baxmayaraq danışarkən üzündən xoş təbəssüm əskik olmur. Xoş zarafata, söhbətə də biganə deyildir.

Şəhərdə iş otağımız birdir. Günorta vaxtı o, böyük səliqə və səhmanla nahara başlayır, əvvəlcə özünə çay süzür, sonra bir-bir hamımızı nahara dəvət edir. Şübhəsiz, təşəkkürümüzü bildirib, kənara çəkilirik. Səmimiyyətlə izhar edən Ömər müəllim təkcə yaşıdı, hamımızın sevimlisi arxeoloq - yaşıdı Qardaşxan Aslanovu sanki görmür, ona yemək təklif etmir. Sözsüz ki, öz duzlu zarafatları ilə yaxşı tanınan Qardaşxan müəllim onun bu hərəkətinə laqeyd qala bilmir:



- Ay Ömər, məni niyə yeməyə dəvət etmədin? Deyəsən mərifətin çatmadı.
- Canım üçün ay Qardaşxan, canım üçün, istədim sənə də təklif edəm, ancaq düzü, qorxdum. Bildim ki, sənə təklif edən kimi gəlib oturaçaqsan yanımda, naharıma şərik olaçaqsan, sən doyacaqsan, mən isə ac qalacağam. İncimə.

Qəhqəhə otağı bürüyür, Qardaşxan müəllim başını bulayır, sakitcə dəhlizə çıxır...

Qazıntı sahəsini gəzirik və burada aparılmış tədqiqat işlərinin elmi nəticəsini dərk etməyə çalışırıq.

Ömər müəllimin apardığı tədqiqatların elmi nəticələri, elmi əhəmiyyəti böyükdür. Hər şeydən əvvəl Qaratəpə Azərbaycan ərazisində dəmir dövrünə aid ətraflı öyrənilən ilk qədim yaşayış yeridir. Burada yaşayış eramızdan əvvəl I minillikdə başlanmışdır. Bu dövr Azərbaycanın düzən bölgələrində yarımköçəri maldar təsərrüfatının inkişafı ilə bağlıdır. Tapıntılar onu da göstərmişdir ki, Mil düzündə yarımköçəri maldarlıq təsərrüfatı ilə yanaşı oturaq əkinçilik də mövcud olmuş, lakin bu təsərrüfat sahəsi maldarlığa nisbətən yerli əhalinin iqqisadiyyatında məhdud yer tutmuşdu. Öyrənilmişdir ki, eramızdan əvvəl I minilliyin ikinci yarısında Qaratəpə varlı tayfa əyanlarının daimi yaşayış yerinə çevrilmişdir.

Yorulmaq bilməyən istedadlı arxeoloq Ömər Şirəli oğlu İsmizadə gələcəkdə də Qaratəpədə axtarışlar, qazıntılar aparmaq fikrində idi. Lakin bu iş müxtəlif səbəblərdən ona müyəssər olmadı. Qaratəpənin isə bir sıra sirləri açılmamış qaldı.

*1 noyabr, 1959-cu il.*
*Kəbirli.*

P.S. – Qüssəli əlavə

.... İndi görkəmli alim aramızda yoxdur. İki il bundan əvvəl onun ürəyi həmişəlik dayandı. Ölümündən əvvəl istedadlı tədqiqatçı bir müddət Qəbələ qazıntılarında iştirak etdi. Sonra isə ona Bakı ərazisində - İçəri şəhərdə başlanan arxeoloji qazıntılara başçılıq tapşırıldı. Zəhmətkeş alim uzun illər boyu qazandığı böyük təcrübə və biliyini Xəzərin sahilində çox-çox qədim dövrlərdə salınmış bu küləklər şəhərinin sirlərini öyrənməyə sərf etdi. Lakin bu qazıntıların heç biri böyük alimə Qaratəpənin yerini verə bilmədi, orada keçirdiyi hiss və düşüncələri ona qaytara bilmədi.

Ömər İsmizadə Bakının kənarındakı hündür bir təpədə – Qədirbağı adlanan köhnə bir qəbiristanlıqda dəfn olunmuşdur, o təpədə ki, düz qırx il bundan əvvəl mənim üçün çox əziz olan bir adam - sevimli müəllimim torpağa tapşırılmışdı. O vaxtlar mən lap uşaq idim, doğma dilimin, doğma torpağımın ecazkar sirlərinə təzəcə bələd olurdum. Müəllimimiz təzə idi və məktəbimizə hardansa uzaqlardan, deyilənlərə görə qarı heç

vaxt əriməyən soyuq yerlərdən-sürgündən təzəcə gəlmişdi. Böyüklər nədənsə onu yalnız soyadı ilə - Lazımov çağırırdılar. Yaddaşımda da o, həmişəlik həmin adla qaldı. Orta boylu, ağ, cod saçlı olan bu adam dəhlizdə kölgə kimi görünür, həmişə gözdən yayınmağa çalışırdı. Böyüklərin özləri də ondan yan gəzərdilər. Halbuki deyirdilər ki, o vaxtilə məktəbimizin müdiri olmuş və ən ləyaqətli bir insan, gözəl bir müəllim kimi tanınmışdı. Sonra birdən-birə yoxa çıxmışdı. «Xalq düşməni» damğasıla həbs edilmiş, uzaq yerə sürgün olunmuşdu. Ana dilində yazmağı, oxumağı öyrədən müəllim düşmən elan edilmişdi. Uzun müddət heç kəsin onun taleyindən xəbəri olmamışdı və yalnız uzun fasilədən sonra o, doğma saydığı məktəbinə yenidən qayıtmışdı. Lakin bu dəfə adi bir müəllim kimi, ibtidai sinif müəllimi kimi işə başlamışdı.

Onun sifəti yaraşıqlı və gözəl idi. Lakin bu sifətə sanki dünyanın bütün ələm-kədəri qonmuşdu. Biz uşaq həssaslığı ilə hiss etmişdik ki, onun dərdi böyükdür, ağırdır. Amma biz bilmirdik ki, onu amansızcasına əzmişlər, tapdalamışlar, təhqir etmişlər, onun iradəsini qırmışlar.

Mən özüm bunu çox sonralar dərk etdim, mənim əziz, unudulmaz müəllimim. Sinfə girəndə sən necə də dəyişirdin, necə də qanad açırdın, necə də bizi pərvazlandırırdın. Sabiri, Səhhəti, Cəlili, Süleyman Sanini, Abdulla Şaiqi bizə tanıtdıran, sevdirən məgər sən deyildinmi? Biz onları sevirdik, onlarla bərabər səni də sevirdik, gizli-gizli sənə səcdə edirdik, sənə oxşamaq istəyirdik. Uşaq qəlbi ilə hiss edirdik ki, sən təmizsən, paksan və qəlbimizin hansısa uzaq bir guşəsində sənin halına acıyırıq. Biz onda bilə bilməzdik ki, sən niyə dərsdən çıxandan sonra səndələyə-səndələyə küçəni gəzirsən, dərdlənirsən, qubarlanırsan, dərdini açmağa adam axtarırsan, mənim əziz, unudulmaz müəllimim.

Günlərin bir günündə sən dərsə gəlmədin. Dərslərimiz boş keçdi. Eşitdik ki, dünən axşam evə qayıdarkən səni maşın vurmuşdur və sən artıq yoxsan. Qəribədir, biz ağlamadıq, yalnız donduq, buza döndük, daşa döndük. Hardasa çox-çox uzaqlarda müharibə qurtarırdı, ölüm qurtarırdı....

Sən isə kamillikdən hələ də çox uzaq olan bu dünyanı həmişəlik tərk edirdin...

Yadımdadır, tabutunun ardınca necə də ağır-ağır addımlayırdıq, yuxarı qalxırdıq. Təpədən aşağıda böyük bir göl qaralırdı. Onun o tayında məktəbimizin şüşələri parıldayırdı, qürub edən günəşin işığını alaraq cilvələnirdi.

*Bakı - Oktyabr, 1983-cü il.*

***Dün kaşı kuzəmi daşlara çaldım***
***Sərxoşdum, bilmədim əlimdən saldım***
***Kuzə dilə gəlib dedi ki: «Mən də***
***Sənin kimi idim, bu günə qaldım!»***
*Məhsəti Gəncəvi*

Mildə soyuq yağışlar yağır, narın, gözə görünməyən aramsız yağışlar. Neçə gündür ki, göy də, yer də boz rənglidir. Hər yan sudur, üstəlik palçıq. Bir həftədir ki, evdən bayıra çıxa bilmirik. Aydındır ki, arxeoloji axtarış və qazıntı haqqında söz ola bilməz. Biz üçtəpəlilərin əlində hələlik müəyyən bir tapıntı olmadığından bütün günü boş gəzirik. Əlbəttə, əgər belə demək mümkündürsə, çünki gəzmək üçün yerimiz də yoxdur. Buna görə də bütün günü pəncərəyə söykənib çölə baxırıq. Özümüzlə gətirdiyimiz kitabların hamısını oxuyub qurtarmışıq. Söhbətlər üçün isə sanki söz qalmamışdır. Otaqların hamısı sükut içərisindədir. Doğrusu, bu sükut arabir pozulur. Leninqradlı həmkarımız Alfred Kolkuşin ingilis dilini öyrənmək qərarına gəldiyindən indi danışıq qaydalarına yiyələnir, özü özülə söhbət edir, özü özünə qəribə suallarla müraciət edir. Özü də cavab verir.

Axşam radio ilə mahnı öyrədirlər. Belə iş indi dəbdədir. «Nəcib, ismətli və əmək sevər» adlandırdığımız qızlarımızı fədakar əməyə, əmək qəhrəmanlığına ruhlandırmaq məqsədilə indi mahnıya keçiblər... Diktor aramla mətni deyir, sətirləri yazmağı təklif edir. Sonra tanınmış xanım müğənni (çox güman ki, yalnız təəssüf hissilə) mahnını oxuyur:

*...Sevgilimdir erkən çıxan yol üstə, yol üstə*
*Əli gəzir yarpaq üstə, kol üstə, kol üstə*
*Belə qızdan pambığı da bol istə, bol istə*
*A... bol istə.....a bol istə.....*

Acı hisslərlə radionu bağlayıb otaqdan çıxıram. Sübh tezdən tarla adlanan zəhərli çöllərə çıxan, qaranlıq düşənədək çatçat olmuş, qansızan barmaqları ilə pambıq yığan sevgili qızdan nə qədər pambıq istəmək olar!?

Örənqalalılara baş çəkirəm. Onların vəziyyəti bizə nisbətən yaxşıdır. Tapıntılar



çoxdur və buna görə də işlə məşğuldurlar. Qazıntı zamanı əldə edilən tapıntılar bir qayda olaraq elə buradaca yuyulmalı, qurudulmalı, nömrələnməli və qeydiyyata salınmalıdır. Sonra isə kağıza bükülməli və yeşiklərə yığılmalıdır. Əslində bütün bu işlərin əsas icraçıları həmkarlarımız Vera Fomenko və Firuzə Muradovadır.

Vera təcrübəli və bilikli həmkarlarımızdandır. Uzun müddət Mingəçevir qazıntılarında iştirak etmiş və bacarıqlı peşəkar arxeoloq kimi tanınmışdır. Öz işinə ürəkdən bağlıdır və öhdəsinə düşən işi böyük məsuliyyətlə yerinə yetirir. Hal-hazırda Azərbaycanda orta əsr şüşə sənətkarlığı tarixi üzrə tədqiqat işi yazır. Vera gülərüz və xoş sifətdir. Mütaliəni çox sevir. Özü ilə buraya bir topa kitab gətirmişdir. O, çətin və ağır həyat yolu keçmişdir. İndi də onun həyatı şirin deyildir. Tənha qadın və anadır. Lakin yenə də həyatı sevir. Payızın xəfif mehinə və qızılı rənglərinə, Milin mavi göylərinə, torpağının sirlərinə heyrandır.

- Bilirsənmi, həyat nə qədər ağır və iztirablı olsa da, yenə də yaşamaq yaxşıdır, yaşamaq gözəldir, - onun çox sonralar, sağalmaz xəstəliyə düçar olarkən dediyi bu sözləri yaddaşıma həmişəlik həkk olunmuşdur….

Füruzə ilk arxeoloq qızlarımızdandır və iki ildir ki, bu çətin elmin ağır yükünü öz çiyinlərində gəzdirir. Füruzə də bizim universitetin tarix fakültəsini bitirmişdir və özünü və həyatını arxeologiyaya, ulu babalarımızın ulu tarixini öyrənməyə həsr etmək qərarına gəlmişdir. İndi böyük qətiyyət, səbr və inamla bu elmin sirlərini mənimsəyir, çətin anlarda belə öz qərarından dönmür. Arxeologiya isə yalnız və yalnız belələrini sevir, belələrini sevindirir. Bəlkə də elə buna görə Füruzənin ilk addımları müvəffəqiyyətlidir, ümidvericidir.

Örənqaladan tapılan maddi mədəniyyət nümunələrinin əksəriyyəti saxsı məmulatından ibarətdir: müxtəlif rəngli, müxtəlif naxışlı və müxtəlif çalarlı şirli camlar, dolçalar, kasalar, kuzələr, nəməkdanlar, çıraqlar və sairə onlarca, yüzlərcə gil əşyalar. Onların böyük qismi Məhsətinin, Nizaminin və Xaqaninin yaşadıqları dövrdə hazırlanmışdır.

Belə qabları mən çox sevirəm. Mənə elə gəlir ki, bunlar saxsıya dönmüş çiçəklərdir, solmuş çiçəklərin sözsüz mahnılarıdır. Kim bilir, küskün qəlbli Məhsəti bəlkə də elə bu mavi rəngli kuzəni vaxtilə əlində tutmuşdu? Bəs, bu çıraq? Bəlkə məhz onun titrəyən

işığında dahi Xəqani öz ölməz sətirlərini yaratmışdı? Həyatda nələr olmur!!! Ola bilməzmi böyük Nizami məhz bu nəfis çırağın işığında heç cür unuda bilmədiyi qıpçaq qızı məsum  Appaqı xatırlayaraq ağır düşüncələr içərisində bu ölməz sətirləri yazmışdır:

*Hər gecəm oldu kədər, qüssə fəlakət sənsiz,*
*Hər nəfəs çəkdim, hədər getdi o saət sənsiz!*
*Sən mənim qəlbimə hakim, sənə qul oldu könül,*
*Sən əzizsən, mən ucuz, bir heçəm, afət, sənsiz!*

Həmin dövrdə Örənqala – Beyləqan şəhərində bədii dulusçuluq xüsusilə inkişaf etmiş və bu qədim sənət sahəsində bacarıqlı və istedadlı ustalar işləmiş, onların hər birinin özünəməxsus dəsti-xətti olmuşdu. Zaman məvhumu altında gizlənən uzun əsrlər, qərinələr xoşbəxtlikdən belə ustaların adlarını itirə bilməmişdir. Usta Fəzlun, usta İbrahim, usta Bədəl, usta Xəttab, usta Yusif Ləşkəri, usta Həsən, usta Musa, usta Mubarək və başqaları Beyləqanın tanınmış dulus ustaları olmuşdu. Qazıntılar zamanı neçə-neçə gil qablar üzərində onların yazılarına və möhürlərinə təsadüf olunmuşdur. Neçə-neçə kuzədə, dolçada onların barmaqlarının izi qalmışdır.



Bu ustaların şirli qablar istehsalı sahəsindəki nailiyyətləri daha böyük olmuşdu. Məhz onların dövründə Beyləqanda şirli qablar istehsalı özünün ən yüksək inkişaf nöqtəsinə çatmışdı.

Arxeoloji qazıntılarda öyrənilmişdir ki, qədim Beyləqan şəhərində ilk şirli qablar hələ VIII-IX əsrlərdə meydana çıxmışdı. İlk vaxtlar bunlar bəsit şəkildə işlənmiş və əslində Beyləqan ustaları bu dövrdə şirə əvəzinə anqob adlanan xüsusi gil məhluldan istifadə etmişdilər. Əlbəttə, o dövrdə bu məhlul anqob adlanmamışdı. Anqob sözü belə məhlula verilən elmi addır.

Anqob əsasən ağ rəngdə olmuşdu. Lakin Beyləqan sənətkarları qırmızı anqob da



hazırlamağı bacarmışdılar. Anqob çəkildikdən sonra gil qabın keyfiyyəti xeyli artırdı; onun səthi daha hamar olur və su keçirməmək xassəsi çoxalırdı.

Vaxt keçdikcə Beyləqan dulusçuları əsl şirə istehsal etməyi də öyrənmişdilər. İlk şirə qurğuşundan alınmış və şüşə kimi şəffaf və parıltılı olmuşdu.

Şirə maye halında olurdu və yalnız yüksək hərarətə məruz qaldıqdan sonra şüşə kimi bərkiyirdi. Şirə gil qabın səthinə bir qayda olaraq qab müəyyən qədər bişirildikdən sonra çəkilirdi. Bundan sonra həmin qab yenidən oda qoyulurdu və nəticədə onun səthi nazik şəffaf təbəqə ilə örtülürdü. Beyləqan ustaları bir çox hallarda gil qabı ağ və qırmızı anqobla naxışlayır və yalnız bundan sonra onun səthini şirə təbəqəsi ilə örtürdülər. Beyləqanda belə qablar əsasən IX-X əsrlərdə meydana çıxmışdı. Elə buna görə də şəhərin həmin əsrlərə aid təbəqəsində belə qab nümunələrinə tez-tez təsadüf olunur.

Qədim Beyləqanda gil qabların naxışlanmasında marqans oksidindən də geniş istifadə olunmuşdur. Vera və Füruzə bayaqdan bəri ondan artıq belə qab nümunələrini nömrələmiş, kitaba salmışlar. Bunlar geniş ağızlı dairəvi buludlardır. Onların ağ anqoblu səthi marqansla bəzədildikdən sonra şəffaf qurğuşun şirəsi ilə örtülmüşdür. Rəsm və bəzəklər müxtəlifdir və hamısı da şabalıdı rənglərlə bərq vurur.

Sonrakı əsrlərdə Beyləqanın şirli qablarında rəng çalarları daha da artmış və xeyli zənginləşmişdir. Artıq XII əsrdə Beyləqan dulusçuları marqans, dəmir, mis oksidlərindən geniş istifadə edərək qəhvəyi və qırmızı, sarı və yaşıl rənglərin göz oxşayan saysız-hesabsız çalarlarını ala bilmişdilər. Lakin bu ustaların bacarığı təkcə bununla məhdudlaşmamışdı. Onlar gil qabların naxışlanmasında bu rənglərdən yerli-yerində istifadə edərək özləri bilmədən əsil incəsənət nümunələri yaratmışdılar. Məişət üçün nəzərdə tutulan adi bir qab istər-istəməz gözəl incəsənət əsərinə çevrilərək insanların zövqünü oxşamış, onlara sevinc və fərəh gətirmişdi. Belə qablar şübhəsiz, orta əsr bazarlarının bəzəyi olmuş, əldən-ələ gəzmiş, gözəl və qiymətli bir töhfə kimi qorunub saxlanılmışdı. Qazıntılar zamanı Beyləqan xarabalıqlarından hələ o vaxtlar təmir olunmuş çoxlu şirli qabların tapılması buna əyani misaldır.

Beyləqanın şirli qablarındakı naxışlara da laqeyd baxmaq olmur. Onlar müxtəlif

rəngli, müxtəlif mövzulu, müxtəlif üsulludur. Nəbati və həndəsi naxışlar üstünlük təşkil edir. Mövzulu rəsmlər isə nisbətən azdır.

Bəzi hallarda sənətkar bir qabı bəzəmək üçün müxtəlif üsullardan istifadə etmiş, bişmiş gilin öz gözəl keyfiyyətini, təbii rəngini göstərməyi də unutmamışdı. Belə hallarda kəsmə naxışlara üstünlük verilmişdi.

Bəli, Beyləqanın şirli qabları çox gözəldir, nəfisdir. Bəlkə də elə buna görə bu qabları bədii qablar, bədii keramika da adlandırırlar. Bəs bu tapıntıların elmi əhəmiyyəti nədədir? Niyə həmkarlarım hər bir saxsı parçasına böyük diqqət yetirir, onu böyük bir dəqiqliklə təsvir edib çöl-tədqiqat kitabına salırlar?

Hər şeydən əvvəl Beyləqanın bədii gil məmulatı bir sıra özünəməxsus xüsusiyyətlərə malikdir. Beyləqan dulusçularının istehsal etdikləri ayrı-ayrı qab nümunələrini başqa yerlərin gil məmulatı ilə heç cür qarışdırmaq olmaz. Götürək elə XII əsrin kasalarını və buludlarını. Bu qablar necə də böyük ustalıq və məharətlə hazırlanmışdır. Yaşıl kaşı zolaqla haşiyələnmiş qabarıq nəbati naxışlar bu qablara nə qədər də nəfislik, incəlik verir. Bəs marqans rəngli gil qabın üzərində cızılmış qeyri-adi incə bəzəklər və ya ayrı-ayrı qablar üzərində çox rəngli naxışlar? Başqa orta əsr şəhərlərdə belə qablara rast gəlinmişdirmi? Əsla yox! Görünür ki, bütün bunlar bilavasitə Beyləqan ustalarının yaradıcı məhsulu olmuşdur. Sözsüz, belə yüksək bədii keyfiyyətli qablar Beyləqan dulusçularının tətbiqi incəsənət sahəsində əldə etdikləri böyük nailiyyətlərin təzahüründən başqa bir şey deyildir. Bütün bunlarla yanaşı Beyləqanın dulus istehsalı da qapalı xüsusiyyət daşımamışdı. Belə ki, bu şəhərin bədii dulusçuluq sənəti səciyyəvi xüsusiyyət daşımaqla yanaşı eyni zamanda bir tərəfdən Cənubi Qafqazın ayrı-ayrı yerlərinin, digər tərəfdən isə İran və Beynəlnəhrin dulusçuluq mərkəzləri ilə sıx təmasda inkişaf etmişdi. Lakin Beyləqanın yerli ustaları heç vaxt öz sənət qardaşlarını kor-koranə təkrar etməmişdilər. Bəlkə də elə buna görə onların yaratdıqları hər bir cam, hər bir dolça, hər bir bulud, hər bir kuzə xalq incəsənətinin əsil incisinə çevrilmiş, hər bir evdə bayram əhval-ruhiyyəsi yaratmışdı. Bəlkə də elə buna görə Milin ürəksıxıcı bu çiskinli-yağışlı günlərində onların ən kiçik qırığı belə otaqlarımıza bahar fəslinin təravətini, yay günlərinin gur işığını, payızın qızılı rənglərini gətirir, gözlərimizi oxşayır, qəlbimizi fərəh hissi ilə doldurur.

*12 noyabr, 1959-cu il.*

*__Mərd igidlər özünə məhbəsi meydan bilir,__*
*__Sanma kim, nakəsü namərd bu meydana düşər...__*
*Molla Pənah Vaqif*

Milin isti günlər arxada qalmışdır. Milə indi soyuqlar gəlmişdir. Gecələr ayaz olur, yerə qırov düşür, yovşan kollarının üstünə gümüşü zərrəciklər səpələnir. Ay görünəndə Mil sönük bir işıqla bərq vurur. Səhərlər isə torpaqdan buxar qalxır, günəş yuxarı qalxdıqca onun ardınca sürünür, yoxa çıxır.

İndi Milə qəribə sakitlik çökmüşdür. Hər yan səssiz-səmirsizdir. Əvvəllər tez-tez gördüyümüz qoyun sürüləri də yoxa çıxmışdır. Onlar Milin ənginliklərinə çəkilmişdir. Tez-tez küləklər əsir və belə hallarda düzdə yerindən qopmuş tikan kolları giyirlənə-giyirlənə bir-birini qovmağa başlayırlar. Mildə külək öz atını dəhşətli bir vıyıltıyla çapır. Gecələr haradasa uzaqlarda canavarlar ulaşır.

Yaman üşüyürük. Evlərimizin nazik taxta divarları buz kimi soyuq olur. Milin o keçən isti günlərini arzulayırıq. Örənqalada işləyən yoldaşlarımız artıq yır-yığış edirlər. Orada işləmək indi qeyri-mümkündür. Hər yan dizə qədər palçıqdır. Lakin Üçtəpədəki kurqanlarda hələ də qızğın iş gedir. Buldozerlər onun üst örtüyünü dərinləşdirirlər. Artıq 12 metr qalınlığında torpaq layı götürülmüşdür. Deməli, qarşıda hələ 2 metr qalınlığında lay qalmışdır. Bu layın altında hansı sirlər gizlənmişdir? Torpaq dərinləşdikcə səbrimiz də tükənir. Aleksandr Aleksandroviç indi tez-tez qəribə yuxular görür, narahatçılıq hissi keçirir. Görünür ki, əsəbləri lap gərilmişdir. Qarşıda görüləsi işlər də çoxdur. Qazıntı sahəsində kurqanın dibinə çatmaq üçün hələ 4 min kubmetrə qədər torpaq çıxarılmalı, kənara atılmalıdır. Çox güman, bu mövsümdə işi başa çatdıra bilməyəcəyik, gələn il yenə buraya gəlməli olacayıq.

Bu gün səhər Aleksandr Aleksandroviç mənə qazıntı sahəsinin şərq hissəsində şurf qoymağı tapşırdı. İki fəhlə ilə burada kəşfiyyat qazıntısına başladıq. Çox keçmədən torpaq qatının altında çay daşları aşkar edildi. Aleksandr Aleksandroviçin sevincinin həddi-hüdudu yox idi. Deməli, altda hələ daş örtük də vardır. Qalın və bərk daş örtük. Ola bilər ki, bu daş örtüyünün altındakı qəbir bütövdür. Bütün dövrlərdə, əsrlərdə fəaliyyət göstərən qəbir qarətçilərin əli bəlkə də buraya çatmamışdır. İyessen sevinir, ümidləri artır.

Günortadan sonra gözlənilmədən göyün üzü qaraldı, bir anda Milə zülmət çökdü,

çox keçmədən narın yağış, sonra isə sulu qar yağmağa başladı. Hamımız maşının çadırının altına cumduq. Aleksandr Aleksandroviç işçi fəhlələri evə buraxmağı lazım bildi. Qazıntı sahəsində özümüz qaldıq. Buldozerlər işləməkdə davam edirdi, biz isə onların bıçağının altından çıxan torpağı izləyə-izləyə ağır çəkmələrimizlə onların dalınca oraya-buraya qaçırdıq. Əllərimiz, ayaqlarımız bütünlüklə donmuşdu. Güclənən qar gözlərimizə dolur, nəfəsimizi kəsirdi. İndi qazıntının ən məsuliyyətli vaxtıdır. Torpağın hər qarışına diqqət yetirməliyik.

Evə qaranlıqda, əldən düşmüş vəziyyətdə qayıtdıq. Yolu güc-bəla ilə tapırdıq. On addımlığı görmək olmurdu. Lopa-lopa yağan qar yolun üstünü örtərək bizi tez-tez çaşdırırdı. Yaxşı ki, azmadıq, maşınımız da xarab olmadı.

*17 noyabr 1959-cu il.*
*Kəbirli kəndi.*

*Keçir külək kimi ömrün karvanı...*
*Ömər Xəyyam*

## SON QEYDLƏR

Gecədən sulu qar yağır. Hər yan su bə palçıqdır. Üçtəpəyə getmək mümkün deyil. Yola çıxmaq istədik. Lakin maşınımız palçığa batıb qaldı. Güc bəla ilə evə piyada qayıtdıq. Üst başımız bütünlüklə palçıq idi. Çox soyuqdur. İşıq da yoxdur. Odunumuz qurtarmışdır, üstəlik aşpaz qadınımız da xəstələnmişdir. İyessenin qanı qaradır. Bütün vədlər unudulmuşdur. Deyəsən, yığışmaq vaxtıdır.

*23 noyabr, 1959-cu il. Kəbirli kəndi.*

Bu gün şaxta vardır. Yer donmuşdur. Bərk qar yağır. Örənqalada qazıntı aparanlar işlərini başa çatdırdıqlarına görə, imkandan istifadə edib yola çıxdılar, Bakıya qayıtdılar. Bazada yalnız biz qalmışıq – Üçtəpəlilər. Biz də yır-yığış edirik. İyessen maliyyə vəsaiti almaq üçün rayon mərkəzinə getdi. Fəhlələrə maaş vermək lazımdır.

*24 noyabr, 1959-cu il. Kəbirli kəndi.*

Mil başdan-başa ağ dona bürünmüşdür. Yer daş kimidir. Bərk şaxtadır. Yerin donmasından istifadə edərək sonuncu dəfə Üçtəpəyə getdik. Gələcək qazıntılar üçün dəqiq ölçülər götürməliyik, qeydlər aparmalıyıq. Bu mövsümdə də təpələr sirrini vermədi. Qazıntı yarımçıq qaldı. Ağır hisslərlə Üçtəpə ilə vidalaşdıq. Bu yerlərə bir də gəlmək bizə qismət olacaqmı?

*27 noyabr, 1959-cu il. Kəbirli kəndi.*

Hər yan qar içindədir. Bu gün Bakıya qayıdırıq. Avadanlığımızı və tapıntılarımızı yerbəyer edirik. Axşam İdeal Nərimanov, Vera Fomenko, Aləm Nuriyev və mən sürücü Ağaverdinin maşınında Yevlaxa gəldik və gecə yarısı oradan qatarla Bakıya yola düşdük. Soyuq bazada yalnız A.A.İyessen, təsərrüfat müdiri Zəlimxan Bataşov, qarovulçu Hüsü kişi və bir də sədaqətli dostumuz Sarıbaş qaldı. İyessen rəsmi sənədləri təsdiq etdirdikdən sonra Bakıya qayıdacaqdır.

Ulu tanrı Mili bizə çox görmə. Sonsuz mərhəmətini bizdən əsirgəmə. Qoy Milə bir də gələk.

*29-30 noyabr, 1959-cu il. Kəbirli-Yevlax - Bakı.*

# BİZ GƏLDİ GEDƏRİK,
# SƏN YAŞA, DÜNYA!

## BÖYÜK ALİM, BÖYÜK VƏTƏNDAŞ

Uzun illər Milli Akademik Opera və Balet teatrımız hər il müqəddəs bir ənənə kimi öz yeni mövsümünü «Koroğlu» operasının ecazkar sədaları ilə açardı. O anlarda bəlkə də az adam bilərdi ki, dahi sənətkarımız Üzeyir Hacıbəyovun bu musiqi incisinin ilk müvəffəqiyyətli səhnə təcəssümündə Azərbaycanın arxeoloq və etnoqrafı Ələsgər Kazım oğlu Ələkbərov da xüsusi rol oynamışdı. Xalqımızın qədim qəhrəmanlıq tarixini, mədəniyyət və incəsənətini, bunların təkrarolunmaz gözəl məziyyətlərini dərindən bilən istedadlı alim ölməz operanın ilk tamaşası hazırlanarkən onun bədii tərtibatında baş məsləhətçi olmuşdu.

Keçən əsrin 20-30–cu illərində uğurlu axtarışları Ələsgər Ələkbərovu təkcə respublikamızda yox, onun hüdudlarından çox-çox uzaqlarda da yaxşı tanımışdı. Ə.K.Ələkbərov öz həyatını, bütün elmi fəaliyyətini sovet respublikası adını alan və yeni yola çıxarılan Azərbaycanda arxeologiya və etnoqrafiya elmlərinin yaranıb təşəkkül tapmasına həsr edən, onların beşiyi başında duran ilk alimlərimizdən olmuşdu.

Mənə bu alimi görmək, onunla birgə işləmək, səfərlərə çıxmaq, doğma torpağımızı qarış-qarış gəzmək şərəfi nəsib olmamışdır. Onun adını ilk dəfə keçən əsrin əllinci illərinin axırlarında eşitmişəm. Lakin taleyin hökmüylə ilk axtarışlarımdan onun keçdiyi yolların yolçusu olmuşam, bu yollarda ulu babalarımın yadigarları ilə yanaşı onun da əbədiyyətə qovuşmuş ayaq izlərini görmüşəm. Bu izlər məni Mil düzünə aparmış, Kəlbəcər və Laçının çınqıllı dolaylarından keçirmiş, Naxçıvanın əsrarəngiz şiş uclu dağlarına gətirib çıxarmışdı. Bu silinməz izlər mənə əbədi viran qalmış Beyləqanı, sinəsi susuzluqdan yanmış qədim Govurarxı, sirlərlə dolu Şahtaxtını, Oğlanqalanı tanıtmışdı. Görmədiyim, səsini eşitmədiyim bu böyük alim, müəllim qayğısı ilə sanki əlimdən tutub məni kürdlərin, ayrımların qara damlarına qonaq aparmış, onların adət və ənənələrindən, tarixi keçmişindən mənə qəribə hekayətlər danışmışdı. Sinələri hikmətli sözlərlə, gözəl dastanlarla dolu müdrik ozanları da ilk dəfə mənə o tanıtdırmışdı. Elə buna görə də onun





həyat yolu, elmi yaradıcılıq yolu ilk addımlarımdan mənə örnək olmuş, bütün varlığımla elmə xidmət etməyi öyrətmişdir.

Ələsgər Ələkbərov çox qısa və olduqca ağır bir həyat yolu keçmişdi. Lakin bu həyatın böyük mənasını həmişə qəlbən elmə xidmət etmək, hansı şəraitdə olursa-olsun yorulmadan xalqımızın zəngin keçmişini, mənəvi sərvətlərini öyrənmək səyi təşkil etmişdi. «...Əgər mən şöbə müdiri kimi yaramıramsa, onda başladığım işləri davam etdirmək üçün bəlkə adi bir elmi işçi və hətta laborant kimi gərəkli olam». Son ümidlə yazılmış bu sözlər totalitar üsul-idarəsinin təqiblərinə məruz qalan və sevimli peşəsindən uzaqlaşdırılan istedadlı alimin 1937-ci ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi



Komitəsinin katibi Mir Cəfər Bağırova ünvanlanmış məktubdandır.

Ələsgər Ələkbərov 1895-ci ildə Bakı şəhərində, xırda sənətkar ailəsində doğulmuşdu. O, ibtidai təhsilini Bakıdakı rus-azərbaycan məktəbində almışdı. Uşaqkən ata-anasını itirən Ələsgər sonralar təhsilini Bakı realnı məktəbinin pansionunda davam etdirməyə məcbur olmuşdu. 1914-cü ildə bu məktəbi bitirəndən sonra gənc Ələsgər Kiyev Ticarət İnstitutuna daxil olmuş, lakin xəstəliyi ona həmin institutu bitirməyə imkan verməmişdi. Buna baxmayaraq Ə.Ələkbərov Bakıya qayıtdıqdan sonra Azərbaycan Dövlət Universitetinin tarix-filologiya fakültəsinə daxil olmuş və 1926-cı ildə oranı müvəffəqiyyətlə bitirmişdi. Hələ Universitetdə oxuyarkən Ə. K. Ələkbərov ölkəşünaslıq işlərinə, Azərbaycanın zəngin qədim maddi mədəniyyət tarixinə böyük maraq göstərmiş və təzəcə təşkil olunan "Arxeoloji cəmiyyət"in işində yaxından iştirak etmişdi. 1924-cü ildən isə o, yeni yaranan «Azərbaycanı tədqiq edən və öyrənən cəmiyyət»in bir sıra tədbirlərinin həyata keçirilməsi işinə tükənməz həvəslə qoşularaq geniş fəaliyyətə başlamışdı. Məhz buna görə sonrakı illərdə bu cəmiyyətdə bir sıra məsul işlər bilavasitə Ələsgər Ələkbərova tapşırılmışdı.

Görkəmli şərqşünas alimlər – V.V.Bartold, N.Y.Marr və İ.İ.Meşşaninovun tələbəsi və yetirməsi olan Ə.Ələkbərov yorulmadan onların gözəl ənənələrini davam etdirərək

öz gərgin zəhməti, dərin bilik və istedadı ilə az vaxt içərisində arxeologiya və etnoqrafiya sahəsində peşəkar mütəxəssis kimi tanınmışdı. Bəşər tarixinin bir sıra mühüm məsələlərinin öyrənilməsində arxeologiya və etnoqrafiya elmlərinin böyük rolunu yaxşı başa düşən Ə. Ələkbərov özünün ilk əsərlərində uzaqgörənliklə göstərmişdi ki, arxeologiya və etnoqrafiyanın əsl mənada tarixi mənbə olması üçün onların yeni metodologiya əsasında qurulması zəruri işdir.



Ələsgər Ələkbərovun ilk çöl tədqiqat səfərləri 20-ci illərin ortalarına təsadüf edir. Doğma torpağını, xalqını ürəkdən sevən, onun keçmişinə, adət və ənənələrinə böyük hörmət bəsləyən vətənpərvər alim bu səfərləri zamanı Azərbaycanı qarış-qarış gəzərək xalqımızın qədim tarixinə, eləcə də bugünkü məişət və təsərrüfatına aid elmi əhəmiyyətli zəngin məlumatlar toplaya bilmişdi. O, dəfələrlə Naxçıvanda, Mil-Qarabağ düzlərində, Kəlbəcər-Laçın dağlarında arxeoloji və etnoqrafik tədqiqat səfərlərində iştirak etmişdi. Ələsgər Ələkbərov Azərbayçanın orta əsrlərə aid qiymətli abidələrindən sayılan Örənqala qazıntılarının ilk təşkilatçılarından olmuşdu. Buradakı qazıntıların nəticələri sonralar onun «Örənqala qazıntıları» adlı əsərində geniş şərh edilmişdi. Bu əsərdə orta əsr Azərbaycanının mühüm şəhərlərindən olmuş Örənqala-Beyləqana aid diqqəti cəlb edən maraqlı elmi fikirlər, mülahizələr irəli sürülmüşdü.

Azərbaycanda ilk etnoqrafik xəritənin yaradılması kimi çətin bir iş də bilavasitə onun adı ilə bağlıdır. Diqqətəlayiq haldır ki, Ə. Ələkbərov tərəfindən bu xəritəyə çox böyük dəqiqliklə beş mindən artıq yaşayış yeri salınmışdı. Böyük alim özünün çöl axtarışları və tədqiqatları ilə Azərbaycanın qədim maddi mədəniyyət tarixinin bir sıra qaranlıq məsələlərini əsaslı şəkildə işıqlandırmışdı.

İstedadlı alim olmaqla yanaşı Ələsgər Ələkbərov eyni zamanda milli gənc mütəxəssislərin yetişməsinə böyük qayğı ilə yanaşmış, elmi-təşkilati və ictimai işlərdə tükənməz fəaliyyət göstərən xadim kimi də şöhrət qazanmışdı.

O, uzun illər Moskvada çıxan «Советская этнография» jurnalının redaksiya heyətinin üzvü olmuş, respublikamızda ayrı-ayrı muzeylərin yaradılmasında, müxtəlif sərgilərin təşkilində, bir sıra konfrans və əlamətdar günlərin keçirilməsində yaxından iştirak etmiş və ya onların bilavasitə rəhbəri olmuşdu. Bakıda I Ümumittifaq türkoloji

qurultayının çağırılması, Şərqin böyük şairi Firdovsiyə həsr olunmuş sərginin açılması və bu kimi digər işlərdə Ə. Ələkbərov xüsusilə geniş fəaliyyət göstərmişdi.

Ələsgər Ələkbərov 1937-ci ildən SSRİ Elmlər Akademiyasının Azərbaycan Filialının tarix, dil və ədəbiyyat institutunda "Maddi mədəniyyət bölməsi"nə başçılıq etmişdi. Bu vəzifədə olarkən o, öz əməli tədbirlərilə Azərbaycanda arxeologiya və etnoqrafiyanın inkişafı üçün çox işlər görmüş, elmi işlərin təşkilat formalarını daha da zənginləşdirmişdi. Təəssüf ki, belə bir faydalı işi əsl vətəndaş alim olan Ələsgər Ələkbərov uzun müddət davam etdirə bilməmişdi. Ona Azərbaycanda təməlini qoyduğu arxeologiya və etnoqrafiya elmlərinin sonrakı yüksək inkişafını, böyük nailiyyətlərini görmək nəsib olmamışdı. Ələsgər Ələkbərov yaradıcılığının ən məhsuldar bir dövründə sevimli işindən uzaqlaşdırılmışdı. Mövcud totalitar üsul-idarəsi və ona quyruq bulayanlar azad düşünən, tarixi araşdırmalarda gerçəkliyi hər şeydən üstün tutan, öz əqidəsinə həmişə sadiq olan bu böyük alimin simasında barışmaz bir mübarizi görmüş, onu məhv etməyə çalışmışdılar. Respublikamızın özündə və onun sərhədlərindən çox-çox uzaqlarda da böyük alimə qarşı iftiralar, təqiblər başlanmışdı. Bu cəhətdən riyakar erməni qonşularımız, onların "görkəmli alim nümayəndələri", o cümlədən İ.A.Orbeli xüsusilə seçilmişdilər. Ə.Ələkbərovun 7 mart 1937-ci il tarixdə müəllimi, görkəmli arxeoloq alim İ.İ.Meşşaninova yazdığı mktuba diqqət yetirək: "Əziz İvan İvanoviç, İ.A.Orbelinin tədqiqatlarıma olan münasibəti məni çox təəccübləndirdi. Jurnalistlərdən biri onun son tədqiqatlarımla bağlı fikrini bilmək istədikdə, o demişdir ki, Ələsgər Ələkbərov boyalı qablar məsələsində ağlını lap itirmişdir. Əlbətdə, bu məsələdə əsas təqsirkar onun mənsub olduğu məktəbdir". (Müsavat məktəbi nəzərdə tutulur – Q.İ.).



İstedadlı və bacarıqlı alimin böyük ümid və arzuları tezliklə dövrün ağır məngənəsi içində qapanəb qalmış, daşa dönmüşdü. Elimin çətin yollarında uğurla addımlayan vətənpərvər azərbaycanlı alim "millətçi", "pantürkist" adları ilə damğalanmış,



mövcud üsul-idarəsinin növbəti qurbanı olmuşdu. 1937-ci il dekabrın 30-da Ə.Ələkbərov “xalq düşməni” adı ilə həbs olunmuş və Azərbaycandan sürgün edilmişdi. 1939-cu ildə görkəmli azərbaycanlı alim sürgündə ikən ağır xəstəlikdən vəfat etmişdi.



Ələsgər Ələkbərov cəmi 15 il elmi fəaliyyətdə olmuşdu. Lakin belə bir qısa müddətdə o, 30-dan artıq yüksək elmi dəyərli əsərlər yazmışdı. Onun elmi fəaliyyəti çoxcəhətli olmuşdu. Buna görə də indi arxeoloq-etnoqraf alim Ələsgər Ələkbərovu, Azərbaycanın qədim incəsənət tarixinə dair bir sıra samballı və indiyədək öz elmi əhəmiyyətini itirməyən əsərlər yazmış əsl sənətşünas alim Ələsgər Ələkbərovdan ayırmaq çətindir.

Azərbaycan və eyni zamanda bütün Cənubi Qafqazın arxeologiyasında mühüm yer tutan, lakin o vaxtlar hələ zəif öyrənilən "Küp qəbirlər mədəniyyəti" məsələsi Ə. Ələkbərovu maraqlandıran əsas məsələlərdən olmuşdu. Təsadüfi deyil ki, onun 1935-ci ildə II Beynəlxalq İran incəsənəti konqresində oxuduğu məruzə də məhz belə bir maraqlı mövzu ilə bağlı olmuşdu. «Azərbaycanda küp qəbirlər» adlanan həmin məruzədə, eləcə də bu mövzuda yazılmış digər elmi məqalələrdə o, Azərbaycan tarixində "Küp qəbirlər mədəniyyəti"nin tutduğu yeri, onların ayrı-ayrı tiplərini, küp qəbirlərin yayılma ərazisini, eləcə də xronoloji çərçivəsini aydınlaşdırmağa təşəbbüs göstərmişdi. Onu da nəzərə çatdırmağa dəyər ki, zəhmətkeş alim hələ keçən əsrin 20-ci və 30-cu illərində "Küp qəbirlər mədəniyyəti"nə aid keçmiş Qarabulaq (indiki Füzuli) bölgəsində və Ağcabədidəki Qalatəpə adlı yerdə nadir abidələr üzə çıxarmış və öyrənmişdi. Tədqiqatçının küp qəbirlər məsələsindəki bir sıra fikir və mülahizələri indiyədək öz əhəmiyyətini itirməmiş, əksinə, çox sonralar respublikamızda aparılan arxeoloji tədqiqatlarla bir daha təsdiq edilmişdir.



Ələsgər Ələkbərovu maraqlandıran məsələlərdən biri də bütün Şərq arxeologiyasında mühüm yer tutan "Boyalı qablar mədəniyyəti" olmuşdu.

Bu məsələ ilə əlaqədar tədqiqatçı Naxçıvan ərazisində geniş axtarışlar və qazıntı işləri aparmış, fərəhləndirici nəticələr əldə edə bilmişdi. O, Naxçıvanın ayrı-ayrı yerlərində qala tipli bir sıra qədim yaşayış yerləri aşkar etmiş, "Boyalı qablar mədəniyyəti"nə aid çoxlu maraqlı tapıntılar üzə çıxarmışdı. Onun Şahtaxtı abidəsində açdığı tunc dövrünə aid kurqan öz avadanlığının zənginliyi ilə misilsiz olmuşdu. Həmin qəbirdə at skeletinə, 30-a qədər müxtəlif gil qablara, qızıl və tuncdan hazırlanmış bəzək nümunələrinə təsadüf olunmuşdu. Gil qablar içərisində yırtıcı quş və heyvan təsvirləri, eləcə də həndəsi naxışlarla bəzədilmiş mifoloji süjetli boyalı qab qədim dulusçuluq sənətinin nadir incisi kimi dünya mədəniyyətinin xəzinəsinə daxil edilmişdir.

Ə.Ələkbərovun "Boyalı qablar mədəniyyəti" üzrə apardığı tədqiqatları ilə qədim iqtisadi-mədəni əlaqələr tarixinin bir sıra qaranlıq məsələləri yeni elmi əsasla işıqlandırılmışdı. Heç təsadüfi deyil ki, onun bu sahədəki müvəffəqiyyətli axtarışları tanınmış çex şərqşünası B.Qroznının böyük marağına səbəb olmuş və o, bunu yüksək qiymətləndirmişdi. B.Qroznı Ələsgər Ələkbərovun elmi işləri ilə yaxından tanış olmaq üçün hətta 1936-cı ildə Bakıya gəlmişdi. Yeri gəlmişkən onu da qeyd etmək lazımdır ki, Azərbaycanda qədim şəhər mədəniyyəti kimi mühüm bir məsələnin qoyuluşu və ilk tədqiqi də Ə. Ələkbərovun adı ilə bağlıdır.

Ə.K.Ələkbərovun etnoqrafiya sahəsindəki tədqiqatları da böyük elmi əhəmiyyətə malikdir. Bu tədqnqatların nəticələri onun «Azərbaycanlılar», «Azərbaycan etnoqrafiyasının vəzifələri», «Azərbaycanın qadın geyimləri», «Ayrımların yaıında», «Kürdlərin mədəniyyətinin öyrənilməsi məsələsinə dair», «Azərbaycanda kukla teatrı və oyunlar» kimi bir sıra elmi əsərlərində öz əksini tapa bilmişdi. Ayrı-ayrılıqda bu əsərlərin hər biri məsələnin düzgün qoyuluşu və həlli, dolğunluğu, elmi cəhətdən samballığı və fikir aydınlığı ilə diqqəti cəlb edir. Onun Moskvada çap olunmuş «Azərbaycanda etnoqrafiyanın vəzifələri» adlı bütün həcmli məqaləsində mühüm bir təşkilati məsələ – respublikamızda etnoqrafiya elminin inkişafının əsas proqramı müəyyənləşdirilmişdi. «Azərbaycanlılar» əsərində tədqiqatçı aktual və eyni zamanda olduqca çətin bir məsələyə toxunmuş, xalqımızın tarixi mənşəyini elmi əsaslarla müəyyənləşdirməyə çalışmışdı.

«Azərbaycanın qadın geyimləri» əsərində Ə.K.Ələkbərov milli geyimlərimizi, xüsusilə bər-bəzəkli qadın geyimlərini geniş təsvir edərək onların xüsusiyyətini, əməli əhəmiyyətini müxtəlif dövrlərdə daşıdığı mahiyyətini, məişət və təsərrüfatdakı rolunu

araşdırmışdı. Onun müxtəlif əsərləri arasında bu tədqiqat işi həm verilən materialların zənginliyi, həm də gözəl və dərin məzmunu ilə seçilir. Müəllif burada qadın geyimlərini sadəcə təsvir etməklə kifayətlənməmiş, onları ictimai mənsubiyyətinə, təsərrüfat məşğuliyyətinə və yaş xüsusiyyətinə görə təhlil etmişdi.

Ələskər Ələkbərovun qədim dövrlərdən Azərbaycanda məskunlaşmış kürd və ayrımların məişəti, təsərrüfatı və mədəniyyəti haqqındakı yazıları da tarixi etnoqrafik nöqteyi-nəzərdən çox maraqlıdır. Faktiki materiallara əsaslanan bu yazılarda istedadlı alim dağ rayonlarında məskən salmış ayrım və kürdlərin yaşayış evlərini, adət və ənənələrini geniş şəkildə təsvir etmişdi.

Ə.K.Ələkbərov təkcə görkəmli arxeoloq və etnoqraf kimi deyil, istedadlı folklorşünas kimi də tanınmışdı. Onun ayrı-ayrı əsərlərində və gündəliklərində xalq yaradıcılığı nümunələrinə həmişə geniş yer verilmişdi. Bu cəhətdən «Azərbaycanda kukla teatrı və oyunlar» məqaləsi, xüsusilə böyük elmi əhəmiyyət kəsb edir. Bu məqalədə Azərbaycanda teatr tarixinə, ən əsas xalq tamaşaları tarixinə, onların mənşəyi məsələsinə xüsusi diqqət yetirilmiş, azərbaycanlılar arasında mövcud olan ayrı-ayrı xalq tamaşalarının köklərinin ibtidai-icma dövrü ilə bağlı olduğu elmi əsaslarla sübut edilmişdi. Alimin məşhur Koroğlu dastanı ilə bağlı olan tədqiqatları da diqqətəlayiqdir. Bu cəhətdən onun "Koroğlu dastanı" adlı elmi məqaləsi xüsusilə seçilir. Bu məqalənin məzmunundan aydın olur ki, alim Azərbaycanın ayrı-ayrı bölgələrindən topladığı zəngin materiallar əsasında aşıq sənətinin incəliklərini dərindən öyrənmiş, bu sənətin rolunu və əhəmiyyətini düzgün qiymətləndirmişdi.

Böyük zəhmətkeş alim – Ələsgər Kazım oğlu Ələkbərovun bütün yaradıcılıq fəaliyyati yorulmadan, qəlbən elmə xidmətin bariz nümunəsidir. Məhz buna görə respublikamızın, arxeoloq və etnoqrafları böyük alimin xatirəsini həmişə hörmət və minnətdarlıq hissi ilə yad edirlər.

1960-cı ildə onun əsərləri Azərbaycan Milli EA tərəfindən «Azərbaycanın arxeologiyası və etnoqrafiyasına dair tədqiqatlar» başlığı altında ayrıca kitab şəklində çap edilmişdir.

## NURLU HƏYAT YOLU

Onun sevinc və günəş işığı ilə dolu böyük yaradıcılıq yolu vardı. Ona qədim Gəncənin xarabalıqlarını tapmaq, dahi Nizaminin müqəddəs türbəsini açmaq, səfalı Xaçbulaq yaylasının əfsanəvi qalalarını öyrənmək və Qobustanın min bir səhifəli daş kitabını oxumaq kimi şərəfli, qibtə ediləsi işlər nəsib olmuşdu.

Bu böyük şəxs Azərbaycanın ilk arxeoloq-etnoqraf alimlərindən biri, əməkdar elm xadimi, Əmək Bayrağı ordenli, istedadlı tədqiqatçı İshaq Məmmədrza oğlu Cəfərzadə idi.

İshaq Cəfərzadənin adı da respublikamızdan çox-çox uzaqlarda elmi ictimaiyyətə indi də yaxşı tanışdır. Onun adını İngiltərə və Fransada, Çexiya və Slovakiyada, Macarıstanda, Almaniya, İtaliya, İspaniya və Kanadada çox eşidiblər. Hər yerdə onu Azərbaycan arxeologiyasının yaradıcılarından biri, misilsiz Qobustan mirasının ilk tədqiqatçısı kimi tanıyırlar.

Azərbaycanın elə-bir guşəsi tapılmaz ki, oraya bu görkəmli alimin ayaqı dəyməmiş ola. Lakin onun adı ilə daha çox dünya incəsənət xəzinəsini bəzəyən, milli mədəni və mənəvi qürurumuzu təşkil edən Qobustanın daş naxışları, rəsmləri bağlıdır. Ulu babalarımızın hiss və duyğularını qoruyub saxlayan bu abidənin tədqiqinə o, ömrünün 50 ilə yaxın bir dövrünü həsr etmişdi.

Bəlkə də elə buna görə Qobustanın yalçın qayaları uzaq minilliklərin, əsrlərin sirlərini ondan gizlətmək istəməmiş, çətin və əziyyətli axtarışlarda ona qüvvət, əzəmət vermiş, möhkəm arxa olmuşdu. Bəlkə də elə buna görə tanınmış alimin yerişində və duruşunda, söhbətlərində və yazılarında həmişə Qobustanın düşüncəsi, onun nəhəng qayalarının vüqarı, minbir səsli qədim və ecazkar mahnısı əks olunmuşdu.

Böyük alim İshaq müəllimlə mənim ilk tanışlığım keçən əsrin 50-ci illərinin sonlarında olmuşdu. O vaxtlar mən uzaq dağ bölgələrindən birində, yoldan uzaq bir kənddə müəllimlik edir, boş vaxtlarımda isə işlədiyim yerin zəngin tarixi abidələrini, etnoqrafiyasını öyrənməyə cəhd göstərirdim. Bəzi maraqlı abidələr haqqında mətbuat səhifələrində çıxışlar da etmişdim. Bəlkə də bunu nəzərə alaraq günlərin bir günündə təcili teleqramla məni Azərbaycan Elmlər Akademiyasının arxeologiya şöbəsinə işə dəvət etmişdilər. Müəllimliyi, uşaqlarla işləməyi çox xoşlasam da, teleqramı alan günün sabahı Bakıya yola düşmüşdüm. Əslində, onda mən illərdən bəri qəlbimdə yuva salmış

arzuma qovuşmağa tələsmişdim.



Həyata göz açandan ətrafımda uzaq keçmişin yadigarlarını görmüşdüm. Doğulduğum evin özü qədim bir atəşgahın on addımlığında yerləşirdi. Uşaqlıq illərim bu qədim od məbədinin yaıında keçmişdi. Dəfələrlə böyük həyəcan hissilə bu müqəddəs məbədin ətrafını dolaşmışdım və hər dəfə onun ovulub tökülməkdə olan daşları pıçıltı ilə mənə bir-birindən gözəl, bir-birindən qəribə və sirli dastanlar danışmışdı. Çox güman ki, arxeoloq olmaq, uzaq keçmişin sirlərini öyrənmək arzusunu da qəlbimə ilk dəfə bu dişli-divarlı məbəd salmışdı.

Artıq yuxarı siniflərdə oxuyarkən mən Bakı Mərkəzi Pionerlər Sarayında «Gənc tarixçilər» dərnəyinin və o vaxtlar Bakının 1 May küçəsində yerləşən «Gənc səyahətçilər» klubunun daimi üzvü olmuşdum və dəfələrlə respublika və ümumittifaq müsabiqələrində, olimpiadalarında iştirak etmişdim. Məktəbli ikən mənə qalib kimi Moskvada



olmaq, Volqaboyunu gəzmək şərəfi nəsib olmuşdu.

Arxeoloq olmaq arzusu ilə də Azərbaycan Dövlət Universitetinin tarix fakültəsinə daxil olmuşdum. Təəssüf ki, elə bu vaxt universitetdə arxeologiya kafedrası bağlanmış, arxelogiya üzrə ixtisas da aradan götürülmüşdü. Elə bil, kiminsə amansız əlilə arxeologiyanın qapıları mənim üçün həmişəlik bağlanılmışdı. Məcburi şəkildə Beynəlxalq münasibətlər tarixi üzrə ixtisaslaşmalı olmuşdum. o zamanlar Azərbaycanın ən hüdudlu siyasi icmalçısı sayılan görkəmli alim Məmməd Sadıqzadənin rəhbərliyi altında faşist Almaniyasının xarici siyasətilə bağlı diplom işi yazıb uğurla müdafiə etmişdim. Təhsilimi başa vurduqdan sonra Bakıdan, arxeologiya elminin mərkəzindən çox-çox uzaqlarda, lakin tarixi abidələrlə zəngin bir yerdə müəllimliyə başlamışdım. Tarix və rus dilindən dərs demişdim. Ümid üçün sanki kiçik bir imkan qalmadığı vaxtda mən gözlənilmədən bu teleqramı almışdım.



Ertəsi gün mən Bakıda olmuşdum.

Yadımdadır, bir gün sonra əlimdə həmin teleqram, ürəyimdə isə böyük təşviş və həyəcan o vaxtlar Voroşilov küçəsində yerləşən Tarix İnstitutunun arxeologiya şöbəsinə gəldim. Burada məni Azərbaycan arxeologiyasına rəhbərlik edən İshaq Cəfərzadənin otağına apardılar. Adını çox eşitdiyim görkəmli alimlə mənim əyani tanışlığım belə başlandı.

İshaq müəllim otağın künc tərəfində, böyük bir yazı masasının arxasında əyləşmişdi. Başında özbək araqçını vardı. Oturmaq üçün mənə yer göstərdi və bir müddət susdu. Hiss etdim ki, onun baxışları üzümdə gəzir və məni tər basdı. Düzü, indi arxeologiya mənim üçün əlçatmaz bir zirvəyə, İshaq müəllim isə bu zirvəyə gedən yeganə yolun zəhmli keşikçisinə çevrilmişdi. Görünür, o, mənim bərk həyəcan keçirdiyimi hiss edib yavaşcadan boğazını arıtdı və çox səmimi və açıq bir baxışla məqalələrimi oxuduğunu bildirdi. Bunun ardınca gözlənilmədən məndən maaşımı soruşdu. 240 manata qədər böyük maaş aldığımı eşitdikdə təəccübləndi, lakin birdən-birə quru bir səslə dedi:

- Bala, bizdə sən bu maaşın yarısından da az alacaqsan. Biz səni kiçik elmi işçi vəzifəsinə götürməyi nəzərdə tutmuşuq. Bu vəzifənin maaşı isə cəmi 83 manatdır. Lakin xəbərdarlıq edirəm ki, bu çətinliyin yalnız bir tərəfidir. Arxeologiyanın özü çox ciddi və olduqca ağır bir elmdir. Yadda saxlamalısan ki, arxeoloq hər cür iş şəraitində işləməyə hazır olmalıdır. Bizim isə əsas iş şəraitimiz iliyimizə qədər işləyən şaxtadan və ya beynimizi yandıran istidən, gözlərimizi dolduran toz-torpaqdan asılı olmayaraq açıq havadadır. Bəziləri arxeologiyada romantika axtarırlar. Lakin belə adamların heç biri arxeologiyada bir mövsümdən artıq qala bilmir. İlk çöl axtarışından sonra qaçır. Mən səni qorxutmaq istəmirəm. Dediklərimi düşün, götür-qoy et. Özünü buna hazırlıqlı bilsən, ərizə ilə gəl. Onda mən sənə, - uğurlu yol, - deyərəm.

Doğrusu, o gecə mən yatmadım. Lakin ertəsi gün bir cümlə ilə yazdığım ərizəni İshaq müəllimə təqdim etdim. O, daha bir söz demədi. Amma dodaqaltı gülümsəyərək üstünü yazdı.

Bir il sonra isə İshaq müəllim məni Xaçbulaq yaylağında yenidən başlanan tədqiqatlara apardı. Bu yerlər onun üçün doğma və əziz idi. Özünün dediyi kimi, bütün uşaqlıq və gənclik illərini Azərbaycanın bu səfalı guşəsində keçirmişdi. Sonralar ilk tədqiqatları üçün də o, məhz buranı seçmişdi. Xaçbulaqda tədqiqat apararkən biz alaçıqlarda qalırdıq. Hər axşam İshaq müəllim bizi özünün dədə-baba ənənəsi ilə qurulmuş iri

alaçığına dəvət edirdi və gecə yarıdan keçənədək bu yerlərin tarixindən, adət-ənənələrindən və öz həyatından maraqlı söhbətlər açırdı.





İshaq Cəfərzadə həyata qədim bir şəhərdə – böyük Nizaminin vətəni olan Gəncədə göz açmışdı. O, 1895-ci ildə anadan olmuşdu. Atası Məmmədrza kişi sənətkar olmuş və şəhərdə yaxşı sərrac kimi tanınmışdı. Balaca İshaq 6 yaşına çatanda atası onu mədrəsəyə vermişdi. Burada İshaq ərəb və fars dillərini öyrənə bilmiş, ilk dəfə öz dahi həmyerlisinin ölməz əsərlərini oxumuşdu. Mədrəsədən sonra o, altıillik şəhər məktəbində təhsil almışdı. Bu məktəbdə İshaq Cəfərzadə yeni bir dilə - rus dilinə yiyələnmişdi. Burada oxuyarkən o, daim yeni bir şey öyrənməyə, geniş bilik əldə etməyə can atmış və bununla bütün müəllimlərinin hüsn-rəğbətini qazanmışdı. Məktəbdə təhsil aldığı vaxtlarda, eləcə də oranı bitirdikdən sonra yeniyetmə İshaq daim atasının yanında işləmiş və ona böyük köməklik göstərməklə sərraclıq kimi qədim xalq sənətinin sirlərini dərindən öyrənmişdi. Çox güman ki, onda Azərbaycan xalq sənətinə, xalq məişət və təsərrüfatına sonsuz məhəbbət də ilk dəfə burada yaranmışdı. İshaq Cəfərzadə gənc vaxtlarından elmə böyük maraq göstərərək gecə və gündüz mütaliə etmiş, müstəqil surətdə öz savadını artırmışdı. Qədim və zəngin tarixə malik olan Gəncə şəhəri, onun ətrafındakı abidələr və hər il yay vaxtı dincəldiyi Xaçbulağın qədim qalaları onda tarix elminə, arxeologiyaya böyük həvəs oyatmışdı.

Tarix elminin sirlərinə dərindən yiyələnmək məqsədilə o, 1924-cü ildə Azərbaycan Ali Pedaqoci institutunun tarix fakültəsinə daxil olmuş və oranı əla qiymətlərlə qurtarmışdı. O, bununla da kifayətlənməmiş, tezliklə sənədlərini Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakültəsinə vermişdi. İshaq Cəfərzadə universitet təhsilini də böyük müvəffəqiyyətlə başa çatdırmışdı.

İstər pedaqoji institutda, istərsə də universitetdə oxuyarkən o, elmi işə daha böyük maraq göstərmiş, arxeoloji və etnoqrafik dərnəklərin işində, yeni yaranan «Azərbaycanı tədqiq edən və öyrənən cəmiyyət»in, eləcə də «Azərbaycanın qədim və incəsənət abidələrini qoruyan komitə»nin tədqiqatlarında fəal iştirak etmişdi. Buna görə də İshaq Cəfərzadə hələ universitetdə oxuyarkən — 1926-cı ildə Azərbaycan Dövlət Tarixi Muzeyinə elmi işçi vəzifəsinə qəbul olunmuşdu. O vaxtdan İshaq müəllim ömrünün sonunadək bütün həyatını xalqımızın qədim maddi mədəniyyət tarixini öyrənmək işinə həsr etmişdi. Elə buna görə də alimin həyatı, uzun yaradıcılıq yolu əslində Azərbaycanda arxeologiya və etnoqrafiya elmlərinin bütün ardıcıl inkişaf mərhələlərini əks etdirən bir kitaba çevrilmişdi.





Yada salmağa dəyər ki, respublikamızda geniş arxeoloji axtarışlar və qazıntılar aparmış 20-dən artıq arxeoloji və etnoqrafik ekspedisiyaların təşkili və işi bilavasitə İshaq müəllimin adı ilə bağlıdır. Hələ 1926-cı ildə o, akademik İ.İ.Meşşaninovun başçılıq etdiyi ekspedisiyaların tərkibində Xocalıda və Qızılvəngdə, Çovdar və Yaloylutəpədə arxeoloji qazıntılar aparmış, olduqca maraqlı etnoqrafik məlumatlar toplamışdı. İshaq müəllimin həmin ildə Azərbaycanın ilk arxeoloqlarından olan Davud bəy Şərifovun rəhbərliyi ilə qədim Qəbələ şəhər yerində başlanan qazıntılardakı işi də çox uğurlu olmuşdu. Daim axtarışlara can atan gənc alim ixtisasını təkmilləşdirmək və təcrübə toplamaq məqsədi ilə 1929-cu ildə SSRİ Elmlər Akademiyasının təşkil etdiyi ekspedisiyanın işinə qoşularaq Qara dənizin şimalındakı antik dövrlərə aid Olviya şəhər yerində də qazıntılar aparmışdı. Topladığı təcrübə İshaq müəllimə az vaxt içərisində Azərbaycan Dövlət Muzeyində zəngin arxeoloji fond yaratmağa və xüsusi şöbə açmağa imkan vermişdi.

Xalqımızın qədim tarixini, məişət və təsərrüfatını, mədəniyyət və incəsənətini öyrənmək məqsədilə o, Azərbaycan torpağını qarış-qarış gəzmiş və hər dəfə onlarca qiymətli tarixi abidə tapmışdı. Zəhmətkeş alim 1937-1939-cu illərdə Kiçik Qafqaz silsiləsinin əlçatmaz yerlərində son tunc-ilk dəmir dövrünə aid 120-dən artıq möhtəşəm divarlı qalalar qeydə almış və bunları elmi əsaslarla tədqiq etmişdi. Onun bu abidələrə həsr edilmiş tədqiqat əsəri böyük elmi əhəmiyyətinə görə gənc alimlərin ümumittifaq müsabiqəsində böyük müvəffəqiyyət qazanmış, 1938-ci ildə xüsusi mükafata layiq görülmüşdü.

İshaq Cəfərzadənin ilk elmi axtarışlarında qədim Gəncə qazıntıları böyük yer tutmuşdu. Qoca Şərqin dühası Nizami Gəncəvinin 800 illik yubileyi ilə əlaqədar təşkil edilən bu qazıntılara İshaq müəllim rəhbərlik etmişdi. Onun səyi nəticəsində az vaxt ərzində qədim Gəncə şəhərinin yeri dəqiq şəkildə müəyyənləşdirilmiş və geniş qazıntılarla burada qala divarlarının, sənətkarlıq məhəllələrinin, şəhər körpülərinin və başqa tikintilərin qalıqları zahirə çıxarılmış və yüzlərcə dəyərli maddi mədəniyyət nümunələri əldə edilmişdi. Maraqlıdır ki, təcrübəli alim qədim Gəncənin ətrafında Nizami dövründən daha qədimə - tunc dövrünə aid çoxlu abidələr aşkara çıxarmış və xalqımızın mədəni nailiyyətlərinin dərin köklərini müəyyənləşdirmişdi.

Qədim Gəncə qazıntıları zamanı İshaq Cəfərzadəyə böyük Nizaminin qəbrini açmaq və onun müqəddəs nəşini gün işığına çıxarmaq şərəfi nəsib olmuşdu. Yubiley

günlərində o, ölməz «Sənsiz»in ecazkar sədaları altında onu şairin şərəfinə yeni ucaldılmış türbədə qara mərmər sənduqəyə qoymuşdu. İndi bu yer xalqımızın böyük və müqəddəs ziyarətgahıdır.

Qədim Gəncə qazıntıları sonralar yorulmaz alimə «Qədim Gəncənin tarixi-arxeoloji oçerki» kimi ciddi bir elmi əsər yazmağa imkan vermişdi. Bu mövzu əsasında o, hələ 1944-cü ildə böyük bir müvəffəqiyyətlə namizədlik dissertasiyasını da müdafiə etmişdi. Müharibə və müharibədən sonrakı ilk illərdə İshaq müəllim Bakı limanında yerləşən sirli «Şəhri Səbayıl»da və Yaloylutəpədə başlanan arxeoloji tədqiqatlara rəhbərlik etmişdi. Dörd tərəfdən Xəzərin dalğaları ilə yuyulan «Şəhri Səbayıl» tədqiqatları zamanı o, ağır və gərgin zəhmət hesabına dənizin dibindən 200-dən artıq iri ölçülü yazılı daş çıxara bilmişdi. Tədqiqatlar nəticəsində bu qalanın XIII əsrə aid olması və orta əsrlərdə Azərbaycanın iqtisadi-mədəni əlaqələrində mühüm yer tutması aydınlaşdırılmışdı. Yaloylutəpə qazıntılarının da nəticələri əhəmiyyətli olmuşdu. Bu qazıntılarla respublikamız ərazisində qədim və özünə məxsus bir mədəniyyətə aid çoxlu yeni əşyavi dəlillər üzə çıxarılmışdı.



Zəhmətkeş arxeoloqun müharibədən sonrakı illərdə apardığı tədqiqatların əsas və mühüm hissəsi misilsiz Qobustanın qayaüstü rəsmlərilə bağlıdır. Qobustan qayaüstü rəsmləri ilk dəfə 30-cu illərin sonlarında aşkar edilsə də təcrübəli alim onların elmi tədqiqinə nisbətən gec başlamışdı. Az vaxt içərisində Qobustanda 5000-ə yaxın qədim qayaüstü rəsm aşkar edilmişdi. Bu rəsmlərin hamısı dəqiq qeydə alınmış və alimin həyat yoldaşı, onun tədqiqatlarının ən yaxın köməkçisi, Azərbaycanın ilk qadın rəssamlarından olan Səfiyyə xanım tərəfindən böyük dəqiqliklə kağıza köçürülmüşdü. İshaq müəllim bu rəsmlər üzərində illər boyu tədqiqatlar aparmış və yalnız yuxusuz gecələrin hesabına onların sirlərini öyrənə bilmişdi. Qobustanın qədim rəsmləri üzərində belə uzun və sə-

mərəli iş İshaq müəllimi bütün dünyada qədim qayaüstü təsvirlərin ən dəqiq və təcrübəli tədqiqatçılarından biri kimi tanıtmışdı. Elə buna görə də İshaq müəlllmin qayaüstü rəsmlər üzərində iş təcrübəsi nəinki yerli, hətta xarici alimlər üçün gözəl məktəb olmuşdu.

Qədim qayaüstü təsvirlər dünyanın bir çox yerlərində aşkar edilmişdir. Lakin heç yerdə Qobustanın təsvirləri qədər geniş xronoloji çərçivəli, mövzu cəhətdən rəngarəng, orijinal süjetli və bədii dəyərli təsvirlərə təsadüf olunmamışdır.

İshaq müəllim Qobustan təsvirlərinin ən qədim nümunələrini orta daş – mezolit dövrünə aid etmiş, onların 9-10 min il əvvəl çəkildiyini sübuta yetirmişdi. Sonrakı dövrlərdə Qobustanın daş salnaməsində təsvirlərin sayı daha da artmış və zənginləşmişdi. Mis, tunc və dəmir dövrlərində Qobustanın bu qeyri-adi daş kitabına qədim təsərrüfat sahələrinin genişlənməsi, inkişafı, dini təsəvvürlərin mürəkkəbləşməsi ilə əlaqədar daha geniş məzmunlu və kompozisiyalı lövhələr - əsl incəsənət əsərləri əlavə edilmişdi. Ciddi axtarışlar nəticəsində İshaq müəllimə hər bir rəsmin dövrlərə görə mənasını açmaq, onların işlənmə üslubunu aydınlaşdırmaq müyəssər olmuşdu. Yer kürəsinin müxtəlif guşələrində tapılmış bütün qədim qayaüstü təsvirlərə yaxşı bələd olan İshaq Cəfərzadə Qobustan təsvirlərinin səciyyəvi xüsusiyyətini, bədii və tarixi əhəmiyyətini müəyyənləşdirə bilmişdi. Görkəmli alimin tədqiqatlarında diqqəti cəlb edən cəhətlərdən biri də Qobustanın qədim təbii-coğrafi şəraitinin nəzəri bərpası ilə bağlıdır. Alimə görə uzaq keçmişdə Qobustanın iqlimi rütubətli və tropik iqlimə yaxın olmuşdu. O zaman bu ərazi sulu çaylara və bol ot örtüyünə malik olduğundan burada saysız-hesabsız ov heyvanları özlərinə sığınacaq tapmış və yerli qəbilə və tayfaların böyük mal-qara sürüləri saxlanılmışdı.

Qobustan təsvirlərini öyrənərkən istedadlı alim onların meydana gəlmə tarixinə xüsusi fikir vermişdi. Tədqiqatçının fikrincə Qobustanın saysız-hesabsız təsvirləri içərisində siluet üsulu ilə çəkilmiş, çiyinlərində kaman olan kişi və qadın təsvirləri ən qədim dövrlərə aiddir və onlar bilavasitə qadınların ibtidai cəmiyyətdə hakim olduğu madərşahlıq dövründə çəkilmişdir.

İshaq Cəfərzadəni dərin və geniş axtarışları ona sonrakı dövrlərin təsvirlərini də müəyyən etməyə, onların fərqləndirici xüsusiyyətlərini aydınlaşdırmağa imkan vermişdi. İshaq müəllim müəyyən bir dövrün təsvirlərini tədqiq edərkən çox onları həmin dövrün təsərrüfatı, dini təsəvvürləri və mədəni nailiyyətləri ilə əlaqələndirmişdi. Bu

sahədə o, mütəxəssislərin diqqətini cəlb etmiş bir sıra maraqlı və elmi əsaslı fikirlər irəli sürmüşdü.

Tədqiqatçının qaya təsvirlərinin dövrlərə görə işlənmə üslubları haqqında fikirləri xüsusilə əhəmiyyətlidir. Qürurla deyə bilərik ki, dünya qayaüstü təsvirlərinin tədqiqində onların dövrlərə görə işlənmə üsulları sirlərinin açılması bilavasitə görkəmli alimimiz İshaq Cəfərzadəyə məxsusdur. Onu da deyə bilərik ki, İshaq müəllim tərəfindən başlanılan Qobustan arxeoloji tədqiqatlarının Azərbaycan və keçmiş Sovet arxeologiya elminin inkişafına böyük təsiri olmuşdur. Bu tədqiqatlar vaxtilə Sovet arxeologiyasının ən böyük nailiyyətlərindən biri kimi qiymətləndirilmişdi.

1973-cü ildə zəhmətkeş alimin «Qobustan» adlı böyük bir əsəri çapdan çıxdı. Azərbaycan Milli Elmlər Akademiyasının nəşriyyatı tərəfindən iri həcmli albom şəklində çap olunmuş bu kitab Qobustan tədqiqatlarının ilk yekunlarına həsr olunsa da dərin və mənalıdır. İstər ölkəmizdə, istərsə də onun sərhədlərindən çox-çox uzaqlarda Qobustana böyük marağı nəzərə alaraq İshaq Cəfərzadə bu kitabı rus dilində yazmış, ona ingilis və doğma Azərbaycan dillərində geniş xülasələr vermişdi.

Ulularımızın qiymətli mirası, zəngin mədəni irsimizin ayrılmaz hissəsi olan Qobustan haqqında çoxlu şeirlər yazılmış, mahnılar bəstələnmiş, rəsm əsərləri çəkilmişdir. Lakin İshaq müəllimin «Qobustan» kitabına qədər bu qeyri-adi abidə haqqında müəyyən bir elmi əsər yazılmamışdı. Buna görə də bu kitab respublikamızın mədəni həyatında mühüm bir hadisə kimi qiymətləndirilmiş elmi ictimaiyyət tərəfindən  böyük sevinclə qarşılanmışdı.  Mənə isə bu dəyərli elmi əsər haqqında o vaxtlat "Kommunist" qəzetində çap olunan geniş rəy yazmaq şərəfi nəsib olmuşdu.

Yorulmaq bilməyən qocaman alim ömrünün son illərində «Qobustanın petroqlifləri» adlı daha bir elmi əsəri uğurla başa çatdırmışdı. Təəssüf ki, böyük alimin ölümündən sonra əsər ayrı-ayrı adamların məkrli xislətinin qurbanı oldu, işıq üzü görmədi. Onu da qeyd etməyə dəyər ki, zəhmətkeş alim hələ keçən əsrin 50-ci illərində həyat yoldaşə Səfiyyə xanımla birlikdə “Abşeronun qəbir daşları” adlı bir əsər də yazmış, çap üçün Elmlər Akademiyası Nəşriyyatına təqdim etmişdi. Yadımdadır, həyatlarını bütünlüklə elmə həsr edən İshaq müəllim və Səfiyyə xanım gecəni gündüzə qataraq həmin əsər üzərində necə də böyük şövqlə işləyirdilər. Lakin bu əsərin də taleyi acı oldu. Əsər çap olunmadı, Elm nəşriyyatının otaqlarında itib-batdı.

İshaq müəllimlə işlədiyim müddətdə iki dəfə onun yubiley gecəsində iştirak

etmişdim. Onun anadan olmasının 70 illiyi də, 80 illiyi də bizim üçün, respublikamızın bütün tarixçiləri üçün əsl bayram olmuşdu. Ümid edirdik ki, böyük alimin 90 illiyini də ona layiq böyük hörmət və minnətdarlıq hissilə, sevinc və xoş arzularla keçirəcəyik. Çox təəssüf ki, bu bizə qismət olmadı. Görkəmli alim 1982-ci ilin yanvarın 5-də uzun illərdən bəri topladığı zəngin mirası bizə ərmağan edərək dünyasını dəyişdi.



## AXTARIŞLARDA KEÇƏN ÖMÜR

Arxeologiya elmindəki ilk addımlarım xoşbəxt bir şəraitdə başlamışdı. Mənə respublikamızda bu gözəl elmin təməl daşını qoyanlardan biri olan qocaman alim Saleh Mustafa oğlu Qazıyevi də görmək, onunla birgə işləmək, ondan öyrənmək şərəfi nəsib olmuşdur. On il mən onu hər gün səhər iş otağına çəkilib elmi iş yazan, hər bir tapıntı üzərində saatlarla düşünən görmüşəm. Onu vurğunu olduğu qədim Qəbələ şəhərinin xarabalıqlarında da görmüşəm. Onun qalın torpaq qatı altında qalmış bu şəhərin üstündə necə ehtiyatla addımladığının, qədim şəhərin hər saxsısına, daşına nə qədər böyük məhəbbətlə, qayğıyla yanaşdığının şahidi olmuşam. Saleh müəllim ömrünün müdrik bir vaxtında yurdumuzun bu qədim və qiymətli yadigarında yeni arxeoloci tədqiqatlara başlamışdı. Elə buna görə də uzun illərin böyük iş təcrübəsi ona az vaxt içərisində nəinki bu şəhərin, hətta bütün qədim Qəbələ mahalının bir sıra mühüm tarixi sirlərini açmağa imkan vermişdi. İstedadlı alimin fəaliyyətində ən parlaq, uğurlu axtarışları təkcə Qəbələ qazıntıları olmamışdı. Zəhmətkeş alimə ən böyük şöhrəti Mingəçevir qazıntıları gətirmişdi. Müharibədən sonrakı illərdə Mingəçevir SES-nin tikintisi ilə əlaqədar Kür çayı sahilində başlanan geniş arxeoloji tədqiqatlara Saleh Mustafa oğlu Qazıyev başçılıq etmişdi. Mingəçevir qazıntıları Azərbaycanda arxeologiya elminin inkişafında böyük rol oynamış, yerli mütəxəssislərin hazırlanması üçün əsl məktəb olmuşdu. Alimin böyük elmi yaradıcılıq və təşkilatçılıq fəaliyyəti, tükənməz istedadı ilk dəfə öz əksini məhz Mingəçevir qazıntılarında tapmışdı.

Böyük  şairimiz Səməd Vurğunun «Muğan» poemasını oxuyanlar yəqin ki, bu sətirlərə diqqət yetiriblər:

*Ekskavator təpələri lay-lay açıb, lay-lay qazır,*
*Qoca alim saxsı yığıb yer altında tarix yazır...*
*Oğul, Sarvan! Dərinə get, heç çəkinmə, qorxma məndən,*
*Yol aç, oğlum, yol aç elmin, düşüncənin gözünə sən;*
*Keçir məni yer altına iyirminci təbəqədən,*
*Yuxarıdan işıq da sal! İşıq da sal günəş kimi,*
*Babaların taleyi tək qaranlıqdır yerin dibi...*
*Külək əsir, qum sovrulur, gözə girir toz-tozanaq,*

*Qoca alim yer altından ayrılmayır hələ ancaq.*
*Gah tər basır, vücudunu, gah büdrəyir, gah yıxılır,*
*Yer darısqal, hava tozlu, nəfəs durur, can sıxılır.*
*Alim yenə qucaq-qucaq yığır qədim saxsıları,*
*Yer altdakı hər kərpicin üstündəki yazıları.*
*O qabların-qacaqların rəngi hələ solmamışdır,*
*Arçan ağac daşa dönmüş: fəqət torpaq olmamışdır...*
*Çovğun vurur, qum sovrulur, külək əsir,*
*Neçin bizim qoca alim tələsir?*
*Sarvan Kürü döndərməmiş, su basmamış bu yerləri,*
*Can atır ki, tamamlasın başladığı bu əsəri,*
*Bizsə baxıb, alqış deyək bu cəlala, bu dövrana,*
*Öz əsrinin sürətilə ayaqlaşan hər insana.*

Böyük məhəbbət və ehtiramla yazılmış bu sətirləri dahi şair arxeoloq-alim Saleh Qazıyevə həsr etmişdi.

Tanınmış alim Saleh Mustafa oğlu Qazıyev XIX əsrin sonlarında – 1893-cü ildə Böyük Qafqazın cənub-şərq ətəklərindəki qədim tarixi abidələrlə zəngin olan bir yerdə doğulmuşdu. Oğuz bölgəsindəki Xaçmaz kəndi onun uşaqlıq illərinin məkanı olmuşdu. İlk təhsilini kənd məktəbində almışdı. 1925-1927-ci illərdə Saleh Qazıyev Şəki Pedaqoji Texnikumunda oxumuş və ilk dəfə burada xalqımızın qədim tarixi keçmişinə, zəngin maddi mədəniyyət abidələrinə maraq göstərməyə başlamışdı. Onun arxeoloq kimi ilk fəaliyyəti də bilavasitə bu dövr ilə bağlı olmuşdu.

Saleh Qazıyev Şəki Pedaqoji Texnikumunda təhsilini müvəffəqiyyətlə başa vurduqdan sonra Azərbaycan Pedaqoji İnstitututunun tarix fakültəsinə daxil olmuşdu. 1932-ci ildə institutu bitirdikdən sonra bir müddət Ağdaş və Şəki bölgələrində müəllimlik etmiş, xalq maarifi sahəsində məsul vəzifələrdə çalışmışdı. Tarix elminə böyük həvəs göstərən Saleh Qazıyev 1935-ci ildə aspiranturaya girmiş və bundan sonra həyatını bütünlüklə elmi işə həsr etmişdi. 1939-cu ildən Azərbaycan Tarix muzeyində işləməyə başlayan alim öz səmərəli tədqiqatlarına görə artıq 1941-ci ildə tarix elmləri namizədi adına layiq görülmüşdü. Bu illərdə Saleh Qazıyev Azərbaycan Dövlət Universitetinin tarix fakültəsində mühazirələr oxumağa başlamış və özünün bilik və

bacarığını böyük həvəslə respublikamızda yerli arxeoloq kadrların hazırlanması işinə sərf etmişdi.

Uzun müddət Azərbaycan Tarix Muzeyində səmərəli elmi iş aparan Saleh Qazıyev 1947-ci ildə bu böyük elmi idarəyə direktor təyin olunmuşdu. Belə məsul vəzifədə olarkən zəhmətkeş alim bütün elmi-təşkilatçılıq fəaliyyətini xalqımızın qədim və zəngin mədəni-tarixi irsinin təbliğ edilməsi, Tarix Muzeyinin respublikamızda arxeologiya elminin mərkəzinə çevrilməsi işinə yönəltmişdi. Onun səyi və təşəbbüsü ilə tezliklə onlarca arxeoloji ekspedisiya respublikamızın ayrı-ayrı yerlərində geniş tədqiqatlara başlamışdı. Bu ekspedisiyaların çöl işlərində Saleh Qazıyevin özü də yaxından iştirak etmişdi.

Müharibədən sonrakı illərdə tanınmış alim Mingəçevir qazıntılarına rəhbərlik etmişdi. 1953-cü ilə kimi davam edən bu qazıntılar zamanı Azərbaycan tarixinin mis dövründən başlamış orta əsrlərə qədər uzun bir dövrünü əhatə edən qədim yaşayış yerləri, qəbir abidələri və 20 mindən artıq qiymətli maddi mədəniyyət nümunələri üzə çıxarılmışdı.

Bütün bu tapıntıların xronoloji və mədəni mənsubiyyəti ilk dəfə məhz Saleh Qazıyev tərəfindən müəyyənləşdirilmişdi. Zəhmətkeş alim bu qədim tarixi yadigarları dərindən öyrənərək onların əsasında onlarca böyük elmi əhəmiyyətli əsərlər yazmışdı. Onun rəhbərliyi və ya bilavasitə müəllifliyi altında nəşr olunmuş «Qədim Mingəçevir», «Azərbaycan abidələri», «Azərbaycanın maddi mədəniyyəti» məcmuəsinin ayrı-ayrı cildləri, «Mingəçevirin küp qəbirlər albomu» arxeologiya elminə böyük töhfə olmuşdu.

Yorulmaq bilməyən alimin çöl axtarışları təkcə Mingəçevir qazıntıları ilə məhdudlaşmamışdı. Tanınmış alim Mingəçevir tədqiqatlarından sonra Qazax, Ağstafa, Oğuz, Qəbələ və digər bölgələrdə kəşfiyyat işləri aparmışdı. O, bu yeni axtarışlarla Qazax və Ağstafada tunc və dəmir dövrlərinə aid bir sıra yaşayış yerləri və qəbir abidələri aşkara çıxarmışdı. Dəmir dövrünə aid yeni maraqlı abidələr Saleh Qazıyev tərəfindən Oğuz bölgəsi ərazisində də üzə çıxarılmışdı.

Ömrünün son illərini qocaman alim hələ gənc yaşlarından maraq göstərdiyi Qafqaz Albaniyasının maddi mədəniyyətinin öyrənilməsinə həsr etmişdi. Bu sahədə qədim Qəbələ şəhəri alimin Mingəçevirdən sonra ikinci böyük tədqiqat mənbəyi olmuşdu. 1959-cu ildə qədim Qəbələdə bilavasitə Saleh Qazıyevin rəhbərliyi ilə geniş arxeoloji



qazıntılar başlanılmışdı. Zəhmətkeş alim on il arasıkəsilmədən burada qazıntı işləri aparmış və bu qədim şəhərin xarabalıqlarından saysız-hesabsız qiymətli maddi mədəniyyət nümunələri üzə çıxarmışdı. Bu tədqiqatların ilk yekunları hələ 1964-cü ildə «Azərbaycanın maddi mədəniyyəti» məcmuəsinin xüsusi cildində əks olunmuşdu. Bu cilddə verilən ən böyük və samballı məqalə Saleh Qazıyevin özü tərəfindən yazılmışdı. «Qəbələ şəhərinin tarixi-arxeoloji tədqiqi» adlanan həmin məqalədə o, qədim Qəbələnin tarixi mövqeyi haqqında dəyərli məlumatlar vermişdir. Həyatının son illərində yazılmış bu əsərdə Saleh Qazıyevin nəinki Qəbələ, hətta bütün Qafqaz Albaniyası tarixi sahəsindəki dərin biliyi, geniş müşahidə qabiliyyəti, hər bir məsələyə böyük dəqiqlik və məsuliyyət hissi ilə yanaşması kimi gözəl cəhətləri bir daha nəzərə çarpmışdı.

Böyük alim yaradıcılığının zirvəyə çatdığı ən yüksək vaxtda – 1971-ci ildə vəfat etmişdir. Ona Qəbələ qazıntılarının sonrakı nəticələrini görmək müyəssər olmamışdı. Lakin onun yetirmələri tərəfindən Qəbələdə davam etdiriy1ən qazıntıların nəticələri uğurlu olmuşdu. Gözəl nəticələr əslində ömrünü daim axtarışlarda keçirmiş istedadlı alim Saleh Qazıyevin böyük zəhmətinin bəhrəsi kimi qiymətləndirilmişdir.

Qədim Qəbələdə hələ də arxeoloji tədqiqatlar gedir və hər yeni tədqiqat mövsümündə Azərbaycanın bu istedadlı aliminin adı dərin hörmət və ehtiramla yad edilir. İndi onun da ayaq izləri qədim şəhərin əsrlərdən qalan yadigarlarına qarışaraq əbədiləşmişdir.



## QƏDİM DİYARIN YENİ ÖVLADI

Həmkarım Osman Həbibullayev haqqında yazmaq mənim üçün çox çətindir. Heç bilmirəm, bu kiçik yazıda onun parlaq surətini canlandırmaq, Azərbaycan arxeologiyasındakı böyük xidmətlərini olduğu kimi işıqlandıra biləcəyəmmi? Qələmi əlimə götürəndə onun nurani çöhrəsi gözlərim önündə dayandı. Kədərli dəqiqələr yadıma düşdü. Qəlbimi ağrı-acı, qəm bürüdü. Lakin tezcə də bu hissləri, əhvali-ruhiyyəni özümdən uzaqlaşdırmağa çalışdım. Qorxdum ki, onun haqqındakı yazım başdan-ayağa kədərə bürünər, qəm doğurar.

Ölümündən bir neçə gün qabaq çöhrəsində işıqlı bir təbəssüm vardı. Deyib-gülürdü, xəstəxanaya – yanına gələnlərlə zarafatlaşırdı. Lakin az adam hiss edə bilərdi ki, bu gülüşün arxasında böyük bir həsrət vardı; günəşli sabaha və yeni axtarışlara qovuşmaq həsrəti...

O il payız Bakıya gözlənilmədən gəlmişdi. İki-üç gün ərzində yer-göy qaralmış, ağaclar xoşagəlməyən sönük bir rənglə solmağa başlamışdı. Soyuq külək küçələri, xiyabanları gəzərək ağacların yarpaqlarını yolur, havaya sovururdu. Göyün üzündə isə qara buludlar axını qurtarmaq bilmirdi. Küləyin özü bu qara buludların qarşısında aciz qalmışdı. Dəniz tərəfdən gələn buludlar şəhərin üstünə qara örtük salaraq dəhşət doğururdu. Günəş bu örtüyün arxasında itib-batmışdı. Sanki əbədi olaraq yer üzünü tərk etmişdi.

Payızın belə bir qüssəli, üzüntülü vaxtında o, həyatının son günlərini yaşayırdı. Həkimlərin az-çox ümidi sabahkı cərrahiyyə əməliyyatına qalmışdı. Bəlkə, onun özü də bunu bilirdi. Lakin yenə də gülüb-danışırdı. İlk dəfə onsuz keçən yay tədqiqatlarının nəticələrilə maraqlanırdı. Sözarası, məndən son əsərinin vəziyyətini soruşdu. Üç-dörd ay idi ki, onun həmin əsərini redaktə edirdim. 600 səhifəlik iri həcmli elmi monoqrafiyadan ibarət olan bu əsərində o, özünün ikinci vətəni olan Naxçıvan diyarında uzun illərdən bəri apardığı gərgin axtarışların nəticələrini yekunlaşdırmışdı.

Naxçıvanın mis və tunc dövrləri mədəniyyətlərinə həsr olunmuş bu əsər geniş və dərin bilik, böyük istedadla yazılmışdı. Asan və eyni zamanda maraqla oxunurdu. Bununla belə olduqca ciddi bir əsər idi. Elə buna görə də onu böyük məsuliyyət hissilə redaktə edirdim və artıq bu işi qurtarmaq üzrə idi. Əslində, belə bir iş mənim üçün böyük bir məktəb idi. Əsərdəki məsələlərin böyüklüyü və genişliyi, bu və ya digər bir



məsələnin həlli üçün müəllifin gətirdiyi tutarlı dəlillər məni heyran edir, düşündürürdü...

Bu əsəri o, həyatının ən acı və kədərli bir vaxtında başa çatdırmışdı. Ağır xəstəliyə düçar olan bir insan bir qədər əvvəl həmişə ona dayaq olmuş həyat yoldaşını itirmiş, azyaşlı uşaqlarının qayğı yükünü təkbaşına öz çiyinlərində daşımışdı. O, bütün iradəsini toplayaraq şəxsi kədərini boğmuş, yenə də axtarışlarını davam etdirmişdi. O, hətta övladlarını da dərsdənkənar vaxtlarda özüylə çöl tədqiqatlarına aparmışdı. Məhz belə bir ağır şəraitdə sonuncu əsərini yazıb qurtarmışdı. Əslində, onun həyatı həmişə ağır olmuşdu. Bu cəfakeş insanın başı üstündən neçə tufan, neçə qasırğa keçmişdi..

Osman Həbibulla oğlu Həbibullayev Azərbaycandan çox-çox uzaqlarda — Krım vilayətinin Bağçasaray şəhərində doğulmuşdu. Atası kənddə müəllimlik etmiş, ailəsini dolandırmışdı. Osman körpə ikən valideynlərini itirmiş və uşaq evinə verilmişdi. İbtidai təhsilini o, uşaq evində almışdı. Burada da mütaliəni sevmiş, ömrünün axırınadək kitabları özünə ən yaxın sirdaş bilmişdi. Bağçasarayın əfsanələrlə dolu sirli aləminə də onu ilk dəfə aparan kitablar olmuşdu. Boş vaxtlarında o, həmişə Bağçasarayın qədim xarabalıqlarına tələsmiş, burada dalğın-dalğın gəzərək həyatın keşməkeşli, enişli-yoxuşlu yolunu düşünmüşdü. O, bu xarabalıqlarda böyük Puşkinin bədii təxəyyülündən doğan zəhmli Gireyxanın məhəbbət alovu içərisində çəkdiyi iztirablarının, gözəl Zaremanın qısqanclıq əzablarının, məsum Mariyanın vətən həsrətinin fikrən şahidi olmuşdu.

Bağçasarayda ibtidai təhsilini başa vurduqdan sonra, o, Simferopolda yaşayan, uzaq qohumlarının yanına getmiş və orada orta məktəbi qurtarmışdı. Orta təhsilli Osman atasının nəcib işini davam etdirməyə səy göstərərək bir müddət uzaq kəndlərdən birində müəllim işləmişdi. Lakin təhsilinin natamam olması tezliklə onu bu sevimli işdən məhrum etmiş və fəhləliyə gətirib çıxarmışdı. Az vaxt içərisində o, müxtəlif peşələrə yiyələnərək, çilingər, maşınçı və s. işlərdə çalışmışdı. Belə iş taleyin onu Naxçıvana gətirib çıxaracağına kimi davam etmişdi.

Müharibə ərəfəsində Osman Həbibullayev Naxçıvana gələrək öz həyatını həmişəlik onunla bağlamışdı. Naxçıvan öz füsunkar dağları, gözəl təbiəti və zəngin abidələrilə ilk gündən onu özünə heyran etmişdi. Naxçıvanda o, əvvəlcə vilayət partiya komitəsində texniki katib vəzifəsində işləmiş, sonra isə komitənin kitabxanasına rəhbərlik etmişdi. Eyni vaxtda o, müəllimlər kursunda təhsilini də davam etdirmişdi. Müəllimlər kursunu qurtardıqdan sonra dağ kəndi Basqala müəllim təgyin edilmiş, yenidən sevimli işinə



qayıtmışdı. Lakin Basqal kəndində o, uzun müddət müəllimlik edə bilməmişdi. Tezliklə müharibə onu da sevimli işindən ayırmışdı. Osman müəllim cəbhəyə yola düşmüşdü.

Onun cəbhədə keçdiyi yol da qəribə olmuşdu. Bir müddət o, Şimali Qafqazda vuruşmuş, az vaxtdan sonra isə cəbhə yolları onu doğma Krım torpağına gətirib çıxarmışdı. O, ata-anasının yurdu olan bu torpağın faşistlərdən azad edilməsində iştirak etmişdi. Cəbhədə üç dəfə yaralanmış, axırıncı ən ağır yaranı yenə də öz uşaqlıq yurdunda almışdı. Ömrünün ən gözəl çağında o, əlil olmuş cəbhədən tərxis edilmişdi.

Müharibədən qayıtdıqdan sonra Osman Həbibullayev Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakültəsinə daxil olmuş və onu müvəffəqiyyətlə başa çatdırmışdı. Hələ universitetdə oxuyarkən Osman Həbibullayev Azərbaycan SSR Elmlər Akademiyasının Tarix institutuna işə qəbul olunmuşdu. Burada o, apxeologiya şöbəsinə daxil olaraq həyatını həmişəlik Azərbaycanın qədim maddi mədəniyyət abidələrini, zəngin keçmişini öyrənməyə həsr etmək qərarına gəlmişdi. Bununla onun əmək fəaliyyəti yeni yola istiqamət almışdı.

Arxeologiya şöbəsində o, əvvəlcə kiçik laborant vəzifəsində işləmiş və bu elmin bütün incəliklərinə yiyələnmişdi. Yalnız bundan sonra ona elmi işçi vəzifəsi tapşırılmış və çöl tədqiqatı işlərində iştirak etmək hüququ verilmişdi. Az vaxt içərisində o, Qobustan, Mingəçevir, Örənqala arxeoloji ekspedisiyalarında fəal iştirak edərək özünü bacarıqlı və yorulmaz çöl tədqiqatçısı kimi tanıtmışdı. Qobustanın qədim rəsmlərinin qeydə alınmasında, Örənqala qazıntılarında onun rolu xüsusilə böyük olmuşdu. Elə buna görə də tezliklə Osman Həbibullayevə Naxçıvan ərazisində müstəqil şəkildə arxeoloji axtarışlar, qazıntılar aparmaq kimi məsuliyyətli və eyni zamanda şərəfli bir iş tapşırılmışdı. Burada o, Kültəpə kimi möhtəşəm və olduqca mürəkkəb bir abidənin qazıntılarına başlamıtdı. Bu tədqiqatlara Osman Həbibullayev ömrünün bütün qalan illərini sərf etmişdir. Elə buna görə də Naxçıvan torpağı ana mərhəmətilə özünün ən qiymətli yadigarlarını məhz Osmana ərmağan etmiş və onun adını respublikamızın sərhədlərindən çox-çox uzaqlarda tanıt-



mışdır Nəinki Azərbaycanda, hətta bütün Qafqazda uzaq mis dövrünə aid yaşayış yerinin qalıqları ilk dəfə Osman Həbibullayev tərəfindən Kültəpədə aşkar edilmişdi. Elə buna görə də Qafqazda mis dövrünün ilk tədqiqi bilavasitə Azərbaycan arxeologu Osman Həbibullaevin adı ilə bağlıdır.

Yeddi min yaşı olan bu yaşayış yerindən o, ən qədim əkinçi babalarımıza məxsus yüzlərcə əmək alətləri, gildən düzəldilmiş qablar, ən qədim mis əşyalar, silah və bəzək nümunələri tapmışdı. Onun burada açdığı tikintilər də çox böyük maraq doğurmuşdu. Çiy kərpiclərdən və möhrədən dairəvi şəkildə inşa edilmiş tikintilər Azərbaycan ərazisində üzə çıxarılan ən qədim yaşayış evləri olmuşdu.

Osman Həbibullayev Kultəpə abidəsində 21 metr qalınlığında mədəni təbəqə müəyyənləşdirmiş, mis-tunc dövrünə aid bu təbəqənin dərin laylarından küllü miqdarda qədim maddi mədəniyyət nümunələri əldə etmişdi.



Əhəmiyyətlidir ki, Osman Həbibullayevin Kültəpədə aşkar etdiyi qiymətli tapıntıların ikinci hissəsi Cənubi Qafqaz arxeologiyasında mühüm yer tutan «Kür-Araz (ilk tunc dövrü) mədəniyyətinə» aid olmuşdu. Abidədə təkcə bu mədəniyyətə məxsus 9 metr qalınlığında mədəni təbəqə qazılmış və həmin təbəqədən eramızdan əvvəl IV minilliyin II yarısı, IV-III minilliklərə aid çoxlu məişət-təsərrüfat tikintiləri, əkinçilik və maldarlıqla bağlı əmək alətləri, gil qablar, kiçik ölçülü heykəllər, tunc əşyalar və sairə üzə çıxarılmışdı. Kültəpədən tuncun istehsalı ilə bağlı çoxlu əmək alətlərinin tapılması böyük elmi əhəmiyyət kəsb etmiş, Azərbaycan ərazisində hələ 5 min il əvvəl yerli zəmin əsasında metallurgiyanın və metal işləmə sənətinin yarandığını gösqərmişdi.

Kültəpə tədqiqatları əsasında Osman Həbibullayev onlarca elmi əsərlər yazmış və bu əsərlərdə Azərbaycanın qədim tarixinin bir sıra qaranlıq məsələlərini işıqlandırmışdı. Bu əsərlər islər ölkəmizdə, istərsə də xaricdə tədqiqatçıların böyük diqqətinə səbəb olmuşdu. Osman Həbibullayev öz namizədlik dissertasiyasını da Kültəpə abidəsinə həsr etmiş və 1959-cu ildə müvəffəqiyyətlə müdafiə etmişdi. Həmin dissertasiyada Azərbaycan ərazisində yaşamış qədim qəbilə və tayfaların iqtisadi və ictimai həyatı, mədəni nailiyyətləri, qədim şərq ilə iqtisadi-mədəni əlaqələri böyük elmi əsaslarla öyrənilmişdi.

Osman Həbibullayevin Naxçıvan ərazisindəki tədqiqatları təkcə Kültəpə abidəsi və onun qazıntıları ilə məhdudlaşmamışdı. Bu qazıntılarla yanaşı o, Muxtar respublikanın ərazisində daim kəşfiyyat axtarışları aparmış və belə işlə onlarca qiymətli tarixi abidə üzə çıxarmışdı. 1969-cu ildə Osman Həbibullayev tərəfindən Qızıl-vəngdə tunc dövrünə aid böyük bir yaşayış yerinin qalıqları zahirə çıxarılmışdı. Eyni vaxtda o, Naxçıvan ərazisində yeni bir abidənin, II Kültəpənin tədqiqinə başlamışdı. Bütün bunlar ona «Naxçıvan MSSR ərazisində eneolit və tunc dövrləri» adlı ümimiləşdirilmiş yeni bir əsəri başlamağa imkan vermişdi. Bu əsərdə o, uzun illərdən bəri topladığı zəngin maddi mədəniyyət nümunələri əsasında Azərbaycan torpağının ayrılmaz hissəsi olan Naxçıvanın qədim mədəni-tarixi inkişafını əks etdirməyi nəzərdə tutmuşdu. Yeddi böyük fəsildən ibarət olan bu əsərini o, ölümündən azca qabaq müvəffəqiyyətlə başa çatdırmışdı. Təəssüf ki, ona bu əsərin çap nəşrini görmək müyəssər olmamışdı. Əsər yalnız 1982-ci ildə, istedadlı alimin ölümündən çox sonra işıq üzü gördü.

Tanınmış alim 1970-ci ilin sentyabr ayında, 57 il qabaq dünyaya göz açdığı həmin ayda vəfat etmişdi.

Aylar, illər ötəcək. Lakin daim uzaqlaşan illər onu bizə daha da yaxınlaşdıracaqdır. Mənalı ömrünü Azərbaycan arxeologiyasının inkişafına həsr edən istedadlı alim Osman Həbibulla oğlu Həbibullayev kəşf etdiyi qədim abidələr üzərində həmişə yeni bir abidə kimi ucalacaqdır.

# ABİDƏLƏR, DÜŞÜNCƏLƏR



Doğma Azərbaycanımız dünyanın qədim və zəngin tarixə malik ölkələrindəndir. Onun elə bir guşəsi yoxdur ki, orada uzaq keçmişimizdən, qərinələrdən xəbər verən, onları yaşadan tarixi abidələrə təsadüf olunmasın. Bunların bir qismi əsrlərin, minilliklərin qasırğa və tufanları nəticəsində uçulub dağılsa, torpağa qərq olsa da, bir qismi hələ də vüqarla durmaqda davam edir, ulu babalarımızın qəhrəmanlıq tarixindən, böyük mədəni nailiyyətlərindən, misilsiz irsindən gözəl dastanlar oxuyur. Böyük fəxr hissilə deyə bilərik ki, mədəni-tarixi irsimizin nadir nümunələri olan Bakıdakı əfsanəvi Qız qalası, Şirvanşahlar sarayı, Qobustanın min səhifəli daş salnaməsi, Bərdə və Naxçıvanın misilsiz memarlıq abidələri günəşli diyarın gözəl və parlaq rəmzi kimi onu bütün dünyada



tanıtmışdır. Lakin yurdumuzun ərazisi təkcə qədim dövrlərin abidələrilə zəngin deyildir. Burada azadlıq mübarizəsi, xalqımızın döyüş və əmək hünərini əks etdirən abidələr də çoxdur.

Şübhəsiz, mövcud şəraitdə respublika dövlət orqanları və ictimai təşkilatları üzərinə bu qiymətli tarixi abidələri və yadigarları qorumaq, onlardan səmərəli şəkildə istifadə etmək kimi məsuliyyətli və eyni zamanda şərəfli vəzifə düşür. Bu işi respublikamızın hər bir şüurlu vətəndaşı da özünə müqəddəs vəzifə, şərəfli borc bilir.

Son illərdə respublikamızda qədim maddi mədəniyyət abidələrinin qeydə alınması, bərpa və mühafizə olunması, yeni muzeylərin, xatirə ansambllarının açılması, əmək və döyüş hünərlərini əks etdirən abidələrin ucaldılması sahəsində xeyli iş görülmüşdür. Bununla belə, təəssüflə etiraf etməliyik ki, böyük dövlət əhəmiyyətli bu mühüm iş sahəsində gözə çarpan qüsurlar da vardır. Əlbəttə, bu məsələdə qədim dövrlərin tarixçisi kimi məni hər şeydən əvvəl daim təmasda olduğum uzaq keçmişin yadigarları və onla-



rın gələcək taleyi maraqlandırır. Buna görə də mən bu yazıda əsasən qədim abidələr haqqında danışmaq, onların mühafizəsi ilə əlaqədar öz arzu və düşüncələrimi, tövsiyələrimi şərh etmək istəyirəm.

Hər şeydən əvvəl abidələrin bərpası məsələsi üzərində dayanmaq istəyirəm. Məlumdur ki, bərpa işi abidənin dağılmasının qarşısını almaq, onun əvvəlki simasını bərpa edib ömrünü uzatmaq məqsədini güdür. Fərəhləndirici haldır ki, Bakıda qədim abidələrin bərpası ilə məşğul olan xüsusi elmi idarə var. Lakin təəssüflə qeyd etməliyik ki, indiyədək bu idarənin gördüyü işlərin əksəriyyəti qənaətbəxş deyil.

Hər bir tarixi abidənin bərpasına böyük həssaslıqla, ehtiyat və məsuliyyət hissilə yanaşmaq lazımdır. Bizdə isə adətən bu işlər tələsik aparılır. Bəzən kiçik bir yerin bərpasını asanlaşdırmaq və tez qurtarmaq üçün böyük bir sahə amansızcasına sökülür; abidə dövrünün tikinti üslubuna uyğun olmayan bir tərzdə yenidən tikilir. Odur ki, qiymətli abidələrimizin əksəriyyəti öz tarixi görkəmini, qədimliyini itirir. Bu cəhətdən Bakıdakı Xan sarayının vəziyyəti o qədər də sevindirici deyildir. Buradakı böyük nöqsanlı bərpa işləri çoxlarında yalnız ikrah hissi oyadır. O, indi orta əsrlərə məxsus gözəl sənət əsərindən çox modernizmin kobud nümunəsini xatırladır.

Bakının yaraşığı olan əfsanəvi Qız qalasının nəzərə çarpan yamaqlarına da heç cür göz yummaq olmur. Bərpa işlərinin üstündən artıq bir neçə ilin keçməsinə baxmayaraq soyuq ağ daşlardan olan bu yamaqlar qalanın qədim daşları ilə qəti uzlaşmır.

Son illərdə Qız qalasının yaxınlığında aparılan arxeoloji qazıntılarla aşkar olunmuş qədim və maraqlı tikinti kompleksinin də aqibəti bərpa işlərindən sonra uğursuz olmuşdur. Gözəl memarlıq abidəsi olan və bir neçə əsr torpaq altında gözəl mühafizə olunmuş bu qədim tikintidən indi əsər belə qalmamışdır. Qədim divarlar, tağlar və səkilər bütünlüklə sökülmüş, yonulmuş daşlardan yenidən tikilmişdir. Belə bir işə qədim Qəbələ şəhərinin bürcləri də məruz qalmışdır. Onların üzəri yarıyadək ağ daşla hörülmüşdür.

Qədim abidələrin bərpasında, xüsusən onların göz qabağında olan hissələrinin bərpasında yeni inşaat materiallarının (beton bloklar, sement suvaqlar və s.) işlədilməsi də bağışlanılmaz haldır.

Məlumdur ki, vaxtı ilə bizim tarixi abidələri bərpa edən idarənin hörmətli əməkdaşları Suraxanıdakı qədim atəşgahın divarlarını başdan-başa sement suvaqla örtmüşdülər və belə naşı və məsuliyyətsiz iş nəticəsində bu maraqlı abidə əvvəlkindən qat-qat pis vəziyyətə düşmüş, öz əvvəlki gözəl simasını tamamilə itirmişdi. Yaxşıdır ki, sonradan

görülən tədbirlər abidəni belə acınacaqlı vəziyyətdən çıxartdı.

Digər tərəfdən mənə elə gəlir ki, hər hansı bir abidənin bərpası üçün plan-layihə tərtib edilərkən bu hökmən müvafiq idarələrin elmi şuralarının birgə iclasında tarixçi-mütəxəssislər tərəfindən geniş müzakirə olunmalı və onun sonrakı icrası ciddi nəzarət altında keçməlidir.

Bir çox yerlərdə abidələrin bərpasında adətən köhnə tikililərin daşlarından istifadə olunur və bu daşlar qədim görünsün deyə onların üzərində mamır belə yetişdirilir. Bizim öz ölkəmizdə də bərpaçılarımızın müvəffəqiyyətləri kiçik deyildir. Leninqrad və Orta Asiya bərpaçıları böyük təcrübə məktəbinə malikdirlər. Onların işləri bizə nümunə ola bilər. Onlardan bir çox şeyləri öyrənsək pis olmaz.

Onu da qeyd etməliyəm ki, bizim respublikamızda bərpa işlərinə bəzən, bu sahədə heç bir ehtiyacı olmayan abidələr də məruz qalırlar. Mənə görə vaxtilə İçəri şəhərin qala divarlarının bərpasına, daha doğrusu, onlara əlavələr edilməsinə heç bir lüzum olmamışdı. Əvvəllər bu divarların üst hissəsinin düz olması onlara möhtəşəmlik, əzəmət verirdi. Bərpa işləri zamanı isə divarlara, sanki kartondan kəsilib düzəldilmiş dişlər əlavə olunduqdan sonra onlar bir növ teatr butoforiyası şəklinə düşdü, orta əsrlərə məxsus əzəmətini itirdi.

Hər bir şəhərin ümumi görkəmində müxtəlif məqsədlər üçün və müxtəlif üslublarda tikilmiş binaların damları böyük rol oynayır. Təsadüfi deyil ki, dünya bədii ədəbiyyatının bir sıra gözəl nümunələrində şəhərlərin təsviri ilk növbədə damların təsvirilə başlanır. Bu məsələ ilə bağlı bir neçə söz demək istəyirəm. Son vaxtlarda şəhərimizin məscidlərində bərpa və təmir işləri aparılmışdır. Bu bərpa və təmir işlərini də yüksək səviyyəli hesab etmək olmaz. Təmir işləri zamanı onların firuzəyi və gözəl naxışlı kümbəzlərinin, tikişləri kobud şəkildə gözə çarpan dəmir lövhələrlə örtülməsi, boğuq və ürəkbulandırıcı rənglərlə rənglənməsi şəhərimizin ümumi görkəminə mənfi təsir etmişdir. Onun damarlarındakı şərq aləminə məxsus, onsuz da az olan, rəngarəngliyini pozmuşdur.

Yeri gəlmişkən göstərməliyəm ki, bizdə tarixi abidələrin ətrafını yaşıllaşdırılması işində də müəyyən nöqsanlar gözə çarpır. Bir çox hallarda abidələrin ətrafında yerli landşafta, yerli təbiətə uyğun olmayan ağaclar, kollar əkilir. Abidələrin ətrafında bir qayda olaraq həmişəyaşıl ağacların, xüsusən küknar, şam ağaclarının əkilməsi bir növ pis zövqü biruzə verir, yeknəsəkliyə gətirib çıxarır, sanki onların üzərinə pərdə çəkir.

Halbuki Azərbaycana xas olan nar, əncir, badam, iydə, çinar, qovaq, söyüd və s. ağaclar payız və qış fəsillərində belə öz çılpaq budaqları ilə mahir rəssam əlilə işlənmiş gözəl və canlı bir qrafika əsərini xatırladırlar. Qız qalasının ətrafında əkilmiş mavi şam ağacları özlüyündə nə qədər əsrarəngiz olsalar da abidə ilə uyuşa bilmirlər, onun qocaman divarları qarşısında plastik kütlədən hazırlanmış oyuncaqları xatırladırlar. Xan sarayının həyətində olan iynəyarpaqlı ağaclar da bu qədim tikinti kompleksi ilə vəhdət təşkil edə bilmirlər. Belə misallardan çox çəkmək olar.

Şəhərimizə hər il ölkəmizin müxtəlif yerlərindən və bir çox xarici ölkələrdən on minlərlə qonaq gəlir, ona diqqət yetirir, onun görməli tarixi yerlərilə tanış olurlar. Xalqımızın yüksək mədəniyyətini tərənnüm edən bu abidələrin hər cəhətdən lazımi yüksək səviyyədə saxlanılmasına müvafiq idarə və təşkilatlar daim diqqət yetirməlidirlər.

Mən arxeoloqam. İxtisasımla əlaqədar tez-tez respublikamızın müxtəlif guşələrində elmi ezamiyyətlərdə oluram, tədqiqatlar, arxeoloji qazıntılar aparıram. Aydındır ki, arxeoloji qazıntıların əksəriyyəti tarixi abidəni elmi şəkildə tədqiq etməklə yanaşı son mərhələdə onun həmişəlik məhvi ilə nəticələnir. Belə vəziyyət məni müəyyən düşüncələrə sövq edir.

On yeddi, iyirmi il bundan qabaq Mil düzündə olanlar onun göz işlədikcə uzanan mavi dərinliklərində sirrli ehramlar kimi ucalan nəhəng üç təpəni yəqin ki, görmüşdülər. Son vaxtlara qədər Milli Üç təpəsiz təsəvvür etmək qeyri-mümkün idi. İndi isə onlardan biri yoxdur, yerlə yeksan olmuşdur. Onun əvəzinə Milin sinəsində amansız bir əlin vurduğu yaranın dərin yeri qalmışdır. Bu, bilavasitə arxeoloji tədqiqatların nəticəsidir.

Üç təpələrin tədqiqində iki il mən də iştirak etmişəm. Arxeologiya elmindəki ilk addımlarım bu tədqiqatlarla bağlı olmuşdur. Səhərdən axşama qədər nəfəsimizi kəsən soyuq və ya qızmar günəş altında iş, yuxusuz gecələr indi arxada qalmışdır. Lakin minilliklər boyu Milin yaraşığı olmuş, üç igid qardaşlar kimi əzəmətlə zamana sinə gərmiş bu təpələrdən birinin uğursuz taleyi indiyədək yaddan çıxmır, daim məni düşündürür.

Hələ beş min il bundan əvvəl zəhməti çox sevən, qədir və hörməti yaxşı bilən ulu babalarımızın əlilə öz böyük nüfuzlu və hörmətli tayfa başçılarının qəbirləri üzərinə tökülmüş bu təpələrin üç olmasında bəlkə də böyük bir məna varmış. Axı, ulu babalarımız hələ çox qədim zamanlardan hər şeyi üç demişlər...

Gizlətməyə dəyməz ki, təpənin qazıntısı zamanı tədqiqatlara rəhbərlik edən gör-



kəmli qafqazşünas arxeoloq- alim A.A.İyessen söhbətlərində tez-tez etiraf edirdi ki, Türkiyə ərazisindəki belə təpələr, qazıntı nəticəsində məhv olmasın deyə, yalnız lağım yolu ilə tədqiq olunur. Ümumi nəticədə təpə bütöv qalır, öz əvvəlki görkəmini itirmir. Bəli, belə söhbətlər olurdu. Bununla belə güclü buldozerlər təpəni dağıtmaqda davam edirdilər. Yaxın, uzaq kəndlərin, obaların əhalisi təpəyə tamaşaya gəlirdi, işlə maraqlanırdı. Hamı bizi elmi tədqiqatçıdan çox xəzinə axtaranlara oxşadırdı. Burda müəyyən bir həqiqət də var idi. Çünki təpənin qazıntısı məhz zəngin qəbir abidəsi açmaq məqsədindən irəli gəlmişdi. Keçən əsrin bir sıra tədqiqatçılarının, tarixi abidələrin məhvinə səbəb olan belə qazıntılarını sonsuz ikrah hissilə qələmə aldığımız halda indi biz özümüz eyni işə meyl etmişdik, aludə olmuşduq.

Böyük həyəcan və ümidlərlə nəticəni gözləyirdik. Böyük vəsaitlərin və vaxtın bahasına başa gələn bu qazıntıların son nəticəsi isə fərəhli olmadı. Qəbirdən çıxacaq



zəngin avadanlığı bükmək üçün ehtiyat görülmüş kağız topaları açılmamış qaldı. Xüsusi düzəldilmiş yeşiklər də lazımsız oldu; onlar kağız topları ilə birlikdə Leninqrada geriyə qaytarıldı. Biz gecikmişdik, təpənin altında olan möhtəşəm və zəngin qəbir hələ bir neçə əsr əvvəl daha mükəmməl üsulla, yeraltı yolla qarət olunmuşdu. Bu əməliyyatdan qəbrin üst örtüyünə – təpəyə heç bir ziyan dəyməmişdi. Biz isə təpəni buldozurların ağır və iti bıçaqları ilə boş yerə dağıtdıq. Əlbəttə, qazıntı işlərinin kəsb etdiyi müəyyən elmi əhəmiyyəti inkar etmək olmaz. Lakin bu da göz qabağındadır ki, belə nəticəni təpəni bütünlüklə dağıtmadan da əldə etmək mümkün idi.

İndi Üç təpənin acı taleyi haqqında söhbət düşəndə müxtəlif suallar ortalığa atılır. Üç təpənin tədqiqinə lüzum var idimi? Bu qazıntıların zəruriliyi məsələsi müvafiq elmi idarələrin elmi şuralarında müzakirə olunmuşdumu? Qazıntılar başlamazdan əvvəl təpə hərtərəfli öyrənilmişdimi? Tədqiqatlar üçün xüsusi qazıntı üsulu nəzərdə tutulmuşdumu? Suallar çoxdur. Cavablar müxtəlifdir. Nəticə isə birdir. Mil düzü beş min il ona rövnəq verən, onun yaxın sirdaşı olan üç təpənin birindən həmişəlik məhrum olmuşdur. Bəli, gələcək qazıntı işlərində, Üç təpə tədqiqatlarının dərsini yaddan çıxarmaq olmaz.

İyirmi ilə yaxın Mildə orta əsr Azərbaycanının mühüm iqtisadi və mədəni mərkəzlərindən biri olmuş Beyləqan şəhərinin xarabalıqlarında (Örənqala) tədqiqatlar aparıldı. Hər il qazıntılar nəticəsində məişət və təsərrüfata, incəsənət və mədəniyyətə aid gözəl maddi mədəniyyət nümunələrilə yanaşı uzun müddət zülmətdə qalmış bütöv məhəllələr, sənətkarlıq emalatxanaları, yaşayış binaları yenidən üzə çıxırdı. Bunların hamısı arxeologiya elminin xüsusiyyətinə uyğun dəqiq qeydə alınır, təsvir olunur, ölçülür, kğıza köçürülürdü və ... yaddan çıxarılırdı. Əlbəttə, kağızda onlar yaşayırdı, yenidən vüsət alırdı. Sonralar onların əsasında tədqiqat əsərləri yazıldı, dissertasiyalar müdafiə olundu, elmi adlar mənimsənildi. Bəs bu abidələrin taleyi? Orta əsr memarlığının gözəl nümunələri olan bu tikililərdən tezliklə iz belə qalmadı. Ekspedisiya işini hələ qurtarmamış, yerli əhali kərpic əldə etmək məqsədi ilə onları söküb daşıyırdı. Belə bir yarıtmaz vəziyyət artıq on illərdir ki, qanunauyğun şəklə düşmüşdür. İndi bu qədim şəhərin hətta tədqiq olunmamış yerlərindən belə dağıtma yolu ilə kərpic çıxarılır. Biz isə hələ də buna göz yumruq, sanki heç bir şey görmürük. Susuruq. Jdanov rayonunun rəhbər təşkilat və idarələri susurlar. Bakının əlaqədar idarələri susurlar. Qonşu respublikalarda isə qədim şəhər yerlərində açılan küçələr, meydanlar, məhəllələr və müxtəlif tikinti qalıqları olduğu kimi böyük qayğıkeşliklə saxlanılır. Ermənistan və Gürcüstanın orta əsrlərə aid bir

çox şəhər xarabalığı yerində çoxdandır ki, kiçik muzeylər, elmi bazalar yaradılmışdır. Bunlar yerli əhaliyə bu tarixi abidələrin əhəmiyyətini təbliğ etməklə yanaşı həmin abidələrin mühafizə olunmasında böyük rol oynayır. Qeyd etməliyik ki, Azərbaycan SSR EA Arxeologiya və Etnoqraftya bölməsinin Örənqalada böyük arxeoloji bazası vardır. Lakin bu bazanın otaqları artıq bir neçə ildir ki, boş və bağlıdır. Bu bazadan səmərəli şəkildə istifadə etməyin vaxtı çoxdan çatmışdır. Arxeologiya və etnoqrafiya bölməsi və Mədəniyyət Nazirliyimiz belə bir imkanı əldən verməməlidir. Yeri ikən onu da açıq etiraf etməliyik ki, Azərbaycanın müxtəlif yerlərində aparılan arxeoloji qazıntılar və onların nəticələri həmişə Mədəniyyət Nazirliyinin diqqət mərkəzindən kənarda qalmışdır. Gizlətməyə dəyməz ki, biz bir dəfə olsun belə arxeoloji qazıntılarda bu böyük və məsuliyyətli idarənin müvəkkillərini görməmişik. Bu cür laqeydlik üzündən bir çox abidələrimiz daim başsız qalmış və məhv olmuşdur.

Son vaxtlara qədər Azərbaycanda qədim qaya təsvirlərinin vətəni yalnız Qobustan hesab olunurdu. İndi isə qədim qayaüstü təsvirlər respublikamızın başqa-başqa yerlərində də aşkar olunmuşdur. Qaya və daşlar üzərində qədim təsvirlərə Kəlbəcər yaylaqlarında, Naxçıvandakı Gəmiqayada və s. yerlərdə rast gəlinmişdir. Qaya təsvirlərinin maraqlı bir qrupu bir neçə il bundan əvvəl Abşeronda-Şüvəlan yaxınlığında qeydə alınmışdır. Lakin bu qiymətli daş kitabələrinin də vəziyyəti acınacaqlıdır. Baxımsızlıq üzündən üzərlərində təsvir olunan sal daşlar yerli əhali tərəfindən sındırılır, daşınır və müxtəlif tikinti işlərində istifadə olunur. Burada dağıntı işlərinə arxeoloji qazıntılar nəticəsində aşkar olunan tunc dövrünə aid müxtəlif yaşayış və təsərrüfat binaları, məbəd yerləri və qəbir abidələri də məruz qalmışdır. İndi bu yerdə qazıntılardan sonra salamat qalmış abidə görmək qeyri-mümkündür. Halbuki Şüvəlandakı tarixi-arxeoloji abidələrin yerləşdiyi ərazinin qoruq elan edilməsi, onların ətraflarının hasarlanması barəsində çoxdandır ki, bir sıra mötəbər elmi idarələrdə və ictimai təşkilatlarda söhbətlər gedir. Hətta bu haqda əlaqədar təşkilatların xüsusi qərarı olmuşdur. Lakin bu qərarlar uzun müddətdir ki, kağızda qalır. Söhbətlər də unudulmuş, yaddan çıxmışdır. Qiymətli abidələrin dağıdılması isə sürətlə davam edir. Belə çıxır ki, indiki vəziyyətdə Abşeronun maddi mədəniyyət abidələrinin yer altında qalması daha məqsədəuyğundur.

Azərbaycan EA Arxeologiya və Etnoqrafiya bölməsinin əsas vəzifəsi tarixi abidələrdə tədqiqatlar aparmaqdır. Bununla belə, o, tarixi abidələrdən nəzər-diqqətini heç vaxt qaçırmır. Bölmənin vaxtında görülmüş bir sıra təcili tədbirləri və xəbərdarlıqları ilə

respublikamızın bir çox qiymətli abidələri dağılmaq, məhv olmaq təhlükəsindən xilas olmuşdur. Bununla belə bu bölmə təkbaşına Azərbaycanın müxtəlif guşələrində yerləşən saysız-hesabsız tarixi abidələrə nəzarət etmək iqtidarında deyildir. Belə işdə əlaqədar elmi idarələrin, yerlərdə rəhbər təşkilatların birgə səyi olmalıdır.

İyirmi ilə yaxındır ki, bir arxeoloq kimi respublikamızın müxtəlif yerlərində tədqiqatlar aparıram, ulu babalarımızın izlərini axtarıram. Ürək ağrısı ilə qeyd etməliyəm ki, bu uzun illərdə ayaq basdığım hər yerdə tarixi abidələrə yalnız laqeyd münasibətin şahidi olmuşam. Əsrlərə sinə gərmiş bir sıra qiymətli abidələrin ayrı-ayrı adamlar və yaxud müxtəlif tikinti idarələri tərəfindən necə dağıdıldığını, məhv edildiyini gözlərimlə görmüşəm.

Ayrı-ayrı yerlərdə tarixi abidələrin qorunması işinin pis təşkil olunmasında məsuliyyətin böyük bir qismi şəhər, bölgə və kənd sovetləri rəhbərlərinin, ictimai təşkilat başçılarının və nəhayət, yerli ziyalıların üzərinə düşür. Bu cəhətdən yerli ziyalılarımızın da mənəvi sərvətlərimiz olan tarixi abidələrə qarşı laqeyd münasibətinə heç cür haqq qazandırmaq olmaz. Bununla əlaqədar mən, bilavasitə tədqiqat apardığım zonanın tarixi abidələri və onların aqibəti haqqında da danışmaq istəyirəm. «Kiçik Qafqazın cənub-şərq ətəklərində ilk tunc dövrü mədəniyyətinin izləri» tədqiqat mövzusu ilə əlaqədar 1964-cü ildən Quruçay-Köndələnçay hövzəsində axtarışlar aparıram. Gözəl təbiətli bu yer respublikamızın eyni zamanda arxeoloji və memarlıq abidələri ilə zəngin olan bölgələrindən biridir.

Ölkəmizdə qədim daş dövrü insanlarının ən nadir düşərgələrindən ikisi: Azıx və Tağlar mağaraları bu hövzədə yerləşir. Hələ keçən əsrdə tədqiqatçıların diqqətini özünə cəlb etmiş, hal-hazırda isə Qafqazın ən çoxtəbəqəli abidəsi kimi geniş şöhrət tapmış Qaraköpəktəpə abidəsi, qızıl və sümükdən böyük ustalıqla hazırlanmış gözəl incəsənət nümunələri ilə Moskva Tarix Muzeyinin fondlarını zənginləşdirən Qarabulaq kurqanları da Quruçay-Köndələnçay hövzəsindədir. Təqdirə layiq haldır ki, Arxeologiya və etnoqrafiya bölməsi və Azərbaycan Dövlət Universiteti bu hövzənin elmi cəhətdən geniş tədqiqinə xüsusi fikir verir, hər il oraya arxeoloji ekspedisiyalar təşkil edir. Bu tədqiqatlar az əhəmiyyətli olmamışdır. Qısa müddətdə Quruçay-Köndələnçay hövzəsində uzaq daş dövrü düşərgələrindən əlavə mis dövrünə və tunc dövrünün ayrı-ayrı mərhələlərinə aid onlarca qədim yaşayış məskənləri, qəbir abidələri aşkar edilmiş və qeydə alınmışdır. Bu abidələrin böyük bir qismi Quruçay-Köndələnçay hövzəsinin payına düşən Füzuli böl-

gəsində yerləşir. Lakin böyük təəssüflə qeyd etməliyik ki, bu bölgədəki qiymətli yadigarlara qarşı yerli idarə və təşkilatlar, onların rəhbərləri və yerli ziyalılar tərəfindən göstərilən laqeydlik və etinasızlıq uzun müddətdir ki, bizdə təşviş hissi oyadır.

Son illərdə bölgə ərazisində olan bir sıra qədim maddi mədəniyyət abidələri müxtəlif tikinti işlərilə tamamilə dağılıb məhv edilmiş və yaxud dağılmaq təhlükəsi altına düşmüşdür. Füzuli şəhərinin girəcəyində yerləşən və ilk tunc dövrünə aid yaşayış yerinin qalığı olan Günəştəpə abidəsinin böyük bir hissəsi bölgələrarası tikinti idarəsi tərəfindən amansızcasına uçurulmuş və hələ də uçurulmaqda davam edir. İdarənin rəisinə, bölgə rəhbərlərinə yaxşı məlumdur ki, 1965-ci ildən həmin təpədə elmi-tədqiqat işləri aparılır və tədqiqatlar hələ başa çatmamışdır. Qiymətli maddi mədəniyyət abidəsi olan və xalqımızın 7 min illik tarixi-mədəni inkişafını əks etdirən Qaraköpəktəpə də olduqca pis vəziyyətdədir. Onun cənub və qərb yamaclarında torpaq işlərilə dərin xəndəklər qazılmış, müxtəlif idarələrə məxsus zövqsüz, tikinti mədəniyyətindən uzaq binalar tikilmişdir. İndi bu abidəyə getmək üçün yol belə yoxdur.

Azərbaycan Elmlər Akademiyasının müvafiq idarələri dəfələrlə belə qanunsuz işləri bölgə rəhbərlərinin nəzərinə çatdırmış, onlardan tarixi abidələrin dağıdılmasının qarşısını almaq üçün təcili tədbirlər görülməsini xahiş etmişdir. Lakin bütün bu xəbərdarlıqlar və xahişlər etinasızlıqla qarşılanmış, müsbət nəticə verməmişdir.

Füzuli bölgə rəhbərləri, tarixi abidələri dağıdan müxtəlif tikinti və idarələrin başçıları yaddan çıxarmamalıdırlar ki, «Tarix və mədəniyyət abidələrinin mühafizəsi və onlardan istifadə haqqında» mövcud qanununa əsasən dövlət tərəfindən qorunan maddi mədəniyyət abidələri üzərində və ətrafında hər hansı bir tikinti işləri aparmaq cinayət hesab olunur və belə işin məsuliyyəti tikinti başçıları ilə yanaşı bölgə rəhbər təşkilat və idarələrinin üzərinə düşür.

Bölgədə yerləşən bir sıra qədim memarlıq abidələrinin vəziyyəti də acınacaqlıdır. Xüsusən, Qarğabazardakı gözəl memarlıq abidəsi olan qədim karvansaranın baxılmsızlıq üzündən bərbad hala düşməsinə heç cür göz yummaq olmur. Onun həyəti ilin bütün fəsillərində mal-qara saxlamaq üçün istifadə olunur. Təzək ambarını xatırladır. Divarları bir çox yerdən sökülmüş və dağılmışdır. Maraqlı bir haldır ki, bu tarixi abidənin qorunması haqqında dəmir lövhə hansı səbəblərdənsə kolxoz idarəsinin darvazası üzərində bərqərar olubdur. Əminəm ki, Füzuli bölgə rəhbərləri gündə bir neçə dəfə bu tarixi abidənin yanından ötüb keçirlər və hər dəfə ona qarşı bu böyük hörmətsizliyin şahidi

olurlar. Tədbir isə görülmür. Heç kəs abidəni dağıdanların, ona hörmətsizlik edənlərin amansız və qəddar əlini tutub saxlamaq istəmir. Görünür ki, biz hələ adi vətəndaşlıq duyğularından belə məhrumuq. Deyirlər ki, Qarğabazardakı məktəbin müdiri tarixçidir. Deyirlər... Lakin bizə daha aydın bəllidir ki, bu bölgədə bir sıra mühüm vəzifələrə ixtisasca tarixçi olan şəxslər rəhbərlik edirlər. Məntiqi nəticə çıxır ki, Füzuli bölgəsindəki abidələr daha gözəl mühafizə olunmalıdır. Əslində gördüyümüz kimi vəziyyət bambaşqadır. Belə bir vəziyyətdən təcili nəticə çıxarmağa dəyər. Qarğabazardakı tarixi abidənin acınacaqlı vəziyyətdə olmasının məsuliyyəti digər tərəfdən Mədəniyyət Nazirliyinin üzərinə düşür. Tarixi abidələrin mühafizəsini «Dövlət tərəfindən qorunur» xəbərdarlıq lövhəsini asmaqla məhdudlaşdırmaq olmaz. Nazirliyin müvəkkilləri vaxtaşırı rayonlarda olmalı, tarixi abidələrin vəziyyəti ilə maraqlanmalı, onları daim nəzarət altında saxlamalıdırlar.

Füzulidən Ağdama gedən yolun sağ tərəfində, Ağaşı Veysəlli kəndinin yaxınlığında ucalan qədim türbə qeyri-ixtiyari diqqəti cəlb edir. XIV əsrin nadir memarlıq abidəsi olan bu türbənin gözəlliyini sözlə ifadə etmək çox çətindir. O, memarlıq üslubuna görə Azərbaycanda yeganədir. Lakin bu abidə də nəzarətsizdir. Onun göyə dikələn uca minarəsinin dağılmaq təhlükəsi vardır. Son vaxtlar onun divarları «tarixdə ad qoyub getmək istəyənlərin» müxtəlif yazıları ilə kobud şəkildə cızılmış, xarab edilmişdir. Belə yazıların içərisində birisini indiyədək unuda bilmirəm. İri hərflərlə türbənin daş divarlarında qazılmış bu yazını heç cür yaddan çıxarmaq olmur:

Здесь были геологи

1) Б.Али

2) М.Агали

3) Б.Джамшид.

Bəli, bu «xatirəni» bizim ziyalı nümayəndələrimiz qoymuşlar. Bağışlanılmalıdırmı? Yadımdadır, ilk dəfə məktəbə qədəm qoyduğum vaxtlarda, ilk dərslərdə müəllimimiz bizə başa saldı ki, kitabı cırmaq, qaralamaq, yazmaq kobud hərəkətdir, qəbahətdir, mədəniyyətsizlikdir. Bəs ulu babalarımızdan miras qalan qiymətli kitabları – abidələri xarab edənləri, onun səhifələrini cızma-qara ilə dolduranları necə adlandırmaq olar?

Maddi mədəniyyət abidələri haqqında mövcud qanunda maraqlı və eyni zamanda əhəmiyyətli məsələlərdən biri tarixi abidələrdən istifadə məsələsidir. Gizlətməyə dəyməz ki, turizmin geniş inkişafı dövründə bir sıra tarixi abidələr iqtisadi cəhətdən də

böyük əhəmiyyət kəsb edir. Ümumilikdə, elm və texnikanın yüksək inkişafı, geniş quruculuq işləri və mədəni əlaqələrin artması dövründə insan tarixi abidələrin əsiri ola



bilməz. Belə şəraitdə tarixi abidələrdən yalnız səmərəli şəkildə istifadə etmək lazımdır. Bir qədər yorucu olsa da nümunə üçün yenə də yaxşı tanıdığım Füzuli bölgəsindəki abidələri göstərmək istəyirəm. Məncə, müəyyən bərpa və təmir işlərindən sonra Qarğabazardakı qədim karvansaradan mədəni-kütləvi işlərdə, kənd şənliklərində geniş şəkildə istifadə etmək olar. Bu tikintinin qədim əməli vəzifəsinə uyğun burada yolüstü kiçik çayxana – qiraətxana açmaq, müəyyən vaxtlarda mədəni-maarif işçilərinin səyi ilə şeir, musiqi gecələri, məclisləri keçirmək, müxtəlif sərgilər təşkil etmək mümkündür. Füzuli şəhərinin mərkəzində illərdən bəridir ki, köhnə məscid binası boşdur. Vaxtaşırı ondan idman tədbirlərində istifadə olunur. Zənnimcə, onun geniş və işıqlı zalı maddi və mənəvi dəyərlərimizin təbliği üçün daha dəyərli ola bilərdi.

Günlər aylara qovuşur. İllər də başımızın üstündən ötüb keçir, bizdən uzaqlaşır, tarixə dönür. Tez-tez dönüb geriyə baxırıq.

Ötüb-keçilən yola nəzər salmaq insana xas olan xüsusiyyətdir. Yolumuzda zəngin və qiymətli yadigarlar var. Onları özümüz üçün, gələcək nəsillərimiz üçün göz bəbəyi kimi qoruyub saxlamaq borcumuzdur.

***19 iyul, 1970-ci il «Kommunist» qəzeti.***

# B Z GƏLD  GEDƏR K

# SƏN YAŞA, DÜNYA!

## İSTEDADLI ALİM, BÖYÜK VƏTƏNDAŞ

Uzun müddət Milli Akademik Opera və Balet teatrımız hər il müqəddəs bir ənənə kimi öz yeni mövsümünü «Koroğlu» operasının ecazkar sədaları ilə açardı. O anlarda bəlkə də az adam bilərdi ki, dahi sənətkarımız Üzeyir Hacıbəyovun bu incisinin ilk müvəffəqiyyətli səhnə təcəssümündə adı çoxlarına məlum olmayan Azərbaycanın görkəmli arxeoloq və etnoqrafı Ələskər Kazım oğlu Ələkbərov da böyük rol oynamışdı. Xalqımızın qədim qəhrəmanlıq tarixini, mədəniyyət və incəsənətini, bunların təkrarolunmaz gözəl məziyyətlərini dərindən bilən istedadlı alim ölməz operanın ilk tamaşası hazırlanarkən onun bədii tərtibatında baş məsləhətçi olmuşdu.

Keçən əsrin 20-30 –cu illərində Ələskər Ələkbərovun adı respublikamızın, eləcə də bütün dünya arxeoloq və etnoqraflarına yaxşı tanış olmuşdu. Ə. K. Ələkbərov öz həyatını, bütün elmi fəaliyyətini sovet respublikası adını alan və yeni yola çıxarılan Azərbaycanda arxeologiya və etnoqrafiya elmlərinin yaranıb təşəkkül tapmasına həsr edən, onların beşiyi başında duran ilk alimlərimizdən olmuşdur.

Mənə bu alimi görmək, onunla birgə işləmək, səfərlərə çıxmaq, doğma torpağımızı qarış-qarış gəzmək şərəfi nəsib olmamışdır. Onun adını mən ilk dəfə yalnız əllinci illərin axırlarında eşitmişəm. Lakin taleyin hökmüylə mən ilk axtarışlarımdan onun keçdiyi yolların yolçusu olmuşam, bu yollarda ulu babalarımın yadigarları ilə yanaşı onun da əbədiyyətə qovuşmuş ayaq izlərini görmüşəm. Bu izlər məni Mil düzünə aparmış, Kəlbəcər və Laçının çınqıllı dolaylarından keçirmiş, Naxçıvanın əsrarəngiz şiş uclu dağlarına gətirib çıxarmışdır. Bu silinməz izlər mənə əbədi viran qalmış Beyləqanı, sinəsi susuzluqdan yanmış qədim Govur arxı, sirlərlə dolu olan Şahtaxtını, Oğlanqalanı tanıtmışdır. Görmədiyim, səsini eşitmədiyim bu böyük alim, müəllim qayğısı ilə sanki əlimdən tutub məni kürdlərin, ayrımların qara damlarına qonaq aparmış, onların adət və ənənələrindən, tarixi keçmişindən mənə qəribə hekayətlər danışmışdır. Sinələri hikmətli sözlərlə, gözəl dastanlarla dolu olan müdrik ozanları da ilk dəfə mənə o tanıtdırmışdır. Elə buna görə də onun həyat yolu,





elmi yaradıcılıq yolu ilk addımlarımdan mənə örnək olmuş, bütün varlığımla elmə xidmət etməyi öyrətmişdir.

Ələskər Ələkbərov çox qısa və olduqca ağır bir həyat yolu keçmişdir. Lakin bu həyatın böyük mənasını həmişə qəlbən elmə xidmət etmək, hansı şəraitdə olursa-olsun yorulmadan xalqımızın zəngin keçmişini, mənəvi sərvətlərini öyrənmək səyi təşkil etmişdi.

«...Əgər mən şöbə müdiri kimi yaramıramsa, onda başladığım işləri davam etdirmək üçün bəlkə adi bir elmi işçi və hətta laborant kimi gərəkli olaram». Son ümidlə yazılmış bu sözlər totalitar recimin təqiblərinə məruz qalsam və sevimli peşəsindən uzaqlaşdırılan istedadlı alimin 1937-ci ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin katibi Mir Cəfər Bağırova ünvanlanmış məktubun bir parçası olmuşdu.



Ələskər Ələkbərov 1895-ci ildə Bakı şəhərində, xırda sənətkar ailəsində doğulmuşdu. O, ibtidai təhsilini rus-azərbaycan məktəbində almışdı. Uşaqkən ata-anasını itirən Ələskər sonralar təhsilini Bakı realnı məktəbinin pansionunda davam etdirməyə məcbur olmuşdu. 1914-cü ildə bu məktəbi bitirəndən sonra o, Kiyev Ticarət İnstitutuna daxil olmuş, lakin xəstəliyi ona həmin institutu bitirməyə imkan verməmişdi. Buna baxmayaraq Ə.Ələkbərov Bakıya qaydıqdan sonra Azərbaycan Dövlət Universitetinin tarix-filologiya fakültəsinə daxil olmuş və 1926-cı ildə oranı müvəffəqiyyətlə bitirmişdi.

Hələ Universitetdə oxuyarkən Ə. K. Ələkbərov ölkəşünaslıq işlərinə, Azərbaycanın qədim maddi-mədəniyyət tarixinə böyük maraq göstərmiş və burada təşkil olunan cəmiyyətin işində yaxından iştirak etmişdi.

1924-cü ildən isə o, tükənməz həvəslə yeni yaranan «Azərbaycan tədqiq edən və öyrənən cəmiyyət»in bir sıra tədbirlərinin həyata keçirilməsi işinə qoşularaq geniş fəaliyyətə başlamışdı. Məhz buna görə sonrakı illərdə bu cəmiyyətdə bir sıra məsul işlər

bilavasitə Ələskər Ələkbərova tapşırılmışdı.



Görkəmli şərqşünas alimlər – V.V.Bartold, N.Y.Marr, İ.İ.Meşşaninov və başqalarının tələbəsi və yetişdirməsi olan Ə.Ələkbərov yorulmadan onların gözəl ənənələrini davam etdirərək öz gərgin zəhməti, dərin bilik və istedadı ilə az vaxt içərisində arxeologiya və etnoqrafiya sahəsində görkəmli ixtisasçı kimi tanınmışdı. Cəmiyyət tarixinin bir sıra mühüm məsələlərinin öyrənilməsində arxeologiya və etnoqrafiya elmlərinin böyük rolunu yaxşı başa düşən Ə. Ələkbərov hələ özünün ilk əsərlərində uzaqgörənliklə göstərmişdi ki, arxeologiya və etnoqrafiyanın əsl mənada tarixi mənbə olması üçün onların marksist metodologiya əsasında yenidən qurulması zəruri işdir.

Ələskər Ələkbərovun ilk tədqiqat səfərləri 20-ci illərin ortalarına təsadüf edir. Doğma torpağını, xalqını ürəkdən sevən, onun keçmişinə, adət və ənənələrinə böyük hörmət bəsləyən vətənpərvər alim bu səfərləri zamanı Azərbaycanı qarış-qarış gəzərək xalqımızın qədim tarixinə, eləcə də bugünkü məişət və təsərrüfatına aid elmi əhəmiyyətli zəngin məlumatlar toplaya bilmişdir. O, dəfələrlə Naxçıvanda, Mil-Qarabağ düzlərində, Kəlbəcər-Laçın dağlarında arxeoloci və etnoqrafik tədqiqat səfərlərində iştirak etmişdi. Ələsgər Ələkbərov Azərbayçanın orta əsrlərə aid qiymətli abidələrindən sayılan Örənqala qazıntılarının ilk təşkilatçılarından olmuşdu. Buradakı qazıntıların nəticələri sonralar onun «Örənqala qazıntıları» adlı əsərində geniş şərh edilmişdi. Bu əsərdə orta əsr Azərbaycanının mühüm şəhərlərindən olmuş Örənqala-Beyləqana aid diqqəti cəlb edən maraqlı elmi fikirlər, mülahizələr irəli sürülmüşdü.

Azərbaycanda ilk etnoqrafik xəritənin yaradılması kimi çətin bir iş də bilavasitə onun adı ilə bağlıdır. Diqqətəlayiq haldır ki, Ə. Ələkbərov tərəfindən bu xəritəyə çox böyük dəqiqliklə Azərbaycanın beş mindən artıq yaşayış yeri salınmışdı. Böyuk alim özünün çöl axtarışları və tədqiqatları ilə Azərbaycanın qədim maddi-mədəniyyət tarixinin bir sıra qaranlıq məsələlərini əsaslı şəkildə işıqlandırmışdı.

İstedadlı alim olmaqla yanaşı Ələskər Ələkbərov eyni zamanda yerli gənc mütəxəssislərin yetişməsinə daim qayğı ilə yanaşmış, elmi-təşkilati və ictimai işlərdə böyük fəaliyyət göstərən xadim kimi də şöhrət qazanmışdı.

O, uzun illər Moskvada çıxan «Sovetskaya etnoqrafiya» jurnalı redaksiya heyətinin üzvü olmuş, respublikamızda ayrı-ayrı muzeylərin yaradılmasında, müxtəlif sərgilərin

təşkilində, bir sıra konfrans və əlamətdar günlərin keçirilməsində yaxından iştirak etmiş və ya bilavasitə rəhbəri olmuşdu. Bakıda I Ümumittifaq türkoloji qurultayının çağırılması, Firdovsiyə həsr olunmuş sərginin açılması və bu kimi digər işlərdə Ə. Ələkbərov xüsusilə böyük fəaliyyət göstərmişdi.

Ələskər Ələkbərov 1937-ci ildən SSRİ Elmlər Akademiyasının Azərbaycan Filialının tarix, dil və ədəbiyyat institutunda maddi-mədəniyyət bölməsinə başçılıq etmişdi. Bu vəzifədə olarkən o, öz əməli tədbirlərilə Azərbaycanda arxeologiya və etnoqrafiyanın inkişafı üçün çox iş görmüş, elmi işlərin təşkilat formalarını daha da zənginləşdirmişdi. Təəssüf ki, belə bir faydalı işi əsl vətəndaş alim olan Ələsgər Ələkbərov uzun müddət davam etdirə bilməmişdi. Ona Azərbaycanda təməlini qoyduğu arxeologiya və etnoqrafiya elmlərinin sonrakı yüksək inkişafını, böyük nailiyyətlərini görmək nəsib olmamışdı. Ələsgər Ələkbərov yaradıcılığının ən məhsuldar bir dövründə vəfat etmişdi.

Ələsgər Ələkbərov cəmi 15 il elmi fəaliyyətdə olmuşdur. Lakin belə bir qısa müddətdə o, 30-dan artıq böyük elmi dəyərli olan əsər yazmışdı. Diqqətəlayiqdir ki, onun elmi fəaliyyəti çoxcəhətli olmuşdu. Buna görə də görkəmli arxeoloq-etnoqraf alim Ələsgər Ələkbərovu, Azərbaycanın qədim incəsənət tarixinə dair bir sıra samballı və indiyədək öz elmi əhəmiyyətini itirməyən əsərlər yazmış əsl sənətşünas alim Ələskər Ələkbərovdan ayırmaq çətindir. Azərbaycan və eyni zamanda bütün Cənubi Qafqazın arxeologiyasında mühüm yer tutan, lakin o vaxtlar hələ zəif öyrənilən küp qəbirlər mədəniyyəti məsələsi Ə. Ələkbərovu maraqlandıran əsas məsələlərdən olmuşdu. Təsadüfi deyil ki, onun 1935-ci ildə II Beynəlxalq İran incəsənəti konqresində oxuduğu məruzə də məhz belə bir maraqlı mövzu ilə bağlı olmuşdu. «Azərbaycanda küp qəbirlər» adlanan həmin məruzədə, eləcə də bu mövzuda yazılmış digər elmi məqalələrdə o, Azərbaycan tarixində küp qəbirlər mədəniyyətinin tutduğu yeri, onların ayrı-ayrı tiplərini, küp qəbirlərin yayılma ərazisini, eləcə də xronoloji çərçivəsini aydınlaşdırmağa



təşəbbüs göstərmişdi.





Onu da nəzərə çatdırmağa dəyər ki, zəhmətkeş alim keçən əsrin 20-ci və 30-cu illərində Kün qəbirlər mədəniyyətinə aid Füzuli bölgəsində və Ağcabədidəki Qalatəpə abidəsində nadir abidələr üzə çıxarmış və öyrənmişdir. Tədqiqatçının küp qəbirlər məsələsindəki bir sıra fikir və mülahizələri indiyədək öz əhəmiyyətini itirməmiş, əksinə, çox soralar respublikamızda aparılan arxeoloji tədqiqatlarla bir daha təsdiq edilmişdir.

Ələskər Ələkbərovu maraqlandıran məsələlərdən biri də bütün Şərq ölkələri arxeologiyasında mühüm yer tutan boyalı qablar mədəniyyəti olmuşdu. Bu məsələ ilə əlaqədar tədqiqatçı Naxçıvan ərazisində geniş axtarışlar və qazıntı işləri aparmış və fərəhləndirici nəticələr əldə edə bilmişdi. O, Naxçıvanın ayrı-ayrı yerlərində qala tipli bir sıra qədim yaşayış yerləri aşkar etmiş, boyalı qablar mədəniyyətinə aid çoxlu maraqlı tapıntılar toplamışdı. Onun Şahtaxtı abidəsində açdığı tunc dövrünə aid kurqan öz avadanlığının zənginliyi ilə daha maraqlı olmuşdu. Həmin qəbirdə at skeletinə, 30-a qədər müxtəlif gil qablara, qızıl və tuncdan hazırlanmış bəzək nümunələrinə təsadüf olunmuşdur. Gil qablar içərisində ayrı-ayrı heyvan təsvirləri və həndəsi naxışlarla bəzədilmiş iri ölçülü, boyalı qab qədim dulusçuluq sənətinin nadir incisi kimi dünya mədəniyyətinin xəzinəsinə daxil edilmişdir.

Ə.Ələkbərovun boyalı qablar mədəniyyəti üzrə apardığı tədqiqatlar ilə qədim iqtisadi-mədəni əlaqələr tarixinin bir sıra qaranlıq məsələləri yeni elmi əsasla işıqlandırılmışdı. Heç təsadüfi deyil ki, onun bu sahədəki müvəffəqiyyətli elmi axtarışları tanınmış çex şərqşünası B.Qroznının böyük marağına səbəb olmuş və o, bunu yüksək qiymətləndirmişdi. B.Qroznı Ələskər Ələkbərovun elmi işləri ilə yaxından tanış olmaq üçün hətta 1936-cı ildə Bakıya gəlmişdi. Yeri gəlmişkən onu da deməliyəm ki, Azərbaycanda qədim şəhər mədəniyyəti kimi mühüm bir məsələnin qoyuluşu və ilk tədqiqi Ə. Ələkbərovun adı ilə bağlıdır.

Ə.K.Ələkbərovun etnoqrafiya sahəsindəki tədqiqatları da böyük elmi əhəmiyyətə malikdir. Bu tədqnqatların nəticələri onun «Azərbaycanlılar», «Azərbaycan etnoqrafiyasının vəzifələri», «Azərbaycanın qədim geyimləri», «Ayrımların yaıında», «Kürdlərin mədəniyyətinin öyrənilməsi məsələsinə dair», «Azərbaycanda kukla teatrı və oyunlar»

kimi bir sıra elmi əsərlərində öz əksini tapa bilmişdi. Ayrı-ayrılıqda bu əsərlərin hər biri məsələnin düzgün qoyuluşu və həlli, dolğunluğu, elmi cəhətdən samballığı və fikir aydınlığı ilə diqqəti cəlb edir. Onun Moskvada çap olunmuş «Azərbaycanda etnoqrafiyanın vəzifələri» əsərində mühüm bir təşkilati məsələ – respublikamızda etnoqrafiya elminin inkişafının əsas proqramı müəyyənləşdirilmişdir. «Azərbaycanlılar» əsərində tədqiqatçı aktual və eyni zamanda olduqca çətin bir məsələyə toxunmuş, xalqımızın tarixi mənşəyini elmi əsaslarla müəyyənləşdirməyə çalışmışdı.

«Azərbaycanın qədim geyimləri» əsərində Ə.K.Ələkbərov milli geyimlərimizi, xüsusilə bər-bəzəkli qadın geyimlərini geniş təsvir edərək onların xüsusiyyətini, müxtəlif dövrlərdə daşıdığı mahiyyətini, məişət və təsərrüfatdakı rolunu araşdırmışdır. Onun müxtəlif əsərləri arasında bu tədqiqat işi həm verilən materialların zənginliyi, həm də gözəl və dərin məzmunu ilə seçilir. Müəllif burada qadın geyimlərini sadəcə təsvir etməklə kifayətlənməmiş, onları sinfi mənsubiyyətinə, təsərrüfat məşğuliyyətinə və yaş xüsusiyyətinə görə təhlil etmişdir.

Ələskər Ələkbərovun qədim dövrlərdənda məskunlaşmış kürd və ayrımların məişəti, təsərrüfatı və mədəniyyəti haqqındakı yazıları da tarixi etnoqrafik nöqteyi-nəzərdən çox maraqlıdır. Faktiki materiallara əsaslanan bu yazılarda istedadlı alim dağ rayonlarında məskən salmış ayrım və kürdlərin yaşayış evlərini, adət və ənənələrini geniş şəkildə təsvir etmişdi.

Ə.K.Ələkbərov təkcə görkəmli arxeoloq və etnoqraf kimi deyil, istedadlı folklorşünas kimi də tanınmışdı. Onun ayrı-ayrı əsərlərində və gündəliklərində xalq yaradıcılığı nümunələrinə həmişə geniş yer verilmişdi. Bu cəhətdən «Azərbaycanda kukla teatrı və oyunlar» məqaləsi, xüsusilə böyük elmi əhəmiyyət kəsb edir. Bu məqalədə Azərbaycanda teatr tarixinə, ən əsas xalq tamaşaları tarixinə, onların mənşəyi məsələsinə xüsusi diqqət yetirilmiş, azərbaycanlılar arasında mövcud olan ayrı-ayrı xalq tamaşalarının köklərinin ibtidai-icma dövrü ilə bağlı olduğu elmi əsaslarla sübut edilmişdir. Onun məşhur «Koroğlu» dastanı ilə bağlı olan tədqiqatları da diqqətəlayiqdir. Bu



cəhətdən onun «Koroğlu» dastanı adlı elmi məqaləsi xüsusilə seçilir. Bu məqalənin məzmunundan aydın olur ki, alim Azərbaycanın ayrı-ayrı rayonlarından topladığı zəngin materiallar əsasında aşıq sənətinin incəliklərini dərindən öyrənmiş, bu sənətin rolunu və əhəmiyyətini dügkün qiymətləndirmişdi.

Ələskər Ələkbərovun elmi-təşkilati fəalayyəti, Azərbaycanda və Moskvada nəşr olunan əsərləri uzun müddət geniş ictimaiyyət tərəfindən maraq və diqqətlə izlənilmiş, yüksək qiymətləndirilmişdir.

1960-cı ildə onun əsərləri Azərbaycan Milli EA tərəfindən «Azərbaycanın arxeologiyası və etnoqrafiyasına dair tədqiqatlar» başlığı altında ayrıca kitab şəklində çap edilmişdi.

Bununla belə, görkəmli alimin düşmənləri də az olmamışdı və bu cəhətdən riyakar qonşularımız xüsusilə seçilmişdilər. Zəhmətkeş alimin 7 mart 1937-ci il tarixində müəllimi və dostu, görkəmli şərqşünas alim İ.Meşşaninova yazdığı məktuba diqqət yetirək:

«...Əziz İvan İvanoviç, İ.A.Orbelinin tədqiqatlarıma olan münasibəti məni çox təəccübləndirdi. Curnalistlərdən biri apardığım tədqiqatlarla bağlı onun fikrini bilmək istədikdə o, demişdir: - Ələsgər Ələkbərov boyalı qablar məsələsində lap ağlını itirmişdir. Əlbətdə bu məsələdə əsas təqsirkar onun məktəbidir. Ələsgər Ələkbərov sonra yazırdı: «Mən hesab edirəm ki, onun bu fikri Cənubi Qafqaz arxeologiyasını bilməkdən irəli gəlir».

Ələsgər Ələkbərovun yüksək elmi əsaslı və eyni zamanda çox cəhətli tədqiqatlarına qarşı çıxması onu ideoloji cəhətdən sovetlərə əks olan məktəbin nümayəndəsi kimi təqsirləndirməyə can atan təkcə erməni İ.A.Orbeli olmamışdı. Elmi yolda müvəffəqiyyətlə addımlayan istedadlı alimə qarşı həm respublikanın özündə, həm də onun hüdudlarından uzaqlarda da təqiblər, iftiralar başlanmışdı. Sovet totalitarizminin tələblərinə uyğun ayrı-ayrı qəzet və curnallarda ona qarşı ağlasığmaz böhtanlar yağdırılmışdı. O, burjua millətçiliyində, pantürkçülükdə təqsirləndirilmişdi. Mövcud totalitar quruluş azad düşünən, tarixi araşdırmalarda gerçəkliyi hər şeydən üstün tutan, öz əqidəsinə sadiq qalan bu böyüu alimin simasında barışmaz bir mübarizi görmüş, onu məhv etməyə çalışmışdı. Tezliklə o, həbs olunmuşdu. Ağır və məşəqqətli 1937-ci il görkəmli alim Ələsgər Kazım oğlu Ələkbərovun elmi yaradıcılığının son ili olmuşdu.

Böyük zəhmətkeş alim – Ələskər Kazım oğlu Ələkbərovun bütün yaradıcılıq fəaliyyati yorulmadan, qəlbən elmə xidmətin bariz nümunəsidir. Məhz buna görə respublika-

mızın, arxeoloq və etnoqrafları böyük alimin xatirəsini həmişə hörmət və minnətdarlıq hissi ilə yad edirlər.

## NURLU HƏYAT YOLU

Onun sevinc və günəş işığı ilə dolu böyük yaradıcılıq yolu vardır. Ona qədim Gəncənin xarabalıqlarını tapmaq, dahi Nizaminin müqəddəs türbəsini açmaq, səfalı Xaçbulaq yaylasının əfsanəvi qalalarını öyrənmək və Qobustanın beş min daş səhifəli kitabını oxumaq kimi şərəfli, qibtə ediləsi bir iş nəsib olmuşdur.

Bu adam, Azərbaycanın ilk arxeoloq-etnoqraf alimlərindən biri, əməkdar elm xadimi, Əmək Bayrağı ordenli, istedadlı tədqiqatçı İshaq Cəfərzadədir.

İshaq Cəfərzadənin adı respublikamızdan çox-çox uzaqlarda da elmi ictimaiyyətə yaxşı tanışdır. Onun adını İngiltərə və Fransada, Çexiya və Slovakiyada, Macarıstanda, Almaniya, İspaniya və Kanadada çox eşidiblər. Hər yerdə onu Azərbaycan arxeologiyasının müdrik ağsaqqalı, Qobustan kimi misilsiz mirasın ilk tədqiqatçısı kimi taiıyırlar.

Azərbaycanın elə-bir guşəsi tapılmaz ki, oraya bu görkəmli alimin ayaqı dəyməsin. Lakin onun adı ilə daha çox dünya incəsənət xəzinəsini bəzəyən, milli mədəni və mənəvi qürurumuzu təşkil edən məhz Qobustanın daş naxışları, rəsmləri bağlıdır. Ulu babalarımızın hiss və duyğularını qoruyub saxlayan bu abidənin tədqiqinə o, ömrünün 40 ilə yaxın bir dövrünü həsr etmişdir.

Bəlkə də elə buna görə Qobustanın yalçın qayaları uzaq minilliklərin, əsrlərin sirlərini ondan gizlətmək istəməmiş, çətin və əziyyətli axtarışlarda ona qüvvət, əzəmət vermiş, möhkəm arxa olmuşdur. Bəlkə də elə buna görə tanınmış alimin yerişində və duruşunda, söhbətlərində və yazılarında həmişə Qobustanın düşüncəsi, onun nəhəng qayalarının vüqarı, minbir səsli qədim və ecazkar mahnısı eşidilmişdir.

Böyük alim İshaq müəllimlə mənim ilk tanışlığım keçən əsrin 50-ci illərinin sonlarında olmuşdu. O vaxtlar mən uzaq dağ bölgələrindən birində, yoldan uzaq bir kənddə müəllimlik edir, boş vaxtlarımda isə işlədiyim yerin zəngin tarixi abidələrini də öyrənməyə cəhd göstərirdim. Bəzi maraqlı abidələr haqqında mətbuat səhifələrində çıxışlar da etmişdim. Bəlkə də bunu nəzərə alaraq günlərin bir günündə təcili teleqramla məni Azərbaycan Elmlər Akademiyasının arxeologiya şöbəsinə işə dəvət etmişdilər. Müəllimliyi, uşaqlarla işləməyi çox xoşlasam da, teleqramı alandan sonra Bakıya yola düşmüşdüm. Əslində, onda mən illərdən bəri qəlbimdə yuva salmış arzuma qovuşmağa tələsmişdim.



Həyata göz açandan uzaq keçmişin yadigarlarını görmüşdüm. Doğulduğum evin özü qədim bir atəşgahın on addımlığında olmuşdu. Uşaqlıq illərim bu qədim od məbədinin yaiında keçmişdi. Dəfələrlə mən böyük həyəcan hissilə bu müqəddəs məbədin ətrafını dolaşmışdım və hər dəfə onun ovulub tökülməkdə olan daşları pıçıltı ilə mənə bir-birindən gözəl, bir-birindən qəribə dastanlar danışmışdı. Çox güman ki, arxeoloq-olmaq, uzaq keçmişin sirlərini öyrənmək arzusunu da qəlbimə ilk dəfə bu dişli divarlı məbəd salmışdı.

Artıq yuxarı siniflərdə oxuyarkən mən Bakı Mərkəzi pionerlər evində «Gənc tarixçilər» dərnəyinin və o vaxtlar 1 May küçəsində yerləşən «Gənc səyahətçilər» klubunun daimi üzvü olmuşdum və dəfələrlə respublika və ümumittifaq müsabiqələrində, olimpiadalarında iştirak etmişdim və hətta bir sıra mükafatlar da almışdım.

Arxeoloq olmaq arzusu ilə də Azərbaycan Dövlət Universitetinin tarix fakültəsinə daxil olmuşdum. Təəssüf ki, elə bu vaxt universitetdə arxeologiya kafedrası bağlanmış, arxselogiya üzrə ixtisas da aradan götürülmüşdü. Elə bil, kiminsə amansız əlilə arxeologiyanın qapıları mənim üçün həmişəlik bağlanılmışdı. Buna görə də təhsilimi başa vurduqdan sonra Bakıdan, arxeologiya elminin mərkəzindən çox-çox uzaqlarda, lakin tarixi abidələrlə zəngin bir yerdə müəllimliyə başlamışdım. Tarix və rus dilindən dərs demişdim. Lakin ümid üçün sanki kiçik bir imkan qalmadığı vaxtda mən gözlənilmədən bu teleqramı almışdım.

Ertəsi gün əlimdə həmin teleqram, ürəyimdə isə böyük təşviş və həyəcan arxeologiya şöbəsinə gəldim. Burada məni Azərbaycan arxeologiyasına rəhbərlik edən İshaq Cəfərzadənin otağına apardılar. Adını çox eşitdiyim görkəmli alimlə mənim əyani tanış-



lığım belə başlandı. İshaq müəllim otağın künc tərəfində, böyük bir yazı masasının arxasında əyləşmişdi. Başında özbək araqçını vardı. Oturmaq üçün mənə yer göstərdi və bir müddət susdu. Hiss etdim ki, onun baxışları üzümdə gəzir; məni tər basdı. Düzü, indi arxeologiya mənim üçün əlçatmaz bir zirvəyə, İshaq müəllim isə bu zirvəyə gedən yeganə yolun zəhmli keşikçisinə çevrilmişdi. Görünür, o, mənim bərk həyəcan keçirdiyimi hiss edib yavaşcadan boğazını arıtdı və çox səmimi və açıq bir baxışla məqalələrimi oxuduğunu bildirdi. Bunun ardınca İshaq müəllim gözlənilmədən məndən əvvəlki maaşımı soruşdu. 180 manata qədər maaş aldığımı eşitdikdə təəccübləndi, lakin birdənbirə quru bir səslə dedi:

- Bala, bizdə sən bu maaşın yarısından da az alacaqsan. Biz səni kiçik elmi işçi vəzifəsinə götürməyi nəzərdə tutmuşuq. Bu vəzifənin maaşı isə cəmi 83 manatdır. Lakin xəbərdarlıq edirəm ki, bu çətinliyin yalnız bir tərəfidir. Arxeologiyanın özü çox cidi və olduqca ağır bir elmdir. Yadda saxlamalısan ki, arxeoloq hər cür iş şəraitində işləməyə hazır olmalıdır. Bizim isə əsas iş şəraitimiz iliyimizə qədər işləyən şaxtadan və ya beynimizi yandıran istidən, gözlərimizi dolduran toz-torpaqdan asılı olmayaraq açıq havadadır. Bəziləri arxeologiyada romantika axtarırlar. Lakin belə adamların heç biri arxeologiyada bir mövsümdən artıq qala bilmir. İlk çöl axtarışından sonra qaçır. Mən səni qorxutmaq istəmirəm. Dediklərimi düşün, götür-qoy et. Özünü buna hazırlıqlı bilsən, ərizə ilə gəl. Onda mən sənə, - uğurlu yol, - deyərəm.

Doğrusu, o gecə mən yatmadım. Lakin ertəsi gün bir cümlə ilə yazdığım ərizəni İshaq müəllimə təqdim etdim. O, daha bir söz demədi. Amma dodaqaltı gülümsəyərək onun üstünü yazdı.

Bir il sonra isə artıq İshaq müəllim məni Xaçbulaq yaylağında yenidən başlanan tədqiqatlara apardı. Bu yerlər onun üçün doğma və əziz idi. Özünün dediyi kimi, bütün uşaqlıq illərini Azərbaycanın bu səfalı guşəsində keçirmişdi. Sonralar ilk tədqiqatları üçün də o, məhz buranı seçmişdi. Xaçbulaqda tədqiqat apararkən biz alaçıqda qalırdıq. Hər axşam İshaq müəllim gecə yarıdan keçənədək bu yerlərin tarixindən, adət-ənənələrindən və öz həyatından maraqlı söhbətlər edirdi.

Cəfərzadə İshaq həyata qədim bir şəhərdə – böyük Nizaminin vətəni olan Gəncədə göz açmışdı. Onun atası Məmmədrza kişi sənətkar olmuş və şəhərdə yaxşı sərrac kimi tanınmışdı. İshaq 6 yaşına çatanda atası onu mədrəsəyə vermişdi. Burada balaca İshaq ərəb və fars dillərini öyrənə bilmiş, ilk dəfə öz dahi həmyerlisinin ölməz əsərlərini oxumuşdu. Mədrəsədən sonra o, altıillik şəhər məktəbində təhsil almışdı. Bu məktəbdə İshaq Cəfərzadə yeni bir dilə - rus dilinə yiyələnmişdi. Burada oxuyarkən o, daim yeni bir şey öyrənməyə, geniş bilik əldə etməyə can atmış və bununla bütün müəllimlərinin hüsn-rəğbətini qazanmışdı. Məktəbdə təhsil aldığı vaxtlarda, eləcə də oranı bitirdikdən sonra yeniyetmə İshaq daim atasının yanında işləmiş və ona böyükköməklik göstərməklə sərraclıq kimi qədim xalq sənətinin sirlərini dərindən öyrənmişdir. Çox güman ki, onda Azərbaycan xalq sənətinə, xalq məişət və təsərrüfatına sonsuz məhəbbət də ilk dəfə burada yaranmışdı. İshaq Cəfərzadə gənc vaxtlarından elmə böyük maraq göstə-



rərək gecə və gündüz mütaliə etmiş, müstəqil surətdə öz savadını artırmışdı. Qədim və zəngin tarixə malik olan Gəncə şəhəri, onun ətrafındakı abidələr və hər il yay vaxtı dincəldiyi Xaçbulağın qədim qalaları onda tarix elminə, arxeologiyaya böyük həvəs oyatmışdı.

Tarix elminin sirlərinə dərindən yiyələnmək məqsədilə o, 1924-cü ildə Azərbaycan Ali Pedaqoci institutunun tarix fakültəsinə daxil olmuş və oranı əla qiymətlərlə qurtarmışdı. Lakin o, bununla da kifayətlənməmiş, tezliklə sənədlərini Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakültəsinə vermişdi. İshaq Cəfərzadə universitetində də böyük müvəffəqiyyətlə başa çatdırmışdı.

İstər pedaqoji institutda, istərsə də universitetdə oxuyarkən o, elmi işə daha böyük maraq göstərmiş arxeoloji və etnoqrafik dərnəklərin işində, respublikamızda yeni yaranan «Azərbaycanı tədqiq edən və öyrənən cəmiyyət»in, eləcə də «Azərbaycanın qədim və incəsənət abidələrini qoruyan komitə»nin tədqiqatlarında fəal iştirak etmişdi. Buna görə də İshaq Cəfərzadə hələ universitetdə oxuyarkən — 1926-cı ildə Azərbaycan Dövlət Tarixi Muzeyinə elmi işçi vəzifəsinə qəbul olunmuşdu. O vaxtdan İshaq müəllim bütün həyatını xalqımızın qədim maddi-mədəniyyət tarixini öyrənmək işinə həsr etmişdi. İndi də o, yorulmaq bilmədən bu nəcib işini davam etdirir. Elə buna görə də bu qocaman alimin həyatı, yaradıcılıq yolu əslində Azərbaycanda arxeologiya və etnoqrafiya elmlərinin bütün ardıcıl inkişaf mərhələlərini əks etdirən canlı bir kitabdır.

Yada salmağa dəyər ki, respublikamızda geniş arxeoloji axtarışlar və qazıntılar aparmış 20-dən artıq arxeoloji və etnoqrafik ekspedisiyanın təşkili və işi bilavasitə İshaq müəllimin adı ilə bağlıdır. Xalqımızın qədim tarixini, məişət və təsərrüfatını, mədəniyyət və incəsənətini öyrənmək məqsədilə o, Azərbaycan torpağını qarış-qarış gəzmiş və hər dəfə yüzlərcə qiymətli tarixi abidə tapmışdır.


10 0 10 20 30 40 50 cm

Zəhmətkeş alim təkcə Kiçik Qafqaz dağlarının əlçatmaz yerlərində qədim dövrlərə aid 120-dən artıq möhtəşəm divarlı qalalar qeydə almış və bunları dərin elmi əsaslarla tədqiq etmişdir. Onun bu abidələrə həsr edilmiş tədqiqat əsəri böyük elmi əhəmiyyətinə görə Oktyabr inqilabının 20 illiyi ilə əlaqədar ÜİLKGİ MK-nın təşkil etdiyi gənc alimlərin üumittifaq müsabiqəsində böyük müvəffəqiyyət qazanmışdı.

İshaq müəllimin ilk elmi axtarışlarında qədim Gəncə qazıntıları da böyük yer tutmuşdur. Qoca Şərqin dühası Nizami Gəncəvinin 800 illik yubileyi ilə əlaqədar təşkil edilən bu qazıntılara İshaq müəllim rəhbərlik etmişdi. Onun səyi nəticəsində az vaxt ərzində qədim Gəncə şəhərinin yeri dəqiq şəkildə müəyyənləşdirilmiş və geniş qazıntılarla burada qala divarlarının, sənətkarlıq məhəllələrinin, şəhər körpülərinin və başqa tikintilərin qalıqları zahirə çıxarılmış və yüzlərcə gözəl maddi-mədəniyyət nümunələri əldə edilmişdi. Maraqlıdır ki, İshaq müəllim qədim Gəncənin ətrafında Nizami dövründən daha qədimə - tunc dövrünə aid çoxlu abidələr aşkara çıxarmış və xalqımızın mədəni nailiyyətlərinin dərin köklərini müəyyənləşdirmişdi.

Qədim Gəncə qazıntıları zamanı ilk dəfə İshaq müəllimə böyük Nizaminin qəbrini tapmaq və onun kövrək sümüklərini gün işığına çıxarmaq səadəti nəsib olmuşdu. Yubiley günlərində o, bu müqəddəs sümükləri ölməz Üzeyirin «Sənsiz»inin ecazkar sədaları altında şairin şərəfinə yeni ucaldılmış türbədə qara mərmər sənduqəyə qoymuşdu. İndi bu yer xalqımızın böyük ziyarətgahına çevrilmişdi.

Qədim Gəncə qazıntıları sonralar İshaq müəllimə «Qədim Gəncənin tarixi-arxeoloji oçerki» kimi ciddi bir elmi əsər yazmağa imkan vermişdi. Bu mövzu əsasında o, hələ 1944-cü ildə böyük bir müvəffəqiyyətlə namizədlik dissertasiyasını da müdafiə etmişdi. Müharibə və müharibədən sonrakı ilk illərdə İshaq müəllim Bakı limanında yerləşən sirli «Şəhri Səbayıl»da və Yaloylutəpədə başlanan arxeoloji tədqiqatlara rəhbərlik etmişdi. Dörd tərəfdən Xəzərin dalğaları ilə yuyulan «Şəhri Səbayıl» tədqiqatları zamanı o, ağır və gərgin zəhmət hesabına dənizin dibindən 200-dən artıq iri ölçülü yazılı daş çıxara bilmişdi. Belə tədqiqatlar nəticəsində bu qalanın XIII əsrə aid olması və orta əsrlərdə Azərbaycanın iqtisadi-mədəni əlaqələrində mühüm yer tutması aydınlaşdırılmışdı. Yaloylutəpə qazıntılarının da nəticələri maraqlı olmuşdu. Bu qazıntılarla İshaq müəllim respublikamız ərazisində qədim və özünə məxsus bir mədəniyyətə aid çoxlu yeni əşyavi dəlillər əldə etmişdir.



İshaq müəllimin müharibədən sonrakı illərdə apardığı tədqiqatların əsas və mühüm hissəsi Qobustanın qayaüstü rəsmlərilə bağlıdır. Qobustan qayaüstü rəsmləri ilk dəfə 30-cu illərin sonlarında aşkar edilsə də qocaman alim onların elmi tədqiqinə nisbətən gec başlamış və bu tədqiqatları indi də müvəffəqiyyətlə davam etdirir. Məlum olduğu kimi, İshaq müəllim Qobustanda 5000 qədim qayaüstü rəsm aşkar etmişdi. Bu rəsmlərin hamısı dəqiq qeydə alınmış və alimin həyat yoldaşı, onun tədqiqatlarının ən yaxın köməkçisi, Azərbaycanın ilk qadın rəssamlarından olan Səfiyyə xanım tərəfindən böyük dəqiqliklə kağıza köçürülmüşdü. İshaq müəllim bu rəsmlər üzərivdə illər boyu tədqiqatlar aparmış və yalnız yuxusuz gecələrin hesabına onların sirlərini öyrənə bilmişdi. Qobustanın qədim rəsmləri üzərində belə uzun və səmərəli iş İshaq müəllimi bütün dünyada qədim qayaüstü təsvirlərin ən yaxşı tədqiqatçılarından biri kimi tanıtmışdır. Elə buna görə də İshaq müəlllmin qayaüstü rəsmlər üzərində iş təcrübəsi nəinki yerli, hətta xarici alimlər üçün də gözəl məktəb olmuşdu.

Qədim qayaüstü təsvirlər dünyanın bir çox yerlərində aşkar edilmişdi. Lakin heç yerdə Qobustanın təsvirləri qədər mövzu cəhətdən rəngarəng, orijinal süjetli və bədii dəyərli təsvirlərə təsadüf olunmamışdır. Digər tərəfdən bu təsvirlərin üstünlüyü, böyük tarixi əhəmiyyəti ondan ibarətdir ki, onlar böyük xronoloji çərçivə daxilində ulu babalarımızın ardıcıl şəkildə mədəni-tarixi inkişafının 10 minillik bir dövrünü əhatə edirlər. Qobustanda minilliklər boyu nəsillər bir-birini əvəz etmiş və hər nəsil öz ibtidai daş və ya metal alətlərilə daşlara öz imzasını həkk etməyə çalışmışdır.

İshaq müəllimin tədqiqatları ilə müəyyən edilmişdir ki, Qobustanın ən ibtidai təsvirləri onun qədim sakinləri tərəfindən mezolit dövründə (orta daş dövrü),- eramızdan əvvəl VIII-VII minilliklərdə çəkilmişdir. Sonrakı dövrlərdə Qobustanın daş salnaməsində təsvirlərin sayı daha da artmış və zənginləşmişdi. Mis, tunc və dəmir dövrlərində Qobustanın bu qədim kitabına təsərrüfat sahələrinin genişlənməsi, inkişafı və dini təsəvvürlərin artması ilə əlaqədar daha mürəkkəb məzmunlu və kompozisiyalı lövhələr, əsl incəsənət əsərləri əlavə edilmişdir.

Axtarışlar nəticəsində İshaq müəllimə dövrlərə görə hər bir rəsmin mənasını açmaq, onların işlənmə üslubunu aydınlaşdırmaq müyəssər olmuşdur. Yer kürəsinin müxtəlif guşələrində tapılmış bütün qədim qayaüstü təsvirlərə yaxşı bələd olan İshaq Cəfərzadə

Qobustan təsvirlərinin səciyyəvi xüsusiyyətini, bədii və tarixi əhəmiyyətini tapa bilmişdir. Görkəmli alimin tədqiqatlarında diqqəti cəlb edən cəhətlərdən biri də Qobusta-





nın qədim təbii-coğrafi şəraiti haqqındadır.

Görkəmli alim öyrənmişdir ki, uzaq keçmişdə Qobustanın iqlimi rütubətli, tropik iqlimə yaxın olmuşdur. O zaman bu ərazi sulu çaylara, çoxlu bulaqlara və bol ot örtüyünə malik olduğundan burada saysız-hesabsız ov heyvanları özünə sığınacaq tapmış, yerli qəbilə və tayfaların böyük mal-qara sürüləri saxlanılmışdır.

Qobustan təsvirlərini öyrənərkən istedadlı alim onların meydana gəlmə tarixinə xüsusi fikir vermişdi. İshaq müəllimin fikrincə Qobustanın saysız-hesabsız təsvirləri içərisində siluet üsulu ilə çəkilmiş, çiyinlərində kaman olan kişi və qadın təsvirləri ən qədim dövrlərə aiddir və onlar bilavasitə qadınların ibtidai cəmiyyətdə hakim olduğu madərşahlıq dövründə çəkilmişdir. Tədqiqatçının dərin və geniş axtarışları ona sonrakı dövrlərin təsvirlərini də müəyyən etməyə, onların fərqləndirici xüsusiyyətlərini aydınlaşdırmağa imkan vermişdir. İshaq müəllim müəyyən bir dövrün təsvirlərini tədqiq edərkən çox düzgün olaraq onları həmin dövrün təsərrüfatı, dini təsəvvürləri və mədəni nailiyyətləri ilə əlaqələndirmişdi. Bu sahədə o, mütəxəssislərin diqqətini cəlb etmiş bir sıra maraqlı və elmi əsaslı fikirlər irəli sürmüşdü. Tədqiqatçının qaya təsvirlərinin dövrlərə görə işlənmə üslubları haqqında fikirləri də çox əhəmiyyətlidir. Qürurla deyə bilərik ki, dünya qayaüstü təsvirlərinin tədqiqində onların dövrlərə görə işlənmə üsulları sirlərinin açılması görkəmli alimimiz İshaq Cəfərzadəyə məxsusdur. Onu da deyə bilərik ki, İshaq müəllim tərəfindən başlanılan Qobustan arxeoloji tədqiqatlarının Azərbaycan və ümumiyyətlə Sovet arxeologiya elminin inkişafına böyük təsiri olmuşdur. Bu tədqiqatlar ümumiyyətlə, Sovet arxeologiyasının ən böyük nailiyyətlərindən biri hesab olunur.



1973-cü ildə zəhmətkeş alimin «Qobustan» adlı böyük bir əsəri çapdan çıxmışdır. Azərbaycan dilli Elmlər Akademiyasının nəşriyyatı tərəfindən nəfis şəkildə buraxılmış bu kitab Qobus-

tan tədqiqatlarının ilk yekunlarına həsr olunsa da dərin və mənalıdır. İstər ölkəmizdə, istərsə də onun sərhədlərindən çox-çox uzaqlarda Qobustana böyük marağı nəzərə alaraq İshaq Cəfərzadə bu kitabı rus dilində yazmış, ona ingilis və doğma Azərbaycan dillərində geniş xülasələr vermişdir.

Məlumdur ki, ulu babalarımızın qiymətli mirası, xalqımızın fəxri olan Qobustan haqqında çoxlu şeirlər yazılmış, mahnılar bəstələnmiş, rəsm əsərləri çəkilmişdir. Lakin İshaq müəllimin «Qobustan» kitabına qədər bu qiymətli abidə haqqında müəyyən bir ümumiləşdirilmiş elmi əsər yazılmamışdı. Buna görə də İshaq müəllimin kitabı geniş elmi ictimaiyyət üçün böyük töhfə oldu.

Yorulmaq bilməyən qocaman alim ömrünün son illərində «Qobustfnın petroqlifləri» adlı daha böyük bir əsəri uğurla başa çatdırmışdı. Təəssüf ki, görkəmli alimin ölümündən sonra bu əsər ayrı-ayrı adamların məkrli xislətinin qurbanı oldu, yoxa çıxdı.

İshaq müəllimlə işlədiyim müddətdə iki dəfə onu yubiley gecəsində iştirak etmişəm. Onun anadan olmasının 70 illiyi də, 80 illiyi də bizim üçün, respublikamızın bütün tarixçiləri üçün əsl bayram olmuşdur.

Ümid edirik ki, böyük alimin 90 illiyini də böyük sevinc və arzularla keçirəcəyik. Çox təəssüf ki, bu bizə qismət olmadı. Görkəmli alim 5 yanvar 198-ci ildə zəngin bilik xəzinəsini bizə ərmağan edərək dünyasını dəyişdi.

Onu da yada salmaq lazımdır ki, keçən əsrin 50-ci illərində İshaq müəllimin həyat yoldaşı Səfiyyə xanımla birlikdə «Abşeron və qəbir abidələri» adlı kitab-albomu da tamamlamış və EA Nəşriyyatına təqdim etmişdi.



## AXTARIŞLARDA KEÇƏN ÖMÜR

Arxeologiya elmindəki ilk addımlarım xoşbəxt bir şəraitdə başlamışdır. Mənə respublikamızda bu gözəl elmin təməl daşını qoyanlardan biri olan qocaman alim Saleh Mustafa oğlu Qazıyevi görmək, onunla birgə işləmək, ondan öyrənmək şərəfi nəsib olmuşdur. On il mən onu hər gün səhər iş otağına çəkilib elmi iş yazan, hər bir tapıntı üzərində saatlarla düşünən görmüşəm. Onu vurğunu olduğu qədim Qəbələ şəhərinin xarabalıqlarında da görmüşəm. Onun qalın torpaq qatı altında qalmış bu şəhərin üstündə necə ehtiyatla addımladığının, buranın hər saxsısına, daşına nə qədər böyük məhəbbətlə, qayğıyla yanaşdığının şahidi olmuşam. O, ömrünün müdrik bir vaxtında yurdumuzun bu qədim və qiymətli yadigarında yeni arxeoloci tədqiqatlara başlamışdı. Elə buna görə də uzun illərin böyük iş təcrübəsi ona az vaxt içərisində nəinki bu şəhərin, hətta bütün qədim Qəbələ mahalının bir sıra mühüm tarixi sirlərini açmağa imkan vermişdi. Lakin istedadlı alimin fəaliyyətində ən parlaq, uğurlu axtarışları təkcə Qəbələ qazıntıları olmamışdı. Zəhmətkeş alimə ən böyük şöhrəti Mingəçevir qazıntıları gətirmişdi. Müharibədən sonrakı illərdə Mingəçevir SES-nin tikintisi ilə əlaqədar Kür çayı sahilində başlanan geniş arxeoloji tədqiqatlara məhz Saleh Mustafa oğlu Qazıyev başçılıq etmişdi. Mingəçevir qazıntıları Azərbaycanda arxeologiya elminin inkişafında böyük rol oynamış, yerli ixtisasçıların hazırlanması üçün əsl məktəb olmuşdu. Qocaman alimin böyük elmi yaradıcılıq və təşkilatçılıq fəaliyyəti, istedadı ilk dəfə öz əksini məhz Mingəçevir qazıntılarında tapmışdı.

Sevimli şairimiz Səməd Vurğunun «Muğan» poemasını oxuyanlar yəqin ki, bu sətirlərə diqqət yetiriblər:

*Ekskavator təpələri lay-lay açıb, lay-lay qazır,*
*Qoca alim saxsı yığıb yer altında tarix yazır...*
*Oğul, Sarvan! Dərinə get, heç çəkinmə, qorxma məndən,*
*Yol aç, oğlum, yol aç elmin, düşüncənin gözünə sən;*
*Keçir məni yer altına iyirminci təbəqədən,*
*Yuxarıdan işıq da sal! İşıq da sal günəş kimi,*
*Babaların taleyi tək qaranlıqdır yerin dibi...*

*Külək əsir, qum sovrulur, gözə girir toz-tozanaq,*



*Qoca alim yer altından ayrılmayır hələ ancaq.*
*Gah tər basır, vücudunu, gah büdrəyir, gah yıxılır,*
*Yer darısqal, hava tozlu, nəfəs durur, can sıxılır.*
*Alim yenə qucaq-qucaq yığır qədim saxsıları,*
*Yer altdakı hər kərpicin üstündəki yazıları.*
*O qabların-qacaqların rəngi hələ solmamışdır,*
*Arçan ağac daşa dönmüş: fəqət torpaq olmamışdır...*
*Çovğun vurur, qum sovrulur, külək əsir,*
*Neçin bizim qoca alim tələsir?*
*Sarvan Kürü döndərməmiş, su basmamış bu yerləri,*
*Can atır ki, tamamlasın başladığı bu əsəri,*
*Bizsə baxıb, alqış deyək bu cəlala, bu dövrana,*
*Öz əsrinin sürətilə ayaqlaşan hər insana.*

Dərin həyacan, böyük məhəbbət və ehtiramla yazılmış bu sətirləri dahi şair arxeoloq-alim Saleh Qazıyevə həsr etmişdir.

Tanınmış alim Saleh Mustafa oğlu Qazıyev keçən əsrin sonlarında – 1893-cü ildə Böyük Qafqazın cənub-şərq ətəklərindəki qədim tarixi abidələrlə zəngin olan bir yerdə doğulmuşdur. Oğuz bölgəsindəki Xaçmaz kəndi onun uşaqlıq illərinin məkanı olmuşdu. İlk təhsilini o, kənd məktəbində almışdır. 1925-1927-ci illərdə Saleh Qazıyev Şəki Pedaqoji Texnikumunda oxumuş və ilk dəfə burada xalqımızın qədim tarixi keçmişinə, zəngin maddi-mədəniyyət abidələrinə maraq göstərməyə başlamışdı. Onun arxeoloq kimi ilk fəaliyyəti də bilavasitə bu dövr ilə bağlıdır.

Saleh Qazıyev Şəki Şəki Pedaqoji Texnikumunda təhsilini müvəffəqiyyətlə başa vurduqdan sonra 1928-ci ildə Azərbaycan Pedaqoji İnstitututunun tarix fakültəsinə daxil olmuşdu. 1932-ci ildə institutu bitirdikdən sonra bir müddət Ağdaş və Şəki bölgələrində müəllimlik etmiş və xalq maarifi sahəsində məsul vəzifələrdə çalışmışdı. Tarix elminə böyük həvəs göstərən Saleh Qazıyev 1935-ci ildə aspiranturaya girmiş və bundan sonra həyatını bütünlüklə elmi işə həsr etmişdi. 1939-cu ildən Azərbaycan Tarix muzeyində işləməyə başlayan gənc alim öz səmərəli tədqiqatlarına görə artıq 1941-ci ildə tarix elmləri namizədi adına layiq görülmüşdü. Bu illərdə Saleh Qazıyev Azərbaycan Dövlət Universitetinin tarix fakültəsində mühazirələr oxumağa başlamış və özünün bilik və bacarığını

böyük həvəslə respublikamızda yerli arxeoloq kadrların hazırlanması işinə sərf etmişdi.

Uzun müddət Azərbaycan Tarix Muzeyində səmərəli elmi iş aparan Saleh Qazıyev 1947-ci ildə bu böyük elmi idarəyə direktor təyin olunmuşdu. Belə məsul vəzifədə olarkən zəhmətkeş alim bütün elmi-təşkilatçılıq fəaliyyətini xalqımızın qədim və zəngin mədəni-tarixi irsinin təbliğ edilməsi, Tarix Muzeyinin respublikamızda arxeologiya elminin mərkəzinə çevrilməsi işinə yönəltmişdi. Onun səyi və təşəbbüsü ilə tezliklə onlarca arxeoloji ekspedisiya respublikamızın ayrı-ayrı yerlərində geniş tədqiqatlara başlamışdı. Bu ekspedisiyaların çöl işlərində Saleh Qazıyevin özü də yaxından iştirak etmişdi.

Müharibədən sonrakı illərdə qocaman alim Mingəçevir qazıntılarına rəhbərlik etmişdi. 1953-cü ilə kimi davam edən bu qazıntılar zamanı Azərbaycan tarixinin mis dövründən başlamış orta əsrlərə qədər uzun bir dövrünü əhatə edən qədim yaşayış yerləri, qəbir abidələri və 20 mindən artıq qiymətli maddi-mədəniyyət nümunələri üzə çıxarılmışdı.

Bütün bu tapıntıların xronoloji və mədəni mənsubiyyəti ilk dəfə məhz Saleh Qazıyev tərəfindən müəyyənləşdirilmişdi. Zəhmətkeş alim bu qədim tarixi yadigarları dərindən öyrənərək onların əsasında onlarca böyük elmi əhəmiyyətli əsərlər yazmışdı. Onun rəhbərliyi və ya bilavasitə müəllifliyi altında nəşr olunmuş «Qədim Mingəçevir», «Azərbaycan abidələri», «Azərbaycanın maddi-mədəniyyəti» məcmuəsinin ayrı-ayrı cildləri, «Mingəçevirin küp qəbirlər albomu» Azərbaycanda arxeologiya elminə böyük töhfə olmuşdur.

Qocaman alimin çöl axtarışları təkcə Mingəçevir qazıntıları ilə məhdudlaşmamışdı. Yorulmaq bilməyən alim Mingəçevir tədqiqatlarından sonra Qazax, Ağstafa, Oğuz, Qəbələ və digər bölgələrdə kəşfiyyat işləri aparmışdı. O, bu yeni axtarışlarla Qazax və Ağstafada tunc və dəmir dövrlərinə aid bir sıra yaşayış yerləri və qəbir abidələri aşkara çıxarmışdı. Dəmir dövrünə aid yeni maraqlı abidələr qocaman alim tərəfindən Oğuz bölgəsi ərazisində də tapılmışdı.

Ömrünün son illərini qocaman alim hələ gənc yaşlarından maraq göstərdiyi Qafqaz Albaniyasının maddi-mədəniyyətinin öyrənilməsinə həsr etmişdi. Bu sahədə qədim Qəbələ şəhəri alimin Mingəçevirdən sonra ikinci böyük tədqiqat mənbəyi olmuşdu. 1959-cu ildə qədim Qəbələdə bilavasitə Saleh Qazıyevin rəhbərliyi ilə geniş arxeoloji qazıntılara başlanılmışdı. Zəhmətkeş alim on il arasıkəsilmədən burada qazıntı işləri

aparmış və bu qədim şəhərin xarabalıqlarından saysız-hesabsız qiymətli maddi mədəniyyət nümunələri üzə çıxarmışdı. Bu tədqiqatların ilk yekunları hələ 1964-cü ildə «Azərbaycanın maddi-mədəniyyəti» məcmuəsinin xüsusi cildində şərh olunmuşdur. Bu cilddə verilən ən böyük və samballı məqalə Saleh Qazıyevin özü tərəfindən yazılmışdır. «Qəbələ şəhərinin tarixi-arxeoloji tədqiqi» adlanan həmin məqalədə o, qədim Qəbələnin tarixi mövqeyi haqqında dəyərli məlumatlar vermişdir. Həyatının son illərində yazılmış bu əsərdə Saleh Qazıyevin nəinki Qəbələ, hətta bütün Qafqaz Albaniya tarixi sahəsindəki dərin biliyi, geniş müşahidə qabiliyyəti, hər bir məsələyə böyük dəqiqlik və məsuliyyət hissi ilə yanaşması kimi gözəl cəhətləri bir daha nəzərə çarpmışdı.

Böyük alim yaradıcılığının bir zirvəyə çatdığı ən yüksək vaxtda – 1971-ci ildə vəfat etmişdir. Ona Qəbələ qazıntılarının sonrakı nəticələrini görmək müyəssər olmamışdı. Lakin onun yetirmələri tərəfindən Qəbələdə davam etdiriy1ən qazıntıların nəticələri uğurlu olmuşdu. Bu gözəl nəticələr əslində ömrünü daim axtarışlarda keçirmiş istedadlı alim Saleh Qazıyevin böyük zəhmətinin bəhrəsi kimi qiymətləndirilmişdir.

Qədim Qəbələdə hələ də arxeoloji tədqiqatlar gedir və hər yeni tədqiqat mövsümündə Azərbaycanın bu istedadlı aliminin adı dərin hörmət və ehtiramla yad edilir. İndi onun da ayaq izləri qədim şəhərin əsrlərdən qalan yadigarlarına qarışaraq əbədiləşmişdir.



## QƏDİM DİYARIN YENİ ÖVLADI

Mərhum həmkarım Osman Həbibullayev haqqında yazmaq mənim üçün çox çətindir. Heç bilmirəm, bu kiçik yazıda onun parlaq surətini yenidən canlandırmaq, Azərbaycan arxeologiyasındakı böyük xidmətlərini olduğu kimi, təbii işıqlandıra biləcəyəmmi? Qələmi əlimə götürəndə onun nurani çöhrəsi gözlərim önündə dayandı. Kədərli dəqiqələr yadıma düşdü. Qəlbimi ağrı-acı, qəm bürüdü. Lakin tezcə də bu hissləri, əhvali-ruhiyyəni özümdən uzaqlaşdırmağa çalışdım. Qorxurdum ki, onun haqqındakı yazım başdan-ayağa kədərə bürünər, qəm doğurar.

Ölümündən bir neçə gün qabaq çöhrəsində işıqlı bir təbəssüm vardı. Deyib-gülürdü, xəstəxanaya – yanına gələnlərlə zarafatlaşırdı. Lakin az adam hiss edə bilərdi ki, bu gülüşün arxasında böyük bir həsrət vardı; günəşli sabaha və yeni axtarışlara qovuşmaq həsrəti...

O il payız Bakıya gözlənilmədən gəlmişdi. İki-üç gün ərzində yer-göy qaralmış, ağaclar xoşagəlməyən sönük bir rənglə solmağa başlamışdı. Soyuq külək küçələri, xiyabanları gəzərək ağacların yarpaqlarını yolur, havaya sovururdu. Göyün üzündə isə qara buludlar axını qurtarmaq bilmirdi. Küləyin özü bu qara buludların qarşısında aciz qalmışdı. Dəniz tərəfdən gələn buludlar şəhərin üstünə qara örtük salaraq dəhşət doğururdu. Günəş bu örtüyün arxasında itib-batmışdı. Sanki əbədi olaraq yer üzünü tərk etmişdi.

Payızın belə bir qüssəli, üzüntülü vaxtında o, həyatının son günlərini yaşayırdı. Həkimlərin az-çox ümidi sabahkı cərrahiyyə əməliyyatına qalmışdı. Bəlkə, onun özü də bunu bilirdi. Lakin yenə də gülüb-danışırdı. İlk dəfə onsuz keçən yay tədqiqatlarının nəticələrilə maraqlanırdı. Sözarası o, məndən son əsərinin vəziyyətini soruşdu. Üç-dörd ay idi ki, mən onun həmin əsərini redaktə edirdim. 600 səhifəlik irihəcmli elmi monoqrafiyadan ibarət olan bu əsərində o, özünün ikinci vətəni olan Naxçıvan diyarında uzun illərdən bəri apardığı gərgin axtarışların nəticələrini yekunlaşdırmışdı. Naxçıvanın mis və tunc dövrləri mədəniyyətlərinə həsr olunmuş bu əsər geniş və dərin bilik, böyük istedadla yazılmışdı. Asan və eyni zamanda maraqla oxunurdu. Bununla belə olduqca ciddi bir əsər idi. Elə buna görə də onu böyük məsuliyyət hissilə redaktə edirdim və artıq bu işi qurtarmaq üzrə idim. Əslində, belə bir iş mənim üçün böyük bir məktəb idi. Əsərdəki məsələlərin böyüklüyü və genişliyi, bu və ya digər bir məsələnin həlli üçün

müəllifin gətirdiyi tutarlı dəlillər məni heyran edir, düşündürürdü...





Bu əsəri o, həyatının ən acı və kədərli bir vaxtında başa çatdırmışdı. Ağır xəstəliyə düçar olan bir insan ömrünün dayağı olan həyat yoldaşını çox erkən itirmiş, azyaşlı uşaqlarının qayğı yükünü təkbaşına öz çiyinlərində daşımışdı. Lakin o, bütün iradəsini toplayaraq şəxsi kədərini boğmuş, yenə də axtarışlarını davam etdirmişdi. O, hətta övladlarını da dərsdənkənar vaxtlarda özüylə çöl tədqiqatlarına aparmışdı. Məhz belə bir ağır şəraitdə sonuncu əsərini yazıb qurtarmışdı. Əslində, onun həyatı həmişə ağır olmuşdu. Bu cəfakeş insanın başı üstündən neçə tufan, neçə qasırğa keçmişdi..

Osman Həbibulla oğlu Həbibullayev Azərbaycandan çox-çox uzaqlarda — Krım vilayətinin Bağçasaray şəhərində doğulmuşdu. Atası kənddə müəllimlik etmiş, ailəsini dolandırmışdı. Osman körpə ikən valideynlərini itirmiş və uşaq evinə verilmişdi. İbtidai təhsilini o, uşaq evində almışdı. Burada da mütaliəni sevmiş, ömrünün axırınadək kitabları özünə ən yaxın sirdaş bilmişdi. Bağçasarayın əfsanələrlə dolu sirli aləminə də onu ilk dəfə aparan kitablar olmuşdu. Boş vaxtlarında o, həmişə Bağçasarayın qədim xarabalıqlarına tələsmiş, burada dalğın-dalğın gəzərək həyatın keşməkeşli, enişli-yoxuşlu yolunu düşünmüşdü. O, bu xarabalıqlarda böyük Puşkinin bədii təxəyyülündən doğan zəhmli gireyxanın məhəbbət alovu içərisində çəkdiyi iztirablarının, gözəl Zaremanın qısqanclıq əzablarının, məsum və pak Mariyanın vətən həsrətinin fikrən şahidi olmuşdu.

Bağçasarayda ibtidai təhsilini başa vurduqdan sonra, o, Simferopolda yaşayan, uzaq qohumlarının yanına getmiş və orada orta məktəbi qurtarmışdı. Orta təhsilli Osman atasının nəcib işini davam etdirməyə səy göstərərək bir müddət uzaq kəndlərdən birində müəllim işləmişdi. Lakin təhsilinin natamam olması tezliklə onu bu sevimli işdən məhrum etmiş və fəhləliyə gətirib çıxarmışdı. Az vaxt içərisində o, müxtəlif peşələrə yiyələnərək, çilingər, maşınçı və s. işlərdə çalışmışdı. Belə iş taleyin onu Naxçıvana gətirib çıxaracağına kimi davam etmişdi. Müharibə ərəfəsində Osman Həbibullayev Naxçıvana gələrək öz həyatını həmişəlik onunla bağlamışdı. Naxçıvan öz füsunkar dağları, gözəl təbiəti və zəngin abidələrilə ilk gündən onu özünə heyran etmişdi. Naxçıvanda o, əvvəlcə vilayət partiya komitəsində texniki katib vəzifəsində işləmiş, sonra isə komitənin kitabxanasına rəhbərlik etmişdi. Eyni vaxtda o, müəllimlər kursunda təhsilini də davam etdirmişdi. Müəllimlər kursunu qurtardıqdan sonra dağ kəndi Basqala müəllim təgyin edilmiş, yenidən sevimli işinə qayıtmışdı. Lakin Basqal

kəndində o, uzun müddət müəllimlik edə bilməmişdi. Tezliklə müharibə minlərlə sovet adamı kimi onu da sevimli işindən ayırmışdı. Osman müəllim cəbhəyə yola düşmüşdü.

Onun cəbhədə keçdiyi yol da qəribə olmuşdu. Bir müddət o, Şimali Qafqazda vuruşmuş, az vaxtdan sonra isə cəbhə yolları onu doğma Krım torpağına gətirib çıxarmışdı. O, ata-anasının yurdu olan bu torpağın faşistlərdən azad edilməsində iştirak etmişdi. Cəbhədə üç dəfə yaralanmış, axırıncı ən ağır yaranı yenə də öz uşaqlıq yurdunda almışdı. Ömrünün ən gözəl çağında o əlil olmuş cəbhədən tərxis edilmişdi.

Müharibədən qayıtdıqdan sonra Osman Həbibullayev Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakültəsinə daxl olmuş və onu müvəffəqiyyətlə başa çatdırmışdı. Hələ Universitetdə oxuyarkən Osman Həbibullayev Azərbaycan SSR Elmlər Akademiyasının Tarix institutuna işə qəbul olunmuşdu. Burada o, apxeolokiya şöbəsinə daxil olaraq həyatını həmişəlik Azərbaycanın qədim maddi-mədəniyyət abidələrini, zəngin keçmişini öyrənməyə həsr etmək qərarına gəlmişdi. Bununla onun əmək fəaliyyəti yeni yola istiqamət almışdı. Arxeologiya şöbəsində o, əvvəlcə kiçik laborant vəzifəsində işləmiş və bu elmin bütün incəliklərinə yiyələnmişdi. Yalnız bundan sonra ona elmi işçi vəzifəsi tapşırılmış və çöl tədqiqatı işlərində iştirak etmək hüququ verilmişdi. Az vaxt içərisində o, Qobustan, Mingəçevir, Ərənqala arxeoloji ekspedisiyalarında fəal iştirak edərək özünü bacarıqlı və yorulmaz çöl tədqiqatçısı kimi tanıtmışdı. Qobustanın qədim rəsmlərinin qeydə alınmasında, Ərənqala qazıntılarında onun rolu xüsusilə böyük olmuşdur. Elə buna görə də tezliklə Osman Həbibullayevə Naxçıvan ərazisində müstəqil şəkildə arxeoloji axtarışlar, qazıntılar aparmaq kimi məsuliyyətli və eyni zamanda şərəfli bir iş tapşırılmışdı. Burada o, Kültəpə kimi möhtəşəm və olduqca mürəkkəb bir abidənin qazıntılarına başlamıtdı. Bu tədqiqatlara Osman Həbibullayev ömrünün bütün qalan illərini sərf etmişdir. Elə buna görə də Naxçıvan torpağı ana mərhəmətilə özünün ən qiymətli yadigarlarını məhz Osmana vermiş və onun adını respublikamızın sərhədlərindən çox-çox uzaqlarda tanıtmışdır. Nəinki



Azərbaycanda, hətta bütün Qafqazda uzaq mis dövrünə aid yaşayış yerinin qalıqları ilk dəfə Osman Həbibullayev tərəfindən Kültəpədə aşkar edilmişdir. Elə buna görə də Qafqazda mis dövrünün ilk tədqiqi bilavasitə Osman Həbibullaevin adı ilə bağlıdır. Yeddi min yaşı olan bu yaşayış yerindən o ən qədim əkinçi babalarımıza məxsus yüzlərcə əmək alətləri, gildən düzəldilmiş qablar, ən qədim mis əşyalar, silah və bəzək nümunələri tapmışdı. Onun burada açdığı tikintilər də çox böyük maraq doğurmuşdu. Çiy kərpiclərdən və möhrədən, dairəvi şəkildə inşa edilmiş bu tikintilər ölkəmiz ərazisində üzə çıxarılan ən qədim yaşayış evləri olmuşdu.

Osman Həbibullayev ümumiyyətlə, Kultəpə abidəsində 21 metr qalınlığında mədəni təbəqə müəyyənləşdirmiş, mis-tunc dövrünə aid bu təbəqənda dərin laylarından küllü miqdarda qədim maddi-mədəniyyət nümunələri əldə etmişdi.

Əhəmiyyətlidir ki, Osman Həbibullayevin Kültəpədə aşkar etdiyi qiymətli tapıntıların ikinci bir hissəsi bütün Zaqafqaziya arxeologiyasında mühüm yer tutan «Kür-Araz (ilk tunc dövrü) mədəniyyətinə» aid olmuşdu. Abidədə təkcə bu mədəniyyətə məxsus 9 metr qalınlığında mədəni təbəqə qazılmış və həmin təbəqədən eramızdan əvvəl III minilliyə aid çoxlu məişət-təsərrüfat tikintiləri, əkinçilik və maldarlıqla əlaqədar çoxlu əmək alətləri, gil qablar, kiçik ölçülü heykəllər, tunc əşyalar və sairə üzə çıxarılmışdı. Kültəpədən tuncun istehsalı ilə bağlı olan çoxlu əmək alətlərinin tapılması xüsusilə böyük elmi əhəmiyyət kəsb etmiş, Azərbaycan ərazisində hələ 5 min il əvvəl yerli zəmin əsasında metallurgiyanın və metal işləmə sənətinin yarandığını gösqərmişdi.

Kültəpə tədqiqatları əsasında Osman Həbibullayev onlarca elmi əsərlər yazmış və bu əsrlərdə Azərbaycanın qədim tarixinin bir sıra qar ailıq məsələlərini işıqlandırmışdı. Bu əsərlər islər ölkəmizdə, istərsə də xaricdə tədqiqatçıların böyük diqqətinə səbəb olmuşdu. Osman Həbibullayev öz namizədlik dissertasiyasını da Kültəpə abidəsinə həsr etmiş və 1959-cu ildə müvəffəqiyyətlə müdafiə etmişdi. Həmin dissertasiyada Azərbaycan ərazisində yaşamış qədim qəbilə və tayfaların iqtisadi və ictimai həyatı, mədəni nailiyyətləri, qədim şərq xalqları ilə iqtisadi-mədəni əlaqələri böyük elmi əsaslarla öyrənilmişdi.

Lakin Osman Həbibullayevin Naxçıvan ərazisindəki tədqiqatları təkcə Kültəpə abidəsi və onun qazıntıları ilə məhdudlaşmamışdı. Bu qazıntılarla yanaşı o, Muxtar respublikanın ərazisində daim kəşfiyyat axtarışları aparmış və belə işlə onlarca qiymətli tarixi abidə üzə çıxarmışdı. 1969-cu ildə Osman Həbibullayev tərəfindən Qızıl-Vəngdə

tunc dövrünə aid böyük bir yaşayış yerinin qalıqları zahirə çıxarılmışdı. Eyni vaxtda o, Naxçıvan ərazisində yeni bir abidənin, II Kültəpənin tədqiqinə başlamışdı. Bütün bunlar ona «Naxçıvan MSSR ərazisində eneolit və tunc dövrləri» adlı ümimiləşdirilmiş yeni bir əsəri başlamağa imkan vermişdi. Bu əsərdə o, uzun illərdən bəri topladığı zəngin maddi-mədəniyyət nümunələri əsasında Azərbaycan torpağının ayrılmaz hissəsi olan Naxçıvanın qədim mədəni-tarixi inkişafını əks etdirməyi nəzərdə tutmuşdu. Yeddi böyük fəsildən ibarət olan bu əsərini o, məlum olduğu kimi ölümündən azca qabaq müvəffəqiyyətlə başa çatdırmışdı. Təəssüf ki, ona bu əsərin çap nəşrini görmək müyəssər olmamışdı.

İstedadlı alim 1970-ci ilin sentyabr ayında, 57 il qabaq dünyaya göz açdığı həmin ayda vəfat etmişdi.

Aylar, illər ötəcək. Lakin daim uzaqlaşan illər onu bizə daha da yaxınlaşdıracaqdır. Mənalı ömrümü Azərbaycan arxeologiyasının inkişafına həsr edən istedadlı alim Osman Həbibulla oğlu Həbibullayev özünün kəşf etdiyi qədim abidələr üzərində həmişə yeni bir abidə kimi ucalacaqdır.

# ABİDƏLƏR, DÜŞÜNCƏLƏR



192

Doğma Azərbaycanımız dünyanın qədim və zəngin tarixə malik ölkələrindəndir. Onun elə bir guşəsi yoxdur ki, orada uzaq keçmişimizdən, qərinələrdən xəbər verən, onları yaşadan tarixi abidələrə təsadüf olunmasın. Bunların bir qismi əsrlərin, minilliklərin qasırğa və tufanları nəticəsində uçulub dağılsa, torpağa qərq olsa da, bir qismi hələ də vüqarla durmaqda davam edir, ulu babalarımızın qəhrəmanlıq tarixindən, böyük mədəni nailiyyətlərindən, misilsiz irsindən gözəl dastanlar oxuyur. Böyük fəxr hissilə deyə bilərik ki, mədəni-tarixi irsimizin nadir nümunələri olan Bakıdakı əfsanəvi Qız qalası, Şirvanşahlar sarayı, Qobustanın min səhifəli daş salnaməsi, Bərdə və



Naxçıvanın misilsiz memarlıq abidələri günəşli respublikamızın gözəl, parlaq rəmzi kimi onu bütün dünyada tanıtmışdır. Lakin respublikamızın ərazisi təkcə qədim dövrlərin abidələrilə zəngin deyildir. Burada azadlıq mübarizəsi, xalqımızın döyüş hünərini əks etdirən abidələr də çoxdur. Şübhəsiz, mövcud şəraitdə respublika dövlət orqanları və ictimai təşkilatları üzərinə bu qiymətli tarixi abidələri və yadigarları qorumaq, onlardan səmərəli şəkildə istifadə etmək kimi məsuliyyətli və eyni zamanda şərəfli vəzifə düşür. Bu işi respublikamızın hər bir şüurlu vətəndaşı da özünə müqəddəs vəzifə, şərəfli borc bilir.

Son illərdə respublikamızda qədim maddi mədəniyyət abidələrinin qeydə alınması, bərpa və mühafizə olunması, yeni muzeylərin, xatirə ansambllarının açılması, əmək və döyüş hünərlərini əks etdirən abidələrin ucaldılması sahəsində xeyli iş görülmüşdür. Bununla belə, təəssüflə etiraf etməliyik ki, böyük dövlət əhəmiyyətli bu mühüm iş sahəsində gözə çarpan qüsurlar da vardır. Əlbəttə, bu məsələdə qədim dövrlərin tarixçisi kimi məni hər şeydən əvvəl daim təmasda olduğum uzaq keçmişin yadigarları və onların gələcək taleyi maraqlandırır. Buna görə də mən bu yazıda əsasən qədim abidələr haqqında danışmaq, onların mühafizəsi ilə əlaqədar öz arzu və düşüncələrimi, tövsiyələrimi şərh etmək istəyirəm.

Hər şeydən əvvəl abidələrin bərpası məsələsi üzərində dayanmaq istəyirəm. Məlumdur ki, bərpa işi abidənin dağılmasının qarşısını almaq, onun əvvəlki simasını bərpa edib ömrünü uzatmaq məqsədini güdür. Fərəhləndirici haldır ki, Bakıda qədim abidələrin bərpası ilə məşğul olan xüsusi elmi idarə var. Lakin təəssüflə qeyd etməliyik ki, indiyədək bu idarənin gördüyü işlərin əksəriyyəti qənaətbəxş deyil.

Hər bir tarixi abidənin bərpasına böyük həssaslıq, ehtiyat və məsuliyyət hissilə yanaşmaq lazımdır. Bizdə isə adətən bu işlər tələsik aparılır. Bəzən kiçik bir yerin bərpasını asanlaşdırmaq və tez qurtarmaq üçün böyük bir sahə amansızcasına sökülür; abidə dövrünün tikinti üslubuna uyğun olmayan bir tərzdə yenidən tikilir. Odur ki, qiymətli abidələrimizin əksəriyyəti öz tarixi görkəmini, qədimliyini itirir. Bu cəhətdən Bakıdakı Xan sarayının vəziyyəti o qədər də sevindirici deyildir. Buradakı böyük nöqsanlı bərpa işləri çoxlarında yalnız ikrah hissi oyadır. O, indi orta əsrlərə məxsus gözəl sənət əsərindən çox modernizmin kobud nümunəsini xatırladır.

Bakının yaraşığı olan əfsanəvi Qız qalasının nəzərə çarpan yamaqlarına da heç cür göz yummaq olmur. Bərpa işlərinin üstündən artıq bir neçə ilin keçməsinə baxmayaraq

soyuq ağ daşlardan olan bu yamaqlar qalanın qədim daşları ilə qəti uzlaşmır.

Son illərdə Qız qalasının yaxınlığında aparılan arxeoloji qazıntılarla aşkar olunmuş qədim və maraqlı tikinti kompleksinin də aqibəti bərpa işlərindən sonra uğursuz olmuşdur. Gözəl memarlıq abidəsi olan və bir neçə əsr torpaq altında gözəl mühafizə olunmuş bu tikintidən əsər belə qalmamışdır. Qədim divarlar, tağlar və səkilər bütünlüklə sökülmüş, yonulmuş daşlardan yenidən tikilmişdir. Belə bir işə qədim Qəbələ şəhərinin bürcləri də məruz qalmışdır. Onların üzəri yarıyadək ağ daşla hörülmüşdür.

Qədim abidələrin bərpasında, xüsusən onların göz qabağında olan hissələrinin bərpasında yeni inşaat materiallarının (beton bloklar, sement suvaqlar və s.) işlədilməsi də bağışlanmaz haldır. Məlumdur ki, vaxtı ilə bizim tarixi abidələri bərpa edən idarənin hörmətli əməkdaşları Suraxanıdakı qədim atəşgahın divarlarını başdan-başa sement suvaqla örtmüşdülər və belə naşı və məsuliyyətsiz iş nəticəsində bu maraqlı abidə əvvəlkindən qat-qat pis vəziyyətə düşmüş, öz əvvəlki gözəl simasını tamamilə itirmişdi. Yaxşıdır ki, sonradan görülən tədbirlər abidəni belə acınacaqlı vəziyyətdən çıxartdı. Digər tərəfdən mənə elə gəlir ki, hər hansı bir abidənin bərpası üçün plan-layihə tərtib edilərkən bu hökmən müvafiq idarələrin elmi şuralarının birgə iclasında tarixçi-mütəxəssislər tərəfindən geniş müzakirə olunmalı və onun sonrakı icrası ciddi nəzarət altında keçməlidir.

Bir çox yerlərdə abidələrin bərpasında adətən köhnə tikililərin daşlarından istifadə olunur və bu daşlar qədim görünsün deyə onların üzərində yosun belə yetişdirilir. Bizim öz ölkəmizdə də bərpaçılarımızın müvəffəqiyyətləri kiçik deyildir. Leninqrad və Orta Asiya bərpaçıları böyük təcrübə məktəbinə malikdirlər. Onların işləri bizə nümunə ola bilər. Onlardan bir çox şeyləri öyrənsək pis olmaz.

Onu da qeyd etməliyəm ki, bizim respublikamızda bərpa işlərinə bəzən, bu sahədə heç bir ehtiyacı olmayan abidələr də məruz qalırlar. Mənə görə vaxtilə İçəri şəhərin qala divarlarının bərpasına, daha doğrusu, onlara əlavələr edilməsinə heç bir lüzum olmamışdı. Əvvəllər bu divarların üst hissəsinin düz olması onlara möhtəşəmlik, əzəmət verirdi. Bərpa işləri zamanı isə divarlara, sanki kartondan kəsilib düzəldilmiş dişlər əlavə olunduqdan sonra onlar bir növ teatr butoforiyası şəklinə düşdü, orta əsrlərə məxsus əzəmətini itirdi.

Hər bir şəhərin ümumi görkəmində müxtəlif məqsədlər üçün və müxtəlif üslublarda

tikilmiş binaların damları böyük rol oynayır. Təsadüfi deyil ki, dünya ədəbiyyatının bir sıra gözəl nümunələrində şəhərlərin bədii təsviri ilk növbədə damların təsvirilə başlanır. Bu məsələ ilə bağlı bir neçə söz demək istəyirəm. Son vaxtlarda şəhərimizin məscidlərində bərpa və təmir işləri aparılmışdır. Bu bərpa və təmir işlərini də yüksək səviyyəli hesab etmək olmaz. Təmir işləri zamanı onların firuzəyi və gözəl naxışlı kümbəzlərinin, tikişləri kobud şəkildə gözə çarpan dəmir lövhələrlə örtülməsi, boğuq və ürəkbulandırıcı rənglərlə rənglənməsi şəhərimizin ümumi görkəminə mənfi təsir etmişdir. Onun damarlarındakı şərq aləminə məxsus, onsuz da az olan, rəngarəngliyini pozmuşdur.

Yeri gəlmişkən göstərməliyəm ki, bizdə tarixi abidələrin ətrafını yaşıllaşdırılması işində də müəyyən nöqsanlar gözə çarpır. Bir çox hallarda abidələrin ətrafında yerli landşafta, yerli təbiətə uyğun olmayan ağaclar, kollar əkilir. Abidələrin ətrafında bir



qayda olaraq həmişəyaşıl ağacların, xüsusən küknar, şam ağaclarının əkilməsi bir növ pis zövqü biruzə verir, yeknəsəkliyə gətirib çıxarır, sanki onların üzərinə pərdə çəkir. Halbuki Azərbaycana xas olan nar, əncir, badam, iydə, çinar, qovaq, söyüd və s. ağaclar payız və qış fəsillərində belə öz çılpaq budaqları ilə mahir rəssam əlilə işlənmiş gözəl və canlı bir qrafika əsərini xatırladırlar. Qız qalasının ətrafında əkilmiş mavi şam ağacları özlüyündə nə qədər əsrarəngiz olsalar da abidə ilə uyuşa bilmirlər, onun qocaman divarları qarşısında plastik kütlədən hazırlanmış oyuncaqları xatırladırlar. Xan sarayının hekayətində olan iynəyarpaqlı ağaclar da bu qədim tikinti kompleksi ilə vəhdət təşkil edə bilmirlər. Belə misallardan çox çəkmək olar. Şəhərimizə hər il ölkəmizin müxtəlif yerlərindən və bir çox xarici ölkələrdən on minlərlə qonaq gəlir, ona diqqət yetirir, onun görməli tarixi yerlərilə tanış olurlar. Xalqımızın yüksək mədəniyyətini tərənnüm edən bu abidələrin hər cəhətdən lazımi yüksək səviyyədə saxlanılmasına müvafiq idarə və təşkilatlar daim nəzərə yetirilməlidirlər.

Mən arxeoloqam. İxtisasımla əlaqədar tez-tez respublikamızın müxtəlif guşələrində elmi ezamiyyətlərdə oluram, tədqiqatlar, arxeoloji qazıntılar aparıram. Aydındır ki, arxeoloji qazıntıların əksəriyyəti tarixi abidəni elmi şəkildə tədqiq etməklə yanaşı son mərhələdə onun həmişəlik məhvi ilə nəticələnir. Belə vəziyyət məni müəyyən düşüncələrə sövq edir.

On yeddi, iyirmi il bundan qabaq Mil düzündə olanlar onun göz işlədikcə uzanan mavi dərinliklərində sirrli ehramlar kimi ucalan nəhəng üç təpəni yəqin ki, görmüşdülər. Son vaxtlara qədər Milli Üç təpəsiz təsəvvür etmək qeyri-mümkün idi. İndi isə onlardan biri yoxdur, yerlə yeksan olmuşdur. Onun əvəzinə Milin sinəsində amansız bir əlin vurduğu yaranın dərin yeri qalmışdır. Bu, bilavasitə arxeoloji tədqiqatların nəticəsidir.

Üç təpələrin tədqiqində iki il mən də iştirak etmişəm. Arxeologiya elmindəki ilk addımlarım bu tədqiqatlarla bağlı olmuşdur. Səhərdən axşama qədər qızmar günəş altında iş, yuxusuz gecələr indi arxada qalmışdır. Lakin minilliklər boyu Milin yaraşığı olmuş, üç igid qardaş kimi əzəmətlə zamana sinə gərmiş bu təpələrdən birinin uğursuz taleyi indiyədək yaddan çıxmır, daim məni düşündürür. Hələ beş min il bundan əvvəl zəhməti çox sevən, qədir və hörməti yaxşı bilən ulu babalarımızın əlilə öz böyük nüfuzlu və hörmətli tayfa başçılarının qəbirləri üzərinə tökülmüş bu təpələrin üç olmasında bəlkə də böyük bir məna varmış. Axı, ulu babalarımız hələ çox qədim zamanlardan hər şeyi üç demişlər...

Gizlətməyə dəyməz ki, təpənin qazıntısı zamanı tədqiqatlara rəhbərlik edən görkəmli qafqazşünas arxeoloq- alim A.A.İyessen söhbətlərində tez-tez etiraf edirdi ki, Türkiyə ərazisindəki belə təpələr, qazıntı nəticəsində məhv olmasın deyə, yalnız lağım yolu ilə tədqiq olunur. Ümumi nəticədə təpə bütöv qalır, öz əvvəlki görkəmini itirmir. Bəli, belə söhbətlər olurdu. Bununla belə güclü buldozerlər təpəni dağıtmaqda davam edirdilər. Yaxın, uzaq kəndlərin, obaların əhalisi təpəyə tamaşaya gəlirdi, işlə maraqlanırdı. Hamı bizi elmi tədqiqatçıdan çox xəzinə axtaranlara oxşadırdı. Burda müəyyən bir həqiqət də var idi. Çünki təpənin qazıntısı məhz zəngin qəbir abidəsi açmaq məqsədindən irəli gəlmişdi. Keçən əsrin bir sıra tədqiqatçılarının, tarixi abidələrin məhvinə səbəb olan belə qazıntılarını sonsuz ikrah hissilə qələmə aldığımız halda indi biz özümüz eyni işə meyl etmişdik, aludə olmuşduq.

Böyük həyəcan və ümidlərlə nəticəni gözləyirdik. Böyük vəsaitlərin və vaxtın bahasına başa gələn bu qazıntıların son nəticəsi isə fərəhli olmadı. Qəbirdən çıxacaq zəngin avadanlığı bükmək üçün ehtiyat görülmüş, kağız topaları açılmamış qaldı.



Xüsusi düzəldilmiş yeşiklər də lazımsız oldu, kağız topları ilə birlikdə Leninqrada geriyə qaytarıldı. Biz gecikmişdik, təpənin altında olan möhtəşəm və zəngin qəbir hələ bir neçə əsr əvvəl daha mükəmməl üsulla, yeraltı yolla qarət olunmuşdu. Bu əməliyyatdan qəbrin üst örtüyünə – təpəyə heç bir ziyan dəyməmişdi. Biz isə təpəni buldozurların köməkliyi ilə boş yerə dağıtdıq. Əlbəttə, qazıntı işlərinin kəsb etdiyi müəyyən elmi əhəmiyyəti inkar etmək olmaz. Lakin bu da göz qabağındadır ki, belə nəticəni təpəni bütünlüklə dağıtmadan da əldə etmək mümkün idi.

İndi Üç təpənin acı taleyi haqqında söhbət düşəndə müxtəlif suallar ortalığa atılır. Üç təpənin tədqiqinə lüzum var idimi? Bu qazıntıların zəruriliyi məsələsi müvafiq elmi idarələrin elmi şuralarında müzakirə olunmuşdumu? Qazıntılar başlamazdan əvvəl təpə hərtərəfli öyrənilmişdimi? Tədqiqatlar üçün xüsusi qazıntı üsulu nəzərdə tutulmuşdumu? Suallar çoxdur. Cavablar müxtəlifdir. Nəticə isə birdir. Mil düzü beş min il ona rövnəq verən, onun yaxın sirdaşı olan üç təpənin birindən həmişəlik məhrum olmuşdur.

Bəli, gələcək qazıntı işlərində, Üç təpə tədqiqatlarının dərsini yaddan çıxarmaq olmaz.

İyirmi ilə yaxın Mildə orta əsr Azərbaycanın mühüm iqtisadi və mədəni mərkəzlərindən biri olmuş Beyləqan şəhərinin xarabalıqlarında (Örənqala) tədqiqatlar aparıldı. Hər il qazıntılar nəticəsində məişət və təsərrüfata, incəsənət və mədəniyyətə aid gözəl maddi mədəniyyət nümunələrilə yanaşı uzun müddət zülmətdə qalmış bütöv məhəllələr, sənətkarlıq emalatxanaları, yaşayış binaları yenidən üzə çıxırdı. Bunların hamısı arxeologiya elminin xüsusiyyətinə uyğun dəqiq qeydə alınır, təsvir olunur, ölçülür, kğıza köçürülürdü və ... yaddan çıxarılırdı. Əlbəttə, kağızda onlar yaşayırdı,



yenidən vüsət alırdı. Sonralar onların əsasında tədqiqat əsərləri yazıldı, dissertasiyalar müdafiə olundu, elmi adlar mənimsənildi. Bəs bu abidələrin taleyi? Orta əsr memarlığının gözəl nümunələri olan bu tikililərdən tezliklə iz belə qalmamışdı. Kərpic əldə etmək məqsədilə ekspedisiya işini hələ qurtarmamış, yerli əhali onları amansızcasına söküb daşımışdır. Belə bir yarıtmaz vəziyyət artıq on illərdir ki, qanunauyğun şəklə düşmüşdür. İndi bu qədim şəhərin hətta tədqiq olunmamış yerlərindən belə dağıtma yolu ilə kərpic çıxarılır. Biz isə hələ də buna göz yumruq, sanki heç bir şey görmürük. Susuruq. Jdanov rayonunun rəhbər təşkilat və idarələri susurlar. Bakının əlaqədar idarələri susurlar. Qonşu respublikalarda isə qədim şəhər yerlərində açılan küçələr, meydanlar, məhəllələr və müxtəlif tikinti qalıqları olduğu kimi böyük qayğıkeşliklə saxlanılır. Ermənistan və Gürcüstanın orta əsrlərə aid bir çox şəhər xarabalığı yerində çoxdandır ki, kiçik muzeylər, elmi bazalar yaradılmışdır. Bunlar yerli əhaliyə bu tarixi abidələrin əhəmiyyətini təbliğ etməklə yanaşı həmin abidələrin mühafizə olunmasında böyük rol oynayır. Qeyd etməliyik ki, Azərbaycan SSR EA Arxeologiya və Etnoqraftya bölməsinin Örənqalada böyük arxeoloji bazası vardır. Lakin bu bazanın otaqları artıq bir neçə ildir ki, boş və bağlıdır. Bu bazadan səmərəli şəkildə istifadə etməyin vaxtı çoxdan çatmışdır. Arxeologiya və etnoqrafiya bölməsi və Mədəniyyət Nazirliyimiz belə bir imkanı əldən verməməlidir. Yeri ikən onu da açıq etiraf etməliyik ki, Azərbaycanın müxtəlif yerlərində aparılan arxeoloji qazıntılar və onların nəticələri həmişə Mədəniyyət Nazirliyinin diqqət mərkəzindən kənarda qalmışdır. Gizlətməyə dəyməz ki, biz bir dəfə olsun belə arxeoloji qazıntılarda bu böyük və məsuliyyətli idarənin müvəkkillərini görməmişik. Bu cür laqeydlik üzündən bir çox abidələrimiz daim başsız qalmış və məhv olmuşdur.

Son vaxtlara qədər Azərbaycanda qədim qaya təsvirlərinin vətəni yalnız Qobustan hesab olunurdu. İndi isə qədim qayaüstü təsvirlər respublikamızın başqa-başqa yerlərində də aşkar olmuşdur. Qaya və daşlar üzərində qədim təsvirlərə Kəlbəcər yaylaqlarında, Naxçıvandakı Gəmiqayada və s. yerlərdə rast gəlinmişdir. Qaya təsvirlərinin maraqlı bir qrupu bir neçə il bundan əvvəl Abşeronda-Şüvəlan yaxınlığında qeydə alınmışdır. Lakin bu qiymətli daş kitabələrinin də vəziyyəti acınacaqlıdır. Baxılmazlıq üzündən üzərlərində təsvir olunan sal daşlar yerli əhali tərəfindən sındırılır, daşınır və müxtəlif tikinti işlərində istifadə olunur. Burada dağıntı işlərinə arxeoloji qazıntılar nəticəsində aşkar olunan tunc dövrünə aid müxtəlif yaşayış və təsərrüfat

binaları, məbəd yerləri və qəbir abidələri də məruz qalmışdır. İndi bu yerdə qazıntılardan sonra salamat qalmış kiçik bir abidə belə görmək qeyri-mümkündür. Halbuki Şüvəlandakı tarixi-arxeoloji abidələrin yerləşdiyi ərazinin qoruq elan edilməsi, onların ətraflarının hasarlanması barəsində çoxdandır ki, bir sıra mötəbər elmi idarələrdə və ictimai təşkilatlarda söhbətlər gedir. Hətta bu haqda əlaqədar təşkilatların xüsusi qərarı olmuşdur. Lakin bu qərarlar uzun müddətdir ki, kağızda qalır. Söhbətlər də unudulmuş, yaddan çıxmışdır. Qiymətli abidələrin dağıdılması isə sürətlə davam edir. Belə çıxır ki, indiki vəziyyətdə Abşeronun maddi-mədəniyyət abidələrinin yer altında qalması daha məqsədəuyğundur.

Azərbaycan EA Arxeologiya və Etnoqrafiya bölməsinin əsas vəzifəsi tarixi abidələrdə tədqiqatlar aparmaqdır. Bununla belə, o, tarixi abidələrdən nəzər-diqqətini heç vaxt qaçırmır. Bölmənin vaxtında görülmüş bir sıra təcili tədbirləri və xəbərdarlıqları ilə respublikamızın bir çox qiymətli abidələri dağılmaq, məhv olmaq təhlükəsindən xilas olmuşdur. Bununla belə bu bölmə təkbaşına Azərbaycanın müxtəlif guşələrində yerləşən saysız-hesabsız tarixi abidələrə nəzarət etmək iqtidarında deyildir. Belə işdə əlaqədar elmi idarələrin, yerlərdə rəhbər təşkilatların birgə səyi olmalıdır. İyirmi ilə yaxındır ki, bir arxeoloq kimi respublikamızın müxtəlif yerlərində tədqiqatlar aparıram, ulu babalarımızın izlərini axtarıram. Ürək ağrısı ilə qeyd etməliyəm ki, bu uzun illərdə ayaq basdığın hər yerdə tarixi abidələrə yalnız laqeyd münasibətin şahidi olmuşam. Əsrlərə sinə gərmiş bir sıra qiymətli abidələrin ayrı-ayrı adamlar və yaxud müxtəlif tikinti idarələri tərəfindən necə dağıdıldığını, məhv edildiyini gözlərimlə görmüşəm. Ayrı-ayrı yerlərdə tarixi abidələrin qorunması işinin pis təşkil olunmasında məsuliyyətin böyük bir qismi şəhər, bölgə və kənd sovetləri rəhbərlərinin, ictimai təşkilat başçılarının və nəhayət, yerli ziyalıların üzərinə düşür. Bu cəhətdən yerli ziyalılarımızın da mənəvi sərvətlərimiz olan tarixi abidələrə qarşı laqeyd münasibətinə heç cür haqq qazandırmaq olmaz. Bununla əlaqədar mən, bilavasitə tədqiqat apardığım zonanın tarixi abidələri və onların aqibəti haqqında da danışmaq istəyirəm. «Kiçik Qafqazın cənub-şərq ətəklərində ilk tunc dövrü mədəniyyətinin izləri» tədqiqat mövzusu ilə əlaqədar 1964-cü ildən Quruçay-Köndələnçay hövzəsində axtarışlar aparıram. Gözəl təbiətli bu yer respublikamızın eyni zamanda arxeoloji və memarlıq abidələri ilə zəngin olan bölgələrindən biridir.

Ölkəmizdə qədim daş dövrü insanlarının ən nadir düşərgələrindən ikisi: Azıx və

Tağlar mağaraları bu hövzədə yerləşir. Hələ keçən əsrdə tədqiqatçıların diqqətini özünə cəlb etmiş, hal-hazırda isə Qafqazın ən çoxtəbəqəli abidəsi kimi geniş şöhrət tapmış Qaraköpəktəpə abidəsi, qızıl və sümükdən böyük ustalıqla hazırlanmış gözəl incəsənət nümunələri ilə Moskva Tarix Muzeyinin fondlarını zənginləşdirən Qarabulaq kurqanları da Quruçay-Köndələnçay hövzəsindədir. Təqdirə layiq haldır ki, Arxeologiya və etnoqrafiya bölməsi və Azərbaycan Dövlət Universiteti bu hövzənin elmi cəhətdən geniş tədqi qinə xüsusi fikir verir, hər il oraya arxeoloji ekspedisiyalar təşkil edir. Bu tədqiqatlar az əhəmiyyətli olmamışdır. Qısa müddətdə Quruçay-Köndələnçay hövzəsində uzaq daş dövrü düşərgələrindən əlavə mis dövrünə və tunc dövrünün ayrı-ayrı mərhələlərinə aid onlarca qədim yaşayış məskənlərinin qalıqları, qəbir abidələri aşkar edilmiş və qeydə alınmışdır. Bu abidələrin böyük bir qismi Quruçay-Köndələnçay hövzəsinin payına düşən Füzuli bölgəsində ərazisində yerləşir. Lakin böyük təəssüflə qeyd etməliyik ki, bu bölgədəki ərazisində yerləşən qiymətli yadigarlara qarşı yerli idarə və təşkilatlar, onların rəhbərləri və yerli ziyalılar tərəfindən göstərilən laqeydlik və etinasızlıq uzun müddətdir ki, bizdə təşviş hissi oyadır. Son illərdə bölgə ərazisində olan bir sıra qədim maddi mədəniyyət abidələri müxtəlif tikinti işlərilə tamamilə dağılıb məhv edilmiş və yaxud dağılmaq təhlükəsi altına düşmüşdür. Füzuli şəhərinin girəcəyində yerləşən və ilk tunc dövrünə aid yaşayış yerinin qalığı olan Günəştəpə abidəsinin böyük bir hissəsi bölgələr arası tikinti idarəsi tərəfindən amansızcasına uçurulmuş və hələ də uçurulmaqda davam edir. İdarənin rəisinə, bölgə rəhbərlərinə yaxşı məlumdur ki, 1965-ci ildən həmin təpədə elmi-tədqiqat işləri aparılır və tədqiqatlar hələ başa çatmamışdır. Qiymətli maddi-mədəniyyət abidəsi olan və xalqımızın 7 min illik tarixi-mədəni inkişafını əks etdirən Qaraköpəktəpə də olduqca pis vəziyyətdədir. Onun cənub və qərb yamaclarında torpaq işlərilə dərin xəndəklər qazılmış, müxtəlif idarələrə məxsus zövqsüz, tikinti mədəniyyətindən uzaq binalar tikilmişdir. İndi bu abidəyə getmək üçün yol belə yoxdur.

Azərbaycan Elmlər Akademiyasının müvafiq idarələri dəfələrlə belə qanunsuz işləri bölgə rəhbərlərinin nəzərinə çatdırmış, onlardan tarixi abidələrin dağıdılmasının qarşısını almaq üçün təcili tədbirlər görülməsini xahiş etmişdir. Lakin bütün bu xəbərdarlıqlar və xahişlər etinasızlıqla qarşılanmış, müsbət nəticə verməmişdir.

Füzuli bölgə rəhbərləri, tarixi abidələri dağıdan müxtəlif tikinti və idarələrin başçıları yaddan çıxarmamalıdırlar ki, «Tarix və mədəniyyət abidələrinin mühafizəsi və

onlardan istifadə haqqında» mövcud qanununa əsasən dövlət tərəfindən qorunan maddi mədəniyyət abidələri üzərində və ətrafında hər hansı bir tikinti işləri aparmaq cinayət hesab olunur və belə işin məsuliyyəti tikinti başçıları ilə yanaşı bölgə rəhbər təşkilat və idarələrinin üzərinə düşür.

Bölgədə yerləşən bir sıra qədim memarlıq abidələrinin vəziyyəti də acınacaqlıdır. Xüsusən, Qarğabazardakı gözəl memarlıq abidəsi olan qədim karvansaranın baxılmazlıq üzündən tamamilə bərbad hala düşməsinə heç cür göz yummaq olmur. Onun həyəti ilin bütün fəsillərində mal-qara saxlamaq üçün istifadə olunur. Təzək ambarını xatırladır. Divarları bir çox yerdən sökülmüş və dağılmışdır. Maraqlı bir haldır ki, bu tarixi abidəyə məxsus dəmir lövhədə hansı səbəblərdənsə kolxoz idarəsinin darvazası üzərində bərqərar olubdur. Əminəm ki, Füzuli bölgə rəhbərləri gündə bir neçə dəfə bu tarixi abidənin yanından ötüb keçirlər və hər dəfə ona qarşı olan bu böyük hörmətsizliyin şahidi olurlar. Tədbir isə görülmür. Heç kəs abidəni dağıdanların, ona hörmətsizlik edənlərin amansız və qəddar əlini tutub saxlamaq istəmir. Görünür ki, biz hələ adi vətəndaşlıq duyğularından belə məhrumuq. Deyirlər ki, Qarğabazardakı məktəbin müdiri tarixçidir. Deyirlər... Lakin bizə daha aydın bəllidir ki, bu bölgədə bir sıra mühüm vəzifələrə ixtisasca tarixçi olan şəxslər rəhbərlik edirlər. Məntiqi nəticə çıxır ki, Füzuli bölgəsindəki abidələr daha gözəl mühafizə olunmalıdır. Əslində gördüyümüz kimi vəziyyət bam-başqadır. Belə bir vəziyyətdən təcili nəticə çıxarmağa dəyər. Qarğabazardakı tarixi abidənin acınacaqlı vəziyyətdə olmasının məsuliyyəti digər tərəfdən Mədəniyyət Nazirliyinin üzərinə düşür. Tarixi abidələrin mühafizəsini «Dövlət tərəfindən qorunur» xəbərdarlıq lövhəsini asmaqla məhdudlaşdırmaq olmaz. Nazirliyin müvəkkilləri vaxtaşırı rayonlarda olmalı, tarixi abidələrin vəziyyəti ilə maraqlanmalı, onları daim nəzarət altında saxlamalıdırlar.

Füzulidən Ağdama gedən yolun sağ tərəfində, Ağaşı Veysəlli kəndinin yaxınlığında ucalan qədim türbə qeyri-ixtiyari diqqəti cəlb edir. XIV əsrin nadir memarlıq abidəsi olan bu türbənin gözəlliyini sözlə ifadə etmək çox çətindir. O, memarlıq üslubuna görə Azərbaycanda yeganədir. Lakin bu abidə də nəzarətsizdir. Onun göyə dikələn uca minarəsinin dağılmaq təhlükəsi vardır. Son vaxtlar onun divarları «tarixdə ad qoyub getmək istəyənlərin» müxtəlif yazıları ilə kobud şəkildə cızılmış, xarab edilmişdir. Belə yazıların içərisində birisini indiyədək unuda bilmirəm. İri hərflərlə türbənin daş divarlarında qazılmış bu yazını heç cür yaddan çıxarmaq olmur:



Zdes bıli qeoloqi

1) B.Ali

2) M.Aqali

3) B.Dъamşid

Bəli, bu «xatirəni» bizim ziyalı nümayəndələrimiz qoymuşlar. Bağışlanılmalıdırmı? Yadımdadır, ilk dəfə məktəbə qədəm qoyduğum vaxtlarda, ilk dərslərdə müəllimimiz bizi başa saldı ki, kitabı cırmaq, qaralamaq, yazmaq kobud hərəkətdir, qəbahətdir, mədəniyyətsizlikdir. Bəs ulu babalarımızdan miras qalan qiymətli kitabları – abidələri xarab edənləri, onun səhifələrini cızma-qara ilə dolduranları necə adlandırmaq olar?

Maddi mədəniyyət abidələri haqqında mövcud qanunda maraqlı və eyni zamanda əhəmiyyətli məsələlərdən biri tarixi abidələrdən istifadə məsələsidir. Gizlətməyə dəyməz ki, turizmin geniş inkişafı dövründə bir sıra tarixi abidələr iqtisadi cəhətdən də böyük əhəmiyyət kəsb edir. Ümumiyyətlə, elmi və texnikanın yüksək inkişafı, geniş quruculuq işləri və mədəni əlaqələrin artması dövründə tarixi abidələrin mühafizəsi işində insan tarixi abidələrin əsiri ola bilməz. Belə şəraitdə tarixi abidələrdən yalnız səmərəli şəkildə istifadə etmək lazımdır. Bir qədər yorucu olsa da konkret nümunə üçün yenə də yaxşı tanıdığım Füzuli bölgəsindəki abidələri göstərmək istəyirəm. Məncə, müəyyən bərpa və təmir işlərindən sonra Qarğabazardakı qədim karvansaradan mədəni-kütləvi işlərdə, kənd şənliklərində geniş şəkildə istifadə etmək olar. Bu tikintinin qədim əməli vəzifəsinə uyğun burada yolüstü kiçik çayxana – qiraətxana açmaq, müəyyən vaxtlarda mədəni-maarif işçilərinin səyi ilə şeir, musiqi gecələri məclisləri keçirmək, müxtəlif sərgilər təşkil etmək mümkündür. Füzuli şəhərinin mərkəzində illərdən bəridir ki, köhnə məscid binası boşdur. Vaxtaşırı ondan idman tədbirlərində istifadə olunur. Zənnimcə, onun geniş və işıqlı zalı maddi mənəvi dəyərlərimizin təbliği üçün daha dəyərli ola bilərdi.

Günlər aylara qovuşur. İllər də başımızın üstündən ötüb keçir, bizdən uzaqlaşır, tarixə dönür. Tez-tez dönüb geriyə baxırıq. Ötüb-keçən yola nəzər salmaq insana xas olan xüsusiyyətdir. Yolumuzda zəngin və qiymətli yadigarı var. Onları özümüz üçün, gələcək nəsillərimiz üçün göz bəbəyi kimi qoruyub saxlamaq borcumuzdur.

***19 iyul, 1970-ci il «Kommunist» qəzeti.***